E. Ə. ƏLİYEV

# YOL HƏRƏKƏTİNİN BEYNƏLXALQ-HÜQUQİ TƏNZİMLƏNMƏSİ VƏ MİLLİ QANUNVERİCİLİK

***Bu monoqrafiya əsərinin ingilis dilinə tərcümə olunmasına və nəşr edilməsinə maliyyə dəstəyi göstərmiş «Bİ-Pİ Azərbaycan» şirkətinin rəhbərliyinə müəllif öz səmimi ehtiramını və təşəkkürünü bildirir.***

Azərbaycan Respublikası Təhsil Nazirliyinin 23 aprel 2003-cü il tarixli 321 №-li əmri ilə ali məktəb tələbələri üçün dərs vəsaiti kimi təsdiq edilmişdir.

«Hüquq ədəbiyyatı» nəşriyyatı
Bakı-2003

*Baş məsləhətçi* — **Z.V.Dünyamalıyev**, Azərbaycan Respublikası daxili işlər nazirinin müavini, polis general-leytenantı.

*Məsləhətçi* — **R.M.Zeynalov**, BYP və NT Baş Assambleyasının üzvü, AR NK YHTK-nın sədr müavini, Azərbaycan Respublikası DİN Baş DYP İdarəsinin rəisi, polis polkovniki.

*Elmi redaktor* — **Z.M.Qafarov**, Azərbaycan BH və BƏC-nin sədri, AR Ədliyyə Nazirliyi Beynəlxalq Hüquq Əməkdaşlığı İdarəsinin rəisi, baş ədliyyə müşaviri, hüquq elmləri namizədi

*Rəyçilər* — **R.F.Məmmədov**, Bakı Dövlət Universitetinin Beynəlxalq Hüquq və xarici ölkələrin dövlət hüququ kafedrasının müdiri, dossent, hüquq elmləri namizədi;
**E.İ.Abdullayev**, Azərbaycan Beynəlxalq Universitetinin rektoru, professor, hüquq elmləri doktoru.

*Məsul redaktor* — **S.R.Zeynalov**, Bakı Dövlət Universitetinin Beynəlxalq hüquq və beynəlxalq əlaqələr fakültəsinin dekanı, dossent, hüquq elmləri namizədi.

*Redaktorlar* — **İ.M.Əliyeva**, Dövlət Dillər Universitetinin baş müəllimi, filologiya elmləri namizədi;
**E.A.Hacıyev**, Azərbaycan Respublikası Nazirlər Kabinetinin YHT Komissiyasının məsul katibi, polis mayoru.

E (56) 2003

E (56) 2003 **Əliyev Etibar Əli oğlu.** Yol hərəkətinin beynəlxalq-hüquqi tənzimlənməsi və milli qanunvericilik. Dərs vəsaiti. "Hüquq ədəbiyyatı" nəşriyyatı, Bakı, 2003, 260 səh.

Dərs vəsaitində yol hərəkətinin beynəlxalq-hüquqi tənzimlənməsi və milli qanunvericilik məsələləri hüquqi cəhətdən araşdırılmışdır. Nəqliyyat vasitələrinin yol hərəkətində iştirakı, yol hərəkəti qaydalarının hüquqi nizama salınması və yol hərəkəti qaydalarının pozulmasına görə məsuliyyətin hüquqi aspektləri, yol hərəkəti təhlükəsizliyinin təmin edilməsinə inzibati nəzarətin həyata keçirilməsinin xüsusiyyətləri tədqiq edilmişdir.

Yol hərəkəti münasibətləri sahəsində Azərbaycanın müasir hüquq ədəbiyyatında mövcud olan boşluqların doldurulmasında bu əsərin xüsusi əhəmiyyəti vardır.

Bu kitab hüquqşünaslar, Azərbaycanda müasir nəqliyyat hüququ elminin formalaşması ilə məşğul olan şəxslər, ali məktəb tələbələri, Dövlət Yol Polisi əməkdaşları və hətta yol hərəkətinin iştirakçıları üçün nəzərdə tutulmuşdur.

$E \frac{4300050120-002}{h\ (062)-2003}$ sifarişlə

© E.Ə.Əliyev, 2003
© «Hüquq ədəbiyyatı» nəşriyyatı, 2003

# MÜNDƏRİCAT

Ön söz ........................................ 6

**I Fəsil. Yol hərəkətinin beynəlxalq və milli hüquqi əsasları**

1.1. Avtomobil anlayışı və yol hərəkətinin beynəlxalq hüquqi tənzimlənməsi ........................................ 9
1.2. Azərbaycan Respublikası ərazisində yol hərəkətinin təşkili və milli qanunvericilik ........................................ 18
1.3. Yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi ........................................ 26

**II Fəsil. Nəqliyyat vasitələrinin yol hərəkətində iştirakı**

2.1. Nəqliyyat vasitələrinin dövlət qeydiyyatına alınmasının hüquqi əsasları ........................................ 38
2.1.1. Nəqliyyat vasitələrinin dövlət qeydiyyat şəhadətnaməsi və dövlət qeydiyyat nişanları ........................................ 49
2.2. Nəqliyyat vasitələrinin yol hərəkətində iştirakının texniki təhlükəsizlik tədbirləri ........................................ 53
2.2.1. Nəqliyyat vasitələrinin təhlükəsiz hərəkətinin təmin edilməsinə nəzarətin həyata keçirilməsi ........................................ 62
2.2.2. Təhlükəli yüklərin avtomobil nəqliyyatı ilə daşınmasının bəzi xüsusiyyətləri ........................................ 66
2.2.3. Nəqliyyat vasitələrində, küçə və yollarda reklam yayılmasının qısa xarakteristikası ........................................ 74
2.2.4. Nəqliyyat vasitələrinə dövlət texniki baxışının keçirilməsi tədbirləri ........................................ 83
2.2.5. Nəqliyyat vasitələrinin saxlanılmasının hüquqi aspektləri ........................................ 91
2.3. Nəqliyyat vasitələrini idarəetmə hüququ ........................................ 97
2.3.1. Nəqliyyat vasitələri sürücülərinin hazırlanmasının xüsusiyyətləri ........................................ 104



2.3.2. Sürücülük vəsiqələrinin verilməsinin və dəyişdirilməsinin əsasları ........................................ 107

**III Fəsil. Yol hərəkəti qaydaları və məsuliyyət**

3.1. Yol hərəkəti qaydaları və onların hüquqi nizama salınması ........................................ 115
3.2. Yol hərəkəti qaydalarının pozulmasına görə məsuliyyətin hüquqi aspektləri ........................................ 133
3.3. Yol hərəkəti təhlükəsizliyinin təmin edilməsinə inzibati nəzarətin həyata keçirilməsinin bəzi xüsusiyyətləri ........................................ 150

Nəticə ........................................ 155

İstifadə edilmiş ədəbiyyat ........................................ 157

**Əlavələr**

«Yol hərəkəti haqqında» Azərbaycan Respublikası Qanunundan çıxarış ........................................ 164
Azərbaycan Respublikası Cinayət Məcəlləsindən çıxarış ........................................ 229
Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsindən çıxarış ........................................ 235

**«Yol iqtisadiyyat, mədəniyyət, bir sözlə, həyat deməkdir!»**

H.Ə.Əliyev

## ÖN SÖZ

Azərbaycan Respublikası XX əsrin sonunda öz tarixi müstəqilliyini bərpa etdikdən sonra ümumdünya dövlətlər birliyinə daxil olaraq onun tam hüquqlu üzvü kimi tanındı. Bunun nəticəsində cəmiyyətimizin bütün sahələrində olduğu kimi, yol hərəkəti münasibətlərinin təşkili sahəsində də köklü hüquqi islahatlar aparılması zərurəti meydana çıxdı.

Böyük «İpək yolu»nun bərpası, TRASEKA nəqliyyat dəhlizlərinin yaradılması, Xəzər neftinin və karbohidrogen ehtiyatlarının işlənilməsi, «Bakı-Tbilisi-Ceyhan» Əsas ixrac boru kəməri layihəsinin reallaşması (BTC Ko LTD şirkətinin yaradılması), bunlarla əlaqədar çoxlu sayda xarici şirkətlərin iş adamlarının və sahibkarların Azərbaycana axınının artması, müasir nəqliyyat təhlükəsizliyi qaydalarının bərqərar olması və digər başqa amillər göstərilən islahatların aparılmasına güclü təkan verdi.

Bütün bu göstərilən amillər nəzərə alınaraq, respublika ərazisində yol hərəkəti təşkilinin və yollarda təhlükəsizliyin təmin olunması qaydasının müasir dünya standartlarına uyğunlaşdırılması məqsədilə Azərbaycan Respublikası 1997-ci ildə «Yol hərəkəti haqqında» beynəlxalq Vyana Konvensiyasına qoşuldu. Sonra isə yol hərəkətinin təşkili sahəsində konvensiyanın prinsip və tələbləri, Birləşmiş Millətlər Təşkilatı Avropa İqtisadi Komissiyasının, Beynəlxalq Yol Hərəkəti Təşkilatının müvafiq rəy və tövsiyələri, habelə dünya dövlətləri praktikasının bu sahədəki üstünlükləri nəzərə alınaraq, 1998-ci ildə «Yol hərəkəti haqqında» Azərbaycan Respublikasının Qanunu qəbul edildi, həmçinin dövlətimiz bir sıra mühüm beynəlxalq konvensiya, saziş və müqavilələrə qoşuldu.



Beynəlxalq yol hərəkəti münasibətlərinə dövlətimizin fəal inteqrasiya prosesi çox əlamətdar haldır. Azərbaycan Respublikası Hökuməti ilə Beynəlxalq Yol Hərəkəti Təşkilatı (BYHT, Cenevrə) arasında onun missiyasının Azərbaycan ərazisində açılması (1996-cı il) çox önəmli haldır. Çünki, bu öz növbəsində, ölkə ərazisində yol hərəkətinin və müvafiq infrastrukturların təkmilləşdirilməsinə yönəldilmiş məqsəd və vəzifələrin ən səmərəli şəkildə həyata keçirilməsini təşkil etmək üçün əlverişli şərait yaradır.

O da diqqəti cəlb edir ki, nəqliyyatda təhlükəsizlik və məsuliyyət, yol hərəkəti təhlükəsizliyinin və ekoloji tələblərin təmin edilməsi və digər analoji məsələlər üzrə bu istiqamətdə dövlətimiz tərəfindən müəyyən tədbirlər həyata keçirilmişdir. Nəqliyyat fəaliyyəti prosesində əhalinin və ətraf mühitin təhlükəsizliyinə zəmanət verən hüquqi münasibətlər artıq müvafiq qanunların qəbul edilməsiylə nizama salınmışdır. Belə ki, «Nəqliyyat haqqında» Azərbaycan Respublikası Qanununun, «Avtomobil yolları haqqında» Azərbaycan Respublikası Qanununun, «Yol hərəkəti haqqında» Azərbaycan Respublikası Qanununun və digər qanunların və qanunqüvvəli aktların qəbul edilməsi buna parlaq nümunədir.

Yol hərəkətinin təhlükəsizliyinin təmin edilməsi sahəsində Azərbaycan Hökuməti səviyyəsində xüsusi komissiyanın — «Yol hərəkəti təhlükəsizliyi komissiyası»nın yaradılması xüsusi əhəmiyyət kəsb edir.

Müasir dövrdə yol hərəkətinin təşkili sahəsində elmi-texniki texnologiyanın nailiyyətlərindən, xüsusən kompüter avadanlığı texnikasından və sivil ölkələrin praktikasından istifadə olunmaqla əsaslandırılmış metod və üsulların tətbiq edilməsi, ən yeni üslubların, avadanlıqların və vasitələrin geniş tətbiqinə cəhd göstərilməsi və bu istiqamətdə müəyyən tədbirlərin həyata keçirilməsi əlamətdar haldır.

Qeyd edilməlidir ki, yol hərəkəti prosesində insanların həyatının qorunması, yol-nəqliyyat qəzalarının və onların zərərli nəticələrinin qarşısının alınması məqsədi ilə «Yol hərəkəti təhlü-

kəsizliyi üzrə Azərbaycan Respublikasının 2002-2005-ci illər üçün Dövlət Proqramı»nın təsdiq edilməsi yol hərəkətinin təhlükəsizliyi ilə bağlı perspektiv tədbirlərin və proqnozların reallaşdırılması üçün yeni fundamental baza yaradır.

Göründüyü kimi, bu əsərin məqsədi yol hərəkəti münasibətlərinin, həm beynəlxalq-hüquqi aspektlərdə, həm də milli qanunvericilik prizması baxımından araşdırılması, yol hərəkəti təhlükəsizliyinin təmin edilməsinin xarakterizə edilməsi və nəticə etibarı ilə, bu sahə üzrə Azərbaycanın müasir hüquq ədəbiyyatında mövcud olan boşluqların müəyyən mənada doldurulmasıdır.

Müəllif tərəfindən, nəqliyyat vasitələrinin yol hərəkətində iştirakının hüquqi aspektləri, yol hərəkəti qaydaları və onun hüquqi nizama salınması, yol hərəkəti qaydalarının pozulmasına görə məsuliyyətin hüquqi cəhətləri, yol hərəkəti təhlükəsizliyinin təmin edilməsinə inzibati nəzarətin həyata keçirilməsinin bəzi xüsusiyyətləri nəzəri və praktiki baxımdan araşdırılmışdır.

Kitabda əsas diqqət, yol hərəkəti münasibətlərinin müasir dövrdə hüquqi tənzimlənməsi məsələlərinə yönəldilmişdir. Monoqrafiyada Azərbaycan Respublikası ərazisində yol hərəkətinin təşkili və onun təhlükəsizliyinin daha səmərəli şəkildə təmin edilməsinin tədqiqinə xüsusi yer ayrılmışdır.

**Azərbaycan Respublikası Baş nazirinin müavini,**
**Nazirlər Kabinetinin Yol hərəkəti təhlükəsizliyi**
**Komissiyasının sədri A.Q.ŞƏRİFOV**



# I FƏSİL. YOL HƏRƏKƏTİNİN BEYNƏLXALQ VƏ MİLLİ HÜQUQİ ƏSASLARI

## 1.1. Avtomobil anlayışı və yol hərəkətinin beynəlxalq hüquqi tənzimlənməsi

Avtomobil nəqliyyatı bütövlükdə ölkənin nəqliyyat kompleksinin tərkib hissəsi olmaqla yanaşı, dövlətin iqtisadi sistemində xüsusi rol oynayır. Avtomobil nəqliyyatı və onun müxtəlif növləri malların (yüklərin) və adamların (sərnişinlərin) iki və daha artıq məntəqə arasında yerdəyişməsini təmin edir.

Mövcud hüquq ədəbiyyatında avtomobil nəqliyyat vasitəsi yüksək təhlükə mənbəyi obyektlərinə aid edildiyindən dövlət tərəfindən onun uçotu və qeydiyyatı aparılır. Bu məsələnin mahiyyətinə, azacıq da olsa, hüquqi baxımdan yanaşaq. Müxtəlif hüquq dərsliklərində* yüksək təhlükə mənbəyi anlayışına verilmiş tərifdən göründüyü kimi, yüksək təhlükə mənbəyi ətrafdakılar üçün təhlükə törədən obyektlərdir. Bu obyektlərdən istifadə (istismar) prosesində ətrafdakılara zərər (maddi, fiziki, ekoloji və s.) vurulur.

Azərbaycan Respublikasının yeni qəbul edilmiş Mülki Məcəlləsinin (1999-cu il) 1108-ci maddəsinə müvafiq olaraq avtonəqliyyat vasitələri də ətrafdakılar üçün yüksək təhlükə yaradan fəaliyyət növlərinin sırasına aid edilmişdir və belə fəaliyyət nəticəsində əmələ gələn mülki hüquq pozuntusu üçün delikt məsuliyyəti nəzərdə tutulur. Yüksək təhlükə mənbəyi növlərinin təsnifatında avtonəqliyyat vasitəsi fiziki təhlükə mənbəyi qrupunun mexaniki mənbə növünə aid edilmişdir**. Avtonəqliyyat vasitələrindən istifadə edilməsi üzrə fəaliyyətlə ətrafdakılara

---

* *Məsələn, bax:* **Allahverdiyev S.S. Azərbaycan Respublikasının Mülki Hüququ, Dərslik, II cild, Bakı, "Digesta" nəşriyyatı, 2001.**

** *Bu barədə bax:* **Красавчиков О.А. Возмешение вреда, причиненного источником повышенной опасности. М., 1966.**

vurulmuş zərərə görə delikt məsuliyyətinin subyekti kimi nəqliyyat vasitəsinin sahibi çıxış edir. Avtomobilin sahibi bu mənbəyin vurduğu zərərin əvəzini ödəməyə borcludur. Qanunvericilik zərərin əvəzini ödəmək vəzifəsini onların öhdəsinə qoyur.

Göründüyü kimi, yüksək təhlükə mənbəyi hesab edilən avtonəqliyyat vasitələrinin istismarına nəzarətin həyata keçirilməsi, onların təhlükəsiz hərəkəti üçün müvafiq yol hərəkəti qaydalarının yaradılması, hüquq pozuntularından əmələ gələn öhdəliyin təmin edilməsi, nəqliyyat vasitələrinin sahibləri haqqında müvafiq məlumatların əldə edilməsi və digər məqsədlərlə dövlət tərəfindən onların uçot və qeydiyyatının aparılması labüd bir prosesdir.

Texniki cəhətdən yanaşıldıqda avtomobil hərəkət tərkibi işçi funksiya baxımından yük, sərnişin və xüsusi təyinatlara bölünür. Avtomobillərin təsnifatı, onların müxtəlif parametrlər üzrə siniflərə bölünməsi və sairə məlumatlar müxtəlif ədəbiyyatlarda öz əksini tapmışdır*.

Avtomobil anlayışı özünün konstruktiv, istismar, istifadə və təyinat xüsusiyyətlərinə görə (məsələn, mühərrikin işçi həcmi, konstruktiv sürət və s.) digər nəqliyyat vasitələri anlayışından fərqlənir.

Avtomobil dedikdə, yollarda adamların və ya yüklərin daşınması, yaxud adam və ya yük daşıyan nəqliyyat vasitələrinin yedəyə alınması üçün istifadə edilən mexaniki nəqliyyat vasitəsi başa düşülür.

Yol hərəkəti anlayışı isə, mövcud qanunverici bazaya görə xüsusi nəzərdə tutulmuş yollarda nəqliyyat vasitələrininköməyi ilə və ya belə kömək olmadan hərəkət etmək, habelə sərnişin və yük daşınması üzrə fiziki və hüquqi şəxslərin tələbatlarını ödəmək prosesində yaranan ictimai münasibətlərin məcmusunu əhatə edir.

Bir dövlətin fiziki və ya hüquqi şəxsinə məxsus olan və başqa dövlətin ərazisinə müvəqqəti gətirilərək, orada qeydiyyata alınmayan nəqliyyat vasitəsinin iştirak etdiyi yol hərəkəti — beynəlxalq yol hərəkəti adlanır.

Müasir hüquqi nəzəriyyə nəinki nəqliyyat hüququ anlayışına, həm də avtomobil daşımaları anlayışına, onların təşkilinə və xüsusiyyətlərinə aid olan kifayət qədər təkmilləşdirilmiş normalar sisteminə malikdir. Bu normalar sistemində yol hərəkətinin təşkili, onun təhlükəsizliyinin təmin olunması, yol nişanları və işarələrinin tənzimlənməsi, yüklərin və sərnişinlərin avtomobil nəqliyyatı vasitəsilə daşınması və s. məsələlər haqqında normativ-hüquqi sənədlərin müddəaları xüsusi əhəmiyyət kəsb edir.

Avtomobil daşımalarının ilk başlanğıc dövrünə və onun inkişafının qısa xülasəsinə gəldikdə isə, təbiidir ki, o, avtomobilin meydana çıxması ilə bağlıdır. Avtomobil sənayesinin inkişafı və təkmilləşdirilməsi bu sahədə hüquqi tənzimləmə sənədlərinin, ilkin olaraq regional (Avropa) səviyyədə, qəbul edilməsi zərurətini yaratdı. Belə ki, 1926-cı ildə ilk dəfə olaraq «Avtomobil hərəkəti haqqında» və «Yol hərəkəti haqqında» beynəlxalq Paris Konvensiyaları, 1931-ci ildə isə «Eyni yol nişanlarının və işarələrinin tətbiq edilməsinə dair» beynəlxalq Cenevrə Konvensiyası qəbul olunmuşdur.

Göründüyü kimi, yol hərəkəti sahəsində müvafiq prinsip və normaların meydana çıxması və formalaşması ilə yanaşı bu sahənin beynəlxalq-hüquqi unifikasiyası da mühüm əhəmiyyət kəsb etmişdir. 1931-ci il Cenevrə Konvensiyası qəbul edildikdən sonra belə bir unifikasiya öz əsasını Yol hərəkəti haqqında digər bir Cenevrə Konvensiyasının müddəalarında, eləcə də Yol nişanları və işarələri haqqında Protokolda (1949-cu il) növbəti inkişafını və möhkəmləndirilməsini tapdı. Sadalananlar yol hərəkətinin, yol nişanlarının və işarələrinin tənzimlənməsi sahəsində ən mühüm beynəlxalq-hüquqi sənədlərdəndir və dünya miqyasında dövlətlərin iştirakını nəzərdə tutur. Bəzi məlumatla-

---

* *Məsələn, bax:* **Краткий автомобильный справочник. Отв: А.Н.Понизовкин, М., Транспорт, НИИАТ, 1982; Əliyev V.Ə., Muxtarov X.C. Avtonəqliyyat vasitələri haqqında ümumi məlumat. Bakı, "Azərbaycan" nəşriyyatı, 2001 və s.**

ra görə* 100-dən artıq dövlət bu Konvensiyanın iştirakçısıdır. Digər bir mənbədə** qeyd edilir ki, bu Konvensiya 1968-ci il redaktəsində 1977-ci ildə qüvvəyə minib.

Yol hərəkətinin beynəlxalq-hüquqi tənzimlənməsi prosesinin yeni mərhələsi 1968-ci il Vyana konvensiyalarıdır — Yol hərəkəti haqqında və Yol nişanları və işarələri haqqında, müvafiq olaraq 1977-ci il və 1978-ci ildə qüvvəyə minmişdir. Vyana Konvensiyalarının ayrı-ayrı yenilikləri arasında yol hərəkəti iştirakçılarının daha konkret və dinamik öhdəliklərini qeyd etmək olar. Məsələn, Konvensiya iştirakçısı olan dövlətin ərazisində qüvvədə olan Yol hərəkəti qaydalarının mahiyyət etibarı ilə «Yol hərəkəti haqqında» Konvensiyanın müddəalarına, tələblərinə (maddə 3, bənd 1) müvafiq olmaları üçün tədbirlər görülməsinin zəruriliyini nümunə göstərmək olar. Həmin maddənin 3-cü bəndinə görə iştirakçı dövlətlər konvensiyanın tələblərinə cavab verən avtomobillərə və qoşqulara öz ərazilərində beynəlxalq yol hərəkətində iştirak üçün icazə verməyə, həmçinin konvensiyanın müddəalarına uyğun şəkildə verilən sürücülük vəsiqələrini və qeydiyyat şəhadətnamələrini tanımağa borcludurlar.

Bununla yanaşı Konvensiyada onun özünün müvafiq tətbiq sahələri də müəyyənləşdirilmişdir. Bu sahəyə aşağıdakılar aid edilmişdir: sürücülərə verilən ümumi tələblər; yollarda hərəkət qaydaları, o cüymlədən yol vermə və ötüb keçmə qaydaları; xəbərdar etmə; avtomobil və qoşquların texniki vəziyyətinə, nömrələrinə və nişanlarına verilən tələblər; beynəlxalq yol hərəkətində iştirak edən sürücülərin qarşısına qoyulan tələblər və avtomobili idarə etmək üçün onlara vəsiqə verilməsi şərtləri; avtomobil yollarında velosipedlərdə hərəkət qaydaları.

Konvensiyanın yeni redaktəsində təsbit olunan qaydalara görə beynəlxalq yol hərəkətində istifadə edilən avtomobil, onun barəsində minimum məlumatları, qeydiyyat nömrəsini, qeydiyyat

---

* *Bax, məsələn:* **Садиков О.Н. Правовое регулирование международных перевозок. М., 1981, стр.139.**

** **Богуславски М.М. Международное частное право. М., 2000, стр. 231.**



aparan dövlətin fərqləndirici nişanını əks etdirən qeydiyat şəhadətnaməsinə, həmçinin konvensiyanın müəyyənləşdirdiyi tələblərə uyğun tanınma nişanlarına malik olmalıdır. Konvensiyanın mətninə aid daha ətraflı məlumatlar «Beynəlxalq hüquq» jurnalında geniş şəkildə şərh olunmuşdur*.

Qeyd etmək lazımdır ki, son nəticədə bu qaydalar beynəlxalq yol hərəkəti qaydalarının reqlamentləşdirilməsinin müəyyən prosedur və rəsmiyyətçiliyin asanlaşdırılması yolu ilə sadələşdirilməsinin zəruriliyindən irəli gəlmişdir.

Konvensiyanın müddəalarının Azərbaycan Respublikası da daxil olmaqla, yeni müstəqil dövlətlər üçün kifayət dərəcədə əhəmiyyətli olduğu göz önündədir. Vyana konvensiyasının müddəaları beynəlxalq yol hərəkəti qaydalarını tənzimləyən normaların daha yüksək səviyyədə işlənib hazırlanması ilə xarakterizə edilir, həm avtomobil sənayesinin inkişaf səviyyəsinə, həm də beynəlxalq avtonəqliyyat infrastrukturunun vəziyyətinə müvafiq olan daha mükəmməl görünüşə malikdir. Bu amillərin ardıcıl və artmaqda olan inkişafı bütün dövlətlərin, o cümlədən Azərbaycan Respublikasının milli qanunvericiliyi üçün prinsipial əhəmiyyətə malikdir. Bu sahədə geniş tanınmış beynəlxalq-hüquqi sənədlərin norma, prinsip və tələblərinin əks etdirilməsi ən yeni Azərbaycan qanunvericiliyinin müvəffəqiyyətlə həll etdiyi məsələdir.

Belə ki, Azərbaycan Respublikasının son 10 illikdə öz müstəqilliyini bərpa edərək ümumdünya dövlətlər birliyinə inteqrasiya olunması və beynəlxalq münasibətlərin tam hüquqlu subyekti kimi tanınması cəmiyyətin bütün sahələrində, o cümlədən yol hərəkətinin təşkili sahəsində köklü hüquqi islahatların aparılması zərurətini meydana çıxardı. Böyük «İpək yolu»nun bərpası, TRASEKA nəqliyyat dəhlizlərinin yaradılması, Xəzər neftinin və karbohidrogen ehtiyatlarının işlənilməsi və bu məhsulların dünya bazarına çıxarılması üzrə «Bakı-Tbilisi-Ceyhan» Əsas ixrac boru kəməri şirkətinin (BTC Ko LTD) yaradılması, bununla

---

*** Zeynalov R.M., Əliyev E.Ə. Yol hərəkəti haqqında Konvensiya // Beynəlxalq hüquq, Bakı, 1999-cu il, № 3.**

əlaqədar çoxlu sayda xarici şirkətlərin, iş adamlarının və sahibkarların Azərbaycana axınının artması, müasir nəqliyyat təhlükəsizliyi qaydalarının bərqərar olması və digər başqa amillər göstərilən islahatların aparılmasına güclü təkan verdi.

Bütün bu göstərilənləri nəzərə alaraq, respublika ərazisində yol hərəkəti təşkilinin və yollarda təhlükəsizliyin təmin olunması qaydasının müasir dünya standartlarına uyğunlaşdırılması məqsədilə Azərbaycan Respublikası 29 aprel 1997-ci il tarixdə «Yol hərəkəti haqqında» beynəlxalq Vyana Konvensiyasına qoşuldu. Sonra isə yol hərəkətinin təşkili sahəsində konvensiyanın prinsip və tələbləri, Birləşmiş Millətlər Təşkilatı Avropa İqtisadi Komissiyasının və Beynəlxalq Yol Hərəkəti Təşkilatının müvafiq rəy və tövsiyyələri, habelə dünya dövlətləri praktikasının bu sahədəki üstünlükləri nəzərə alınaraq «Yol hərəkəti haqqında» Azərbaycan Respublikasının müvafiq Qanunu qəbul edildi (3 iyul 1998-ci il), həmçinin dövlətimiz bir sıra digər beynəlxalq konvensiyalara, o cümlədən «Avtonəqliyyat vasitələrini idarə etmək hüququndan məhrum olunmanın beynəlxalq nəticələri haqqında» Avropa Konvensiyasına qoşuldu*.

Beynəlxalq yol hərəkəti münasibətlərinə dövlətimizin fəal inteqrasiya prosesi çox təqdirəlayiq haldır. Yol hərəkəti sahəsində əlaqələndirilmiş elmi-texniki, iqtisadi, sosial və hüquqi siyasətin aparılması məqsədilə Azərbaycan Respublikası Hökuməti ilə Beynəlxalq Yol Hərəkəti Təşkilatı — BYHT (Cenevrə) arasında onun missiyasının Azərbaycan ərazisində açılması haqqında müvafiq saziş imzalandı (14 iyun 1996-cı il) və bu saziş Azərbaycan Respublikasının 22 oktyabr 1996-cı il tarixli Qanunu ilə təsdiq edildi**.

---

* *Bu barədə bax:* **Azərbaycan Respublikasının 16 iyun 2002-ci il tarixli Qanunu.**

** **Məlumat üçün qeyd etmək lazımdır ki, BYHT Baş Assambleyasının Beşinci Növbədənkənar Sessiyasının 16 dekabr 1997-ci il tarixli 13 nömrəli qərarı ilə qəbul edilmiş dəyişiklik və əlavələrə müvafiq olaraq bu təşkilat Beynəlxalq Yol Polisi və Nəqliyyat Təşkilatı (BYPNT) adlandırılmışdır.**



Beynəlxalq Yol Polisi və Nəqliyyat Təşkilatı (BYPNT) haqqında Konvensiyanın mətni, onun bəzi müddəalarının məzmunu haqqında məlumatlar artıq müasir hüquq ədəbiyyatında öz əksini taparaq geniş şəkildə şərh olunmuşdur*.

Respublika ərazisində yol hərəkətinin təşkili və onun təhlükəsizliyinin təmin olunmasını həyata keçirən dövlət orqanının — Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Baş Dövlət Yol Polisi İdarəsinin rəhbəri BYPNT Baş Assambleyasının üzvüdür. Bu isə öz növbəsində ölkə ərazisində yol hərəkətinin və müvafiq infrastrukturların təkmilləşdirilməsinə yönəldilmiş məqsəd və vəzifələrin, habelə qərarların ən səmərəli şəkildə həyata keçirilməsini təşkil etmək üçün münbit şərait yaradır.

Nəqliyyatda təhlükəsizlik və məsuliyyət, nəqliyyatda təhlükəsizliyin və ekoloji tələblərin təmin edilməsi və digər analoji məsələlər üzrə bu istiqamətdə dövlətimiz tərəfindən artıq müəyyən tədbirlər həyata keçirilmişdir. Göstərilənləri təsdiqləmək üçün «Nəqliyyat haqqında» Azərbaycan Respublikasının Qanununa (№ 683-1Q, 11 iyun 1999-cu il), «Təkərli nəqliyyat vasitələri, təkərli nəqliyyat vasitələrində quraşdırılan və ya istifadə olunan avadanlıq və hissələrə dair qlobal texniki qaydaların müəyyənləşdirilməsi haqqında» Müqaviləyə qoşulmaq barədə Azərbaycan Respublikasının Qanununa (№ 260-11Q, 12 fevral 2002-ci il), «Təkərli nəqliyyat vasitələri, təkərli nəqliyyat vasitələrində quraşdırılan və ya itstifadə olunan avadanlıq və hissələr üçün vahid texniki qaydaların və bu qaydalar əsasında verilən razılıqların qarşılıqlı şəkildə tanınma şərtlərinin qəbul edilməsi haqqında» Müqaviləyə qoşulmaq barədə Azərbaycan Respublikasının Qanununa (№ 261-11Q, 12 fevral 2002-ci il), «Avtomobil yolları haqqında» Azərbaycan Respublikasının Qanununa (№ 778-1Q, 22 dekabr 1999-cu il), «Yol hərəkətinin təhlükəsizliyinin təmin edilməsi məsələləri haqqında» Azərbaycan

---

*** *Məsələn, bax:* **Əliyev E.Ə. Beynəlxalq nəqliyyat daşımalarının konvension təsbiti. Bakı, "Hüquq ədəbiyyatı" nəşriyyatı, 2002.**

Respublikası Nazirlər Kabinetinin Qərarına (№60, 6 aprel 1999-cu il), «Nəqliyyat vasitələrinin təhlükəsiz hərəkətinin təmin edilməsinə nəzarət Qaydalarının təsdiq edilməsi barədə» Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarına (№110, 30 iyun 2000-ci il) və digər normativ-hüquqi sənədlərə istinad etmək kifayətdir.

Nəqliyyatın fəaliyyəti prosesində ətraf mühitin və əhalinin təhlükəsizliyinə zəmanət verən, atmosfer havasının, torpaqların, suyun, bitki və heyvanlar aləminin çirklənmədən qorunmasını, təbii ehtiyatlardan səmərəli istifadəsini və istehsalını təmin edən ekoloji norma və qaydalara əməl olunması sahəsində hüquqi münasibətlərin tənzimlənməsinə «Nəqliyyat haqqında» Azərbaycan Respublikası Qanunun 22-ci maddəsində toxunulur.

«Avtomobil yolları haqqında» Azərbaycan Respublikasının Qanununda avtomobil yolu, avtomagistral anlayışları açıqlanmış (maddə 1), avtomobil yollarının təyinatı (maddə 2) və təsnifatı (II fəsil), avtomobil yolları yanında reklam və digər məlumat qurğularının yerləşdirilməsi şərtləri (maddə 19), avtomobil yollarının istifadəçilərinin hüquqları (maddə 34), avtomobil yollarının müayinəsi və diaqnostikası (maddə 37) və s. məsələlərin həlli öz hüquqi təsbitini tapmışdır. Adı çəkilən qanun Azərbaycanda avtomobil yollarının saxlanılmasının və inkişaf etdirilməsinin hüquqi və digər prinsiplərinin ümumi əsaslarını müəyyənləşdirir, həmçinin bu münasibətlərin subyektləri arasında əsas nəqliyyat münasibətlərini tənzimləyir.

Azərbaycan Respublikası ərazisində avtomobil yolları infrastrukturunun genişləndirilməsinə güclü təkan verən amillərdən biri də tarixi «İpək yolu»nun bərpası üzrə Qafqazdan keçən Avrasiya nəqliyyat dəhlizinin yaradılmasıdır. Məlum olduğu kimi, Avropa Birliyinin TASİS-TRASEKA proqramı çərçivəsində 1998-ci ildə Bakı şəhərində keçirilmiş dünyanın 32 ölkəsinin və 13 beynəlxalq təşkilatının nümayəndə heyətinin təmsil olunduğu beynəlxalq konfransda «Avropa-Qafqaz-Asiya dəhlizinin inkişafına dair beynəlxalq nəqliyyat haqqında» Əsas Çoxtərəfli Saziş imzalanmışdır. Bu Saziş Azərbaycan Respublikasının müvafiq qanunu ilə təsdiq edildikdən sonra* ölkə daxilində bu istiqamətdə müvafiq tədbirlər həyata keçirilmişdir.



Artıq geniş miqyaslı layihənin gerçəkləşdirilməsi çərçivəsində bu nəqliyyat dəhlizində həm istehsalçı, həm də tranzit ölkə kimi mərkəzi və həlledici rol oynayan Azərbaycana investisiya qoyuluşu başlanıb. Həmin investisiya, ilk növbədə, Bakı-Tibilisi magistralının tikintisinə və bərpasına yönəldilib. TRASEKA vasitəsilə göstərilən texniki yardımın həyata keçirilməsində bir sıra beynəlxalq maliyyə qurumları, məsələn, Avropa Yenidənqurma və İnkişaf Bankı, Ümumdünya Bankı, Asiya İnkişaf Bankı və digərləri çox önəmli rol oynayırlar.

TRASEKA layihəsinin həyata keçirilməsi Azərbaycanın gələcək sosial-iqtisadi inkişafına müsbət təsir göstərməklə yanaşı, respublika ərazisindəki avtomobil yollarının müasir tələblərə cavab verən səviyyədə bərpasına kömək edəcək, Xəzər dənizi və Mərkəzi Asiya regionu ölkələrinin beynəlxalq nəqliyyat sisteminə inteqrasiya edilməsində mühüm rol oynayacaqdır. Bütün bu amillər isə öz növbəsində, avtomobil yollarında hərəkətin daha tez və rahat təşkil edilməsinə, yol hərəkəti təhlükəsizliyinin daha etibarlı təmin edilməsinə əlverişli şərait yaradacaqdır.

Zənn etmək olar ki, «Yol hərəkəti haqqında» Qanunun və digər qanunların qəbul edilməsiylə yol hərəkətinin hüquqi tənzimlənməsi sahəsində səmərəli bir hüquqi rejim yaradılmışdır və yol hərəkəti təhlükəsizliyinin təmin edilməsində bu rejimin yardımçı ola biləcək rolu göz önündədir.

Çox əlamətdar haldır ki, artıq son illərdə Azərbaycan Respublikasının ərazisində yol hərəkəti münasibətləri yuxarıda adları çəkilən beynəlxalq-hüquqi sənədlərə və dövlətdaxili normativ-hüquqi aktlara uyğun şəkildə qurulmuşdur və bununla bağlı məsələlərin həlli sadalanan normativ sənədlərin müddəaları, prinsip və normaları ilə tənzimlənir.

---

* *Bu barədə bax:* **Azərbaycan Respublikasının 30 oktyabr 1998-ci il tarixli, 535-IQ nömrəli Qanunu.**

Müasir dövlətlərin ərazilərində nəqliyyat münasibətlərinin, o cümlədən yol hərəkətinin beynəlxalq-hüququ tənzimlənməsi məsələlərinin həlli beynəlxalq nəqliyyat hüququnun norma və prinsiplərindən istifadə edilməklə nizama salınır. Beynəlxalq nəqliyyat hüququ isə öz növbəsində, ümumi *hüquqi* və *xüsusi* hüquqi xarakterli münasibətləri əhatə edən beynəlxalq hüququn kompleks tərkib hissəsidir. Müasir beynəlxalq nəqliyyat hüququnun Azərbaycan Respublikasında formalaşması və səmərəli şəkildə tətbiq edilməsi məsələləri yeni nəşr olunmuş hüquq ədəbiyyatında* sanballı şəkildə səciyyələndirilmişdir.

Yol hərəkətinin beynəlxalq hüquqi tənzimlənməsinin xüsusiyyətlərindən biri də ondan ibarətdir ki, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə müəyyənləşdirilmiş qaydalar yol hərəkəti sahəsində dövlətdaxili aktlarda nəzərdə tutulanlardan fərqli olduqda beynəlxalq müqavilələrin müddəaları tətbiq edilir. Göründüyü kimi, «Yol hərəkəti haqqında» Qanunda belə bir normanın qəbul edilməsi (maddə 86) Azərbaycanın beynəlxalq yol hərəkəti münasibətlərində daha yüksək dərəcədə iştirak etmək istəyi və qarşıda duran vəzifələrin ən səmərəli şəkildə gerçəkləşdirilməsində maraqlı olması ilə əlaqədardır.

## 1.2. Azərbaycan Respublikası ərazisində yol hərəkətinin təşkili və milli qanunvericilik

Müasir dövrdə avtomobil parkının inkişafı və yollarda hərəkət intensivliyinin daim artması yol hərəkəti təhlükəsizliyi problemini mühüm dövlət əhəmiyyətli məsələ kimi ön plana çəkmişdir. Yol-nəqliyyat hadisələrinin qarşısının alınması yol hərəkətinin təşkilində əsas məsələlərdən biridir.

---

* *Бах:* **Гафаров З.М., Алиев Э.А. Применение современного международного транспортного права в Азербайджанской Республике. М., ОЛМА-ПРЕСС, 2002.**



Azərbaycan Respublikası ərazisində yol hərəkətinin təşkili, yol hərəkəti iştirakçılarının və subyektlərinin qarşılıqlı hüquqi münasibətləri, yol intizamı və mədəniyyəti yol hərəkəti haqqında qanunvericiliklə müəyyənləşdirilib.

İndiki dövrün yol hərəkəti qanunvericiliyi onunla şərtlənir ki, inzibati-amirlik, mərkəzləşdirilmiş planlı təsərrüfat dövrü üçün xarakterik olan imperativ yol hərəkəti qanunvericiliyi öz yerini müstəqil dövlətimizdə bu sahədə yeni formalaşmış hüquq sahəsinə vermişdir.

Müasir yol hərəkəti qanunvericiliyinin digər bir xüsusiyyəti ondan ibarətdir ki, yol hərəkəti münasibətlərinin əsas hissəsi xüsusi qanunlar, əsasnamələr və təlimatlarla tənzimlənir (məsələn, «Yol hərəkəti haqqında» Qanun, «Avtomobil yolları haqqında» Qanun, «Nəqliyyat haqqında» Qanun və s.). Həmin normativ aktlar yol hərəkəti və onun təhlükəsizliyi ilə bağlı məsələləri geniş təfsilatı ilə qaydaya salır.

Başqa bir xüsusiyyət isə onunla bağlıdır ki, Azərbaycan Respublikasının müvafiq qanunları qəbul edilənədək digər sahələrdə olduğu kimi, yol hərəkəti fəaliyyəti sahəsində də keçmiş SSRİ qaydaları müstəqil respublikamızın ərazisində öz hüquqi qüvvəsini saxlamışdı (bax: «Dövlət müstəqilliyi haqqında» Qanun, 4-cü maddə). Məsələn, «Yol hərəkəti haqqında» Azərbaycan Respublikasının Qanunu qəbul edilənədək (1998-ci il) respublika ərazisində sabiq SSRİ-nin «Yol hərəkəti» Qaydaları tətbiq edilirdi.

Yol hərəkəti qanunvericiliyi beynəlxalq hüquqi prinsip və *normalarından istifadə etməklə yanaşı, milli hüquq sahəsi ilə* tənzimlənir.

Yol hərəkəti fəaliyyətinin hüquqi tənzimlənməsində və nizama salınmasında inzibati hüquq sahəsi xüsusi rol oynayır. Belə ki, inzibati hüquq həm təşkilati-hakimiyyət münasibətlərini, həm də yol hərəkəti qaydalarını, habelə hərəkət qaydaları pozuntusu (inzibati xəta) törətmiş şəxslərin inzibati tənbeh olunması münasibətlərini tənzim edir.

Yol hərəkəti fəaliyyəti sahəsində əmələ gələn əmlak münasibətləri mülki hüquqla, ətraf mühitin mühafizəsi məsələləri ekoloji hüquqla və digər münasibətlər müvafiq hüquq sahələri ilə nizama salınır.

İnzibati hüquq ümumi hüquq sahəsinə, mülki hüquq isə xüsusi hüquq sahəsinə aiddir. Göründüyü kimi, yol hərəkəti münasibətləri ümumi hüquq normalarından və xüsusi hüquq normalarından istifadə olunmaqla nizama salınır və müxtəlif hüquq sahələrinin — inzibati, cinayət, mülki, ekoloji, nəqliyyat və digər hüquq sahələrinin normalarını (elementlərini, hüquqi aktlarını) kompleks şəkildə özündə birləşdirir. Məsələn, yol hərəkəti qanunvericiliyi sahəsinə aid qəbul edilmiş inzibati-hüquqi aktları, mülki-hüquqi aktları və s. misal göstərmək olar.

Beləliklə, yuxarıda göstərilən amilləri və «Yol hərəkəti haqqında» Qanunun 3-cü maddəsinin məzmununu nəzərə almaqla, yol hərəkəti qanunvericiliyinin anlayışını vermək olar. Yol hərəkəti haqqında qanunvericilik dedikdə, yol hərəkəti fəaliyyəti ilə əlaqədar münasibətləri tənzimləyən normativ-hüquqi aktların məcmusu başa düşülür.

Hal-hazırda yol hərəkəti haqqında Azərbaycan Respublikasının qanunvericilik sistemini Azərbaycan Respublikasının Konstitusiyası, «Polis haqqında» Azərbaycan Respublikasının Qanunu, «Yol hərəkəti haqqında» Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikasının Mülki Məcəlləsi, Azərbaycan Respublikasının Vergi Məcəlləsi, Azərbaycan Respublikasının Cinayət Məcəlləsi, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi, Azərbaycan Respublikasının digər qanunvericilik aktları və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq konvensiyalar, sazişlər və müqavilələr təşkil edir.

Keçmiş Sovetlər İttifaqı dövründə mövcud olan yol hərəkəti qaydalarından fərqli olaraq, müstəqil Azərbaycan dövlətində ilk dəfə olaraq qəbul edilmiş «Yol hərəkəti haqqında» Qanun yol hərəkətinin təşkilini və təhlükəsizliyinin təmin olunmasını müasir dövrdə Avropa standartlarına uyğun şəkildə həyata keçirməyə əlverişli hüquqi zəmin yaratmışdır.



«Yol hərəkəti haqqında» Azərbaycan Respublikasının Qanunu 8 fəsildən və qanuna əlavə edilmiş 7 Əlavədən ibarətdir. Qanunun I fəslində ümumi müddəalar, əsas anlayışlar (yol hərəkəti, yol hərəkətinin təşkili, yol hərəkətinin təhlükəsizliyi, nəqliyyat vasitəsi, yol-nəqliyyat hadisəsi və s.), qanunun təyinatı, yol hərəkəti sahəsində dövlətin, hüquqi və fiziki şəxslərin hüquq və vəzifələri göstərilmişdir.

Qanunun 1-ci maddəsinin 2-ci hissəsinə görə yol hərəkətinin təşkili dedikdə nəqliyyat vasitələrinin və piyadaların təhlükəsizliyini, fasiləsiz və rahat hərəkətini, optimal sürətini təmin etmək məqsədilə küçə-yol şəbəkəsində həyata keçirilən və yol hərəkətinin ayrılmaz hissəsi olan mühəndis və təşkilati tədbirlər sistemi başa düşülür.

Yollarda nəqliyyat vasitələrinin və piyadaların təhlükəsiz və rahat hərəkətini təşkil etmək məqsədi ilə kompleks tədbirlər həyata keçirilməsi, yol hərəkəti ilə bağlı insanların həyatının və sağlamlığının qorunması, ətraf mühitin, xüsusi, bələdiyyə və dövlət əmlakının mühafizəsi, yol-nəqliyyat hadisələrinin qarşısının alınması və onların ağırlıq dərəcəsinin aşağı salınması üçün tədbirlər görülməsinin hüquqi əsasları və bu sahədə dövlətin, habelə yol hərəkəti iştirakçılarının hüquqlarının və vəzifələrinin müəyyən olunması qanunun təyinatına aid edilmişdir (maddə 2).

Yol hərəkəti sahəsində dövlət siyasətini, o cümlədən vahid elmi-texniki siyasəti, habelə yol hərəkəti standartlarını müəyyən etmək və onları həyata keçirmək, yol hərəkətinin təşkili, onun təhlükəsizliyinin təmin edilməsi, ətraf mühitin mühafizəsi, yol hərəkəti qaydalarının, habelə onların pozulmasına görə məsuliyyətin müəyyənləşdirilməsi ilə bağlı qanunlar və digər normativ-hüquqi aktlar qəbul etmək, onların icrasını həyata keçirmək və digər məsələlər dövlətin vəzifələri kimi təsbit olunmuşdur (maddə 4).

Yol hərəkətinin təşkili sahəsində bu vəzifələrlə yanaşı dövlətin digər vəzifələri sırasına aşağıdakılar da aid edilmişdir:

— yol hərəkətinin təşkili üzrə ixtisaslaşdırılmış xidmətləri təşkil etmək, o cümlədən texniki vasitələrin və avtomatlaşdırılmış sistemlərin qurulmasını və istifadəsini, qəza - xilasetmə işləri görülən və kütləvi tədbirlər keçirilən yerlərdə nəqliyyat vasitələrinin və piyadaların hərəkətinin təhlükəsizliyini təmin etmək;

— avtomobil yollarının təmiri və saxlanılması ilə bağlı fəaliyyətin, yol hərəkətinin təhlükəsizliyinə təsir göstərən digər növ fəaliyyətin həyata keçirilməsi, nəqliyyat vasitələrinin təmiri və istismarı, daxili və beynəlxalq sərnişin və yük daşımaları, təhlükəli yüklərin daşınması qaydasını müəyyən etmək;

— əhaliyə yol hərəkəti qaydalarının öyrədilməsini və yol hərəkəti təhlükəsizliyinin təbliği işini təşkil etmək, yol hərəkəti təhlükəsizliyi sahəsində müəyyən olunmuş tələblərə əməl olunmasını təmin etmək;

— nəqliyyat vasitələrinin texniki vəziyyətinə nəzarət etmək, dövri texniki baxışları həyata keçirmək;

— yol hərəkətinə nəzarət funksiyalarını yerinə yetirmək məqsədilə stasionar postların siyahısını və dislokasiyasını müəyyənləşdirmək və təşkil etmək;

— hərəkət üçün ayrılmış yollara nəzarət etmək, hərəkət surətinin məhdudlaşdırıldığı zonaları müəyyənləşdirmək, orada müvafiq yol nişanları qurmaq, habelə təhlükəli yüklərin daşınması və nəqliyyat dəstələrinin şəhərlərdən və digər yaşayış məntəqələrindən keçməsini təşkil və təmin etmək və s.

Yol hərəkətinin təşkili sahəsində göstərilən vəzifələrin müvafiq icra hakimiyyəti orqanları tərəfindən həyata keçirilməsi «Yol hərəkəti haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 22 noyabr 1998-ci il tarixli, 24 nömrəli Fərmanı ilə tənzimlənir.

Fərmanda aşağıdakı əsas tənzimləyici prinsipləri ayırmaq olar:

— nazirliklərin və təşkilatların səlahiyyət hüdudlarının və çərçivəsinin dəqiq formada müəyyənləşdirilməsi;



— yol hərəkəti sahəsində nazirliklərin və təşkilatların birgə fəaliyyəti və əməkdaşlığı;

— yol hərəkəti sahəsində mövcud olan normativ hüquqi aktların «Yol hərəkəti haqqında» Qanuna uyğunlaşdırılmasıyla vahid hüquqi bazanın yaradılması.

Bu fərmanla yol hərəkətinin təşkili sahəsində Azərbaycan Hökumətinin (Nazirlər Kabineti), mərkəzi icra hakimiyyəti orqanlarının (Daxili İşlər Nazirliyi, «Azəravtoyol» Dövlət Şirkəti, «Azəravtonəqliyyat» Dövlət Konserni, Səhiyyə Nazirliyi və s.) və digər yerli icra hakimiyyəti orqanlarının səlahiyyətləri, vəzifələri və funksiyaları konkret olaraq müəyyənləşdirilmişdir. Yol hərəkətinin təşkili ilə bağlı hüquqi münasibətlərin tənzimlənməsində adı çəkilən fərmanın xüsusi əhəmiyyətə malik olmasını qeyd etmək yerinə düşərdi. Məsələn, fərmanın 1-ci maddəsiylə Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ-hüquqi aktlarının «Yol hərəkəti haqqında» Azərbaycan Respublikası Qanununa uyğunlaşdırılmasının təmin edilməsi, yol hərəkətinin təşkili sahəsində bir sıra əsasnamələrin («Nəqliyyat vasitələri sürücülərinin hazırlanması və onların ixtisasının artırılması kursları haqqında», «Mexaniki nəqliyyat vasitələrinin və onların qoşqularının müəyyən edilmiş qaydada dövlət qeydiyyatından keçirilməsi və dövlət qeydiyyatı üzrə uçota alınması haqqında», «Nəqliyyat vasitələrinə və onların qoşqularına dövlət texniki baxışının keçirilməsi qaydaları haqqında», «Nəqliyyat vasitələrinin duracaqları və qarajlar haqqında» və s.) təsdiq edilməsi, qaydaların («Yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi sahəsində dövlət uçotunan aparılması, məlumat uçotlarının istifadəsi və hesabat məlumatlarının formalaşdırılması qaydaları», «Nəqliyyat vasitəsinin özgəninkiləşdirilməsi və girov qoyulması qaydaları» və s.) müəyyən edilməsi Azərbaycan Respublikası Nazirlər Kabinetinin müstəsna səlahiyyətinə aid edilmişdir. Yol hərəkətinin təşkili ilə bağlı Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin səlahiyyətləri və vəzifələri (məsələn, «Yol hərəkəti haqqında» Qanunun 4-cü maddəsinin 24-cü bəndi, 6-cı maddəsinin 1-ci hissəsinin 6-cı

bəndi, 27-ci maddəsinin 2-ci hissəsinin 1-ci bəndi və digərləri) öz hüquqi həllini tapmışdır.

Yol hərəkətinin təşkili üzrə texniki vasitələrin və avtomatlaşdırılmış sistemlərin qurulması və istifadəsi üzrə ixtisaslaşdırılmış xidmət sahələrinin işinin təkmilləşdirilməsi istiqamətində Azərbaycan hökuməti tərəfindən müəyyən tədbirlər görülmüşdür. Belə ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 06 aprel 1994-cü il tarixli 147 nömrəli qərarı ilə müxtəlif strukturlarda fəaliyyət göstərən ixtisaslaşdırılmış quraşdırma-istismar xidmətlərinin bazasında vahid «Siqnal» ixtisaslaşdırılmış layihə-istehsalat idarəsi yaradılmışdır.

«Siqnal» İLİİ-nin fəaliyyətini tənzimləyən əsas hüquqi akt Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi tərəfindən 7 avqust 1998-ci il tarixdə təsdiq edilmiş Əsasnamədir. Əsasnamədə təsbit olunmuş başlıca vəzifələr aşağıdakılardan ibarətdir:

— büdcədən, eləcə də ərazi icra hakimiyyətlərindən ayrılmış təyinatlı vəsait müqabilində Dövlət Yol Polisi tərəfindən təsdiq olunmuş texniki idarəetmə vasitələrinin tətbiqini həyata keçirmək;

— avtomatik məlumat-axtarış sistemlərinin tətbiqi;

— qurğuların quraşdırılması və tətbiqi üzrə işlərin layihə-smeta sənədlərini hazırlayıb razılaşdırılması üçün Baş DYPİ-yə təqdim edilməsi.

Göründüyü kimi, burada əsas məqsəd yol hərəkətinin təşkili və onun təhlükəsizliyini təmin edən texniki idarəetmə vasitələrinin və avtomatik idarəetmə sistemlərinin tətbiqi işlərinin daha səmərəli və keyfiyyətlə həyata keçirilməsidir. Şübhəsiz ki, gələcəkdə elmi-texniki tərəqqinin müasir nailiyyətlərindən istifadə olunmaqla hərəkətin avtomatik idarəetmə sistemində ən yeni vasitələrin, məsələn kompüter idarəetmə avadanlığının tətbiqinə üstünlük veriləcəkdir.

Təşkilati-hüquqi və mülkiyyət formasından asılı olmayaraq Azərbaycan Respublikası ərazisində yerləşən bütün hüquqi şəxslər, o cümlədən xarici elementin iştirakı ilə yaradılmış birgə müəssisə, şirkət və digər qurumlar yol hərəkəti qaydalarının tələblərinə riayət etməyə, ətraf mühitin çirklənmədən mühafizə olunmasına, yol hərəkəti qanunvericiliyinin tələblərinə əməl olunması üzrə əmək kollektivlərində profilaktik iş aparmağa, yol-nəqliyyat hadisələrinin profilaktikası ilə bağlı tədbirlərin təşkilinə, belə tədbirlərin maliyyələşdiril-məsinə və yol hərəkəti təhlükəsizliyi ilə bağlı onlardan asılı olan digər məsələlərin həll edilməsinə borcludurlar. Həmçinin hüquqi şəxslər tərəfindən sürücülərin yol hərəkətinin təhlükəsizliyi tələblərini pozmağa hər hansı formada sövq edilməsi qadağandır.



Fiziki şəxslərin müəyyən edilmiş qaydalara müvafiq olaraq avtomobil yollarında sərbəst və maneəsiz hərəkət etmək, Dövlət Yol Polisi orqanlarından yol hərəkəti şəraiti haqqında məlumat almaq, yol-nəqliyyat hadisələri zamanı Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada pulsuz tibbi yardım və digər təcili kömək almaq və s. hüquqları, həmçinin eyni zamanda onların yol hərəkətinin təşkilinə, ətraf mühitin mühafizəsi ilə bağlı tələblərə və yol hərəkəti qaydalarına əməl etmələri, nəqliyyat vasitələrinin saz vəziyyətdə saxlanılması və digər məsələlər əsas vəzifələr kimi qanunun 6-cı maddəsində xüsusi olaraq vurğulanmışdır.

Tamamilə qanunauyğun haldır ki, yol hərəkəti haqqında Azərbaycan Respublikasının qanunvericiliyi Azərbaycan Respublikasının istisnasız olaraq bütün ərazisində qüvvədədir və bu qanunvericiliklə nəzərdə tutulmuş hüquqlar bütün ölkə ərazisində maneəsiz həyata keçirilə bilər. Göründüyü kimi qanunvericilik aktları respublika ərazisində fəaliyyət göstərən bütün fiziki və hüquqi şəxslər üçün qüvvədədir və əcnəbilərin, vətəndaşlığı olmayan şəxslərin və xarici hüquqi şəxslərin iştirak etdiyi hüquqi münasibətlərə də tətbiq olunur.

Müasir dövrdə yol hərəkətinin təşkili sahəsində elmin və texnologiyanın inkişafının nailiyyətlərindən, xüsusən kompüter avadanlığı texnikasından və sivil ölkələrin praktikasından istifadə olunmaqla əsaslandırılmış metod və üsulların tətbiq edilməsi, ən yeni iş üslublarının, avadanlıqların və vasitələrin geniş tətbiqinə cəhd göstərilməsi və bu istiqamətdə müəyyən tədbirlərin

həyata keçirilməsi əlamətdar haldır. Belə ki, yol hərəkəti prosesində insanların həyatının qorunması, yol-nəqliyyat qəzalarının və onların zərərli nəticələrinin qarşısının alınması məqsədi ilə «Yol hərəkəti təhlükəsizliyi üzrə Azərbaycan Respublikasının 2002-2005-ci illər üçün Dövlət Proqramı»nın təsdiq edilməsi* yol hərəkətinin təhlükəsizliyi ilə bağlı perspektiv tədbirlərin və proqnozların reallaşdırılması üçün yeni fundamental hüquqi baza yaradır.

### 1.3. Yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi

Müasir dövrdə yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi ümumdövlət əhəmiyyətli problemlərdən biridir və problemin ümumi həllində müvafiq dövlət orqanları, ictimai birliklər və əmək kollektivləri iştirak edirlər.

Azərbaycan Respublikasının «Təhlükəsizlik haqqında» 5 mart 1992-ci il tarixli Qanunu ilə təhlükəsizlik anlayışı şəxsiyyətin, cəmiyyətin və dövlətin daxili və s. təhlükələrdən müdafiə oluna bilməli halı kimi müəyyən edilir. Bu anlayış dövlət, ictimai, ekoloji və s. təhlükəsizlik növləri ilə yanaşı yol hərəkəti təhlükəsizliyini də əhatə edir. Təhlükəsizliyin belə geniş mənada başa düşülməsi onu təmin edən çoxsaylı orqanların və təşkilatların fəaliyyət göstərməsini, habelə təhlükəsizliyə nail olmaq məqsədilə müvafiq iqtisadi, təşkilati, ekoloji və b. xarakterli tədbirlərdən istifadə edilməsini nəzərdə tutur. Yol hərəkətinin təhlükəsizliyi anlayışının məna yükü altında yol hərəkəti iştirakçılarının və cəmiyyətin yol-nəqliyyat hadisələrindən və onların nəticələrindən müdafiə olunma dərəcəsini göstərən yol hərəkəti vəziyyəti başa düşülür.

12 noyabr 1995-ci ildə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyasında ümumi təhlükəsizlik problemlərinin həllinə dövlət tərəfindən təminat verilməsi barədə məsələlərə toxunulması çox önəmli haldır. Təhlükə potensiallı obyektlərin təhlükəsiz istismarının hüquqi, iqtisadi və sosial əsasları «Texniki təhlükəsizlik haqqında» Azərbaycan Respublikasının Qanunu* ilə müəyyənləşdirilib. Həmçinin belə obyektləri istismar edən hüquqi və fiziki şəxslərin bu obyektlərdə baş verə biləcək qəzaların qarşısını almağa və baş vermiş qəzaların nəticələrini aradan qaldırmağa yönələn fəaliyyəti də bu Qanunla tənzimlənir.

Təhlükəsizliyin, o cümlədən də yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi üzrə funksiyaların bilavasitə yerinə yetirilməsi üçün dövlət tərəfindən müvafiq orqanlar yaradılmışdır. Yol hərəkətinin təhlükəsizliyinə dair dövlət nəzarəti Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin xüsusi aparatına — Dövlət Yol Polisinə həvalə edilmişdir. Bu xidmət sahəsinin fəaliyyətini tənzimləyən əsas hüquqi akt onun Əsasnaməsidir.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi DYP Baş İdarəsinin başçılıq etdiyi DYP orqanlarının Əsasnamədə təsbit olunduğu kimi başlıca vəzifəsi nazirliklər, idarə, təşkilat və müəssisələr, ictimai birliklər, vəzifəli şəxslər və vətəndaşlar tərəfindən yol hərəkətinin təhlükəsizliyinin təmin edilməsi sahəsində qaydalara, normalara və standartlara əməl olunmasını təmin etməkdən ibarətdir.

Yol hərəkətinin təhlükəsizliyi sahəsində dövlət nəzarət orqanı olmaq etibarı ilə Dövlət Yol Polisinə müvafiq funksiyalar həvalə edilmişdir. Onların əsasları aşağıdakılardır:

- yol hərəkəti, yolları, yol qurğularının layihələşdirilməsi, tikintisi, yenidən qurulması və təmiri, saxlanması, yol hərəkətinin tənzimlənməsi üçün texniki vasitələrin quraşdırılması və istismarı ilə bağlı normativ aktlara, qaydalara, standartlara, normalara əməl edilməsinə nəzarət;
- avtonəqliyyat vasitələrinin qeydiyyatı və onlara texniki baxış;

* **Bu dövlət Proqramı Azərbaycan Respulikası Nazirlər Kabinetinin Yol Hərəkəti Təhlükəsizliyi Komissiyasının 20 may 2002-ci il tarixli, 2 nömrəli sərəncamı ilə təsdiq edilmişdir.**

* **Bu Qanun 2 noyabr 1999-cu il tarixdə qəbul edilmişdir.**

— yol hərəkəti qaydalarının pozulmasının qarşısının alınması və belə halların aradan qaldırılması;
— yol-nəqliyyat hadisələrinə qarşı mübarizə və bu hadisələrin qeydiyyatı;
— avtonəqliyyat vasitələrini idarəetmə hüququ vermək üçün imtahanların təşkili və keçirilməsi;
— Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin struktur bölməsi olmaq etibarilə Dövlət Yol Polisi öz səlahiyyəti çərçivəsində ictimai asayişin qorunmasında, ictimai təhlükəsizliyin təmin olunmasında iştirak edir, hüquq pozuntularına qarşı mübarizə aparır, yol hərəkəti sahəsində törədilmiş cinayətlərə dair işlər üzrə təhqiqat və hüquqpozmalara dair müvafiq kateqoriyalı işlər üzrə icraatı həyata keçirir;
— yol, yol qurğuları tikintisinə, şəhər elektrik nəqliyyatı xətləri çəkilməsinə dair layihələr yol hərəkətinin təhlükəsizliyini təmin etmək baxımından Dövlət Yol Polisi orqanları ilə razılaşdırılmalıdır;
— Dövlət Yol Polisinin profilaktika işi mühüm əhəmiyyət kəsb edərək aşağıdakıları əhatə edir: yol hərəkəti sahəsində qüvvədə olan normativ aktların təbliği və izahı, müsabiqələr, baxışlar keçirilməsi və i.a.; müvafiq nazirliklər, baş idarələr, müəssisələr, elmi təşkilatlarla birlikdə yol hərəkətinin təhlükəsizliyi məsələləri üzrə təkliflər hazırlanması;
— yol-nəqliyyat hadisələri törədilməsinə imkan yaradan səbəblərin və şəraitin aşkara çıxarılması;
— öz vəzifə və funksiyalarını yerinə yetirmək üçün Dövlət Yol Polisinə idarə fövqü xarakterli dövlət-hakimiyyət səlahiyyətləri verilmişdir. Həmin səlahiyyətlərə uyğun olaraq o, ictimai nəqliyyatın hərəkət marşrutlarının açılması üçün rəylər verir;
— vəzifəli şəxslərdən, idarə mənsubiyyətindən və mülkiyyət formalarından asılı olmayaraq müəssisə, idarə və təşkilatlardan onların yol hərəkəti təhlükəsizliyini təmin etmək



sahəsində qüvvədə olan normativlərə, qaydalara və standartlara əməl etmədiklərinə dair məlumatlar alır. Həmin normativlər, qaydalar və standartlar pozulduğu hallarda Dövlət Yol Polisi vəzifəli şəxslərə və vətəndaşlara yol hərəkəti təhlükəsizliyinin təmin edilməsinə aid pozuntuları aradan qaldırmaq barədə, icrası məcburi olan göstərişlər verir.

Kütləvi tədbirlər keçirilərkən, habelə yollardan və küçələrdən istifadə edilməsi yol hərəkəti üçün təhlükə törədə biləcəyi hallarda Dövlət Yol Polisinin vəzifəli şəxsləri yolların ayrı-ayrı hissələrində və küçələrdə yol hərəkətini müvəqqəti olaraq məhdudlaşdıra və yaxud dayandıra bilərlər.

Avtonəqliyyat vasitələrinə dövlət texniki baxışı həyata keçirilərkən Dövlət Yol Polisi qüvvədə olan standartlar pozulmaqla hazırlanmış və ya yeni avadanlıqla təchiz edilmiş, konstruksiyası və ya texniki vəziyyəti texniki normalara uyğun gəlməyən avtonəqliyyat vasitələrinin istismarını qadağan edir.

Dövlət Yol Polisi əməkdaşları yol hərəkəti sahəsində inzibati xətaların profilaktikası və qarşısının alınması məqsədilə nəqliyyat vasitələrini dayandırmaq və müvafiq sənədləri yoxlamaq hüququna malikdirlər. Həm də bu zaman onlar, qanunla müəyyənləşdirilmiş hallarda nəqliyyata, yüklərə baxış keçirə, vətəndaşları yoxlaya bilərlər;

Sərxoş vəziyyətdə olan, yaxud nəqliyyat vasitələrini idarə etmək və ya onlardan istifadə hüququ üçün sənədləri olmayan şəxsləri Dövlət Yol Polisi əməkdaşları həmin nəqliyyat vasitələrini idarə etməkdən kənarlaşdıra bilərlər.

Dövlət Yol Polisi əməkdaşlarına yol hərəkəti sahəsində inzibati xəta törətmiş şəxsləri inzibati qaydada yaxalayıb saxlamaq, bu barədə müvafiq protokollar tərtib etmək və onlara qarşı inzibati tənbeh tədbirləri tətbiq etmək hüququ verilmişdir.

Dövlət Yol Polisi öz fəaliyyətini Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin digər bölmələri, hərbi avtomobil müfəttişliyi, dövlət hakimiyyəti, yerli özünüidarə orqanları, müəssisə, idarə və təşkilatlarla, əmək kollektivləri ilə və vətəndaşlarla qarşılıqlı əlaqədə həyata keçirir.

Fikrimizcə, cəmiyyətdə mövcud olan hər hansı ictimai münasibətlərdə vətəndaşların, cəmiyyətin və dövlətin təhlükəsizliyinin təmin edilməsi üç əsas amillə-ictimai münasibətlərin nizama salınma səviyyəsi, subyektlərin şüur səviyyəsi və belə münasibətlərdəki obyekt və predmetlərin yararlı olması ilə bağlıdır.

Yol hərəkətinin təhlükəsizliyi anlayışının mənasına diqqət yetirsək, təhlükəsizlik səviyyəsinin birbaşa yol hərəkətinin vəziyyəti elementindən asılı olmasını görərik. Eyni zamanda, yol hərəkətinin təhlükəsizliyini şərtləndirən digər amillər—yol hərəkəti münasibətlərinin daşıyıcıları qismində yol hərəkəti iştirakçısı (sürücü, piyada, sərnişin və s.) və bu fəaliyyət növündə çıxış edən predmet (nəqliyyat vasitəsi) xüsusilə nəzərə alınmalıdır.

Beləliklə, yol hərəkətinin təhlükəsizliyinin təmin olunmasında 3 vacib elementi ayırmaq olar:

— yol hərəkətinin rahat və əlverişli şəkildə nizama salınması, yəni müvafiq yol hərəkəti mühitinin yaradılması;
— yol hərəkəti iştirakçılarının müvafiq şüur səviyyəsinə malik olması, onlarda yol hərəkəti üzrə lazımi hüquqi biliyin aşılanması;
— yol hərəkəti prosesində istifadə edilən nəqliyyat vasitələrinin texniki sazlıq səviyyəsinin artırılması, onların vəziyyətinin texniki təhlükəsizlik tələblərinə, normalarına uyğun olması.

Yol hərəkətinin təhlükəsizliyi üzrə bütöv bir sistemin səmərəli işinin etibarlılığı məhz bu 3 elementlə üzvi surətdə əlaqəlidir.

Bu elementlərin hər biri haqqında sonrakı fəsillərdə ətraflı şəkildə söhbət açacağıq.

Son illərdə nəqliyyat infrastrukturunun genişlənməsi və respublika ərazisində avtonəqliyyat vasitələrinin sayının artması yol hərəkəti təhlükəsizliyinin təmin olunması məsələsinin sosial-iqtisadi əhəmiyyətini daimi diqqət mərkəzinə çəkir. Bu məsələnin həlli səviyyəsi son nəticədə müəyyən olunmuş yol hərəkəti qaydalarına riayət olunması, yol hərəkəti sahəsində hüquqi münasibətləri reqlamentləşdirən normativ sənədlərin işləmə mexanizminin səmərəliyi və yol hərəkəti iştirakçılarının hüquqi



mədəniyyəti (belə adlandırmaq mümkün olarsa «yol mədəniyyəti») səviyyəsindən daha çox asılıdır. Şübhəsiz ki, bu məsələnin həllində Dövlət Yol Polisi əməkdaşlarının aktiv hüquq-mühafizə fəaliyyətini nəzərdən qaçırmaq olmaz. Söhbət ondan gedir ki, yol hərəkəti təhlükəsizliyinin təmin olunması məsələsinin həllində «yol-nəqliyyat intizamı» və «xidməti borc» elementləri əsas amil kimi qiymətləndirilməlidir.

Yeri gəlmişkən, söhbət yol hərəkəti iştirakçılarında yol mədəniyyətinin formalaşmasından gedirsə, qeyd etmək lazımdır ki, əhaliyə yol hərəkəti qaydalarının öyrədilməsi və ya yol hərəkəti təhlükəsizliyinin təbliği yol hərəkəti sahəsində dövlətin əsas vəzifələri qismində müəyyənləşdirilmişdir.

Aydındır ki, yol hərəkətinin təhlükəsizliyi problemlərinin həllinin vacibliyi ictimaiyyət tərəfindən lazımi səviyyədə dərk edilməzsə, cəmiyyətin davamlı inkişafı təhlükə altına düşə bilər. Bununla əlaqədar əhalinin, o cümlədən gənc nəslin yol hərəkəti təhsili və tərbiyəsi xüsusi əhəmiyyət kəsb edir. Məhz belə təhsil və tərbiyə sistemi vasitəsilə, cəmiyyətimizin gələcəyi hesab etdiyimiz fərdlərdə, yəni uşaqlarda, yeniyetmələrdə və gənclərdə yol hərkəti düşüncə tərzi və mədəniyyət, bu cəhətdən məqsədyönlü fəaliyyət qabiliyyəti formalaşdırmaq mümkündür.

Ona görə, gənc nəsil üçün yol mədəniyyətinin formalaşdırılmasının əsas istiqamətləri kimi aşağıdakılar xüsusilə əhəmiyyətlidir:

**a)** ibtidai siniflərdən başlayaraq ümumtəhsil məktəblərində yol hərəkəti qaydalarının tədris olunması;
**b)** yol hərəkəti üzrə müxtəlif tədbirlərin-gecələrin, viktorinaların, konfransların, seminarların, dəyirmi masaların, turnirlərin, breynrinqlərin və s. keçirilməsi;
**c)** alimlərin rəhbərliyi ilə elmi-tədqiqat, təcrübə işlərinin aparılması, monitorinqlərin və müxtəlif müşahidələrin təşkili.

Bu baxımdan, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Baş Dövlət Yol Polisi İdarəsinin həyata keçirdiyi müxtəlif təd-

birlər, ümumtəhsil məktəbləri üçün hazırladığı tədris vəsaitləri* təqdirəlayiqdir.

Artıq müstəqil Azərbaycan Respublikasında yol hərəkətinin təhlükəsizliyi öz məzmun etibarı ilə ümumi təhlükəsizlik (sosial-iqtisadi təhlükəsizlik) konsepsiyasının tərkib hissəsi kimi formalaşmışdır və onun təmin edilməsi məsələsi müasir hüququn ən aktual problemlərindən biri olduğunu vurğulamaq mümkündür.

İstənilən təhlükəsizlik növü üçün olduğu kimi yol hərəkəti ilə bağlı olan nəqliyyat təhlükəsizliyi üçün də ən əsas insan həyatının üstünlüyü məsələsidir.

Yol hərəkətinin təşkilinə aidiyyəti olan əsas prinsiplərdən biri təhlükəsizliyin təmin olunması prinsipidir. Yol hərəkətinin təhlükəsizliyi müasir dövrdə milli nəqliyyat hüququnun ən əsas meyar, amil və əsaslarından biridir. Praktiki baxımdan bu o deməkdir ki, belə bir təhlükəsizlik səviyyəsi təmin olunmadan yol hərəkəti təşkilinin hər hansı bir formasından söhbət belə gedə bilməz.

Nəqliyyat təhlükəsizliyi təkcə hüquqi vasitə və tədbirlərlə deyil, həm də yol hərəkəti prosesində istənilən əməliyyatların hüquqi tənzimlənmə səviyyəsi ilə təmin edilməlidir. Bu zaman ətraf mühitin əlverişli durumuna zərər vurulmamalı, hər hansı bir subyektin mənafelərinə ciddi ziyan dəyməsi və ya mənfi nəticələrin meydana çıxması imkanına yol verilməməli və belə bir imkan istisna edilməlidir.

Beləliklə, yol hərəkəti təhlükəsizliyinin təmin edilməsinin ümumi prinsip və hüquqi normaları «Yol hərəkəti haqqında» Azərbaycan Respublikasının Qanununda öz əksini tapmış və bu məqsədlə həyata keçirilən zəruri tədbirlərin xarakteri də müəyyənləşdirilmişdir. Yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi sahəsində Azərbaycan Hökuməti səviyyəsində xüsusi komissi-

* *Məsələn, bax:* **"Yol hərəkəti əlifbası", Bakı, 2000; "Yol hərəkəti qaydaları", Bakı, 2001; "Piyada hərəkət iştirakçısıdır", Bakı, 2002 və s.**



yanın yaradılması çox mühüm əhəmiyyətə malikdir*.

«Yol hərəkəti haqqında» Azərbaycan Respublikası Qanununun 7-ci maddəsinin 1-ci hissəsində yol hərəkəti təhlükəsizliyinin təmin edilməsinin başlıca prinsipləri belə nəzərdə tutulmuşdur:

— yol hərəkətində iştirak edən insanların həyatının və sağlamlığının təsərrüfat fəaliyyətinin iqtisadi nəticələrindən üstünlüyü;

— yol hərəkəti təhlükəsizliyinin təmin edilməsinə görə dövlətin məsuliyyətinin yol hərəkətində iştirak edən insanların məsuliyyətindən üstünlüyü;

— yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi zamanı insanların, cəmiyyətin və dövlətin mənafelərinə əməl olunması;

— yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi ilə bağlı fəaliyyətə məqsədyönlü və kompleks yanaşma.

Həmçinin həmin maddənin II hissəsində yol hərəkəti təhlükəsizliyinin təmin edilməsinin əsas istiqamətləri müəyyənləşdirilmişdir. Bunların sırasına aşağıdakılar aiddir:

— yol hərəkətinin təşkilində yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi;

— yol hərəkəti təhlükəsizliyi sahəsində Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin səlahiyyətlərinin və məsuliyyətlərinin müəyyən edilməsi;

— yol hərəkəti təhlükəsizliyinə dair qaydaların, standartların, texniki normaların və digər normativ sənədlərin Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada işlənib hazırlanması və onların təsdiq edilməsi;

*** "Yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi üzrə respublika komissiyası haqqında" Əsasnamə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 19 fevral 1993-cü il tarixli, 110 nömrəli qərarı ilə təsdiq edilmişdir. "Yol hərəkəti haqqında" qanun qəbul edildikdən sonra bu komissiyanın adı Azərbaycan Respublikası Nazirlər Kabinetinin 11 avqust 1999-cu il tarixli, 128 nömrəli qərarı ilə dəyişdirilərək "Azərbaycan Respublikası Nazirlər Kabinetinin Yol hərəkəti təhlükəsizliyi" adlandırılmışdır.**

— avtomobil yollarında yol hərəkəti üçün sərfəli və rahat şəraitin yaradılması;
— avtomobil, şəhər yerüstü elektrik nəqliyyatının və yol təsərrüfatı fəaliyyətinin nizama salınması;
— nəqliyyat vasitələrinin yol hərəkətinə buraxılması;
— yol hərəkətinin nizama salınması;
— nəqliyyat vasitələri sürücülərinin hazırlanmasının və ixtisasının artırılmasının təşkili;
— yollarda təhlükəsiz davranma qaydalarının vətəndaşalara öyrədilməsi;
— yol hərəkəti təhlükəsizliyinin tibbi təminatı ilə bağlı kompleks tədbirlərin həyata keçirilməsi;
— ətraf mühitin mühafizəsi;
— yol hərəkəti təhlükəsizliyi tədbirəlirinin maddi və maliyyə təminatı;
— yol-nəqliyyat hadisələrinin qarşısının alınması və onların nəticələrinin ağırlığını azaltmaq məqsədilə Azərbaycan Respublikası nazirliklərinin, dövlət komitələrinin, dövlət şirkətlərinin, baş idarələrinin və yerli icra hakimiyyəti orqanlarının fəaliyyətinin əlaqələndirilməsi;
— yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi sahəsində Azərbaycan Respublikası qanunvericiliyinin və müvafiq qaydaların, standartların, texniki normaların və digər normativ sənədlərin tələblərinin yerinə yetirilməsinə dövlət nəzarətinin həyata keçirilməsi.

Belə bir müddəa və xüsusi norma da çox önəmlidir ki, yol hərəkəti təhlükəsizliyi respublika ərazisində qüvvədə olan standartlarda və yol hərəkətinin təşkili ilə bağlı layihə və sxemlərdə nəzərdə tutulan texniki vasitələrdən, konstruksiyalardan kompleks şəkildə istifadə olunması əsasında təşkil edilməlidir. Yol hərəkətinin təhlükəsizliyi üçün real qorxu mövcud olan təcili hallarda nəqliyyat vasitələrinin və piyadalırın hərəkətinin təşkilində dəyişikliklər edilməsi müstəsna olaraq Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin səlahiyyətinə aid edilmişdir (maddə 8).



Avtomobil yollarının layihələşdirilməsi, tikintisi, yenidən qurulması və təmiri zamanı, həmçinin avtomobil yollarının saxlanılması və abadlaşdırılması zamanı, küçələrin, meydanların və dəmir yol keçidlərinin tikilməsi, saxlanılması və istifadə olunması zamanı yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi haqqında xüsusi hüquqi normalar qanunda öz ifadəsini tapmışdır (maddə 9, 10, 13).

Yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi məsələlərində avtomobil yollarından istifadə olunması prosesi və bu zaman tətbiq edilən normalar xüsusi maraq doğurur. Belə ki, Qanunun 11-ci maddəsi ilə belə bir müddəa nəzərdə tutulmuşdur ki, Azərbaycan Respublikasının ərazisində olan bütün hüquqi və fiziki şəxslər bu maddənin tələbələrinə riayət etməklə avtomobil yollarından istifadə edə bilərlər. Avtomobil yollarında yalnız dövlət qeydiyyatından keçmiş, texniki cəhətdən saz vəziyyətdə olan nəqliyyat vasitələrinin hərəkətinə yol verilir. Nəqliyyat vasitələrinin ancaq yolun hərəkət hissəsində hərəkət etmələri nəzərdə tutulmuşdur.

Qeyd olunanlarla yanaşı, avtomobil yollarında və təhkim zolağında qadağan olunan aşağıdakı hallar da müəyyənləşdirilmişdir:
— örtüyü təkmilləşdirilmiş yollarda tırtıllı yaxud metal tikanlı şinləri olan nəqliyyat vasitələrinin hərəkəti (dolayı yollar olmadıqda, onların körpülərdən, bəndlərdən, bataqlıq yerlərdən keçən yol sahələrindən hərəkəti, yol örtüklərinin zədələnməməsi şərti ilə, yollara xidmət edən yol təsərrüfatı müəssisələrinin yazılı icazəsi ilə həyata keçirilə bilər);
— yolların və ya yol qurğularının kənar predmetlərlə zibillənməsi, yaxud tutulması, yolda kənd təsərrüfatı məhsullarının qurudulması, zibil və qar yığınlarının yaradılması;
— yolların hərəkət hissəsində yanacaq-sürtgü materiallarının, kimyəvi maddələrin, bitumun axmasının mümkünlüyü ilə bağlı işlərin görülməsi, habelə yük vurulub-boşaldılması;
— yollarda qum və çınqıl çıxarılması;
— xüsusi olaraq buna uyğunlaşdırılmamış körpülərin altından taxta-şalban axıdılması;

— mal-qaranın otarılması, habelə onların yolun müəyyən edilməmiş və uyğunlaşdırılmamış yerlərindən keçirilməsi;
— üzən nəqliyyat vasitələrinin körpü dayaqlarına yan alması, körpülərin altında qayıq stansiyalarının, digər qurğuların yerləşdirilməsi;
— torpaqların şumlanması, yaşıllığın qırılması;
— kütləvi istirahət yerlərinin təşkil edilməsi;
— kanalizasiya, sənaye və çirkli suların axıdılması;
— yolu və təhkim zolağını zibilləyə bilən materialların və yüklərin müvafiq qaydada qablaşdırılmadan aparılması;
— müəyyənləşdirilməmiş yerlərdə yola girmə və yoldan çıxma.

Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi ilə razılaşdırmadan avtomobil yollarında və nəzarət edilən zonalarda qadağan olunan halları Qanunun 11-ci maddəsinin V hissəsi ehtiva edir. Həmçinin, 11-ci maddənin VI hissəsindəki müddəaya müvafiq olaraq tırtıllı, uzun ölçülü, iri qabaritli, ağır çəkili və ya təhlükəli yükləri daşıyan nəqliyyat vasitələrinin avtomobil yollarından istifadə qaydası Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi tərəfindən müəyyən olunur.

Yol hərəkətinin müvəqqəti məhdudlaşdırılmasına və ya qadağan edilməsinə yalnız aşağıdakı hallarda yol verilir:
— yollarda təmir və ya abadlaşdırma işləri görüldükdə;
— təbii fəlakət, qəza və ya digər fövqəladə hadisə baş verdikdə;
— yol hərəkətinin təhlükəsizliyi, insanların həyatı və ya əmlakı üçün təhlükə yarandıqda;
— hava-iqlim şəraiti xeyli pisləşdikdə;
— qanunvericiliklə müəyyən edilmiş hallarda kütləvi tədbirlər həyata keçirildikdə.

Yol hərəkətinin müvəqqəti məhdudlaşdırılması və ya qadağan edilməsi haqqında qərar, yolun mənsubiyyətindən asılı olaraq, Azərbaycan Respublikası Nazirlər Kabinetinin yol hərəkəti təhlükəsizliyi komissiyası və ya özəl yolun sahibi tərəfindən qəbul edilir. Qəbul edilmiş qərar barədə məlumat təxirəsalınma-



dan dövlət orqanlarının və əhalinin nəzərinə çatdırılır və dolayı yol ilə yol hərəkətinin müvəqqəti təşkil edilməsinə dair tədbirlər həyata keçirilir. Yol hərəkətinin müvəqqəti məhdudlaşdırılması və ya qadağan edilməsi zamanı təhlükəsizlik problemlərinin həlli barədə müvafiq müddəalar qanunun 12-ci maddəsində təsbit olunmuşdur.

Yuxarıda qeyd etdiyimiz kimi, yol hərəkəti təhlükəsizliyinin təmin edilməsində yol hərəkəti iştirakçılarının yol mədəniyyəti, hüquqi bilik səviyyəsi vacib elementlərdən biridir. Bu məqsədlə qanunverici, yollarda təhlükəsiz davranma qaydalarının vətəndaşlara məktəbəqədər, ümumtəhsil, xüsusi təhsil və digər müəssisələrdə nümunəvi proqramlar və metodik tövsiyyələr əsasında öyrədilməsini və bu işlərdə kütləvi informasiya vasitələrindən (qəzet, jurnal, televiziya, radio və s.) istifadə edilməsini xüsusi olaraq vurğulayır (maddə 18).

Yol hərəkəti təhlükəsizliyinin tibbi təminatı və ətraf mühitin mühafizəsi məsələləri də qanunda müəyyən normalarla (müvafiq olaraq maddə 19-20, maddə 21) tənzimlənir.

Respublika ərazisində yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi sahəsində vahid dövlət siyasətinin həyata keçirilməsi birinci dərəcəli əhəmiyyətə malik olan məsələlərdən biri kimi qiymətləndirilərək Qanunun 22-ci maddəsində öz ifadəsini tapmışdır. Bu məqsədlə yol-nəqliyyat hadisələrinin qarşısının alınması, bu hadisələr nəticəsində dəyən zərərin azaldılmasına yönəldilmiş dövlət və yerli əhəmiyyətli proqramların konkret regional sosial-iqtisadi göstəricilər, ekoloji şərait, yol şəbəkəsinin inkişaf səviyyəsi və digər amillər nəzərə alınmaqla işlənib hazırlanması önəmli əhəmiyyətə malikdir.

Yolların inkişafı və genişləndirilməsi, yol hərəkəti təşkilinin müasir tələblərə və yeniliklərə uyğun olaraq təkmilləşdirilməsi, müəyyən dövr üçün proqnozların hazırlanması və sairə məsələlərin yol hərəkəti təhlükəsizliyinin təmin olunması proqramına daxil edilməsi təhlükəsizlik məsələlərinin həllində əsas prinsip kimi mühüm rol oynayaraq onun təmin olunmasına daha əlverişli şərait yaradır.

# II FƏSİL. NƏQLİYYAT VASİTƏLƏRİNİN YOL HƏRƏKƏTİNDƏ İŞTİRAKI

## 2.1. Nəqliyyat vasitələrinin dövlət qeydiyyatına alınmasının hüquqi əsasları

Azərbaycan Respublikası ərazisində nəqliyyat vasitələrinin yol hərəkətində iştirak etməyə buraxılmasının əsas şərtlərindən biri onların dövlət qeydiyyatına alınması, dövlət qeydiyyat nişanları və qeydiyyat şəhadətnaməsi ilə təmin olunmasıdır.

Müstəqillik, demokratiya, özünü idarəetmə, özünümaliyyələşdirmə və s. prinsiplər əsasında cəmiyyətimizdə aparılmış hüquqi islahatlar nəticəsində meydana çıxmış yeni iqtisadi münasibətlər, mülkiyyət formaları, fiziki və hüquqi şəxslərin müasir qanunvericiliklə müəyyənləşdirilmiş hüquqi statusları və digər amillər nəzərə alınmaqla nəqliyyat vasitələrinin dövlət qeydiyyatı üçün kifayət dərəcədə normativ-hüquqi baza yaradılmışdır.

Qeyd etmək olar ki, nəqliyyat vasitələrinin uçot və qeydiyyat işinin hüquqi tənzimlənməsi qəbul edilmiş «Polis haqqında» Azərbaycan Respublikasının Qanununda, «Yol hərəkəti haqqında» Azərbaycan Respublikasının Qanununda, «Yol hərəkəti haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 22 noyabr tarixli, 24 nömrəli Fərmanında, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 15 mart tarixli, 39 nömrəli Qərarında, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi tərəfindən 14 iyun 1999-cu il tarixdə təsdiq edilmiş və Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyata alınmış Təlimatlarda (şəhadətnamə № 165, 166-17.06.1999-cu il) və digər normativ-hüquqi aktlarda öz dolğun və məzmunlu əksini tapmışdır.

Bu sahədə formalaşmış müasir normativ-hüquqi sənədləri təhlil edərkən belə qənaətə gəlmək olar ki, nəqliyyat vasitələrinin uçot və qeydiyyat işində keçmiş postsovet dövründə mövcud



olan maneə və əngəllər — avtomobillərinin sayı 9-dan aşağı olan hüquqi şəxslərin adına avtonəqliyyat vasitəsinin qeydiyyatının qadağan olunması, fiziki şəxslərin mülkiyyətinə xüsusi kateqoriyadan olan nəqliyyat vasitələrinin (QAZ-13, ZİL-111, ZİL-114 və s.), avtobus və taksi minik avtomobillərinin qeydiyyatına yol verilməməsi, nəqliyyat vasitələrinin qeydiyyatı zamanı onların sahiblərinin məcburi olaraq müəyyən dövlət orqanlarına (rayon hərbi komissarlığı, dağtexnəzarət və s.) göndərilməsi və digər məhdudiyyətlər tamamilə aradan qaldırılmış və nəqliyyat vasitələrinin sahibləri ilə onların qeyldiyyatını aparan dövlət orqanları arasındakı münasibətlər yeniləşdirilmiş müasir normativ-hüquqi baza ilə tənzimlənir.

Artıq son illərdə respublika ərazisində mexaniki nəqliyyat vasitələri və onların qoşquları «Yol hərəkəti haqqında». Qanunla və ona uyğun olaraq Azərbaycan hökuməti tərəfindən qəbul edilmiş «Mexaniki nəqliyyat vasitələrinin və onların qoşqularının müəyyən edilmiş qaydada dövlət qeydiyyatından keçirilməsi və dövlət qeydiyyatı üzrə uçota alınması haqqında» Əsasnamə (bundan sonra bu paraqrafda «Əsasnamə» adlandırılacaq) ilə müəyyən edilmiş qaydada dövlət qeydiyyatından keçirilərək uçota alınırlar.

«Yol hərəkəti haqqında» Qanunun 27-ci maddəsində nəqliyyat vasitələrinin dövlət qeydiyyatının aparılmasının məqsədləri belə açıqlanmışdır:

- nəqliyyat vasitələrinin konstruksiyasının, texniki vəziyyətinin və avadanlığının qəbul olunmuş təhlükəsizlik qaydalarına uyğun olması;
- nəqliyyat vasitələrinin istifadə olunması və ya çıxdaş edilməsi zamanı uçot göstəricilərində müvafiq dəyişikliklərin aparılması;
- nəqliyyat vasitələrinin hərbi mükəlləfiyyətinin müəyyən olunması;
- nəqliyyat vasitələri sahibləri tərəfindən rüsumların və ya vergilərin, yaxud ödənclərin ödənilməsi;

— nəqliyyat vasitələrinin mərkəzləşdirilmiş şəkildə və regionlar üzrə uçota alınması;
— cinayətkarlığa və digər hüquqpozmalara qarşı mübarizə aparılması.

Göründüyü kimi bu məqsədlərə çatmaq üçün qanunverici bütün növ nəqliyyat vasitələrinin qeydiyyatını onların sahiblərinin (hüquqi və ya fiziki şəxslərin) adlarına, kollektiv mülkiyyətdə olan nəqliyyat vasitələrinin isə yalnız bir şəxsin adına qeydiyyata alınmasını konkret olaraq müəyyənləşdirmişdir.

Hüquq ədəbiyyatında fiziki şəxs anlayışı hüquq münasibətlərində öz adından iştirak edən insan fərdinin olması kimi açıqlanır. Azərbaycan Respublikasında bütün vətəndaşlar, Azərbaycan Respublikasının ərazisində daimi yaşayan və ya müvəqqəti qalan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər fiziki şəxslərdir.

Azərbaycan Respublikasının Mülki Məcəlləsindəki müddəalara görə (maddə 28) fiziki şəxsin mülki hüquqi fəaliyyət qabiliyyəti, on səkkiz yaşına çatdıqda tam həcmdə əmələ gəlir. Bununla yanaşı qanunverici on altı yaşı tamam olmuş şəxslərin də bəzi hallarda (əmək müqaviləsi üzrə işləmək, sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq və s.) tam fəaliyyət qabiliyyətli sayıla bilməsinə yol verir.

Elə bu baxımdan, nəqliyyat vasitələrinin fiziki şəxslərin adlarına qeydiyyata alınmasında müvafiq yaş həddlərinin müəyyənləşdirilməsi göstərilən mülki hüquqi normalara tam uyğundur. «Yol hərəkəti haqqında» Qanunda təsbit edilmiş qaydaya görə vərəsəlik üzrə alınan nəqliyyat vasitələrinin qeydiyyatı istisna olmaqla, nəqliyyat vasitələri 18 yaşına, asma mühərrikli velosiped, moped və motosikletlər isə 16 yaşına çatmış fiziki şəxslərin adına qeydiyyata alınır. Nəqliyyat vasitəsinin yetkinlik yaşına çatmamış vərəsənin adına qeydiyyata alınmasına isə qəyyumluq və himayəçilik orqanları vasitəsilə icazə verilir.

Fiziki şəxslərin nəqliyyat vasitələri onların daimi, yaxud müvəqqəti (daimi qeydiyyat olmadıqda) yaşayış yeri üzrə qeydiyyata alınır.



Mülkiyyətçisinin yaşayış yeri üzrə qeydiyyata alınmasına maneəçilik törədən səbəblər olduqda (mülkiyyətçinin müqavilə üzrə müvəqqəti iş yerinə, oxumağa, hərbi xidmətə getməsi və s.) nəqliyyat vasitəsini mülkiyyətçinin qohumlarının yaşayış yeri və ya onun qayıdacağı əvvəlki yaşayış yeri üzrə qeydiyyata almaq olar (Əsasnamə, bənd 2.2.).

Yol hərəkəti sahəsində nəqliyyat vasitəsinin sahibi, nəqliyyat vasitəsinin mülkiyyətçisi, nəqliyyat vasitəsindən istifadə edən şəxs və digər anlayışlara tez-tez rast gəlindiyini nəzərə alaraq, Azərbaycan hüquq ədəbiyyatında bu anlayışların necə təfsir edildiyini göstərmək yerinə düşərdi.

Mülkiyyət hüququ — subyektin ona mənsub əmlaka (əşyaya) öz istədiyi kimi sahib olmaq, ondan istifadə etmək və ona dair sərəncam vermək üzrə dövlət tərəfindən tanınan və qorunan hüquqdur.

Sahiblik hüququ — əmlaka (əşyaya) faktik sahibliyi həyata keçirməyin hüquqi cəhətdən təmin edilmiş imkanıdır.

İstifadə hüququ — əmlakdan (əşyadan) onun faydalı təbii xassələrini hasil etməyin, habelə ondan fayda götürməyin hüquqi cəhətdən təmin edilmiş imkanıdır.

Sərəncam hüququ— əmlakın (əşyanın) hüquqi müqəddəratını təyin etməyin hüquqi cəhətdən təmin edilmiş imkanıdır.

Hüquqi şəxs — qanunla müəyyənləşdirilən qaydada dövlət qeydiyyatından keçmiş, xüsusi yaradılmış elə bir qurumdur ki, mülkiyyətində ayrıca əmlakı vardır, öz öhdəlikləri üçün bu əmlakla cavabdehdir, öz adından əmlak və şəxsi qeyri-əmlak hüquqları əldə etmək və həyata keçirmək, vəzifələr daşımaq, məhkəmədə iddiaçı və ya cavabdeh olmaq hüququna malikdir. Hüquqi şəxsin müstəqil balansı olmalıdır. Hüquqi şəxsin hüquq qabiliyyəti hüquqi şəxs dövlət qeydiyyatına alındığı andan başlanır.

Hüquqi şəxslərin nəqliyyat vasitələri onların yerləşdiyi ərazi üzrə nəqliyyat vasitələrinin dövlət qeydiyyatını aparan orqanlarda qeydiyyata alınır. Eyni zamanda bu norma ilə yanaşı ərazi prinsipi baxımından bir xüsusat da nəzərdə tutulmuşdur: idarə, müəssisə və təşkilatların hüquqi şəxs olmayan filiallarının, böl-

mələrinin və başqa tərkib hissələrinin istifadəsində olan nəqliyyat vasitələri onların yerləşdikləri bölgələrdə də qeydiyyata alına bilər (Əsasnamənin 2.3-cü bəndi).

Mexaniki nəqliyyat vasitələrinin təyinatından, konstruktiv xüsusiyyətlərin-dən və digər amillərdən asılı olaraq Azərbaycan Respublikası ərazisində onların dövlət qeydiyyatının aparılması «Yol hərəkəti haqqında» Qanunun 27-ci maddəsinin II və III hissələrinə və Əsasnamənin 1.2-ci bəndinə müvafiq olaraq dövlət orqanları arasında aşağıdakı kimi müəyyənləşdirilmişdir:

— hüquqi və fiziki şəxslərə məxsus olan (Azərbaycan Respublikası Silahlı Qüvvələrindən və digər birləşmələrdən başqa) və mühərrikinin işçi həcmi 50 kub sm və daha çox, konstruktiv maksimal sürəti saatda 50 kilometrdən artıq olan bütün tipli, markalı və modelli mexaniki nəqliyyat vasitələri, onların qoşquları və yarımqoşquları—Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi;

— tramvaylar və trolleybuslar—yerli icra hakimiyyəti orqanları;

— hüquqi və fiziki şəxslərin ümumi istifadədə olan küçə-yol şəbəkəsində istismar üçün nəzərdə tutulmayan tırtıllı mexaniki nəqliyyat vasitələri (traktorlar), kənd təsərrüfatında istifadə olunan və digər mexaniki nəqliyyat vasitələri — Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi;

— hüquqi və fiziki şəxslərin ümumi istifadədə olan küçə-yol şəbəkəsində istismar üçün nəzərdə tutulmayan texnoloji nəqliyyat vasitələri—Azərbaycan Respublikasının Dövlət Sənayedə İşlərin Təhlükəsiz Görülməsinə Nəzarət və Dağ-Mədən Nəzarəti Komitəsi;

— hüquqi və fiziki şəxslərin yarış məqsədli idman nəqliyyat vasitələri — Azərbaycan Respublikasının Gənclər, İdman və Turizm Nazirliyi.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin və digər birləşmələrin mexaniki nəqliyyat vasitələrinin vahid dövlət qeydiyyatını Azərbaycan Respublikasının Müdafiə Nazirliyi həyata keçirir.



Qeydiyyat üzrə daimi uçota alınan nəqliyyat vasitələrinin sahiblərinə nəqliyyat vasitəsinin dövlət qeydiyyat şəhadətnaməsi və dövlət qeydiyyat nişanları (avtomobillərə iki ədəd, motosiklet, traktor, qoşqu və yarımqoşqulara bir ədəd) verilir.

Qanunverici hüquqi və fiziki şəxslərə bir vəzifə kimi nəzərdə tutmuşdur ki, onlar nəqliyyat vasitəsini əldə etdiyi vaxtdan, sahibinin olduğu və ya yerləşdiyi yerin dəyişdiyi vaxtdan, nəqliyyat vasitəsi girov qoyulduğu vaxtdan və onun texniki uçot göstəriciləri dəyişdirildiyi vaxtdan 10 gün ərzində dövlət qeydiyyatından keçirməli və daimi uçota aldırmalıdırlar.

Həmçinin, Azərbaycan Respublikasının ərazisində dövlət qeydiyyatından keçməyən və yaxud nəqliyyat vasitəsinin geri qaytarılması barədə gömrük öhdəçiliyi olmayan, dövlət qeydiyyat nişanları (və ya onlardan biri) yerində olmayan, eləcə də saxta və ya başqa nəqliyyat vasitələrinə verilmiş və ya dövlət standartlarına uyğun olmayan dövlət qeydiyyat nişanları ilə nəqliyyat vasitələrinin idarə edilməsi qəti qadağan olunmuşdur (Əsasnamə, bənd 1.8).

Azərbaycan Respublikası ərazisində «Yol hərəkəti haqqında» Qanun qüvvəyə mindikdən sonra «sağ tərəfli yol hərəkəti» prinsipinin tətbiq edilməsi nəzərə alınaraq, yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi məqsədilə sükanı sağ tərəfdə olan nəqliyyat vasitələrinin hər hansı bir fiziki və ya hüquqi şəxs tərəfindən respublika ərazisinə gətirilməsinə, onların dövlət qeydiyyatından keçirilməsinə və deməli yol hərəkətində iştirakına icazə verilmir.

Nəqliyyat vasitələrinin dövlət qeydiyyatını aparan orqanlar nəqliyyat vasitəsinin sahibi və ya sərəncam vermək hüququ olan digər şəxs tərəfindən müvafiq sənədlər verildiyi və nəqliyyat vasitəsi texniki müayinəyə təqdim edildiyi vaxtdan bir gün ərzində onun dövlət qeydiyyatına alınmasını təmin etməlidirlər. Əgər təqdim olunmuş sənədlərdə çatışmazlıqlar aşkar edilərsə, bu barədə ərizəçiyə müvafiq məlumat verilməli və bunlar aradan qaldırıldıqdan sonra dövlət qeydiyyatı aparılmalıdır.

Qeydiyyat hərəkətlərinin aparılması üçün nəqliyyat vasitəsinin təqdim edilməsi texniki nasazlıq və digər səbəblərdən mümkün olmadıqda nəqliyyat vasitəsinin sahibi tərəfindən əlavə xidmət haqqı ödənilmək şərtiylə texniki müayinə onun yerləşdiyi ərazi üzrə keçirilə bilər.

Nəqliyyat vasitəsinin dövlət qeydiyyatının aparılması aşağıdakı sənədlər əsasında həyata keçirilir:

— ərizə;
— Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi (müvafiq olaraq Azərbaycan Respublikasının ərazisində əcnəbinin qeydiyyata alınması haqqında vəsiqə və ya Azərbaycan Respublikasının hüdudlarında istifadə edilməsi üçün vətəndaşlığı olmayan şəxsin şəxsiyyət vəsiqəsi);
— Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada onun sahibliyini təsdiq edən müvafiq sənəd və ya məhkəmənin qərarı;
— Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş rüsumların və ya vergilərin, yaxud ödənclərin ödənilməsi barədə qəbz;
— xarici dövlətlərdə alınaraq Azərbaycan Respublikasının ərazisinə hüquqi və fiziki şəxslər tərəfindən gətirilmiş nəqliyyat vasitəsi üçün gömrük orqanlarının verdiyi icazə sənədi, nəqliyyat vasitəsinin əvvəl qeydə alındığı dövlətin daimi qeydiyyatından çıxarıldığına dair sənədi, onun qeydiyyat və ya tranzit nişanları. Nəqliyyat vasitəsinin əvvəlki uçot yerindən silinməsi Azərbaycan Respublikası ərazisində yerləşən xarici səfirlik və konsul nümayəndəlikləri tərəfindən həyata keçirildiyi halda müvafiq konsul şəhadətnaməsi (vəsiqə, arayış, təsdiqləmə və s.) təqdim edilir.

Dövlət qeydiyyatının aparılması üçün tələb edilən bu sənədlərin məzmun və mahiyyətinin bəzi məqamlarına toxunulması maraq doğurur.

Nəqliyyat vasitəsinin dövlət qeydiyyatının aparılması üçün onun mülkiy-yətçisinin qeydiyyat orqanlarına müraciəti ərizə formasında qəbul edilmişdir. Ərizədə nəqliyyat vasitəsi haqqında texniki uçot göstəriciləri və onun sahibi haqqında müvafiq məlumatlar əks etdirilir. Respublika ərazisində qeydiyyat hərəkətlərinin müasir texniki vasitələrlə (kompüter avadanlığı) aparılmasını nəzərə alaraq və müraciətin mahiyyətindən asılı olaraq Azərbaycan Respub-likasının Daxili İşlər Nazirliyi tərəfindən təsdiq edilmiş və Ədliyyə Nazirliyində dövlət qeydiyyatına alınaraq (17.06.1999-cu il) normativ-hüquqi sənəd qüvvəsini almış Təlimatla üç cür nümunə üzrə ərizə forması müəyyənləşdirilmişdir (forma № 1, 2, 3).



Nəqliyyat vasitəsi sahibinin şəxsiyyətini təsdiq edən sənəd kimi «Azərbaycan Respublikası vətəndaşlarının respublika hüdudlarında sərbəst olaraq yerdəyişmə, qalmaq və yaşayış yeri seçmək hüququ haqqında» Qanuna (25 iyun 1993-cü il), «Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında» Azərbaycan Respublikasının Qanununa (4 aprel 1996-cı il), «Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslərin və əcnəbilərin xüsusi sənədləri haqqında» Əsasnaməyə (30 dekabr 1997-ci il), «Pasport sistemi haqqında» əsasnaməyə, «Pasport viza qeydiyyatı haqqında» Əsasnaməyə və bu sahədə mövcud olan digər normativ-hüquqi aktlara müvafiq olaraq verilmiş pasport, vəsiqə və s. qəbul edilir. Müstəsna hallarda bu sənədlərin əvəzinə digər sənədlər (arayış, 9 nömrəli forma və s.) də təqdim edilə bilər.

Nəqliyyat vasitəsinə sahiblik, onun əldə edilməsinin qanuniliyi aşağıdakı sənədlərlə (Əsasnamə, bənd 2.9) təsdiq edilir:

— istehsalçı zavodun təhvil-təslim aktı, hesab-arayış, pasport, zavod sertifikatı;
— komisyon və ticarət təşkilatlarının verdiyi arayış-hesab;
— əl ilə idarə edilən avtomobillərin, yaxud motoarabacıqların verilməsi barədə sosial təminat orqanlarının arayışı;
— qanunvericiliklə müəyyən olunmuş qaydada təsdiq edilmiş bağışlama, pay, dəyişmə və digər müqavilələr, nəqliyyat vasitəsinə mülkiyyət və vərəsəlik hüququ verilməsi barədə şəhadətnamələr;

— nəqliyyat vasitəsinin mülkiyyətçisi və alıcı arasında yazılı şəkildə tərtib edilmiş və müvafiq DYP orqanlarında təsdiq olunmuş alqı-satqı müqaviləsi (Əsasnaməyə 1 nömrəli əlavə), yaxud dəyişmə müqaviləsi (Əsasnaməyə 2 nömrəli əlavə).

Sadalanan sənədlərlə yanaşı nəqliyyat vasitəsinə sahiblik Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş digər sənədlərlə də təsdiq edilə bilər.

Qeydiyyat hərəkətlərinin aparılması üçün nəqliyyat vasitəsinin sahibi tərəfindən ödənilən vergi, rüsum və ödənclərin miqdarı «Dövlət rüsumu haqqında» Azərbaycan Respublikasının Qanunu (4 dekabr 2001-ci il), Azərbaycan Respublikasının Vergi Məcəlləsi (11 iyul 2000-ci il), Azərbaycan Respublikası Nazirlər Kabinetinin 19 fevral 1998-ci il tarixli, 35 nömrəli qərarı və digər normativ hüquqi sənədlərlə müəyyənləşdirilir.

Xarici dövlətlərdən Azərbaycan Respublikasına gətirilmiş nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsindən keçirilməsi, «Gömrük tarifi haqqında» Azərbaycan Respublikasının Qanunu (20 iyun 1995-ci il), Azərbaycan Respublikasının Gömrük Məcəlləsi (10 iyun 1997-ci il), Azərbaycan Respublikası Nazirlər Kabinetinin 27 iyul 1998-ci il tarixli 160 nömrəli, 12 aprel 2001-ci il tarixli 80 nömrəli, 31 may 2001-ci il tarixli 105 nömrəli qərarları və digər normativ aktlarla tənzimlənir.

Nəqliyyat vasitəsinin girov qoyulması ilə bağlı əmələ gələn girov və ipoteka hüquqi münasibətlərinin həlli «Girov haqqında» Azərbaycan Respublikasının Qanununda (3 iyul 1998-ci il), «Girov haqqında» Azərbaycan Respublikası Qanununun icrasının təmin edilməsi barədə Azərbaycan Respublikasının Prezidentinin Fərmanında (4 iyul 2001-ci il) və digər normativ sənədlərdə təsbit olunmuşdur.

Reklam daşıyıcısı olan nəqliyyat vasitələri, onlara müvafiq razılığın verilməsi, bununla bağlı qeydiyyat hərəkətlərinin aparılması, reklam fəaliyyətinə nəzarət və bu sahədə meydana çıxan münasibətlər «Reklam haqqında» Azərbaycan Respublikası Qanununun (3 oktyabr 1997-ci il), «Reklam haqqında» Azərbaycan



Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanının (24 noyabr 1997-ci il), «Reklam yayımına icazə (razılıq) verilməsi Qaydaları»nın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanının (3 noyabr 2001-ci il), Azərbaycan Respublikası Nazirlər Kabinetinin 20 aprel 1998-ci il tarixli, 90 nömrəli qərarının və digər aktların müddəalarına müvafiq olaraq tənzimlənir.

Nəqliyyat vasitələrinin sığortalanması, onların sahiblərinin mülki məsuliyyətinin icbari sığortası, sığorta müqaviləsi ilə yaranan öhdəlik, hüquq, vəzifələr və bu sahədəki münasibətlər «Sığorta haqqında» Azərbaycan Respublikasının Qanunu (19 yanvar 1999-cu il), «Nəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası haqqında» Azərbaycan Respublikasının Qanunu (31 may 1996-cı il), Azərbaycan Respublikası Nazirlər Kabinetinin 19 yanvar 1998-ci il tarixli, 13 nömrəli qərarı və digər normativ-hüquqi sənədlər əsasında qaydaya salınır.

Xarici dövlətlərdə qeydiyyatdan çıxarılmadan Azərbaycan Respublikası ərazisinə müvəqqəti gətirilmiş nəqliyyat vasitələrinin yol hərəkətində iştirakının əvvəlki dövrlərdən fərqli olaraq yeni mütərəqqi qaydaları müəyyənləşdirilmişdir.

Belə ki, 30 günədək müddətə gətirilən nəqliyyat vasitələri Azərbaycan Respublikasının sərhəd məntəqəsinin yaxınlığında yerləşən müvafiq orqanda təxirəsalınmadan uçota alınaraq onların sahiblərinə 30 gün müddətinə müvafiq sənəd-talon verilir. 30 gündən artıq müddətə gətirilən nəqliyyat vasitələri isə, onları geriyə qaytarmaq barədə sahibinin verdiyi öhdəçilik və gömrük icazə sənədləri əsasında müvəqqəti dövlət qeydiyyatından keçirilərək milli nümunəli dövlət qeydiyyat şəhadətnaməsi və dövlət qeydiyyat nişanları ilə təmin edilirlər. Qanunun müddəalarında nəzərdə tutulmuşdur ki, nəqliyyat vasitəsi əcnəbi şəxs tərəfindən gətirildikdə qeydiyyat onun vizasında göstərilən müddətə, Azərbaycan Respublikası vətəndaşı üçün isə bir il müddətindən artıq olmamaq şərtilə gömrük-öhdəçilik müddətinə aparılır.

Nəqliyyat vasitələrinin uçot-qeydiyyat işinin təkmilləşdirilməsi, onların yol hərəkətində iştirakına nəzarətin və hərəkət təhlükəsizliyinin daha səmərəli şəkildə təmin olunması məqsədiylə «Yol hərəkəti haqqında» Qanunda müvafiq yeni hüquqi tənzimləyici normaların nəzərdə tutulması reallıqdan yaranan zərurət kimi qiymətləndirilməlidir.

Respublika ərazisində dövlət qeydiyyatına alınmış nəqliyyat vasitəsi icarə müqaviləsi, vəkalətnamə və ya hər hansı bir digər hüquqi əsaslarla başqa şəxsə verildikdə, on gün müddətində həmin nəqliyyat vasitəsinin göstərilən sənədlər əsasında qeydiyyatdan keçirilməsi Qanunda birmənalı şəkildə şərtləndirilmişdir.

Yeniliklərdən biri kimi, nəqliyyat vasitəsinin özgəninkiləşdirilməsi və girov qoyulması qaydasının Qanunda ayrıca müddəa ilə təsbit olunması xüsusilə əhəmiyyətlidir.

Qanunla müəyyən edilmiş normaya görə (maddə 32) nəqliyyat vasitəsinin özgəninkiləşdirilməsində və girov qoyulmasında maraqlı olan şəxs, müvafiq əqd bağlamazdan əvvəl, nəqliyyat vasitəsini müayinədən keçirilməsi üçün DYP orqanına təqdim etməlidir. Nəqliyyat vasitəsi informasiya-axtarış bazasının məlumatları əsasında yoxlanıldıqdan sonra onu təqdim etmiş şəxsə müvafiq arayış verilir. Özgəninkiləşdirmə və girov qoyulma isə yalnız bu arayış əsasında mövcud qanunvericiliyə uyğun şəkildə həyata keçirilə bilər.

Bütün bu qeyd olunan yeniliklər son nəticədə nəqliyyat vasitələrinin istismarı prosesində yol hərəkəti təhlükəsizliyinin təmin olunmasında meydana çıxan problemlərin aradan qaldırılmasına, cinayətkarlığa və digər hüquqpozmalara qarşı səmərəli mübarizə aparılmasına, həmçinin ictimai asayişin və insan hüquqlarının qorunmasına xidmət edir.



### 2.1.1. Nəqliyyat vasitələrinin qeydiyyat şəhadətnaməsi və dövlət qeydiyyat nişanları

Nəqliyyat vasitələrinin yol hərəkətində iştirak etməyə buraxılması üçün vacib şərtlərdən biri də onların dövlət qeydiyyatına alınması barədə müvafiq şəhadətnaməyə və dövlət qeydiyyat nişanlarına malik olmasıdır.

Nəqliyyat vasitəsinin qeydiyyat şəhadətnaməsi Azərbaycan Respublikası-nın ərazisində və onun hüdudlarından kənarda yol hərəkətində olan nəqliyyat vasitəsi və onun sahibi haqqında məlumatları təsdiq edən vahid sənəddir. Qeydiyyat şəhadətnaməsində ellips işarəsi daxilində Azərbaycan Respublikasının beynəlxalq yol hərəkətində fərqlənmə nişanı olan «AZ» və digər məlumatlar göstərilir. Şəhadətnamənin adı Azərbaycan Respublikasının dövlət dilində və fransız dilində («Certifikat dimmatriculation»), rekvizitlərin adı azərbaycan və ingilis dillərində, başqa məlumatlar isə azərbaycan dilində yazılır.

Bütün bu göstərilən tələblər və «Yol hərəkəti haqqında» Konvensiyanın 35-ci maddəsinin tövsiyyələri nəzərə alınmaqla, Azərbaycan Respublikasının ərazisində nəqliyyat vasitəsinin qeydiyyat şəhadətnaməsi «Yol hərəkəti haqqında» Qanunun 28-ci maddəsində nəzərdə tutulmuş formada və qaydada verilir (Əsasnamə, bənd 8).

Nəqliyyat vasitəsinin dövlət qeydiyyat nişanı Azərbaycan Respublikasının ərazisində və ya onun hüdudlarından kənarda beynəlxalq yol hərəkətində olan hər bir nəqliyyat vasitəsini fərqləndirən xüsusi lövhədir. Dövlət qeydiyyat nişanları ərəb rəqəmlərindən və latın əlifbasının baş hərflərindən istifadə edilməklə tərtib olunur.

Qeydiyyat nişanlarına, onların tərtibinə və istifadə qaydalarına «Yol hərəkəti haqqında» Konvensiyada xüsusi yer verilmişdir (maddə 36). Konvensiyanın müddəalarına görə beynəlxalq hərəkətdə olan hər bir avtomobilin qabaq və arxa hissəsində qeydiyyat nömrəsi olmalıdır. Lakin qoşqularda və motonəqliyyat vasitələrində bu nömrə yalnız arxa hissələrə yerləşdirilməlidir.

Qeydiyyat nömrəsi elə tərtib olunmalıdır ki, hərəkət etməyən nəqliyyat vasitəsinin oxunda olan müşahidəçi gündüz aydın havada azı 40 metr məsafədən onu seçə bilsin. Qeydiyyat nişanları xüsusi lövhəciyə yazıldıqda, bu lövhəcik düz olmalı və şaquli (və ya demək olar ki, şaquli) vəziyyətdə nəqliyyat vasitəsinin uzununa orta kəsiyinə perpendikulyar bərkidilməlidir.

Dövlət qeydiyyat nişanlarının tipləri, ölçüləri və digər parametrlər «Nəqliyyat vasitələri və onların qoşqularının nömrə nişanları, tipləri və əsas ölçüləri, texniki tələblər» AZS-005-96 Azərbaycan Respublikası Dövlət Standartında öz əksini tapmışdır. Həmin standartın tələblərinə (həmçinin Əsasnamənin 9-cu bəndinə) müvafiq olaraq dövlət qeydiyyat nişanları tətbiqindən asılı olaraq aşağıdakı rənglərdə ola bilər:

1) qırmızı rəngli — diplomatik və onlara bərabər sayılan digər təşkilatların və onların əməkdaşlarının nəqliyyat vasitələri üçün;

2) sarı rəngli— əcnəbilərin, xarici hüquqi şəxslərin və Azərbaycan-xarici ölkə birgə müəssisələrinin nəqliyyat vasitələri üçün;

3) göy rəngli — sərnişin daşınmasında istifadə edilən nəqliyyat vasitələri üçün;

4) qara rəngli — Azərbaycan Respublikasının fiziki və hüquqi şəxsləri tərəfindən xarici dövlətlərdən müvəqqəti gətirilmiş və müvəqqəti dövlət qeydiyyatına alınan nəqliyyat vasitələri üçün;

5) ağ rəngli-digər qalan bütün nəqliyyat vasitələri üçün.

Nəqliyyat vasitələrinin yol hərəkətinə müvəqqəti buraxılması üçün istifadə olunan «tranzit» nişanlarında yaşıl rəngli zolaq yerləşdirilir.

Əcnəbilərin və xarici hüquqi şəxslərin nəqliyyat vasitələrinə qeydiyyat şəhadətnaməsinin və dövlət qeydiyyat nişanlarının verilməsinin bəzi xüsusiyyətlərinə toxunaq.

Xarici ölkələrin diplomatik və səfirlik nümayəndəlikləri və onların əməkdaşlarının, beynəlxalq təşkilatlar və onların əməkdaşlarının, xarici ölkələrin nəşriyyat, radio, televiziya orqanları, banklar, aviaşirkətlər və onların əməkdaşlarının və digər hüquqi



şəxslər və onların əməkdaşlarının, Azərbaycan Respublikasına 30 gündən az olmayan müddətə gəlmiş digər əcnəbilərin nəqliyyat vasitələri müvafiq olaraq Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin diplomatik korpusunun xidmət orqanları, yaxud xarici vətəndaşları qəbul edən nazirlik və baş idarələrin vasitəçiliyi ilə və ya əcnəbinin yaşayış yeri üzrə qeydiyyata alınması haqqında vəsiqə əsasında qeydiyyata alınır.

Belə şəxslərin və xarici nümayəndəliklərin nəqliyyat vasitələrinə aşağıdakı seriya üzrə dövlət qeydiyyat nişanları verilir.

«SFR» seriyası— diplomatik nümayəndəliklərin başçılarının xidməti və şəxsi nəqliyyat vasitələrinə.

«D» seriyası — xarici diplomatik (səfirliklər, ticarət nümayəndəlikləri, hərbi attaşe, iqtisadi əlaqələr üzrə məsləhətçilər aparatı, həmçinin diplomatik və konsul nümayəndəliklərinin tərkib hissəsi olan digər bölmələr), yaxud konsul nümayəndəlikləri, səfir ranqına bərabər sayılan digər beynəlxalq təşkilatlar, həmçinin bu nümayəndəliklərin diplomatik səviyyəli (ranqlı) təşkilatlarının əməkdaşlarının və onların ailə üzvlərinin nəqliyyat vasitələrinə. Diplomatik, konsul nümayəndəlikləri və beynəlxalq təşkilatların xahişinə görə nəqliyyat vasitələrinə «T» seriyalı dövlət qeydiyyat nişanları da verilə bilər.

Fərdi nəqliyyat vasitələrinə «D» seriyalı dövlət qeydiyyat nişanları verilməsi üçün Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin verdiyi diplomatik, konsul kartoçkaları təqdim edilməlidir.

«T» seriyası — diplomatik və konsul nümayəndəliklərinin, digər beynəlxalq təşkilatların inzibati-texniki və xidmət personalının, onların əməkdaşlarının ailə üzvlərinin nəqliyyat vasitələrinə.

Fərdi nəqliyyat vasitələrinə «T» seriyalı dövlət qeydiyyat nişanları verilməsi üçün Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi tərəfindən verilmiş xidməti kartoçkalar təqdim edilməlidir.

«M» seriyası — Azərbaycan Respublikası ərazisində müəyyən olunmuş qaydada açılmış xarici firmalar, banklar, aviaşir-

kətlər və başqa beynəlxalq təşkilatların, həmçinin Azərbaycan Respublikasında akkreditivləşdirilmiş həmin nümayəndəliklərin əməkdaşlarının və onların ailə üzvlərinin nəqliyyat vasitələrinə.

Şəxsi nəqliyyat vasitələrinə «M» seriyalı dövlət qeydiyyat nişanları vermək üçün əcnəbinin yaşayış yeri üzrə qeydiyyata alınması haqqında vəsiqə təqdim edilməlidir.

«K» seriyası — xarici kütləvi informasiya vasitələri nümayəndəliklərinin, həmin nümayəndəliklərin əməkdaşlarının və onların ailə üzvlərinin nəqliyyat vasitələrinə.

Fərdi nəqliyyat vasitələrinə «K» seriyalı dövlət qeydiyyat nişanları vermək üçün müxbirlərin vəsiqələri, yaxud texniki personala Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi tərəfindən verilən vəsiqələr, əməkdaşların ailə üzvlərinə isə əcnəbinin yaşayış yeri üzrə qeydiyyata alınması haqqında vəsiqə təqdim edilməlidir.

«H» seriyası — əcnəbi şəxslərin idarə etdikləri Azərbaycan-xarici ölkə birgə müəssisələrinin, yaxud onların əcnəbi əməkdaşlarının nəqliyyat vasitələrinə, Azərbaycan Respublikasına xidməti, yaxud şəxsi iş üçün, eləcə də oxumağa gəlmiş əcnəbilərin nəqliyyat vasitələrinə, respublikada şəxsiyyət vəsiqəsi ilə daimi yaşayan, yaxud vətəndaşlığı olmayan şəxslərin nəqliyyat vasitələrinə, əcnəbilərə kirayəyə verilən nəqliyyat vasitələrinə.

«H» seriyalı dövlət qeydiyyat nişanlarının verilməsi üçün əcnəbinin yaşayış yeri üzrə qeydiyyata alınması haqqında vəsiqə, yaxud Azərbaycan Respublikası ərazisində daimi yaşayan, vətəndaşlığı olmayan şəxslərin şəxsiyyət vəsiqəsi təqdim edilməlidir.

«P» seriyası — birdəfəlik xaricə aparılmaqla əlaqədar qeydiyyatdan çıxarılan nəqliyyat vasitələrinə, əcnəbilərin və xarici hüquqi şəxslərin Azərbaycan Respublikasında aldıqları və birdəfəlik respublikadan apardıqları nəqliyyat vasitələrinə.

Xarici hüquqi şəxslərə və əcnəbilərə məxsus avtomotonəqliyyat vasitələrinin qoşqularına respublikanın dövlət qeydiyyat nişanlarının seriyası verilir.



SFR, D və T seriyalı dövlət qeydiyyat nişanları qırmızı fona və ağ rəmzə, M, K, H, P seriyalı və qoşqulara aid olan dövlət qeydiyyat nişanları isə sarı fona və qara rəmzə malikdir.

Xarici ölkələrdən öz ehtiyacları üçün, yaxud sonradan daxili bazarda satmaq üçün gətirilən nəqliyyat vasitələri, satıldığı (başqasına verildiyi) halda, onların yeni mülkiyyətçilərinin adına qeydə alınması əqdin hüquqi rəsmiləşdirilməsini təsdiq edən sənədlər (arayış-hesab, bağışlama müqaviləsi və s.), gömrük orqanlarının müvafiq icazə sənədləri əsasında həyata keçirilir (Əsasnamənin 3.1-3.4 bəndləri bu xüsusiyyətlərin məzmun və mahiyyətinə həsr olunmuşdur).

## 2.2. Nəqliyyat vasitələrinin yol hərəkətində iştirakının texniki təhlükəsizlik tədbirləri

Azərbaycan Respublikası ərazisində yol hərəkətində iştirak etməyə buraxılan nəqliyyat vasitələri üçün, «Yol hərəkəti haqqında» Qanuna müvafiq olaraq, yeni kompleks texniki tədbirlər sistemi formalşmışdır. Bu sistemin müvafiq elementlərini şərti olaraq, əsasən aşağıdakı istiqamətlər üzrə ayırmaq mümkündür:

— qüvvədə olan beynəlxalq texniki göstərişlərə əməl edilməsi;
— yol hərəkətinin təhlükəsizliyi normativlərinə və standartlarına uyğunluq;
— dövlət texniki baxışından keçirilmə və s.

Ölkənin avtonəqliyyat vasitələrinin texniki xarakteristikalarının beynəlxalq səviyyəyə uyğunluğu müasir dövrdə yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi məsələsində kifayət qədər əhəmiyyətli rol oynayır. Avropa-Qafqaz-Asiya qitələrarası nəqliyyat dəhlizlərinin yaradılması layihəsinin reallaşdırılması, Böyük İpək yolunun bərpası layihəsi -»TRASEKA» çərçivəsində strateji avtomobil yollarının yenidən qurulması və digər amillər Azərbaycan Respublikası ərazisində yol hərəkətində iştirak etməyə buraxılan nəqliyyat vasitələrinin texniki təhlükəsizlik sə-

viyyəsinin qüvvədə olan beynəlxalq tələb və göstərişlərə uyğun olmasını da şərtləndirir.

Beynəlxalq texniki tələb və göstərişlər bu sahədə qüvvədə olan müvafiq konvensiya, saziş və müqavilələrin müddəaları ilə nəzərdə tutulmuşdur. Bunların sırasına, əsasən aşağıdakıları aid etmək olar:

a) «Yol hərəkəti haqqında» Konvensiya. Yol hərəkətində iştirak edən nəqliyyat vasitələrinə aid texniki tələblər, texniki şərtlər, onlara baxışın keçirilməsi qaydaları və digər göstərişlər konvensiyanın 39-cu maddəsi və ona verilmiş 5 nömrəli əlavə ilə tənzimlənir;

b) «Təhlükəli yüklərin quru yollar ilə beynəlxalq daşımaları haqqında» Avropa Sazişi (DOPOQ). Sazişə qoşulmaq barədə Azərbaycan Respublikasının müvafiq qanunu 2000-ci il tarixdə qəbul edilib (№ 913-IQ, 18.07.2000-ci il). Bu Avropa Sazişinin müəyyənləşdirdiyi kimi, söhbət təhlükəli və xüsusilə təhlükəli yüklərin daşınması haqqında gedir. DOPOQ-a 1 nömrəli əlavədə ümumiyyətlə daşınmasına icazə verilməyən, yaxud müəyyən texniki şərtlərə riayət etməklə daşınan təhlükəli yüklərin siyahısı müəyyənləşdirilib. İkinci əlavədə isə təhlükəli yüklərin daşınması üçün istifadə edilən avtonəqliyyat vasitələrinə verilən texniki tələblər nəzərdə tutulub, onlara texniki baxışın məcburi qaydası və qeydiyyatda olduğu ölkədə yol hərəkətində iştirak etməyə buraxılmaq haqqında müvafiq şəhadətnamənin verilməsi müəyyənləşdirilib;

c) «Beynəlxalq avtomobil daşımalarını həyata keçirən nəqliyyat vasitələri heyətinin işinə dair» Avropa Sazişi (ESTR). Azərbaycan Respublikası bu Sazişə 31 may 1996-cı il tarixli, 110-IQ nömrəli Qanunla qoşulmuşdur. Sazişdə, yol hərəkəti təhlükəsizliyinin yüksəldilməsi məqsədiylə nəqliyyat vasitələrinə, onların sürücülərinə, sürücü heyətinin iş şəraitinə və digər məsələlərə aid olan texniki tələblər, Beynəlxalq Əmək Təşkilatının prinsiplərinə müvafiq tövsiyyələr öz əksini tapmışdır;

d) «Tezkorlanan qida məhsullarının beynəlxalq daşınması və bu daşımalar üçün istifadə olunan xüsusi nəqliyyat vasitələri



haqqında (TDS)» Saziş. Bu Saziş Azərbaycan Respublikasının 11 fevral 2000-ci il tarixli, 811-IQ nömrəli Qanunu ilə təsdiq edilmişdir. Xüsusi nəqliyyat vasitələri, onlara dair tələblər və normalar, daşıma şərtləri və digər məsələlər Sazişin müddəaları ilə müəyyənləşdirilmişdir;

e) «Təkərli nəqliyyat vasitələri, təkərli nəqliyyat vasitələrində quraşdırılan və ya istifadə olunan avadanlıq və hissələrə dair qlobal texniki qaydaların müəyyənləşdirilməsi haqqında» Müqavilə; «Təkərli nəqliyyat vasitələri, təkərli nəqliyyat vasitələrində quraşdırılan və ya istifadə olunan avadanlıq və hissələr üçün vahid texniki qaydaların və bu qaydalar əsasında verilən razılıqların qarşılıqlı şəkildə tanınma şərtlərinin qəbul edilməsi haqqında» Müqavilə və digər beynəlxalq sənədlər.

Azərbaycan Respublikası adı çəkilən müqavilələrə 2002-ci ildə müvafiq olaraq, 260-II Q və 261-II Q nömrəli, 12 fevral 2000-ci il tarixli Qanunla qoşulmuşdur. Bu sənədlərdə nəqliyyat vasitələrinin konstruksiyasına, istismar qaydalarına və ümumiyyətlə funksional təhlükəsizlik məsələlərinə aid olan vahid texniki tələb, şərt və qaydalar geniş şəkildə şərh olunmuşdur.

Çox önəmli haldır ki, müasir dövrdə yol hərəkəti təhlükəsizliyinin yüksəldilməsi, beynəlxalq yol hərəkəti münasibətlərinin sadələşdirilməsi məqsədi ilə əksər dünya dövlətləri texniki standartların qarşılıqlı razılaşdırılması siyasətini həyata keçirirlər və qüvvədə olan beynəlxalq texniki göstərişlərə əməl edilməsinə üstünlük verirlər.

Fikrimizcə, artıq Azərbaycan Respublikası ərazisində yol hərəkəti təhlükəsizliyinin texniki normativlərinə və standartlarına dair kifayət dərəcədə normativ-hüquqi baza yaradılmışdır. Belə ki, nəqliyyat vasitələrinin texniki vəziyyəti, onlara texniki baxışın keçirilməsi, nəqliyyat vasitələrinin saxlanılması, onların texniki vəziyyətinə cavabdehlik və s.məsələlər «Yol hərəkəti haqqında» Qanunun ayrıca müddəaları ilə tənzimlənir (maddə 30, 31 və b.). Həmçinin Azərbaycan hökuməti tərəfindən bu sahənin hüquqi tənzimlənməsi aspektində bir sıra mühüm əhəmiyyət kəsb edən qərarlar qəbul edilərək, müvafiq əsasnamələr təsdiq edilmiş və qaydalar müəyyənləşdirilmişdir.

Elə bu baxımdan, texniki təhlükəsizlik tədbirləri istiqamətində milli qanunvericilik sahəsində mövcud olan, əsasən aşağıdakı normativ-hüquqi aktların adlarını nümunə qismində çəkmək olar:

1. «Nəqliyyat vasitələrinə və onların qoşqularına dövlət texniki baxışının keçirilməsi qaydaları haqqında» nümunəvi Əsasnamə*;

2. «Azərbaycan Respublikası ərazisində hüquqi və fiziki şəxslərə məxsus traktor, özüyeriyən maşın və mexanizmlərin texniki vəziyyəti və istismarı üzərində dövlət nəzarəti haqqında» Əsasnamə**;

3. a) «Nəqliyyat vasitələrinə təminatlı texniki xidmət göstərilməsi haqqında» nümunəvi Əsasnamə***;

b) «Nəqliyyat vasitələrinə təminatlı texniki xidmət göstərən texniki-təmir sahələri haqqında» nümunəvi Əsasnamə***;

c) «Nəqliyyat vasitələrinə təminatlı texniki xidmət göstərən texniki-təmir stansiyaları haqqında» nümunəvi Əsasnamə***;

4. «Təhlükəli yüklərin avtomobil nəqliyyatı ilə daşınması» Qaydaları****;

5. «Nəqliyyat vasitələrinin təhlükəsiz hərəkətinin təmin edilməsinə nəzarət» Qaydaları*****;

---

*** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 15 mart 1999-cu il tarixli, 40 nömrəli qərarı ilə təsdiq edilmişdir.**

**** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 27 sentyabr 1999-cu il tarixli, 158 nömrəli qərarı ilə təsdiq edilmişdir.**

***** Hər üç əsasnamə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 15 oktyabr 1999-cu il tarixli, 163 nömrəli qərarı ilə təsdiq edilmişdir.**

****** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 27 yanvar 2000-ci il tarixli, 10 nömrəli qərarı ilə təsdiq edilmişdir.**

******* Azərbaycan Respublikası Nazirlər Kabinetinin 30 iyun 2000-ci il tarixli, 110 nömrəli qərarı ilə təsdiq edilmişdir.**



6. «Atmosfer havasına atılan zəhərli maddələrin və ona zərərli fiziki təsirlərin dövlət uçotu» Qaydaları*;

7. Müvafiq icra hakimiyyəti orqanlarının təsdiq etdikləri təlimatlar, qaydalar və digər normativ-hüquqi sənədlər**.

Yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi məsələlərində «Yol hərəkəti haqqında» Qanunun müddəaları xüsusi rol oynayır. Qanunla müəyyən edilmiş qaydalara görə, Azərbaycan Respublikası ərazisində yol hərəkəti təhlükəsizliyi və ətraf mühitin mühafizəsi baxımından mövcud texniki tələblərə və normalara uyğun olan nəqliyyat vasitələri yol hərəkətində iştirak etməyə buraxıla bilər. Texniki cəhətdən nasaz olan nəqliyyat vasitələri yol hərəkətinə buraxılmır.

Nəqliyyat vasitələrinin istismarının qadağan edilməsinə səbəb olan nasazlıqların siyahısı, tormoz sistemi, sükan idarəetmə mexanizmi, xarici işıq cihazları, təkərlər və şinlər, mühərrik və konstruksiyanın digər ünsürlərinə aid olan təhlükəsizlik normativləri və texniki tələblər Qanuna 1 saylı əlavədə verilmişdir.

Bu texniki tələb və normaların bir qismi 27 dekabr 2001-ci il tarixdə qəbul edilmiş «Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında» Azərbaycan Respublikasının Qanunu ilə təkmilləşdirilərək müasir dövrün tələblərinə uyğunlaşdırılmışdır. Hal-hazırda Qanunun müddəalarına müvafiq olaraq (II hissə, 1-ci bənd), şüşələrə hər hansı formada və ölçüdə örtüklər (pərdə və plyonka) çəkilməklə sürücünün görünüş dairəsi məhdudlaşdırıldıqda nəqliyyat vasitəsinin istismarı qadağan edilir. Eyni zamanda, qanuna edilmiş dəyişiklikdən sonra, onun müddəalarına uyğun olaraq, hər iki tərəfdə arxanı göstərən xarici güzgülər olduqda minik

---

*** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 13 iyul 2002-ci il tarixli, 112 nömrəli qərarı ilə təsdiq edilmişdir.**

****** *Məsələn,* **Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi tərəfindən 08 sentyabr 2000-ci ildə təsdiq edilmiş "Avtonəqliyyat vasitələrinin texniki vəziyyətinə nəzarət qaydaları barədə" Təlimat.**

avtomobillərinin arxa şüşələrində sənaye üsulu ilə hazırlanan jalüz asmağa yol verilir.

«Yol hərəkəti haqqında» Qanunun 30-cu maddəsinin II hissəsinə müvafiq olaraq nəqliyyat vasitələrinin sahibləri və ya nəqliyyat vasitələrinin texniki vəziyyətinə cavabdeh olan şəxslər qarşısında aşağıdakı konkret vəzifələr qoyulmuşdur:

— nəqliyyat vasitələrinin istismarı zamanı onların texniki vəziyyətinə dair müəyyən edilmiş tələblərə riayət edilməsi;
— nəqliyyat vasitələrinin texniki cəhətdən saz vəziyyətdə saxlanılması üçün onlara vaxtlı-vaxtında texniki xidmət göstərilməsi;
— texniki vəziyyəti dövlət standartlarının, yol hərəkəti qaydalarının tələblərinə uyğun gəlməyən, habelə müəyyən edilmiş qaydada qeydə alınmamış, normativ tələblər pozulmaqla avadanlığı dəyişdirilmiş və ya texniki baxışdan keçməmiş nəqliyyat vasitələrinin istismarına yol verilməməsi.

Həmçinin qanunun müddəaları ilə nəzərdə tutulmuşdur ki, nəqliyyat vasitələrinə texniki xidmət yalnız nəqliyyat vasitələrinin sahibləri, xüsusi texniki biliyə və ixtisasa malik olan şəxslər və yaxud Azərbaycan hökumətinin müəyyən etdiyi qaydada texniki-təmir stansiyaları tərəfindən həyata keçirilir. Nəqliyyat vasitələrinin sayı 10 və daha artıq olan hüquqi şəxslər nəqliyyat vasitələrinə təminatlı texniki xidməti bu məqsədlə xüsusi təşkil edilmiş texniki-təmir sahələrində həyata keçirməlidirlər.

Azərbaycan Respublikası ərazisində nəqliyyat vasitələrinə təminatlı texniki xidmət göstərilməsi, nəzərdə tutulan xidmətlərin həyata keçirilməsi zamanı istehlakçılar və icraçılar arasında əmələ gələn hüquqi münasibətlər «Nəqliyyat vasitələrinə təminatlı texniki xidmət göstərilməsi haqqında» nümunəvi Əsasnamə ilə tənzimlənir.

İstehlakçı dedikdə, nəqliyyat vasitələrinə texniki xidmət göstərilməsini sifariş verən fiziki və yaxud hüquqi şəxs başa düşülür.



İcraçı isə, mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq, nəqliyyat vasitələrinin texniki xidməti üzrə fəaliyyət göstərən hüquqi şəxslər, habelə hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərdir.

Təminatlı texniki xidmətin mahiyyəti nəqliyyat vasitələrinin təmirindən və texniki qulluğundan ibarət olmaqla, nasazlıqların aşkar edilib aradan qaldırılmasına, eləcə də nəqliyyat vasitələrinin etibarlı və təhlükəsiz istismarına, həmçinin ekoloji yararlığına yönəldilmiş kompleks tədbirlər sistemini nəzərdə tutur.

Əsasnamədə texniki xidmətlər haqqında məlumat, sifarişlərin qəbulu və müqavilələrin tərtib edilməsi, göstərilən texniki xidmətlərin aparılması və onun haqqının ödənilməsi qaydaları, icraçının maddi və hüquqi məsuliyyəti və digər məsələlərin həlli öz əksini tapmışdır.

Nəqliyyat vasitələrinə texniki xidmət təminatlı texniki-təmir sahələri tərəfindən də həyata keçirilir. Təminatlı texniki-təmir sahələri nəqliyyat vasitələrinin texniki xidmətinin kompleks işlərindən birini və ya bir neçəsini təminatlı şərtlərlə yerinə yetirən tam təsərrüfat hesablı, özünümaliyyələşdirmə əsasında fəaliyyət göstərən hüquqi şəxsdir.

Mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq, nəqliyyat vasitələrinə təminatlı texniki xidmət göstərən texniki-təmir sahələrinin təşkili qaydaları, texniki-təmir sahələrinin təyinatı, strukturu, vəzifə, funksiya və məsuliyyəti «Nəqliyyat vasitələrinə təminatlı texniki xidmət göstərən texniki-təmir sahələri haqqında» nümunəvi Əsasnamə ilə müəyyən edilmişdir.

Təminatlı texniki-təmir sahələrinin təşkilində ixtisaslaşma profili xüsusi əhəmiyyət kəsb edir. İxtisaslaşma profili-texniki və ya texnoloji cəhətdən yaxınlıq əlamətləri üzrə seçilmiş xidmət növləridir. Bu baxımdan, texniki-təmir sahələri nəqliyyat vasitələrinin texniki qulluq və təmirinin kompleks işlərinin optimal qruplaşdırılması əsasında formalaşdırılır (məsələn; diaqnostika sahəsi, aqreqat təmiri sahəsi, çilingər-mexaniki sahə və s.).

Təminatlı texniki-təmir sahələrində nəqliyyat vasitələrinə texniki xidmət göstərilməsi qüvvədə olan mövcud normativ-tex-

niki sənədlər əsasında, texnoloji prosesin, istehsalın təşkilinin və elmi-texniki tərəqqinin müasir tələblərinə uyğun olaraq həyata keçirilməlidir (Əsasnamə, b.2.8).

Təminatlı texniki-təmir sahələrində nəqliyyat vasitələrinin texniki xidmətə qəbulu zamanı əsasən aşağıdakı vacib tələblər irəli sürülür:

— nəqliyyat vasitələrinin dövlət qeydiyyat nişanlarının, mühərrik, ban və şassi nömrələrinin pasport göstəricilərinə uyğunluğu;
— nəqliyyat vasitələrinin konstruksiyalarında edilən dəyişikliklərin müvafiq standartlara və normalara uyğunluğunu təsdiq edən Dövlət Yol Polisi orqanları tərəfindən verilmiş sənədin təqdim edilməsi;
— qəzaya uğramış nəqliyyat vasitələrinin təmirinə Dövlət Yol Polisi orqanları tərəfindən icazə verilməsini təsdiq edən sənədin təqdim edilməsi;
— və digər tələblər.

Bu tələblərə riayət olunmadığı halda texniki-təmir sahələri tərəfindən nəqliyyat vasitəsinin texniki xidmətə qəbul edilməsinə yol verilmir (Əsasnamə, b.2.14).

Nəqliyyat vasitələrinə texniki xidmət göstərən təminatlı texniki-təmir sahələri avtonəqliyyat vasitələrinin təhlükəsiz və saz istismarına təminat verməyə borcludur. Lakin təminat müddəti ərzində texniki istismar qaydaları pozulduqda, yol-nəqliyyat hadisəsi baş verdiyi hallarda, nəqliyyat vasitələrini texniki-təmir sahələrindən kənarda təmir etdikdə texniki-təmir sahələri həmin xidmətlərin təminatı üçün məsuliyyət daşımır.

Nəqliyyat vasitələrinə texniki xidmət göstərən texniki-təmir sahələri ilə yanaşı, istehsalat gücü daha çox olan texniki-təmir stansiyaları da fəaliyyət göstərir. Bu stansiyalar hüquqi şəxs olmaqla, tam təsərrüfat hesablı, özünümaliyyələşdirmə prinsipləri əsasında fəaliyyət göstərirlər.

Belə stansiyaların təşkili qaydaları, onların təyinatı və strukturu, funksiya, vəzifə və məsuliyyəti «Nəqliyyat vasitələrinə təminatlı texniki xidmət göstərən texniki-təmir stansiyaları haqqında» nümunəvi Əsasnamə ilə tənzimlənir.



Əsasnamənin 1.3-cü bəndində nəzərdə tutulduğu kimi, texniki qulluq nəqliyyat vasitələrinin hissələrinin yeyilmə dərəcəsini azaltmaq, baş verə biləcək nasazlıqların qarşısını qabaqcadan almaq və beləliklə, onların işləmə qabiliyyətini saxlamaq məqsədi ilə yerinə yetirilən kompleks texniki-təsir tədbirlər sistemini əhatə edir.

Texniki şərtlərlə nəzərdə tutulmuş yürüş normalarından sonra nəqliyyat vasitələrinə texniki qulluq göstərilməsi vacib şərtlərdən biridir. Təminatlı texniki-təmir stansiyalarında nəqliyyat vasitələrinə təminatlı texniki xidmətin göstərilməsi vahid texniki siyasət əsasında, elmi-texniki tərəqqinin müasir tələblərinə uyğun olaraq, normativ-texniki şərtlər, texniki qulluq və təmir rejimləri, texnoloji proses, istehsalın təşkili üsulları və s. əsasında həyata keçirilir.

Təminatlı texniki-təmir stansiyalarında nəqliyyat vasitələrinin texniki xidmətə qəbul edilməsi, nəqliyyat vasitələrinin təhlükəsiz və saz vəziyyətdə istismarına təminat verilməsi, məsuliyyət, icraçı və istehlakçı arasında olan münasibətlər texniki-təmir sahələrində olduğu kimi eyni oxşar prinsiplərlə tənzimlənir. Onların məzmun və mahiyyəti barədə yuxarıda qısaca da olsa söhbət açmışıq.

Texniki-təmir stansiyalarında və ya sahələrində nəqliyyat vasitələrinə texniki qulluq, xidmət və təmir göstərilən zaman «Yol hərəkəti haqqında» Qanunla müəyyənləşdirilmiş (maddə 30, V hissə) qaydaya əməl olunması, texniki qulluğun və təmirin Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi tərəfindən müəyyən edilmiş texniki norma və tələblərə uyğun həyata keçirilməsi vacib şərtlərdən biridir. Belə ki, müddəaya görə istismarda olan nəqliyyat vasitəsinə həmin modelin normativ-texniki sənədlərində nəzərdə tutulmayan hissələr quraşdırmaq yolu ilə onun konstruksiyasının parametrlərinin dəyişdirilməsi beynəlxalq normativlərə və standartlara uyğun gəlməlidir. Nəqliyyat vasitəsinin tam kütləsinin və bu kütlənin oxlar üzrə paylanmasının, ağırlıq mərkəzinin, təkər bazasının və ya təkər düsturunun pozulmasına, habelə tormoz və sükan idarə sisteminin əvəz olunmasına səbəb olan dəyişikliklər edilməsi qadağandır.

## 2.2.1. Nəqliyyat vasitələrinin təhlükəsiz hərəkətinin təmin edilməsinə nəzarətin həyata keçirilməsi

«Yol hərəkəti haqqında» Qanuna uyğun olaraq yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi, mexaniki avtonəqliyyat vasitələrinin texniki vəziyyətinə nəzarət edilməsi, eləcə də mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq, hüquqi və fiziki şəxslərlə qarşılıqlı fəaliyyət formaları «Nəqliyyat vasitələrinin təhlükəsiz hərəkətinin təmin edilməsinə nəzarət» Qaydaları ilə müəyyən edilir.

Qaydaların II fəsli bütövlükdə avtonəqliyyat vasitələrinin təhlükəsiz hərəkətinin təmin edilməsinə nəzarətin həyata keçirilməsi məsələlərinə həsr olunmuşdur.

Qaydalarla nəzərdə tutulmuş müddəalara görə avtonəqliyyat vasitələrinin təhlükəsiz hərəkətinin təmin edilməsinə nəzarət Daxili İşlər Nazirliyinin əməkdaşları tərəfindən yol hərəkəti haqqında qanunvericiliyə uyğun şəkildə həyata keçirilir.

Daxili İşlər Nazirliyi də öz növbəsində, belə fəaliyyətin həyata keçirilməsini daha səmərəli şəkildə tənzimləmək və texniki nəzarət üzrə iş praktikasını təkmilləşdirmək məqsədi ilə 08 sentyabr 2000-ci il tarixdə «Avtonəqliyyat vasitələrinin texniki vəziyyətinə nəzarət qaydaları barədə» Təlimat təsdiq etmişdir.

Yol hərəkəti təhlükəsizliyinin və nəqliyyat vasitələrinin texniki cəhətdən saz vəziyyətdə istismar olunmasının təmin edilməsi Dövlət Yol Polisi orqanlarının texniki nəzarət üzrə əsas fəaliyyət proqramı kimi müəyyənləşdirilmişdir.

Azərbaycan Respublikası ərazisində yerləşən və diplomatik immunitetə malik olan səfirlik, konsulluq, nümayəndəlik və onlara bərabər tutulan digər təşkilatlara, eləcə də belə statusa malik olan əcnəbi şəxslərə məxsus olan nəqliyyat vasitələrinə texniki nəzarət Xarici İşlər Nazirliyi vasitəsi ilə həyata keçirilir.

Avtonəqliyyat vasitələrinin təhlükəsiz hərəkətinin təmin edilməsinə nəzarət əsasən iki istiqamətlərdə aparılır:

**1.** avtonəqliyyat müəssisələrində;

**2.** avtomobil yollarında.



Avtonəqliyyat müəssisələrində bu istiqamətdə aparılan tədbirlərə aşağıdakılar aid edilmişdir:

— texniki qulluq və cari təmirin müvafiq istehsalat-texniki bazasında yerinə yetirilməsi;
— texniki sazlığın müayinəsi;
— texniki qulluqların keçirilməsi;
— nasazlıq üzündən baş vermiş yol-nəqliyyat hadisələrinin qeydiyyatı;
— təmirlərə sifarişlərin vaxtında verilməsi və onların yerinə yetirilməsi;
— əvvəlki texniki baxışın nəticəsinə görə avtonəqliyyat vasitələrinin texniki vəziyyəti;
— texniki vəziyyəti müayinə etmək üçün istifadə olunan nəzarət-ölçü cihazlarının mövcudluğu, metroloji attestasiyadan keçmələri və onlardan istifadə qaydaları;
— istismara buraxılan avtonəqliyyat vasitələrinin ətraf mühitə zərərli təsirinin qəbul edilmiş normativlər həddində olmasının təmin edilməsi;
— sürücülərin reysqabağı, reysdən sonra və dövri tibbi müayinədən keçməsinin təşkili.

Sürücülərin sayı 100 nəfər və daha çox olan nəqliyyat müəssisələrində ixtisaslaşdırılmış tibbi idarə və sağlamlaşdırma məntəqələrinin, tibbi sanitariya hissələrinin, poliklinika bölmələrinin yaradılması müəyyənləşdirilmişdir. Sürücülərin sayı 100-dən az olan nəqliyyat müəssisələri isə, tibbi xidmətin göstərilməsi üçün ərazi üzrə tibb müəssisələri ilə müvafiq müqavilə bağlamalıdırlar.

Avtomobil yollarında avtonəqliyyat vasitələrinin texniki vəziyyətinə nəzarət aşağıdakı tədbirləri əhatə edir:

**a)** avtomobil yollarında avtonəqliyyat vasitələrinin texniki vəziyyətinə nəzarət «Yol hərəkəti haqqında» Qanunun tələblərinə riayət edilməklə həyata keçirilir. Belə ki, texniki vəziyyəti yol-nəqliyyat hadisəsi törədə biləcək ehtimalı aşkar müşahidə olunan, xarici görünüşü səliqəsiz və ya həmin Qanunun 1 nömrəli əlavəsində göstərilən tələblərə uyğun gəlməyən avtonəqliyyat

vasitələri saxlanılaraq müvafiq qaydada müayinə olunur. Bu zaman avtonəqliyyat vasitəsinin texniki vəziyyətinə nəzarət mümkün qədər qısa müddət ərzində aparılmalı, müayinə zamanı digər hərəkət iştirakçılarına maneəçilik törədilməməlidir.

**b)** yollarda təcili yardım, yanğınsöndürmə, poçtdaşıyan, inkasator, texniki-qəza xidməti, daxili işlər və milli təhlükəsizlik orqanlarının əməliyyat avtomobilləri və hərbi avtomobillər, partlayıcı, yanğın təhlükəli, radioaktiv və başqa təhlükəli yük daşıyan nəqliyyat vasitələri, içərisində sərnişin olan avtobus və taksilər, trolleybus və tramvaylar texniki vəziyyətə görə müayinə edilmək məqsədi ilə saxlanılmırlar.

Avtonəqliyyat vasitələrinin texniki vəziyyətinə nəzarət edilməsində onların qeydiyyatını aparan dövlət orqanlarının qarşısında aşağıdakı əsas vəzifələr qoyulmuşdur:

— avtonəqliyyat vasitələrinin texniki vəziyyətinə texniki baxışlararası müddətlərdə nəzarət etmək, dövri texniki baxışları həyata keçirmək, konstruksiyası və ya texniki vəziyyəti müəyyən olunmuş standartlara, habelə mühərrik, ban və şassi nömrələri qeydiyyat sənədlərində göstərilmiş nömrələrə uyğun gəlməyən avtonəqliyyat vasitələrinin istismarını qadağan etmək;

— avtonəqliyyat vasitələrinin konstruksiyasının hazırlanmasına və yenidən quraşdırılmasına, aqreqat, ban və ban hissələrinin dəyişdirilməsinə icazə vermək və yol hərəkəti təhlükəsizliyinin tələblərinə, dövlət standartlarına, normativ sənədlərə uyğun olmasına nəzarət etmək;

— mürəkkəb quruluşlu avadanlıqlaşdırma aparılan avtonəqliyyat vasitələrinin hərəkət təhlükəsizliyi ilə bağlı tələblərə uyğunluğu baxımından texniki layihə sənədlərinə müvafiq rəylər vermək, onların sınaqlarının keçirilməsində iştirak etmək, tələblərə cavab verməyən nümunələr barədə müvafiq orqanlara təqdimatlar göndərmək;

— avtonəqliyyat vasitələrinin zərərli tullantılarından ətraf mühitin qorunması sahəsində qüvvədə olan qaydaların, normativlərin, standartların tələblərinə riayət edilməsinə nəzarəti həyata keçirmək;

— təşkilati-hüquqi formasından asılı olmayaraq, bütün müəssisələr, idarələr, təşkilatlar və fiziki şəxslər tərəfindən yol hərəkətinin təhlükəsizliyinin təmin olunması sahəsində qüvvədə olan qaydaların, normativlərin və standartların tələblərinə riayət edilməsinə müstəqil və ya müvafiq səlahiyyətli orqanlarla birlikdə nəzarət etmək.

Avtonəqliyyat vasitələrinin konstruksiyasının hazırlanmasına nəzarət texniki tapşırığın, texniki layihələrin, avtonəqliyyat vasitəsinin sınağı və istehsala qəbulu texniki şərtlərin razılaşdırılması mərhələlərində aparılır.

Respublikada hazırlanması üçün layihə sənədləri tələb olunmayan avadanlıqların avtonəqliyyat vasitələrinə quraşdırılmalarının siyahısı müvafiq olaraq həmin nəqliyyat vasitələrinə texniki baxış keçirən orqanlar tərəfindən müəyyən edilir.

Fərdi qaydada hazırlanmış minik avtomobillərinin və motosikllərin konstruksiyalarının müəyyən edilmiş texniki tələblərə uyğunluğu şəhər (rayon) «Avtomobilçi» Cəmiyyətinin texniki komissiyası və Yol hərəkətinin təhlükəsizliyi üzrə Elmi-Tədqiqat İnstitutu (laboratoriyası) tərəfindən müvafiq qaydada yoxlanılır. Avtomobillər, motosikllər və qoşqular texniki tələblərə uyğun gəldikdə, komissiya və ya institut (laboratoriya) tərəfindən Dövlət Yol Polisi İdarəsinə təqdim edilmək üçün rəy (cizgi, sxem və fotoşəkillər əlavə edilmək şərti ilə) yazılır və həmin rəy avtonəqliyyat vasitələrini qeydiyyata götürmək və istismar etmək üçün əsas sayılır. Eyni zamanda Qaydalarla müəyyən edilmişdir ki, zavod tərəfindən istehsal olunan avtonəqliyyat vasitələrinin fərdi qaydada ehtiyat hissələrindən yığılmasına icazə verilmir.

Yol hərəkəti təhlükəsizliyinə nəzarətin təmin olunması məqsədi ilə sərnişin və yük daşımalarına cəlb edilən nəqliyyat vasitələri Dövlət Yol Polisi orqanı tərəfindən texniki müayinədən keçirilir. Sərnişin daşıma marşrutlarının sxemi və qısa xarakteristikası DYP orqanları ilə razılaşdırılır.

Əhalinin ictimai nəqliyyata olan tələbatını və adamların təhlükəsiz daşınmasını təmin etmək üçün şəhər sərnişin daşımaları sahəsində dövlət siyasətini həyata keçirən şəhər (rayon) icra hakimiyyəti orqanları tərəfindən bu məqsədlə ixtisaslaşdırılmış nəqliyyat müəssisələri yaradıla bilər. Belə nəqliyyat müəssisələrinin nəqliyyat vasitələri xəttə texniki cəhətdən saz vəziyyətdə buraxılmalıdır.

Şəhər sərnişindaşıma fəaliyyətinə sahibkarlıq fəaliyyəti ilə məşğul olan digər hüquqi və fiziki şəxslər də mövcud qanunvericiliyə uyğun şəkildə cəlb oluna bilərlər.

### 2.2.2. Təhlükəli yüklərin avtomobil nəqliyyatı ilə daşınmasının bəzi xüsusiyyətləri

Avtomobil yük daşımalarında təhlükəli yüklərin daşınması hüquqi tənzimlənmə predmetinə görə xüsusi yer tutur. Respublika ərazisində avtomobil nəqliyyatı vasitələri ilə təhlükəli yüklərin daşınmasında yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi, belə nəqliyyat vasitələrinin hərəkətinin təşkili, onlara verilən əlavə texniki tələblər və bu fəaliyyətlə bağlı digər hüquqi münasibətlər Azərbaycan hökuməti tərəfindən xüsusi təsdiq edilmiş «Təhlükəli yüklərin avtomobil nəqliyyatı ilə daşınması» Qaydaları ilə tənzimlənir.

Bu sənəddə əsasən, nəqliyyat vasitələri ilə təhlükəli yüklərin daşınması qaydalarının nizama salınması, baş verə biləcək hər hansı yol-nəqliyyat hadisələrinin qarşısının alınması və bu sahəyə dövlət nəzarətinin gücləndirilməsi kimi vurğulanan əsas məqsədlərin həyata keçirilməsi, Daxili İşlər Nazirliyi tərəfindən Dövlət Yol Polisi orqanlarının qarşısında qoyulan başlıca vəzifələr qismində şərtləndirilir.

Qaydalarla müəyyənləşdirildiyi kimi, təhlükəli yüklər -insanlar, canlılar və ətraf mühit üçün təhlükəli olan maddə və məmulatlardır. Müvafiq dövlət standartlarına uyğun olaraq partlayıcı maddələr, tez alışan materiallar, radioaktiv və zəhərləyici maddələr və digər əşyalar təhlükəli yüklər anlayışına aid edilmişdir. Ümumiyyətlə, nəqliyyat vasitələri ilə daşınan təhlükəli yüklərin



təsnifatı Qaydalara 2 nömrəli əlavədə geniş şəkildə şərh olunmuşdur.

Təhlükəli yüklərin bir və ya bir neçə oxşar növdən olan yükləri daşımaq üçün avadanlıqlaşdırılmış xüsusi nəqliyyat vasitələrində daşınması mütləq bir norma kimi Qaydalarda təsbit olunmuşdur. Təhlükəli yüklərin daşınması «Təhlükəli yüklərin quru yollar ilə beynəlxalq daşımaları haqqında» Avropa Sazişinin, həmçinin digər normativ-hüquqi sənədlərin müddəaları ilə müəyyən edilmiş tələblər və şərtlər çərçivəsində həyata keçirilməlidir.

Mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq, hüquqi şəxslərə, habelə hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərə təhlükəli yüklərin daşınması üzrə fəaliyyət növü ilə məşğul olmağa Azərbaycan Respublikasının mövcud qanunvericiliyinə uyğun olaraq müvafiq hüquq verilir.

Verilmiş hüquqların həyata keçirilməsi zamanı bu fəaliyyət növü ilə məşğul olan şəxslər mövcud qanunvericiliklə nəzərdə tutulmuş təhlükəsizlik şərtlərinə və normalarına əməl etməyə borcludurlar.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 25 avqust tarixli 315 nömrəli qərarı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının avtomobil yolları ilə daşınacaq yüklərin təhlükəlilik dərəcəsinə görə təsnifatı», eləcə də digər normativ aktlar əsasında işlənib hazırlanmış müəyyən növ və qrupdan olan təhlükəli yüklərin təhlükəsiz daşınma şərtləri Azərbaycan Respublikası Dövlət Sənayedə İşlərin Təhlükəsiz Görülməsinə Nəzarət və Dağ-Mədən Nəzarəti Komitəsi («Dövlətdağmədəntexnəzarət») ilə razılaşdırılmaqla, onları istehsal edən (göndərən) və ya qəbul edən dövlət, qeyri-dövlət orqanları və hüquqi şəxslər tərəfindən təsdiq edilməlidir.

Təhlükəli yüklərin daşınma şərtləri yüklərin daşınmasını həyata keçirən dövlət, qeyri-dövlət orqanları və hüquqi şəxslər tərəfindən hazırlandığı təqdirdə istehsalçı ilə (yükü göndərənlə) razılaşdırılır.

Müəyyən edilmiş qaydalara görə güclü təsirə malik zəhərləyici və partlayıcı, eləcə də xüsusi aktivliyi $7,4x10^{3}$ $Bk.kq^{-1}$, yaxud 0,002 mk $Ki.q^{-1}$-dən artıq olan radioaktiv maddələrin təhlükəsiz daşınma şərtləri «Dövlətdağmədəntexnəzarət» Komitəsi və Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsi ilə, partlayıcı materiallar və güclü təsirə malik zəhərləyici maddələrin təhlükəsiz daşınma şərtləri isə «Dövlətdağmədəntexnəzarət» Komitəsinin müvafiq sənaye sahələri üzrə orqanları və DİN-in İctimai Təhlükəsizlik İdarəsi ilə razılaşdırılmalıdır.

Avtomobil nəqliyyatı vasitələri ilə təhlükəli yüklərin daşındığı qablar, maddə və məmulatlar istehsalçılar və ya onları göndərənlər tərəfindən nişanlanmalı və dövlət standartları ilə müəyyən olunmuş qaydada təhlükə nişanları ilə təchiz edilməlidir.

Əgər təhlükəli yüklərin daşınması zamanı qəza hadisəsi baş verərsə, yük göndərən və yaxud alan təşkilat bu barədə ilkin təcili məlumatı Daxili İşlər Nazirliyinə və «Dövlətdağmədəntexnəzarət» Komitəsinə verməlidir.

Qaydalarla müəyyən edilmiş xüsusi bir normaya görə təhlükəli yük daşıyan avtonəqliyyat vasitəsinin sürücüsü, ixtisaslaşdırılmış təhsil kurslarında Dövlət Yol Polisi orqanı və «Dövlətdağmədəntexnəzarət» Komitəsi ilə razılaşdırılmış proqram əsasında xüsusi hazırlıqdan keçdikdən sonra avtomobili idarə etməyə buraxıla bilər.

Çox əlamətdar haldır ki, respublikamızın fauna və florasına, eləcə də ətraf mühit və insanlar üçün təhlükə yarada biləcək hər hansı bir radioaktiv və toksik tullantıların saxlanmaq və basdırılmaq üçün xarici ölkələrdən Azərbaycan ərazisinə daşınmasına yol verilmir.

Təhlükəli yüklərin daşınma marşrutlarının müəyyən edilməsi, təhlükəli yükləri daşıyan nəqliyyat vasitələrinin hərəkətinin təşkili və yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi məsələlərini nizama salan hüquqi normalar və onların elementləri Qaydalarda xüsusi yer tutur.

Belə ki, müəyyən edilmiş qaydalara görə təhlükəli yüklərin daşınma marşrutları, həmin yükləri daşıyan hüquqi və fiziki



şəxslər tərəfindən «Dövlətdağmədəntexnəzarət» Komitəsi və Dövlət Yol Polisi orqanları ilə razılaşdırılmalıdır.

Daşınma marşrutu müəyyən edilərkən aşağıdakı şərtlər nəzərə alınmalıdır:

a) daşınma marşrutunun mümkün qədər yaşayış məntəqələrindən, eləcə də sənaye obyektlərinin, istirahət zonalarının, təbii qoruqların və memarlıq abidələrinin yaxınlığından keçməməsi;

b) təhlükəli yüklər iri yaşayış məntəqələrindən daşındığı təqdirdə marşrutun mədəni-maarif, tədris, məktəbəqədər tərbiyə və müalicə müəssisələrindən mümkün qədər aralı keçməsi.

Təhlükəli yüklərin daşınma marşrutları onların daşınmasını həyata keçirən avtonəqliyyat müəssisələrinin yerləşdiyi ərazi üzrə və yaxud həmin nəqliyyat vasitələrinin müvəqqəti qeydiyyata alındığı nəzarət orqanları tərəfindən aşağıda göstərilən qaydada:

a) yüklərin daşınma marşrutu rayon tərkibinə daxil olan şəhər hüdudundan keçdikdə rayon icra hakimiyyəti Dövlət Yol Polisi orqanı və «Dövlətdağmədəntexnəzarət» Komitəsinin təhlükəli yüklərin daşınmasına nəzarət müfəttişliyi ilə;

b) yüklərin daşınma marşrutu respublika əhəmiyyətli şəhər hüdudlarından keçdikdə şəhər icra hakimiyyəti Dövlət Yol Polisi orqanı və «Dövlətdağmədəntexnəzarət» Komitəsinin təhlükəli yüklərin daşınmasına nəzarət müfəttişliyi ilə;

c) marşrut Naxçıvan Muxtar Respublikasının ərazisindən keçdikdə Muxtar Respublikanın Dövlət Yol Polisi orqanı və «Dövlətdağmədəntexnəzarət» Komitəsinin Naxçıvan üzrə bölgə müfəttişliyi ilə;

ç) marşrut Respublikanın magistral avtomobil yollarından keçdikdə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Baş Dövlət Yol Polis İdarəsi və «Dövlətdağmədəntexnəzarət» Komitəsi ilə razılaşdırılır.

Təhlükəli maddə və məmulatların daşınma marşrutlarının razılaşdırılması üçün avtonəqliyyat müəssisələri onların daşınmasına ən azı 10 gün qalmış Dövlət Yol Polisi orqanına aşağıdakı sənədləri təqdim etməlidir:

a) təhlükəli yüklərin daşınması ilə əlaqədar fəaliyyət növlərinin həyata keçirilməsi barədə müvafiq sənəd;

b) Azərbaycan Respublikası DİN-in qüvvədə olan müvafiq normativ aktlarına uyğun olaraq daxili işlər orqanlarının icazəsi;

c) təhlükəli yükün «Dövlətdağmədəntexnəzarət» Komitəsi tərəfindən razılaşdırılmış daşınma marşrutu blankı;

ç) nəqliyyat vasitələrinin təhlükəli yüklərin daşınmasına buraxılması haqqında «Dövlətdağmədəntexnəzarət» Komitəsinin müvafiq orqanı tərəfindən verilmiş şəhadətnamənin surəti.

Daşınma marşrutu əcnəbi dövlətlərin ərazilərindən keçdiyi halda, bu Qaydaların tələbləri ilə yanaşı əcnəbi dövlətlərin hakimiyyət orqanları tərəfindən müəyyən edilmiş qaydada, onların müvafiq nəzarət orqanları ilə razılaşdırılmış marşrut barədə «Dövlətdağmədəntexnəzarət» Komitəsinə və DİN BDYP İdarəsinə əlavə sənəd təqdim edilir.

Razılaşdırılan marşrutun etibarlılıq müddəti 12 aydan çox olmamalıdır.

Daşınma marşrutunun dəyişdirilməsi zərurəti əmələ gəldikdə avtonəqliyyat müəssisəsi yeni marşrutu əvvəlki marşrutu təsdiq etmiş Dövlət Yol Polisi və «Dövlətdağmədəntexnəzarət» orqanları ilə təkrar razılaşdırır.

Təbii fəlakətlər, bədbəxt hadisələr və s. zamanı qəza-bərpa işlərinin icrası üçün məhdud miqdarda partlayıcı maddə və məmulatların təcili daşındığı hallarda marşrutun Dövlət Yol Polisi ilə razılaşdırılması məcburi deyildir. Həmin daşınmaların təcili və təhlükəsiz həyata keçirilməsinə şərait yaradılması üçün Dövlət Yol Polisi orqanlarına məlumat verilməlidir.

Respublika ərazisində təhlükəli yükləri daşıyan nəqliyyat vasitələrinin hərəkəti «Yol hərəkəti haqqında» və «Nəqliyyat haqqında» Azərbaycan Respublikasının Qanunlarına, müvafiq normativ-hüquqi aktlara və yuxarıda adını çəkdiyimiz Qaydaların tələblərinə uyğun olaraq təşkil edilir.

Təhlükəli yüklər nəqliyyat vasitələri karvanları ilə daşınarkən karvandakı nəqliyyat vasitələri arasında aşağıdakı məsafələrin saxlanması vacibdir:



— düzənlik yerlərdən keçən yol sahələrində hərəkət zamanı - ən azı 50 metr;
— dağlıq yerlərdən keçən yol sahələrində hərəkət zamanı— ən azı 300 metr.

Təhlükə potensiallı yükləri daşıyan nəqliyyat vasitələri karvanla hərəkət edərkən daşınmaya məsul olan şəxs qabaqdakı avtomobildə, daşınma şərtləri ilə karvanın mühafizəsi nəzərdə tutulduğu hallarda isə mühafizəçilərdən biri axırıncı avtomobildə olmalıdır.

Təhlükəli yük daşıyan nəqliyyat vasitələrinin hərəkətinin təşkilində xüsusi norma və prinsiplər müəyyənləşdirilmişdir ki, onların bəzi məqamlarına toxunmaq çox önəmlidir.

Belə ki, mövcud qaydalara uyğun olaraq, tez alışan və partlayış təhlükəli yükləri daşıyan nəqliyyat vasitələrinin mümkün qədər yanacaqdoldurma məntəqələrindən yanacaq götürməmək məqsədi ilə son daşınma məntəqəsinə qədər bəs edə biləcək həcmdə yanacaqla təmin olunması tövsiyyə edilir.

Yanacaqdoldurma məntəqəsindən yanacaq doldurmaq zərurəti yarandığı təqdirdə, nəqliyyat vasitələri ən azı 25 metr aralı məsafədə dayanmalı və məntəqədən ağzı bağlı metal qablarda gətirilən yanacaqla, yaxud bu məqsədlə ayrılmış xüsusi səyyar yanacaqdoldurma qurğuları vasitəsi ilə «Daimi və səyyar yanacaqdoldurma məntəqələrinin texniki istismarı qaydaları» ilə nəzərdə tutulmuş tələblərə əməl edilməklə doldurulmalıdır.

Xüsusiyyətlərdən biri də ondan ibarətdir ki, partlayış təhlükəli, radioaktiv və güclü təsirə malik zəhərləyici maddə daşıyan beş və daha çox nəqliyyat vasitələrinin karvanı, hərəkət iştirakçılarına təhlükə barədə xəbər vermək və baş verə biləcək qarşı-qarşıya toqquşmanın qarşısını almaq məqsədi ilə daşınmanı müşayiət edən məsul təşkilat tərəfindən ayrılmış müşayiətedici avtomobil və bununla yanaşı, təhlükəli yük daşımaq üçün avadanlıqlaşdırılmış əlavə ehtiyat avtomobil ilə təmin edilməlidir.

Müşayiətedici avtomobil nəqliyyat vasitələri karvanın qabağında, müşayiət olunan avtomaşınlara nisbətən bir qədər solda, eninə qabariti onların eninə qabaritindən bir qədər kənara çıx-

maq şərti ilə hərəkət etməlidir. Gündüz vaxtı hərəkət edən müşayiət avtomobilinin fanarlarının yaxın işıqları yandırılmalıdır.

Müşayiətedici avtomobil fasilələrlə sayrışan sarı rəngli işıq saçan mayakla təchiz edilir. Mayak yalnız hərəkət iştirakçılarını xəbərdar etmək üçün əlavə vasitədir, o, quraşdırıldığı nəqliyyat vasitəsinə hərəkət zamanı heç bir üstünlük vermir. Təhlükəli yüklərin avtomobil nəqliyyatı ilə daşınmasında sürücü yola çıxdıqda radio-telefon və ya mobil telefonla təchiz olunmalıdır.

Beləliklə, belə bir qənaətə gəlmək olar ki, yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi məqsədi ilə təhlükəli yükləri daşıyan nəqliyyat vasitələrinin hərəkətinin təşkili müvafiq normalar sisteminə əsaslanaraq həyata keçirilir və bu sistemin əsasən aşağıdakı tərkib hissələrini göstərmək olar:

— marşrutun müəyyən edilməsi və razılaşdırılması;
— mühafizə avtomobilinin və ehtiyat avtomobilin, eləcə də onların hərəkət qaydalarının müəyyən edilməsi;
— hərəkətin icazə verilən maksimum sürət həddi;
— çətin yol şəraitində hərəkətə icazə verilib-verilməməsi;
— karvanla hərəkət edərkən nəqliyyat vasitələri arasında məsafə, müşayiət edən şəxslərin yeri;
— məcburi dayanma zamanı nəqliyyat vasitəsinin yoldan kənara çıxarılmasının labüdlüyü;
— dayanacağın, o cümlədən gecələmənin təşkili;
— nəqliyyat vasitələrinin yanacaqla doldurulması şərtləri.

Qeyd olunanlarla yanaşı, təhlükəli yükləri daşıyan nəqliyyat vasitələrinə əlavə tələblər də müəyyənləşdirilmişdir.

Bu tələblərə müvafiq olaraq, təhlükəli yüklərin ixtisaslaşdırılmış xüsusi banlı və ya onların daşınması üçün avadanlıqlaşdırılmış xüsusi təyinatlı texniki təhlükəsizlik üzrə uyğunluq sertifikatı olan nəqliyyat vasitələri ilə daşınması nəzərdə tutulmuşdur.

Həmin nəqliyyat vasitələrinin texniki-istismar göstəriciləri və texniki vəziyyəti istehsalçı zavodun texniki şərtlərinə, texniki təhlükəsizlik tədbirləri sahəsində mövcud olan qanunvericiliyin normalarına, tələblərinə və müəyyən növ təhlükəli yüklərin daşınma şərtlərinə cavab verməlidir.



Belə nəqliyyat vasitələrinin Dövlət Yol Polisi orqanlarında qeydiyyata alınması «Dövlətdağmədəntexnəzarət» Komitəsi tərəfindən verilən müvafiq şəhadətnamə əsasında həyata keçirilir.

Ümumilikdə götürdükdə, təhlükəli yükləri daşıyan nəqliyyat vasitələrinə dair əlavə tələblər aşağıdakıları əhatə edir:

— təhlükəli yüklərin xüsusi tipli yararlı, o cümlədən yanğından mühafizə şərtlərinə uyğun olan nəqliyyat vasitələrində daşınması;
— səsboğan qurğunun yerinin dəyişdirilməsinin və qığılcımsöndürənin quraşdırılmasının labüdlüyü;
— yanacaq çəninin avadanlıqlaşdırma yolu ilə təhlükəsizliyinin təmin edilməsi;
— elektrik avadanlığı üzrə tələblər;
— ban və çən, eləcə də onların avadanlıqlaşdırılması üzrə tələblər;
— əlavə ləvazimatlar, həmçinin yanğınsöndürmə, daşınan yükün neytrallaşdırılması, sürücünün və müşayiət edən şəxslərin fərdi mühafizəsi və s. üçün zəruri olan avadanlıqla nəqliyyat vasitələrinin təchiz edilməsi.

Təhlükəli yükləri daşıyan nəqliyyat vasitələri sürücülərinə yol hərəkətində iştirak etmənin ümumi qaydaları ilə yanaşı, xüsusi olaraq əlavə normalar müəyyənləşdirilmişdir.

Təhlükəli yükləri daşıyan nəqliyyat vasitələrini idarə etməyə ən azı fasiləsiz 3 il sürücülük stajı və həmin növ nəqliyyat vasitəsini idarə etməyə uyğun kateqoriyalı sürücülük vəsiqəsi olan, müvafiq qaydada təlimatlandırılmış və tibbi yoxlamadan keçmiş şəxslər buraxıla bilər.

Təhlükəli yüklərin beynəlxalq daşınmasında avtomobilin sürücüsü sükan arxasında sutka ərzində 12 saatdan çox olduğu təqdirdə, nəqliyyat vasitəsinə 2 sürücü təhkim olunmalıdır.

Təhlükəli yükləri daşıyan nəqliyyat vasitələrinin yol vərəqəsinin sol yuxarı küncündə qırmızı rəngli mürəkkəblə «Təhlükəli yük» sözləri qeyd edilməlidir.

Təhlükəli yükləri daşıyan nəqliyyat vasitələrinin sürücülərinə aid olan əlavə tələbləri aşağıdakı kimi qruplaşdırmaq olar:

— sürücünün təhlükəli yüklərin daşınmasına buraxılması şərtləri;
— avtomobil xarab olduqda, qablar zədələndikdə və s. məcburi dayanma hallarında sürücünün görəcəyi tədbirlər;
— yol-nəqliyyat hadisəsi zamanı sürücünün görəcəyi tədbirlər;
— təhlükəli yükləri daşıyarkən sürücünün əməl etməsi zəruri olan şərtlər.

Təhlükəli yükləri daşıyan nəqliyyat vasitələri sürücülərinin və onları müşayiət edən şəxslərin vəzifələri, məcburi dayanma və yol-nəqliyyat hadisəsi baş verdikdə daxili işlər orqanlarının əməkdaşları ilə qarşılıqlı əlaqə, təhlükə barədə xəbərdarlıq sistemi, beynəlxalq standartlar üzrə təhlükə nişanlarının forması, rəngi, yazıları və digər tələblər və təhlükəsizlik tədbirləri «Təhlükəli yüklərin avtomobil nəqliyyatı ilə daşınması» Qaydalarında ətraflı şəkildə şərh olunmuşdur.

### 2.2.3. Nəqliyyat vasitələrində, küçə və yollarda reklam yayılmasının qısa xarakteristikası

Nəqliyyat vasitələrində, küçə və yollarda reklam yayılması son illərdə respublika ərazisində geniş xarakter almışdır. Müasir dövrdə digər fəaliyyət növləri ilə yanaşı, reklam fəaliyyətinə də fiziki və hüquqi şəxslər tərəfindən üstünlük verilməsi müşahidə olunur.

Ona görə də küçə-yol şəbəkəsində və nəqliyyat vasitələrində reklam yayılması zamanı irəli sürülən texniki təhlükəsizlik tələblərini və onların müxtəlif cəhətlərini açıqlamaq üçün qısaca da olsa, reklam anlayışının mahiyyətinə toxunaq.

Hüquqi və fiziki şəxslərin əmtəə, iş və xidmət bazarında reklam istehsalı, yerləşdirilməsi və yayımı prosesində meydana çıxan münasibətlər «Reklam haqqında» Azərbaycan Respublikasının Qanunu, reklam fəaliyyəti sahəsində Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq konvensiya, saziş və müqavilələr və qüvvədə olan digər qanunvericilik aktları ilə tənzimlənir. «Reklam haqqında» Qanunun 4-cü maddəsində belə bir norma müəyyən olunmuşdur ki, Azərbaycan Respublikasının beynəlxalq müqavilələrində bu Qanunda göstərilənlərdən fərqli qaydalar nəzərdə tutulduğu halda, beynəlxalq müqavilələrdə təsbit olunan qaydalar tətbiq edilir.



Reklam anlayışı fiziki və hüquqi şəxslər, əmtəə, ideya və yeniliklər haqqında maraq formalaşdırmaq və ya bu marağı saxlamaq, əmtəənin satılmasına, ideya və yeniliklərin həyata keçirilməsinə kömək göstərmək məqsədi ilə yayılan informasiya mənasını daşıyır. Başqa cür desək, reklamın məna yükü reklam məqsədi ilə yayılan informasiya dairəsini əhatə edir.

Bu istiqamətdə məqsədyönlü fəaliyyət göstərən reklam sifarişçiləri, istehsalçıları və yayıcıları, reklam agentlikləri reklam fəaliyyətinin subyektləri hesab olunur.

Reklam daşıyıcısı dedikdə isə, mülkiyyət formasından asılı olmayaraq, reklamın istehlakçıya bilavasitə çatdırılması üçün istifadə olunan vasitələr başa düşülür. Bu vasitələr sisteminə kütləvi informasiya vasitələri, nəşr məhsulları, stasionar və mobil texniki qurğular və s. avadanlıqlar, o cümlədən nəqliyyat vasitələri, küçə və yol şəbəkələri aiddir.

Reklam fəaliyyətinin nizama salınması, bu fəaliyyət növünə dövlət nəzarətinin həyata keçirilməsi məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 3 noyabr 2001-ci il tarixli, 596 nömrəli fərmanı ilə təsdiq edilmiş «Reklam yayımına icazə (razılıq) verilməsi» Qaydaları mühüm əhəmiyyət kəsb edir.

Bu Qaydalar şəhər və kənd yaşayış məntəqələrində, digər ərazilərdə küçə (divar) reklamının yerləşdirilməsinə icazə verilməsi, yol və yolətrafı zonalarda, nəqliyyat vasitələrində və poçt göndərişlərində reklamın yayımına razılıq verilməsi qaydasını müəyyən edir.

Küçə reklamının yerləşdirilməsinə icazə verilməsi qaydaları, nəzərdə tutulmuş xüsusi şərtlər və digər məsələlərin həlli «Reklam haqqında» Qanunun 15-ci maddəsinin müddəalarında və Qaydaların 2-ci bəndində öz əksini tapmışdır.

Şəhər və kənd yaşayış məntəqələrinin, digər ərazilərin küçələrinin kənarlarında, yolayrıcılarında, korpü və estakadalarda, yeraltı keçidlərdə, metro stansiyalarında və digər yerlərdə mülkiyyət formasından asılı olmayaraq, kommersiya məqsədi ilə reklamın istehlakçıya bilavasitə çatdırılması üçün istifadə olunan vasitələr küçə reklam daşıyıcılarına aiddir.

Reklam daşıyıcılarının mətnləri Azərbaycan dilində yazılmalıdır. Xarici dildə reklam ikinci mətn şəklində verilə bilər.

Küçə reklamı daşıyıcıları rayon və şəhər icra hakimiyyəti orqanları tərəfindən müvafiq qaydada verilmiş icazə sənədlərinə əsasən yerləşdirilir.

Küçə reklamı daşıyıcısının yerləşdirilməsinə icazə verilməsi üçün tələb olunan əsas şərtlər kimi Qaydalarda, xüsusən, aşağıdakılar nəzərdə tutulmuşdur:

— yol nişanları ilə oxşar olmamalı, yollarda görmə zonalarını və təhlükəsizliyi azaltmamalıdır;
— yol nişanlarının görümlülüyünü məhdudlaşdırmamalıdır;
— işıqları ilə nəqliyyat vasitələrini idarə edənlərin gözlərini qamaşdırmamalıdır;
— elə qurulmalıdır ki, onları görmək üçün piyadalar yolun hərəkət hissəsinə keçməsinlər və s.

Qaydalarla müəyyənləşdirilmiş normaya görə yol şəraitinin real qiymətləndirilməsini çətinləşdirən və yol nişanlarına oxşar, yolda nəqliyyat vasitələri, piyada və heyvan olması təəssüratını yaradan reklamların qurulmasına yol verilmir.

Küçə reklamının yerləşdirilməsi zamanı yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi məsələlərinə xüsusilə toxunulması diqqətəlayiq haldır. Məsələn, şəhərətrafı yolların kənarından 2 metrdən yaxın məsafədə, yolayrıcılarında reklam vasitəsinin aşağı hissəsi ilə yer arasında məsafə 2 metrdən az olduqda və nəqliyyat svetoforları və yol nişanları ilə bir müstəvidə olduqda reklam daşıyıcılarının yerləşdirilməsinə icazə verilmir.

Digər bir halda, reklam daşıyıcıları yerləşdirilərkən, reklam fəaliyyəti subyektləri tərəfindən aşağıdakı qaydalara məcburi şəkildə riayət edilməsi texniki təhlükəsizlik baxımından çox önəmlidir:



— reklam daşıyıcısının kənarından səki daşınadək olan məsafə 1 metrdən az olmamalıdır;
— reklam daşıyıcısının aşağı küncündən avtomobil yolunun örtüyünədək olan məsafə 2,5 metrdən, işıq diræklərindən isə 4 metrdən az olmamalıdır. Yolun hərəkət hissəsində quraşdırılarkən isə həmin məsafə 4,5 metrdən az olmamalıdır;
— reklam daşıyıcısının işıqlandırılması üçün elektrik və yanğın təhlükəsizliyi tələblərinə cavab verən, sənaye istehsalı olan işıq qurğularından istifadə olunmalıdır. İşıqlandırma qurğusu reklam daşıyıcısının konstruksiyasına etibarlı bərkidilməli, külək, qar və vibrasiya təsirlərinə davam gətirməlidir.

Küçə reklamı daşıyıcıları yerləşdirilərkən avtomobil yolları və küçələrdə xidmətin rahatlığı, həmçinin yol hərəkətinin nizamlama vasitələrinin tətbiqi imkanlarının da nəzərə alınması mühüm şərtlərdən biridir.

Yol və yolətrafı zonalarda reklam yerləşdirilməsinin ümumi prinsipləri və şərtləri Qaydaların 3-cü bəndində təsbit olunmuşdur.

Yol və yolətrafı zonalarda reklamın yayılmasına razılıq Azərbaycan Respublikasının «Azəravtoyol» Dövlət Şirkəti tərəfindən Qaydalarla müəyyən edilmiş tərzdə verilir.

Yol və yolətrafı zonalarda yerləşdirilən reklam daşıyıcıları yol hərəkəti təhlükəsizliyinin əsasən aşağıdakı tələb və şərtlərinə cavab verməlidir:

— yol nişanlarını bağlamamalı və onlara oxşar olmamalıdır, görmə zonalarını məhdudlaşdırmamalıdır;
— dəmir yolu keçidləri, tunellər və estakadalardan 350 metrdən az məsafədə yerləşdirilməməlidir;
— hərəkət sürəti 60 km/saat məhdudlaşdırılan avtomagistrallarda ümumi sahəsi 48 kv.m-dən çox olmamalıdır;
— yolun kənarından reklam daşıyıcısının hündürlüyünün azı 1,5 misli məsafəsində yerləşdirilməlidir.

— işıqlandırma və yanğına qarşı mühafizə sistemi ilə təmin edilməlidir;

— yerləşdirilərkən yol hərəkəti təhlükəsizliyi və rahatlığı nəzərə alınmalıdır;

— yol müstəvisindən 4 metr, reklam tağları isə 6 metr hündürlükdə olmalıdır və s.

Reklam nişanları yol boyu xidməti sahələri göstərmək üçün qoyula bilər. Onların eni 1000 mm, hündürlüyü 1500 mm. olmalı, fonu sarı rənglənməlidir. Yazılar yol nişanları ilə bir xətdə yerləşdirilə bilməz.

Reklam nişanları işıqlanmalı və ya işığı əks etdirən xüsusi materiallardan hazırlanmalıdır.

Nəqliyyat vasitələrində reklam yayılmasının xüsusiyyətləri, razılığın verilməsi və yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi məqsədi ilə yayılan reklamın məhdudlaşdırılması halları «Reklam haqqında» Qanunun 16-cı maddəsi və Qaydaların 4-cü bəndi ilə nizama salınır.

Nəqliyyat vasitələrində reklamın yayılması nəqliyyat vasitələrinin mülkiyyətçiləri ilə bağlanmış müqavilələr və Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Baş Dövlət Yol Polisi İdarəsi tərəfindən verilən razılığa əsasən həyata keçirilir.

Bununla yanaşı reklam daşıyıcısı kimi istifadə edilən nəqliyyat vasitələrinə xüsusi texniki tələblər və normalar müəyyənləşdirilmişdir. Bu tələb və normaların məzmunundan göründüyü kimi, yalnız Azərbaycan Respublikasının ərazisində müvafiq qaydada dövlət qeydiyyatından keçmiş, texniki cəhətdən saz və müvafiq xarici görkəmi olan reklam yayımı barədə müvafiq şərtlərə cavab verən nəqliyyat vasitələri reklam daşıyıcısı kimi istifadə edilə bilər.

Eyni zamanda, yol hərəkətinin təhlükəsizliyi baxımından, nəqliyyat vasitələrinin müəyyən səthlərində reklam yerləşdirilməsinə icazə verilir:

— minik avtomobillərin və mikroavtobusların qapılarında (arxa qapıdan başqa) və qanadlarının yan səthlərində;



— tramvay, trolleybus və avtobusların banında pəncərə xəttinə qədər olan arxa və yan səthlərində;

— yük, yük-sərnişin, yük-furqon (bortunda ağ maili zolağı olanlardan başqa), qoşqu və yarımqoşquların banının arxa və yan səthlərində;

— motosikillərin yanacaq baklarında və alətlər qutusunun qapağında.

Lakin qanunverici, reklam fəaliyyəti prosesində yol hərəkətinin təhlükəsizliyi problemini ön plana çəkərək, nəqliyyat vasitələrində yayılan reklamın məhdudlaşdırılması hallarını da müəyyənləşdirmişdir.

Belə ki, müəyyən edilmiş normalara görə nəqliyyat vasitələrində reklam lövhələrinin, lövhəciklərinin, işıqlanan tabloların və bunlara bənzər reklamların yerləşdirilməsinə, reklam tətbiq etməklə nəqliyyat vasitələrinin rənginin 50 faizindən artıq dəyişdirilməsinə icazə verilmir.

Nəqliyyat vasitələrinin ön hissəsində və ixtisaslaşdırılmış nəqliyyat vasitələrində reklam yerləşdirilməsi qadağandır.

Ətrafları qapalı nəqliyyat vasitələrinin üzərində reklam verilərkən, reklamın həcmi ümumi sahənin 60 faizindən çox olmamalıdır.

Nəqliyyat vasitəsinin arxa hissəsində firma nişanı, telefonlar, loqotiplər və ünvan göstərilə bilər. Bu halda reklam nəqliyyat vasitəsinin arxa hissəsinin ümumi sahəsinin 40 faizindən çox olmamalıdır. Nəqliyyat vasitələrində yerləşdirilən reklam nəqliyyat vasitəsinin əsas rəngi ilə kontrast yaradan rənglə çərçivəyə ayrılmalıdır, onun sahəsi reklam yerləşdirilməsi üçün tətbiq edilən səthin 50 faizindən çox ola bilməz.

Nəqliyyat vasitələrində dövlət qeydiyyat nişanları və dövlət fərqlənmə nişanlarının görünməsini məhdudlaşdıran yerlərdə, işıqlanma cihazları və şüşələrdə reklam yerləşdirilməsi, istehsalçı zavod tərəfindən nəzərdə tutulmamış xarici işıq cihazlarının reklam məqsədi ilə quraşdırılması qadağandır.

Dövlət standartlarına uyğun rəng qrafikası olan xüsusi təyinatlı avtomobillər reklam yayılması üçün istifadə edilə bilməz.

Həmçinin, xüsusi təyinatlı nəqliyyat vasitələrinin rəng qrafikasına, təsvirinə və sairə oxşar reklamların nəqliyyat vasitələrində yayılmasına icazə verilmir. Nəqliyyat vasitələrində reklam yerləşdirilməsi üçün işıq əks etdirən və gözqamaşdırıcı lak-rəng materiallarından istifadə olunmamalıdır.

Nəqliyyat vasitələrində reklamın yayılma müddəti reklam yayıcısı ilə nəqliyyat vasitəsinin mülkiyyətçisi arasında bağlanmış müqavilədə nəzərdə tutulur.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 20 aprel 1998-ci il tarixli, 90 nömrəli qərarı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında poçt xidməti məqsədi ilə nəqliyyat vasitələrindən istifadə» Qaydalarının müddəalarına müvafiq olaraq, rabitə müəssisələrinə məxsus olan və poçtun daşınmasında istifadə edilən avtomobillərin üzərində standarta uyğun «Azərbaycan poçtu» sözləri yazılır. Bu barədə nəqliyyat vasitəsinin dövlət qeydiyyat şəhadətnaməsində Dövlət Yol Polisi orqanları tərəfindən müvafiq xüsusi qeydlər aparılır. Belə avtomobillərin hərəkətin və dayanacağın qadağan edildiyi yerlərdə hərəkət etməsinə DYP tərəfindən verilmiş xüsusi buraxılış talonları olduqda icazə verilir.

Nəqliyyat vasitələrində reklam yayılmasına razılıq verilməsi qaydalarını nizama salmaq və yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi məqsədi ilə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi tərəfindən «Nəqliyyat vasitələrində reklam yayımı barədə» Təlimat təsdiq edilmişdir (30 dekabr 2001-ci il).

Nəqliyyat vasitələrində reklam yayılmasına razılıq almaq üçün hüquqi və fiziki şəxslər tərəfindən Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsinə (BDYPİ) aşağıdakı sənədlərin təqdim edilməsi müəyyənləşdirilmişdir:

**1.** Razılıq almaq üçün ərizə.

Ərizədə aşağıdakılar öz əksini tapmalıdır:

— hüquqi şəxslər üçün — hüquqi şəxsin adı, təşkilati-hüquqi forması, hüquqi ünvanı;



— fiziki şəxslər üçün — adı, atasının adı, soyadı, şəxsiyyəti təsdiq edən vəsiqə haqqında məlumatlar (seriya, nömrə, nə vaxt və kim tərəfindən verilmişdir, ünvanı, iş yeri);

**2.** Müəssisənin təsis sənədlərinin surəti;

**3.** Müəssisənin dövlət qeydiyyatı haqqında şəhadətnamənin surəti;

**4.** Sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin vergi orqanları tərəfindən uçota alınması haqqında şəhadətnamənin surəti;

**5.** Reklam verənlə bağlanmış və mövcud qanunvericiliyə uyğun sənədləşdirilmiş müqavilənin surəti;

**Qeyd:**— reklam verən reklam yayan kimi çıxış etdikdə və reklam yayılan nəqliyyat vasitəsinin mülkiyyətçisi olduqda müqavilə tələb olunmur.

**6.** Nəqliyyat vasitəsinin qeydiyyat şəhadətnaməsi və onun surəti;

**7.** Nəqliyyat vasitəsinin texniki cəhətdən sazlığı və xarici görkəminin reklam yerləşdirilməsi üçün yararlı olması barədə DYP-nin müvafiq aktı;

**8.** Nəqliyyat vasitəsində yerləşdiriləcək reklamın məzmunu, cizgi təsviri və sxemi;

**9.** Reklam yerləşdirilməsi planlaşdırılan nəqliyyat vasitələrinin dövlət qeydiyyat nişanları göstərilməklə siyahısı;

**10.** Razılıq alınması üçün müəyyən edilmiş məbləğdə haqqın ödənildiyini təsdiq edən sənəd.

Razılıq almaq üçün təqdim edilən ərizə və sənədlər Azərbaycan Respublikası DİN Baş DYP İdarəsi tərəfindən qəbul edilir, baxılır və imtina üçün əsas olmadıqda 30 gün ərzində razılıq verilməsi haqqında qərar qəbul edilir.

Hüquqi şəxs ləğv edildikdə, yaxud sahibkar kimi fəaliyyət göstərmək üçün fiziki şəxsə verilən şəhadətnamə qüvvədən düşdükdə, hüquqi və fiziki şəxslərə verilən razılıq da öz hüquqi qüvvəsini itirmiş hesab olunur.

Razılıq vərəqi itirildikdə və ya hüquqi şəxs yenidən dövlət qeydiyyatından keçdikdə, yaxud sahibkar haqqında məlumatlar

dəyişdikdə razılığın yenidən verilməsi müəyyən edilmiş qaydada həyata keçirilir.

«Reklam haqqında» Qanunun 25-ci maddəsinə müvafiq olaraq, Azərbaycan Respublikasında reklam fəaliyyətinə dövlət nəzarəti və özününəzarət həyata keçirilir.

Reklam fəaliyyətinə özününəzarət funksiyasını reklamçıların peşəkar cəmiyyətləri, birlikləri, assosiasiyaları reklam haqqında qanunvericiliklə müəyyən edilmiş qaydada həyata keçirirlər.

Reklam fəaliyyətinə dövlət nəzarəti həyata keçirən müvafiq icra hakimiyyəti orqanları (İqtisadi İnkişaf Nazirliyi) öz səlahiyyətləri çərçivəsində hüquqi və fiziki şəxslər tərəfindən «Reklam haqqında» Qanuna uyğun gəlməyən reklam yayımlarının qarşısını almaq, qanunun pozulmasına görə müvafiq tədbirlər görmək və məhkəmələrə iddiaçı kimi müraciət etmək hüquqlarına malikdirlər.

Yuxarıda adını çəkdiyimiz Təlimata müvafiq olaraq, nəqliyyat vasitələrində reklam yerləşdirilməsinə nəzarət, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Dövlət Yol Polisi əməkdaşları tərəfindən aşağıdakı hallarda həyata keçirilir:

— nəqliyyat vasitələri dövlət qeydiyyatına, təkrar qeydiyyata alındıqda və uçotdan çıxarıldıqda;
— nəqliyyat vasitələrinə illik dövlət texniki baxış keçirildikdə;
— nəqliyyat vasitələrinin yollarda hərəkətinə DYP əməkdaşlarının nəzarəti zamanı və hərəkətin təhlükəsizliyi ilə bağlı müxtəlif tədbirlər keçirildikdə.

Nəzarət qaydasında Azərbaycan Respublikası DİN Baş DYP İdarəsinin səlahiyyətlərinə aşağıdakılar aid edilmişdir:

**a)** reklamın nəqliyyat vasitəsində yayılmasını istisna edən hallar meydana çıxdıqda, reklamverənə bu barədə müvafiq məlumat vermək və reklamyayana müəyyən olunmuş müddətə qədər reklamın silinməsini tələb etmək;

**b)** nəqliyyat vasitələrində reklam yerləşdirmənin tələbləri pozulduqda, müvafiq şəxslərə pozuntunun aradan qaldırılması barədə sərəncam vermək, lazım gəldikdə reklam yayımının dayandırılması və ya vaxtından qabaq ləğv edilməsi üçün bu barədə materialları reklam verənə göndərmək, zəruri olduqda reklam yayana verilmiş icazəni (razılığı) geri almaq.



Çox önəmlidir ki, Azərbaycan Respublikası DİN Baş Dövlət Yol Polisi İdarəsinin razılığı olmadan nəqliyyat vasitələrində reklamın yayılması halı inzibati xəta kimi qiymətləndirilir. Belə hallar aşkar edildikdə, DYP müfəttişi tərəfindən nəqliyyat vasitəsi sürücüsünə inzibati protokol tərtib edilir. Nöqsanlar aradan qaldırıldıqdan və reklamın yayılması qaydalarını pozmuş vəzifəli şəxslər və sürücü barədə inzibati tənbeh tədbiri görüldükdən sonra nəqliyyat vasitəsinin istismarına icazə verilir.

Beləliklə qeyd etmək olar ki, nəqliyyat vasitələrində, küçə və yollarda reklam yayılması zamanı zəruri olan müvafiq texniki tələblərin və tənzimləyici normaların vahid şəkildə normativ-hüquqi aktlarla müəyyənləşdirilməsi, reklam fəaliyyəti prosesində yol hərəkəti təhlükəsizliyinin təmin edilməsinin vacib şərtlərindən biridir.

### 2.2.4. Nəqliyyat vasitələrinə dövlət texniki baxışının keçirilməsi tədbirləri

Nəqliyyat vasitələrinin yol hərəkətində iştirak etməyə buraxılması üçün «Yol hərəkəti haqqında» Qanunun müddəaları ilə müəyyənləşdirilmiş vacib normalardan biri də nəqliyyat vasitələrinin dövlət texniki baxışından keçirilməsi şərtidir. Ona görə də bu fəslin əvvəllərində texniki baxışın keçirilməsi şərtini, yol hərəkətində iştirak edən nəqliyyat vasitələrinə dair texniki təhlükəsizlik tədbirləri kompleksinin elementi kimi qeyd etmişik.

Respublika ərazisində qeydiyyatda olan nəqliyyat vasitələrinə və onların qoşqularına dövlət texniki baxışının keçirilməsi qaydaları, texniki baxışın təşkili, onun keçirilməsinə nəzarət və bu fəaliyyət prosesində meydana çıxan digər münasibətlər «Yol hərəkəti haqqında» Azərbaycan Respublikasının Qanunu, «Nəqliyyat vasitələrinə və onların qoşqularına dövlət texniki baxışın

keçirilməsi qaydaları haqqında» Nümunəvi Əsasnamə, «Azərbaycan Respublikası ərazisində hüquqi və fiziki şəxslərə məxsus traktor, özüyeriyən maşın və mexanizmlərin texniki vəziyyəti və istismarı üzərində dövlət nəzarəti haqqında» Əsasnamə və digər normativ-hüquqi sənədlərlə tənzimlənir.

«Yol hərəkəti haqqında» Qanunun 30-cu maddəsinin VI hissəsinə müvafiq olaraq, Azərbaycan Respublikasında qeydiyyatda olan bütün nəqliyyat vasitələrinə onların dövlət qeydiyyatını aparan orqanlarda ildə bir dəfə texniki baxış keçirilməsi nəzərdə tutulmuşdur. Məsələn: hüquqi və fiziki şəxslərə məxsus olan (Azərbaycan Respublikası Silahlı Qüvvələrindən və digər birləşmələrdən başqa) və mühərrikinin işçi həcmi 50 kub sm və daha çox, konstruktiv maksimal sürəti saatda 50 kilometrdən artıq olan nəqliyyat vasitələrinin dövlət qeydiyyatı Daxili İşlər Nazirliyinin Dövlət Yol Polisi orqanlarında aparıldığı üçün onlara illik texniki baxış da müvafiq olaraq, DYP orqanlarında həyata keçirilir; tırtıllı mexaniki nəqliyyat vasitələrinə, traktorlara, kənd təsərrüfatında istifadə olunan mexaniki nəqliyyat vasitələrinə illik texniki baxış, onların dövlət qeydiyyatını aparan Kənd Təsərrüfatı Nazirliyinin müvafiq orqanlarında həyata keçirilir və s.

Nəqliyyat vasitələrinə dövlət texniki baxışının keçirilməsində müvafiq dövlət orqanlarının qarşısına əsasən aşağıdakı məqsədlər qoyulmuşdur:

— nəqliyyat vasitələrinin texniki vəziyyətinin qüvvədə olan hərəkətin təhlükəsizliyi qaydalarının, normativlərinin, standartlarının tələblərinə müvafiq olmasına nəzarət etmək;
— nəqliyyat vasitələrinin mənsubiyyətini və digər qeydiyyat məlumatlarını dəqiqləşdirmək;
— nəqliyyat vasitələri ilə bağlı cinayət tərkibli hadisələrin və inzibati hüquqpozmaların qarşısını almaq;
— dövlət texniki baxışı keçirilərkən sürücülərin müvafiq kateqoriyalı sürücülük vəsiqələrinə və nəqliyyat vasitəsinə sərəncam hüququ verən müvafiq sənədə malik olmalarına, sürücülük vəsiqəsinin etibarlılıq müddətinə, nəqliyyat vasitələrinin sahibləri tərəfindən vergilərin və dövlət texniki baxışının keçirilməsi ilə əlaqədar müvafiq haqların ödənilməsinə nəzarəti təmin etmək.



Respublika ərazisində daimi və ya müvəqqəti qeydiyyatda olan, mülkiyyət formasından asılı olmayaraq bütün mexaniki nəqliyyat vasitələrinə və qoşqulara (yarımqoşqulara) dövlət texniki baxışının ildə 1 dəfə, yanvar ayının 1-dən oktyabr ayının 31-dək olan müddətdə həyata keçirilməsi müəyyənləşdirilmişdir.

Eyni zamanda, qanunvericiliklə belə bir istisna nəzərdə tutulmuşdur ki, istehsal olunduğu ildə qeydiyyata alınan nəqliyyat vasitəsi həmin ildə texniki baxışa cəlb olunmur. Dövlət qeydiyyatına alınan zaman belə nəqliyyat vasitələrinə dövlət texniki baxış talonu verilir.

Dövlət texniki baxışının təşkili üzrə tədbirlər planlaşdırılarkən, texniki baxış keçirən müvafiq orqanlar tərəfindən hüquqi şəxslərin təklifləri nəzərə alınmaqla, texniki baxışın keçirilmə yeri, vaxtı və s. şərtlər müəyyən edilir. Nəqliyyat vasitələrinin dövlət texniki baxışına təqdim edilməsi qaydaları haqqında kütləvi informasiya vasitələrində qabaqcadan müvafiq məlumatlar verilir.

Nəqliyyat vasitələrinin dövlət texniki baxışına texniki cəhətdən saz vəziyyətdə təqdim edilməsi onların sahiblərinin (və ya qanuni nümayəndələrinin) qarşısında bir vəzifə borcu kimi durur. Texniki cəhətdən nasaz olan nəqliyyat vasitələrinin yol hərəkətində iştirak etməsinə yol verilmir.

Nəqliyyat vasitələrinə dövlət texniki baxışının həyata keçirilməsi üçün nəqliyyat vasitəsinin sahibi və ya nəqliyyat vasitəsinə sərəncam vermək hüququ olan və qanunvericiliklə müəyyən edilmiş qaydada təsdiq olunmuş etibarnaməsi olan şəxs tərəfindən texniki baxış keçirən müvafiq orqana aşağıdakı sənədlərin təqdim edilməsi müəyyənləşdirilmişdir:

**1)** nəqliyyat vasitəsini idarə etməyə hüquq verən sənəd;
**2)** nəqliyyat vasitəsinin qeydiyyat şəhadətnaməsi;

3) nəqliyyat vasitəsinin istismarının qadağan edilməsinə səbəb olan nasazlıqların aradan qaldırılması barədə təminatlı texniki xidmət göstərən texniki təmir sahəsinin və ya stansiyasının sənədi (əgər belə xidmət həmin stansiya və ya sahə tərəfindən göstərilmişdirsə);

4) Azərbaycan Respublikası qanunvericiliyi ilə müəyyən edilmiş rüsumun və ya verginin və yaxud ödənclərin ödənilməsi barədə qəbzlər.

Nəqliyyat vasitələri sahiblərinin rahatlığı və dövlət uçotunun səlist aparılmasının təmin edilməsi məqsədi ilə belə bir qayda da mövcuddur ki, nəqliyyat vasitəsini dövlət texniki baxışının keçirildiyi yerə gətirmək mümkün olmadıqda (nasazlığına, ehtiyat hissələrinin olmadığına və s. görə), texniki baxışı keçirən orqan tərəfindən nəqliyyatın dayanacaq yerində ona texniki baxış keçirilir. Lakin nasazlıq aradan qaldırılana qədər nəqliyyatın istismarına yol verilmir.

Texniki baxış zamanı nəqliyyat vasitəsinin istismarının qadağan edilməsinə səbəb olan nasazlıqların aradan qaldırılması barədə təminatlı texniki xidmət göstərən texniki təmir sahəsinin və ya stansiyasının sənədi (əgər belə xidmət həmin stansiya və ya sahə tərəfindən göstərilmişdirsə) təqdim olunduqda nəqliyyat vasitəsinə texniki baxış keçirilir.

Dövlət texniki baxışından keçmiş saz nəqliyyat vasitələrinə texniki baxışı keçirən orqan tərəfindən müəyyən edilmiş formada və qaydada müvafiq texniki baxış talonu verilir.

Nəqliyyat vasitələrinin dövlət texniki baxışından keçirilməsinin mahiyyətinə və ümumi prinsiplərinə toxunaraq onların məzmununu açıqladıq. Lakin mövcud praktikadan göründüyü kimi, nəqliyyat vasitələrinə texniki baxışın konkret müvafiq dövlət orqanlarında keçirilməsindən asılı olaraq, müəyyən fərdi xüsusiyyətləri də vardır. Ona görə də nəqliyyat vasitələrinə dövlət texniki baxışını keçirən hər bir müvafiq orqan tərəfindən (Daxili İşlər Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi və s.) texniki baxışının keçirilməsi proseduraşı, texniki baxışın rəsmiləşdirilməsi və s. hallar üzrə konkret xüsusi normaların müəyyənləşdirilməsi çox önəmlidir.



Belə ki, Dövlət Yol Polisi orqanlarında qeydiyyatda olan nəqliyyat vasitələrinə dövlət texniki baxışının keçirilməsinin respublika ərazisində vahid formaya və nizama salınması məqsədi ilə Daxili İşlər Nazirliyi tərəfindən xüsusi bir normativ sənəd— «Nəqliyyat vasitələrinə və onların qoşqularına dövlət texniki baxışının keçirilməsi haqqında» Təlimat təsdiq edilmişdir. Sənəddə, nəqliyyat vasitələrinin dövlət texniki baxışına hazırlıq, onun təşkili, keçirilməsi, nəzarət və s. məsələlər geniş şəkildə şərh olunmuşdur.

Təlimatda müəyyən edilmiş normalara görə texniki baxış zamanı nasaz hesab edilən və istismarı qüvvədə olan qanunvericiliyə uyğun şəkildə qadağan edilən nəqliyyat vasitələrinin dövlət nömrə nişanlarından biri alınır və nasazlığın bir ay müddətində aradan qaldırılması üçün nəqliyyat vasitəsinin sahibinə xəbərdarlıq edilir. Nəqliyyat vasitəsi saz vəziyyətə salındıqdan sonra təkrarən texniki baxışa təqdim edilir.

Digər bir normada göstərilir ki, dövlət texniki baxışından keçirilmiş saz nəqliyyat vasitələrinə Dövlət Yol Polisi orqanları tərəfindən verilən xüsusi texniki baxış talonunda nəqliyyat vasitəsinin markası, dövlət qeydiyyat nişanları, texniki baxışdan keçmə vaxtı və s. məlumatlar qeyd edilir. Talon DYP orqanının möhürü ilə təsdiqlənir və avtomobilin salonunda qabaq şüşənin aşağı sağ küncünə yapışdırılır.

Respublika ərazisində nəqliyyat vasitələrinə dövlət texniki baxışın keyfiyyətinin yüksəldilməsi üçün texniki tələblərə cavab verən və müasir nəzarət-ölçü cihazları və avadanlıqları ilə təchiz olunmuş texniki müayinə xidmət sahələri (müayinə mərkəzi, müayinə stansiyası, nəzarət postları və s.) yaradılmışdır. Belə məntəqələr hal-hazırda Bakı, Naxçıvan, Gəncə, Sumqayıt şəhərlərində səmərəli şəkildə fəaliyyət göstərir.

Azərbaycan Respublikası ərazisində hüquqi və fiziki şəxslərə məxsus olan digər bir qrup texnikanın (traktor, özüyeriyən maşın, mexanizm və s.) dövlət texniki baxışından keçirilməsinin də özünəməxsus xüsusiyyətləri vardır. Belə texnikanın texniki vəziyyəti və istismarı üzərində dövlət nəzarəti Azərbaycan Res-

publikası Nazirlər Kabinetinin 1999-cu il 27 sentyabr tarixli 158 nömrəli qərarı ilə təsdiq edilmiş Əsasnaməyə müvafiq olaraq Kənd Təsərrüfatı Nazirliyinin Baş Dövlət Texniki Nəzarət Müfəttişliyi «Azərbaşdövləttexnəzarət» orqanları tərəfindən həyata keçirilir.

Əsasnamənin müddəalarına uyğun olaraq, «Dövləttexnəzarət» müfəttişliyi orqanlarının ümumilikdə götürdükdə əsas vəzifələri kimi aşağıdakılar müəyyənləşdirilmişdir:

— hüquqi və fiziki şəxslərə məxsus (Daxili İşlər Nazirliyi, Milli Təhlükəsizlik Nazirliyi, Müdafiə Nazirliyi istisna olmaqla) texnikanın texniki vəziyyəti üzərində dövlət nəzarətini həyata keçirmək;
— Azərbaycan Respublikası ərazisində hüquqi və fiziki şəxslər tərəfindən texnikanın texniki istismarı qaydalarına dair Azərbaycan Respublikasında qüvvədə olan dövlət standartlarının və normativ sənədlərin tələblərinə riayət olunmasına nəzarət etmək;
— hüquqi və fiziki şəxslərə satılmış texnikanın zəmanət müddətində istismarı zamanı aşkara çıxan nasazlıqların aradan qaldırılmasına və müqavilə əsasında təmir edilmiş texnikanın keyfiyyətinin aşağı olmasına görə irəli sürülən iddia və tələblərin müəyyən edilmiş qaydada yerinə yetirilməsi üzərində dövlət nəzarətini həyata keçirmək;
— texnikanı illik dövlət texniki baxışından keçirmək;
— texnikanı, o cümlədən həvəskar konstruksiya müəllifləri tərəfindən düzəldilən texnikanı qeydiyyata almaq, onlara dövlət qeydiyyat nişanları və dövlət qeydiyyat şəhadətnamələri vermək;
— traktorçu-maşinist peşəsinə yiyələnmək istəyən vətəndaşlardan imtahan götürərək, onlara traktorçu-maşinist vəsiqəsi vermək;
— Azərbaycan Respublikası ərazisində hüquqi və fiziki şəxslərdən texnikanın qeydiyyata alınmasına, texniki baxışın keçirilməsinə, dövlət qeydiyyat nişanlarının və traktorçu-maşinist vəsiqəsinin verilməsinə görə qanunvericiliklə müəyyən edilmiş haqların alınmasını təmin etmək;
— öz səlahiyyətləri daxilində qanunvericiliklə müəyyən olunmuş qaydada inzibati hüquqpozmalara dair işlərə baxmaq, onların əmələ gəlmə səbəblərini təhlil etmək və aradan qaldırılması üçün tədbirlər görmək, habelə inzibati hüquq pozuntularının qeydiyyatını aparmaq;
— qeydiyyata alınmış texnikanın dövlət qeydiyyat nişanlarının seriyalarına görə yerlərdə mərkəzləşmiş qaydada kartotekaların yaradılmasını və onların uçotunun aparılmasını təşkil etmək.

«Dövləttexnəzarət» müfəttişliyi orqanları onlara tapşırılmış vəzifələrin icrasını təmin etmək üçün müəyyən səlahiyyət və hüquqlara malikdirlər. Belə ki, Azərbaycan Respublikası ərazisində mövcud olan texnikanın texniki vəziyyəti və istismarı üzərində dövlət nəzarətini həyata keçirmək məqsədilə «Dövləttexnəzarət» müfəttişliyi orqanları maneəsiz olaraq tabeçiliyindən asılı olmayaraq müəssisə, idarə, təsərrüfat, təşkilat və istehsalat obyektlərində (bundan sonra-müəssisə) texnikanın və ehtiyat hissələrinin qüvvədə olan dövlət standartlarının və digər normativ sənədlərin tələblərinə uyğun saxlanılmasını, təmirdən çıxmış texnikanın keyfiyyətini yoxlamaq və aşkar edilən nöqsanların aradan qaldırılması barədə təqdimat vermək hüququna malikdir.

Bu müfəttişlərə müəssisə rəhbərinin razılığı ilə onların mütəxəssislərini həmin müəssisədə texnikanın saxlanılması və istismarı qaydalarına əməl olunmasını yoxlamağa və dövlət texniki baxışının keçirilməsinə cəlb etmək səlahiyyəti verilmişdir.

Sadalanan əsas səlahiyyətlərlə yanaşı «Dövləttexnəzarət» müfəttişliyi orqanlarının, həm də aşağıdakı əlavə hüquqları vardır. Onlar əsasən aşağıdakılardan ibarətdir:

— traktor, özüyeriyən maşın və mexanizmlərin texniki vəziyyəti və istismarı üzərində dövlət nəzarətini həyata keçirərkən öz səlahiyyətləri daxilində hüquqi və fiziki şəxslərdən zəruri sənədləri tələb etmək;

— texnikanın saxlanılması və istismarında texniki şərtlərin pozulmasına və digər nöqsanların aradan qaldırılmasına görə verilən təqdimat hüquqi və fiziki şəxslər tərəfindən icra olunmadıqda, təqdimatda göstərilən işlərin məcburi yerinə yetirilməsi üçün həmin şəxslər haqqında akt tərtib etmək;

— konstruksiya və texniki vəziyyəti qüvvədə olan normativ sənədlərə, standartlara və qaydalara uyğun gəlməyən, müəyyən edilmiş qaydada qeydiyyata alınmayan, dövlət qeydiyyat nişanı olmayan və dövlət texniki baxışından keçməyən texnikanın istismarını qadağan etmək;

— texnikanın istismar qaydalarının pozulmasının qarşısını qabaqcadan almaq məqsədilə hüquqi və fiziki şəxslərə zəruri tədbirlərin həyata keçirilməsi barədə təkliflər vermək və sairə.

Qeyd edilən xüsusi normalarla yanaşı, bütün növ nəqliyyat vasitələrinin ümumilikdə dövlət texniki baxışından keçirilməsi mexanizmini nizama salan və texniki baxışı həyata keçirən müvafiq orqanların hamısına xas olan xüsusi tənzimləyici normalar da mövcuddur. Bu qəbildən olan normaların tənzimlədiyi münasibətlərin predmeti qismində texniki baxışın keçirilməsinə nəzarət, texniki baxışın nəticələrinin sənədləşdirilməsi, məsuliyyət və s. məsələlər əhatə edilir.

Texniki baxış keçirən müvafiq orqanlar tərəfindən nəqliyyat vasitələrinin dövlət texniki baxışına mümkün qədər tam həcmdə cəlb edilməsinə nail olmaq məqsədi ilə bu işə ümumi nəzarət konkret tədbirlər formasında həyata keçirilir. Belə tədbirlər formasına aşağıdakılar aiddir:

— nəqliyyat vasitələrinin dövlət texniki baxışın keçirilməsi müddətinə və qaydalarına riayət olunmasının yoxlanılması;

— dövlət texniki baxışından keçmiş nəqliyyat vasitələrinin texniki vəziyyətinin və qeydiyyat məlumatlarının müəyyən edilmiş tələblərə uyğunluğunun seçmə yolu ilə (müəssisənin ərazisində, nəqliyyat vasitələri xəttə çıxarkən, qayıdarkən, həmçinin istismar prosesində) yoxlanması;

— nəqliyyat vasitələrinə dövlət texniki baxışın nəticələri haqqında müəyyən edilmiş məlumatların müvafiq orqanların uçot bazası ilə tutuşdurulması.

Texniki baxışın həyata keçirilməsinin nəticəsi barədə yekun göstəricilərin texniki baxış keçirən müvafiq orqanlar tərəfindən respublika üzrə ümumiləşdirildikdən sonra 1 ay müddətində Azərbaycan Respublikası Nazirlər Kabinetinə və Dövlət Statistika Komitəsinə təqdim edilməsi xüsusilə əhəmiyyətlidir.

Bu məlumatlar respublikanın nəqliyyat vasitələri parkının texniki durum səviyyəsinin müəyyən edilməsində, cəmiyyətin sosial-iqtisadi inkişaf proqnozlarının formalaşmasında, nəqliyyat infrastrukturunun yeniləşməsində və digər mühüm əhəmiyyət kəsb edən tədbirlərin, o cümlədən yol hərəkəti təhlükəsizliyi üzrə tədbirlərin planlaşdırılmasında səmərəli rol oynayan amillər kimi nəzərə alınır.

Həmçinin, texniki baxışın nəticəsinə görə nəqliyyat vasitələrinin texniki vəziyyəti regionlar üzrə təhlil olunaraq təsərrüfatlarda nəqliyyat vasitələrinin hazırlıq səviyyəsi, onların yararsız vəziyyətinin və baxışdan keçirilməməsinin səbəbləri araşdırılır və təhlilin nəticələri aşkar olunmuş nöqsanların aradan qaldırılması istiqamətində həyata keçirilən texniki təhlükəsizlik tədbirlərində istifadə edilir.

### 2.2.5. Nəqliyyat vasitələrinin saxlanılmasının hüquqi aspektləri

Nəqliyyat vasitəsi mülki hüququn normalarına görə yüksək təhlükə mənbəyi hesab olunur. Ona görə də nəqliyyat vasitələrinin saxlanılması ilə əlaqədar meydana çıxan hüquqi münasibətlər müvafiq qanunvericiliklə tənzimlənir.

Saxlama haqqında ümumi müddəalar, saxlayıcının vəzifələri, hüquqları və digər məsələlərin həlli Azərbaycan Respublikası Mülki Məcəlləsinin 822-826-cı maddələrində öz əksini tapmışdır.

Nəqliyyat vasitələrinin saxlanılması məsələlərinin tənzimlənməsinə «Yol hərəkəti haqqında» Qanunda xüsusi bir norma həsr olunmuşdur. Qanunun müddəalarına görə nəqliyyat vasitələrinin sahibləri və ya sürücüləri nəqliyyat vasitələrini duracaqlarda və qarajlarda, habelə yol hərəkəti təhlükəsizliyi, ətraf mühitin mühafizəsi və ictimai təhlükəsizliyin tələblərinə cavab verən yerlərdə saxlamalıdırlar (maddə 31).

Duracaq anlayışının mənası altında hərəkətsiz vəziyyətə gətirilmiş nəqliyyat vasitəsinin saxlanıldığı mühafizə olunan qapalı ərazi başa düşülür.

Qaraj isə, nəqliyyat vasitələrinin durması və parklanması üçün nəzərdə tutulan mühafizə olunan tikilidir.

Toxunulmuş məsələnin aktuallığı baxımından qanunverici, yerli icra hakimiyyəti orqanlarının qarşısında bir vəzifə kimi nəzərdə tutmuşdur ki, yaşayış məntəqələrinin layihələşdirilməsi zamanı nəqliyyat vasitələri duracaqlarının, habelə qarajların yollara bitişik ərazilərdə yerləşdirilməsini planlaşdırmalıdırlar. Həmçinin, qarajların və ya duracaqların tikilməsi üçün torpaq sahələri bu barədə müraciət etmiş şəxslərin olduqları ərazinin və ya onların yaşadığı binaların yaxınlığında ayrılmalıdır.

Duracaq və qarajlarda nəqliyyat vasitələrinin saxlanılması qaydaları Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş «Nəqliyyat vasitələrinin duracaqları və qarajlar haqqında» Nümunəvi Əsasnamə ilə nizama salınır*.

Nəqliyyat vasitələrinin duracağa və qaraja qəbul edilməsi, saxlanılması və verilməsi qaydaları, duracaq və qarajların məsul şəxslərinin və nəqliyyat vasitəsi sahibinin hüquq və vəzifələri və digər məsələlərin həlli Əsasnamədə ətraflı şəkildə şərh olunmuşdur.

Müəyyən edilmiş qaydalara görə duracaq və qarajlar fiziki və hüquqi şəxslər tərəfindən yaradılır və onlar yuxarıda adını çəkdiyimiz Nümunəvi Əsasnamə əsasında fəaliyyət göstərir.

---

* *Bu barədə bax:* **Azərbaycan Respublikası Nazirlər Kabinetinin 6 aprel 1999-cu il tarixli, 60 nömrəli Qərarı.**



«Yol hərəkəti haqqında» Qanunla müəyyən olunmuş hallarda istismarı qadağan edilən, eləcə də yol hərəkətindən kənarlaşdırılan nəqliyyat vasitələrinin müvəqqəti olaraq saxlanılması üçün Dövlət Yol Polisi orqanları tərəfindən müvafiq duracaq və qarajlar təşkil edilir.

Nəqliyyat vasitələrinin saxlanılması ilə əlaqədar meydana çıxan münasibətlərin elementlərini nəzərdən keçirək. Saxlama münasibətlərində iki tərəf iştirak edir: tapşıran; saxlayıcı*.

Saxlayıcı rolunda həm vətəndaşlar, həm də hüquqi şəxslər çıxış edə bilər. Vətəndaşın saxlayıcı qismində çıxış etməsi üçün onun tam fəaliyyət qabiliyyətinə malik olması tələb edilir. İstənilən hüquqi şəxs saxlayıcı rolunda iştirak edə bilər. Lakin bunun üçün zəruri və vacibdir ki, hüquqi şəxsin fəaliyyətinin hüquqi əsasını təşkil edən təsis sənədi-nizamnamə, əsasnamə, təsis müqaviləsi və s. onun saxlama fəaliyyəti ilə məşğul olmasını qadağan etməsin. Saxlayıcı həm peşəkar, həm də qeyri-peşəkar ola bilər. Peşəkar saxlayıcı odur ki, o, saxlama üzrə xidməti müstəqil peşə, sənət fəaliyyəti formasında həyata keçirir. Peşəkar saxlayıcı rolunda çox vaxt əsasən hüquqi şəxslər çıxış edir. Qeyri-peşəkar saxlayıcılara gəldikdə isə, qeyd etmək lazımdır ki, bu cür şəxslər saxlama üzrə xidməti qeyri-peşə fəaliyyəti formasında həyata keçirirlər. Qeyri-peşəkar saxlayıcı rolunda həm hüquqi şəxslər, həm də fiziki şəxslər çıxış edə bilərlər.

Saxlama münasibətlərinin digər elementi tapşırandır. Tapşıran elə bir tərəfdir ki, o, geri, özünə qaytarmaq şərti ilə nəqliyyat vasitəsini saxlamaq üçün saxlayıcıya verir. Tapşıran qismində nəqliyyat vasitəsinin sahibi və ya onun qanuni nümayəndəsi, təmsil edən şəxs çıxış edir. Göründüyü kimi, tapşıran rolunda adətən, bir qayda olaraq nəqliyyat vasitəsinin mülkiyyətçisi çıxış edir. Lakin özgəsinin nəqliyyat vasitəsi mülkiyyətçi olmayan şəxs tərəfindən də saxlanca verilə bilər. Məsələn, icarəçi icarə-

---

* *Bununla əlaqədar daha ətraflı bax:* **Allahverdiyev S.S. Azərbaycan Respublikasının Mülki Hüququ, Dərslik, II cild, Bakı, "Digesta" nəşriyyatı, 2001.**

yə götürdüyü nəqliyyat vasitəsinin mülkiyyətçisi deyildir. Saxlanca verməyə həm də mülkiyyətçi olmayan digər səlahiyyətli şəxslərin-daşıyıcıların, kirayəçilərin, əvəzsiz istifadə edənlərin, podratçıların, mövcud qanunvericiliyə müvafiq olaraq nəqliyyat vasitəsinin istismarını qadağan edən və ya onu yol hərəkətindən kənarlaşdıran Dövlət Yol Polisi əməkdaşların və s. ixtiyarı çatır. Belə hallarda nəqliyyat vasitəsi saxlanca verilərkən mülkiyyətçinin razılıq verməsi tələb edilmir. Şübhəsiz, söz yox ki, mülkiyyətçi vindikasiya iddiası əsasında saxlayıcıdan öz nəqliyyat vasitəsini tələb etmək hüququna malikdir.

Qeyd olunanlarla yanaşı elə saxlama növləri vardır ki, bu cür münasibətlərdə tapşıran və saxlayıcı rolunda eyni bir şəxs çıxış edir. Məsələn, nəqliyyat vasitəsinin sahibi, onu, özünə məxsus olan və ya istifadəsində olan qarajda saxlayır.

Saxlama münasibətlərində predmet dedikdə saxlayıcının tapşırana göstərdiyi saxlanc üzrə xidmət, özü də faktiki xarakterli xidmət başa düşülür. Bu xidmətin özünün obyekti isə saxlanc obyekti kimi çıxış edir (bizim araşdırdığımız halda konkret olaraq nəqliyyat vasitələri).

Saxlama münasibətlərinin digər elementləri qismində saxlamanın müddəti, forması, qiyməti və s. başa düşülür.

Saxlama münasibətlərində saxlayıcının hüquq və vəzifələri, tapşıranın hüquq və vəzifələri bu münasibətlərin məzmununu təşkil edir.

Göstərilənlərə yekun vuraraq qeyd etmək lazımdır ki, nəqliyyat vasitələrinin saxlanılması üçün «Yol hərəkəti haqqında» Qanunun və yuxarıda söhbət açdığımız Nümunəvi Əsasnamənin müddəaları ilə konkret müvafiq hüquq və vəzifələr müəyyənləşdirilmişdir.

Nəqliyyat vasitələrinin saxlanılması zamanı saxlayıcının, yəni duracaq və qarajların məsul şəxslərinin aşağıdakı hüquq və vəzifələri vardır:

— nəqliyyat vasitəsinin sahibindən və ya sürücülərdən nəqliyyat vasitələrinin saxlanma qaydasına əməl olunmasının tələb edilməsi;



— saxlanılması üçün təqdim olunan nəqliyyat vasitəsinin xarici görünüşü və komplektliyinin, zərurət olduqda isə nəqliyyat vasitəsinin qeydiyyat şəhadətnaməsinin, onu idarə edən şəxsin sürücülük vəsiqəsinin yoxlanılması və onların qeydə alınması;

— saxlanca qəbul zamanı nəqliyyat və sahibi barədə məlumatın müəyyən edilmiş formada qeydiyyat jurnalına yazılması və bu barədə imza edilməsi, duracaq və qarajdan istifadə üçün ödənişə görə müvafiq formada qəbzin və ya saxlanma kartının verilməsi;

— banı zədələnmiş vəziyyətdə saxlanca təhvil verilən nəqliyyat vasitəsinin sahibindən DYP orqanının arayışının tələb edilməsi, təqdim olunan arayış üzrə müvafiq qeydiyyatın aparılması.

Qanunla istismarı qadağan edilən və yol hərəkətindən kənarlaşdırılan nəqliyyat vasitələri müvəqqəti saxlanılması üçün Dövlət Yol Polisi orqanının nəzdində fəaliyyət göstərən duracaq və qarajlara gətirilir.

Duracağa və qaraja məcburi gətirilən nəqliyyat vasitəsi müvafiq akt əsasında saxlanca qəbul edilir. Aktın bir nüsxəsi tərtib olunmuş inzibati materiala əlavə edilir, digər nüsxəsi isə nəqliyyat vasitəsi sahibinə verilir.

Duracaq və qaraj sahibləri nəqliyyat vasitələrinin toxunulmaz və təhlükəsiz şəraitdə saxlanılmasını təmin etməlidirlər.

Nəqliyyat vasitələri saxlanca qəbul edilən müddət ərzində onun istismar olunmasına, oğurlanmasına, hissələrinin sökülməsinə, avadanlığının oğurlanmasına görə duracaq və qaraj sahibləri Azərbaycan Respublikası qanunvericiliyinə müvafiq məsuliyyət daşıyırlar.

Duracaq və qaraj sahibləri nəqliyyat vasitəsi oğurlandıqda və ya qaçırıldıqda, hissələri söküldükdə ərazi üzrə daxili işlər orqanlarına təcili məlumat verməlidirlər.

Nəqliyyat vasitəsinin duracağa və qaraja gətirilməsi və orada saxlanılmasına görə xidmət haqqı duracaq və qarajın sahibi tərəfindən müəyyən edilən qiymət cədvəlinə uyğun tutulur. Dura-

caq və qarajlara saxlanca görə haqq nəqliyyat vasitəsi təhvil verilərkən ödənilir.

Əgər saxlama müddəti haqqı ödənilmiş bir sutkadan artıq olarsa və ya nəqliyyat vasitəsi məcburi saxlanılarsa, saxlanca görə ödəniş, eləcə də onun duracağa gətirilmə haqqı, sahibi tərəfindən nəqliyyat vasitəsi götürüləndə verilir.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Baş DYP İdarəsinin nəzdində fəaliyyət göstərən duracaq və qarajlarda xidmətə görə ödəniş haqqı Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi ilə razılaşdırılan qiymət cədvəlinə uyğun tutulur. Duracaq və qarajlarda müqavilə qiymətləri ilə nəqliyyat vasitələrinə qulluqla əlaqədar, digər növ xidmətlər də göstərilə bilər.

Nəqliyyat vasitəsi duracaqda və qarajda saxlanılarkən aşağıdakı texniki təhlükəsizlik qaydalarına riayət olunması müəyyənləşdirilmişdir:

— duracaqda və qarajda nəqliyyat vasitələri saxlanc üçün xüsusi işarələnmiş yer hüdudlarında dayandırılmalı, qapıları kilidlənməli, duracaq tormoz sistemi qoşulmalıdır;
— icazə verilən maksimum kütləsi 3.5 tondan çox olan nəqliyyat vasitəsini maili yerdə duracağa qoyduqda, təkərlərdən heç olmazsa birinin altına tıxac qoyulmalıdır;
— duracaq və qaraj daxilində nəqliyyat vasitəsi saatda 5 km-dən artıq olmayan sürətlə idarə olunmalıdır;
— nəqliyyat vasitəsi saxlanca qoyulduqdan sonra ona yanacaq doldurulmamalıdır;
— duracaq və qaraj daxilində saxlanca qoyulmuş nəqliyyat vasitələrinin salonlarında istirahət edilməməli və ya yuma, təmizləmə işləri aparılmamalıdır;
— nəqliyyat vasitəsindən yanacaq və yağ axdıqda, o saxlanca qoyulmamalıdır.

Nəqliyyat vasitəsi duracaq və qarajdan verilərkən növbətçi qulluqçuya sahibinin şəxsiyyətini təsdiq edən sənəd və saxlanma kartı və ya qəbz təqdim olunur. Sahibi ilə razılaşma əsasında bu nəqliyyat vasitəsi, onun notariat qaydada etibar etdiyi başqa şəxsə də verilə bilər. Saxlanma kartı və ya qəbz itirildikdə, nəqliyyat vasitəsi, sahibinə duracağın və ya qarajın məsul şəxslərinin razılığı əsasında verilir.



Qanunla istismarı qadağan edilən və yol hərəkətindən kənarlaşdırılan nəqliyyat vasitəsi duracaqdan və qarajdan saxlanma səbəblərinin aradan qaldırılması və pozuntuya görə inzibati tənbeh verilməsi barədə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi BDYP orqanının vəzifəli şəxsinin arayışı əsasında verilir. Sahibinin sərxoş vəziyyətdə olmasına kifayət qədər əsas olduqda nəqliyyat vasitəsi növbətçi qulluqçu tərəfindən duracaq və qarajdan verilə bilməz.

Nəqliyyat vasitəsi sahibinin vəzifəsi qismində aşağıdakıları göstərmək olar:

— nəqliyyat vasitəsinin sahibi onu duracağın və qarajın növbətçi qulluqçusuna yoxlama üçün təqdim etməli və qeydiyyatdan keçdikdən sonra göstərilən yerə qoymalıdır;
— nəqliyyat vasitəsinin sahibi duracaq və qarajda saxlanılma və yanğın təhlükəsizliyi qaydalarına əməl etməlidir;
— saxlanc üçün ödəniş haqqını verdikdən sonra qəbz və ya saxlama kartı almalıdır;
— nəqliyyat vasitəsinin sahibi onu duracaq və qarajdan qəbul etdikdə yoxlamalı, etirazı barədə növbətçi qulluqçuya bildirməlidir;
— nəqliyyat vasitəsi sahibi duracaq və qaraj, eləcə də digər nəqliyyat vasitəsi sahibinə vurmuş olduğu ziyanı ödəməlidir.

«Yol hərəkəti haqqında» Qanunun 31-ci maddəsinin V hissəsinə müvafiq olaraq nəqliyyat vasitələrinin saxlanılması qaydaları sırasında belə bir şərt də müəyyən edilmişdir ki, nəqliyyat vasitələrinin icazə verilməyən yerlərdə saxlanılması yolverilməzdir.

## 2.3. Nəqliyyat vasitələrini idarəetmə hüququ

Nəqliyyat vasitələrinin yol hərəkətində iştirak etməyə buraxılmasının mühüm şərtlərindən biri də onları idarə

edən şəxslərin müvafiq sürücülük hüququna malik olmasıdır. Hər hansı bir şəxsin nəqliyyat vasitələrini idaretmə hüququnu təsdiq edən sənəd isə sürücülük vəsiqəsi hesab olunur.

Nəqliyyat vasitələrini idarəetmə hüququ, sürücülərə verilən tələblər, sürücülük vəsiqələrinin verilməsi və bu sahədə meydana çıxan digər münasibətlər «Yol hərəkəti haqqında» Konvensiya, «Yol hərəkəti haqqında» Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 15 mart tarixli 41 nömrəli qərarı ilə təsdiq edilmiş «Nəqliyyat vasitələri sürücülərinin hazırlanması və onların ixtisasının artırılması kursları haqqında» Əsasnamə, «Sürücülük vəsiqəsini almaq üçün yol hərəkəti qaydaları üzrə nəzəri və nəqliyyat vasitələrini idarəetmə məsələləri üzrə təcrübi imtahanlara müstəqil hazırlaşma» Qaydaları, «Nəqliyyat vasitələrini idarə etmək hüququ verən sürücülük vəsiqəsi almaq istəyən şəxslərdən imtahanların qəbul edilməsi və onlara sürücülük vəsiqəsinin verilməsi qaydaları haqqında» Əsasnamə və digər normativ-hüquqi aktlarla tənzimlənir.

«Yol hərəkəti haqqında» Konvensiyanın müddəalarına müvafiq olaraq sürücü (çarvadar) anlayışının məna yükü nəqliyyat vasitəsini, avtomobili, velosipedi və i.a. idarə edən və ya yollarda mal-qaranı, sürüləri, qoşqu-yük və ya minik heyvanlarını sürüb aparan hər hansı şəxsi əhatə edir.

Yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi sahəsində sürücü digər hərəkət iştirakçıları ilə müqayisədə mühüm və həlledici amil kimi xüsusi rol oynayır. Elə bu baxımdan, sürücülərə verilən tələblərin Konvensiyada xüsusi bir maddə ilə (m.8) nəzərdə tutulmasını qeyd etmək yerinə düşərdi.

Konvensiyanın müəyyənləşdirdiyi normalara görə hərəkətdə olan bir nəqliyyat vasitəsinin və ya nəqliyyat vasitəsi qatarının sürücüsü olmalıdır. Sürücü zəruri fiziki və psixi keyfiyyətlərə malik olmalı və onun fiziki və əqli vəziyyəti nəqliyyat vasitəsini idarə etməyə imkan verməlidir. Həm də nəzərdə tutulmuşdur ki, sürücü nəqliyyat vasitəsini idarə etmək üçün zəruri bilik və vərdişlərə malik olmaqla yanaşı, həmişə öz nəqliyyat vasitəsini



idarə etməyə qadir olmalıdır. Konvensiyanın 41-ci maddəsinin müddəalarına görə hər bir avtomobil sürücüsünün sürücülük vəsiqəsi olmalıdır və razılığa gələn tərəflər bunu təmin etməyi öz öhdələrinə götürürlər ki, sürücülük vəsiqələri yalnız sürücünün lazımi bilik və vərdişlərinin olması səlahiyyətli orqanlar tərəfindən yoxlanıldıqdan sonra verilsin.

Nəqliyyat vasitəsinin sürücüsü, sürücülük vəsiqəsi, o cümlədən milli sürücülük vəsiqəsi və beynəlxalq sürücülük vəsiqəsi və s. məsələlərin tənzimlənməsinə Konvensiyada ayrıca yer verilmişdir (bax: IV fəsil, 6 və 7 saylı əlavələr).

Göstərilən norma və tələblərə analoji olaraq, Azərbaycan Respublikasının milli qanunvericiliyi də yol hərəkəti təhlükəsizliyinin təmin olunması məsələsini əsas məqsəd kimi ön plana çəkərək, yol hərəkətində iştirak edən sürücülərə konkret tələblər irəli sürmüşdür. Nəqliyyat vasitəlrini idarəetmə hüququnu əldə etmək üçün sürücülərin mülki hüquqi fəaliyyət qabiliyyətinin, nəqliyyat vasitələrinin növündən asılı olaraq müvafiq yaş həddlərinin, psixi-fizioloji sağlamlıq və s. amillərin müəyyənləşdirilməsi çox önəmlidir.

«Yol hərəkəti haqqında» Qanunun 33-cü maddəsinə müvafiq olaraq, Azərbaycan Respublikası ərazisindəki yollarda nəqliyyat vasitələrini idarəetmə hüququnun yaranması fiziki şəxslərin yaş həddindən asılı olaraq aşağıdakı kimi müəyyən edilmişdir:

1. velosipedi və ya arabanı idarəetmə hüququ — 14 yaşdan;
2. asma mühərrikli velosipedi və mopedi idarəetmə hüququ — 16 yaşdan;
3. motosikletləri idarəetmə hüququ — 16 yaşdan;
4. oturacaq yerlərinin sayı sürücünün oturacağından əlavə 8-dən artıq olmayan avtomobilləri idarəetmə hüququ — 18 yaşdan;
5. tramvayları idarəetmə hüququ — 20 yaşdan;
6. trolleybusları idarəetmə hüququ — 21 yaşdan;
7. oturacaq yerlərinin sayı sürücünün oturacağından əlavə 8-dən çox olan avtomobilləri idarəetmə hüququ — 21 yaşdan (müstəsna qaydada hərbi qulluqçular üçün -19 yaşdan).

Mövcud olan normativ-hüquqi bazaya görə, qanunvericiliklə nəzərdə tutulan yaş həddinə çatmış, sağlamlıq cəhətdən sürücülüyə yararlı, yol hərəkəti qaydalarını bilən, sürmə vərdişi və sürücülük vəsiqəsi olan hər bir fiziki şəxs Azərbaycan Respublikasının ərazisində nəqliyyat vasitələrini idarəetmə hüququna malikdir.

Hər hansı şəxsin sağlamlıq cəhətdən sürücülüyə yararlı hesab edilməsinin əsasları, habelə nəqliyyat vasitələrini idarə etməsinə mane olan xəstəliklərin və ya fiziki qüsurların siyahısı Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi tərəfindən müvafiq qaydada müəyyən edilmişdir.

Yol hərəkətinin təhlükəsizliyi baxımından çox önəmli haldır ki, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi tərəfindən müəyyən edilmiş siyahıda nəzərdə tutulmuş xəstəliklərlə əlaqədar psixiatriya və ya narkoloji dispanserlərin uçotunda olan şəxslər avtobusları, tramvayları və trolleybusları idarə etməyə buraxılmırlar. Həmçinin nəqliyyat vasitələrini idarə etmək sahəsində 3 ildən az təcrübəsi olan, axırıncı 2 il ərzində adamlara xəsarət yetirilməsi və ya onların ölümü ilə nəticələnmiş yol-nəqliyyat hadisəsi törətməyə, habelə nəqliyyat vasitəsini sərxoş vəziyyətdə idarə etməyə görə sürücülük hüququndan məhrum olunmuş şəxslər də sərnişin daşıyan nəqliyyat vasitələrini (avtobus, tramvay və trolleybus) idarə etməyə buraxıla bilməzlər.

Qanunvericinin müəyyən etdiyi normalara görə velosiped, araba və moped tipli nəqliyyat vasitələri istisna olmaqla, Azərbaycan Respublikasının ərazisindəki yollarda nəqliyyat vasitələrini idarəetmə hüququ sürücülük vəsiqəsi əsasında həyata keçirilir. Hər hansı fiziki şəxsin nəqliyyat vasitələrini idarəetmə hüququnun müvəqqəti məhdudlaşdırılması hallarında qanunvericiliklə müəyyən edilmiş qaydada yol verilir. Belə halların sırasına aşağıdakılar aiddir:

— şəxsin sürücülük vəsiqəsinin etibarlılıq müddəti qurtarıbsa — sürücülük vəsiqəsi dəyişdirilənədək;

— şəxs tərəfindən yol hərəkətinin qaydaları «Yol hərəkəti haqqında» Qanunla müəyyən edilmiş hallarda kobud surətdə pozulmuşdursa — Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş qaydada 5 ildən artıq olmayan müddətin qurtarmasınadək;

— şəxsdə Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi tərəfindən təsdiq edilmiş siyahıda nəzərdə tutulmuş xəstəliklər və ya fiziki qüsurlar müəyyən edilərsə— xəstəlik müalicə olunanadək və ya fiziki qüsur aradan qaldırılanadək.



Yuxarıda vurğulandığı kimi, sürücülük vəsiqəsi hər hansı şəxsin nəqliyyat vasitələrini idarə etmək hüququnu təsdiq edən sənəddir və bu sənədin verilməsi qaydaları qanunvericiliklə müvafiq formaya salınmışdır.

Azərbaycan Respublikasında verilən sürücülük vəsiqəsinin növləri, vəsiqənin blankında göstərilən məlumatların məzmunu, idarəetmə hüququnun şamil edildiyi nəqliyyat vasitələrinin kateqoriyaları, vəsiqənin etibarlılıq müddəti və digər şərtlər «Yol hərəkəti haqqında» Qanunun 34-cü maddəsinin müddəaları ilə müəyyən edilmişdir.

Mexaniki nəqliyyat vasitələrinin tiplərindən asılı olaraq, sürücülük vəsiqə-sinin iki növü vardır:

— motosikletləri, avtomobilləri, tramvayları və trolleybusları idarə etmək üçün;

— traktorları və digər mexaniki nəqliyyat vasitələrini idarə etmək üçün.

Növündən asılı olmayaraq hər bir sürücülük vəsiqəsində ellips işarəsi daxilində Azərbaycan Respublikasının beynəlxalq yol hərəkətində fərqlənmə nişanı — «AZ» və rəqəmlərlə nömrələnmiş rekvizitlərdə aşağıdakı məlumatlar göstərilir:

1) sahibinin soyadı;
2) sahibinin adı və atasının adı;
3) sahibinin doğum tarixi və yeri;
4) sahibinin yaşayış yeri;
5) vəsiqəni vermiş orqanın adı;
6) vəsiqənin verilmə tarixi və yeri;
7) vəsiqənin qüvvədə olma müddətinin qurtardığı tarix;

**8)** vəsiqənin nömrəsi;

**9)** vəzifəli şəxsin imzası, vəsiqəni vermiş orqanın ştampı və ya möhürü;

**10)** sahibinin qan qrupu və imzası;

**11)** xüsusi qeydlər.

Motosikletləri və avtomobilləri idarə etmək üçün verilən sürücülük vəsiqələrində, sadalanan məlumatlardan başqa, idarə etmək hüququnun qüvvəsinin şamil edildiyi nəqliyyat vasitələrinin aşağıdakı kateqoriyaları göstərilir:

— «A» — motosikletləri idarə etmək üçün;

— «B»—«A» kateqoriyasına aid edilməyən, icazə verilən maksimum kütləsi 3.500 kq-dan, oturacaq yerlərinin sayı, sürücü oturacağından əlavə, 8-dən artıq olmayan avtomobilləri idarə etmək üçün;

— «C» — «D» kateqoriyasına aid edilməyən, icazə verilən maksimum çəkisi 3.500 kq-dan artıq olan avtomobilləri idarə etmək üçün;

— «D» — sərnişin daşınması üçün nəzərdə tutulan və oturacaq yerlərinin sayı, sürücü oturacağından əlavə 8-dən çox olan avtomobilləri idarə etmək üçün;

— «E» — qoşqusu «B», «C» və ya «D» kateqoriyalarına aid edilmiş, lakin tərkibləri bütövlükdə həmin kateqoriyalara və ya bu kateqoriyalardan birinə daxil olmayan nəqliyyat vasitələrini idarə etmək üçün;

— «Tramvay» — tramvayları idarə etmək üçün;

— «Trolleybus» — trolleybusları idarə etmək üçün.

«B», «C» və ya «D» kateqoriyalarına aid nəqliyyat vasitələrinin sürücülərinə, bu dərəcəyə aid olan nəqliyyat vasitələrini, eləcə də tam kütləsi 3500 kq-dan artıq olmayan qoşqularla birlikdə idarə etməyə icazə verilir. Tam kütləsi 3500 kq-dan artıq qoşqusu olan «B», «C» və ya «D» kateqoriyalarına aid nəqliyyat vasitələrini və qoşqulu avtobusları idarə etmək üçün sürücünün sürücülük vəsiqəsində «E» kateqoriyasına icazə verilən qeydiyyat olmalıdır. Bu zaman sürücünün yaş həddinin xüsusi bir meyarı nəzərə alınmalıdır ki, bu elementə görə «E» kateqoriyalı



nəqliyyat vasitələrini idarəetmə hüququ sürücülərdə 21 yaşdan yaranır.

Sürücülük vəsiqəsinin etibarlılıq müddəti qanunvericiliklə belə müəyyən edilmişdir:

**1)** 60 yaşına çatmamış şəxslər üçün — 10 il;

**2)** 60 və daha çox yaşı olan şəxslər üçün — onların 70 yaşı tamam olanadək qalan müddət;

**3)** 70 və daha çox yaşı olan şəxslər üçün — 2 il;

**4)** Azərbaycan Respublikasının Səhiyyə nazirliyi tərəfindən müəyyən edilmiş siyahıya uyğun xəstəlikləri olan şəxslər üçün-təqdim etdikləri tibbi arayışda göstərilən, lakin 2 ildən artıq olmayan müddət.

Sürücülük vəsiqəsinin adı Azərbaycan Respublikasının dövlət dilində və fransız dilində («Permis de conduire»), rekvizitlərin adı azərbaycan və ingilis dillərində, başqa məlumatlar isə azərbaycan dilində yazılırlar.

Qanunda göstərilən bu müddəalar nəzərə alınmaqla, nəqliyyat vasitələrini idarəetmə hüququ haqqında sürücülük vəsiqəsinin müvafiq nümunəli forması Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi tərəfindən təsdiq edilmişdir.

Yol hərəkəti sahəsində beynəlxalq praktika və bu sahədə digər dünya dövlətləri ilə qarşılıqlı əməkdaşlıq prinsipləri əsas götürülərək «Yol hərəkəti haqqında» Qanunda, digər dövlətlərdə verilmiş sürücülük vəsiqələrinə münasibətdə konkret norma təsbit olunmuşdur (maddə 34, VIII hissə). Belə ki, həmin normaya görə, xarici dövlətlərin səlahiyyətli orqanları tərəfindən beynəlxalq standartlara uyğun verilmiş və etibarlılıq müddəti qurtarmamış sürücülük vəsiqələrinin Azərbaycan Respublikasının ərazisində qüvvədə olması nəzərdə tutulmuşdur. Respublika ərazisində müvəqqəti yaşayan əcnəbi vətəndaşların malik olduğu etibarlılıq müddəti keçməyən milli sürücülük vəsiqəsinin notarial qaydada təsdiq olunmuş tərcüməsi sürücülük vəsiqəsinin alınması üçün əsas götürülə bilər.

Sürücülük vəsiqəsinin sahibi ona verilmiş sürücülük vəsiqəsini qorumağa, möhkəm saxlamağa borcludur.

### 2.3.1. Nəqliyyat vasitələri sürücülərinin hazırlanmasının xüsusiyyətləri

Məlum olduğu kimi, yol hərəkəti təhlükəsizliyinin təmin olunmasında sürücü amili çox vacib rol oynayır. Nəqliyyat vasitəsini idarə edən şəxs, yəni sürücü yol şəraitini düzgün qiymətləndirməyi bacarmalı, lazımi psixi-fizioloji keyfiyyətlərə və müvafiq bilik səviyyəsinə malik olmalıdır.

Tez-tez dəyişən dinamik yol şəraitində nəqliyyat vasitəsini idarə edən sürücü tərəfindən operativ və dəqiq reaksiya göstərilməsi onun psixi və idrak proseslərinin bir sıra elementləri ilə (duyğu, diqqət, qavrayış, vərdiş, emosiya, təfəkkür və s.) və fiziki sağlamlığı ilə sıx surətdə əlaqəlidir. Sürücü məhz, psixi və fizioloji imkanları daxilində təhlükəsizliyi təmin edir. Bu baxımdan, sürücülük vəsiqəsi almaq istəyən şəxslərin sağlamlıq vəziyyətinin yoxlanılması, avtomobil məktəblərində və ya tədris müəssisələrində onların müvafiq kurs keçərək təhsil alması və s. şərtlərin müəyyənləşdirilməsi mühüm əhəmiyyət kəsb edir.

Sürücü və hərəkətin təhlükəsizliyi amillərinin bir-biri ilə üzvü surətdə əlaqəli olması, sürücü əməyinin psixofizioloji xüsusiyyətləri və xarakteristikasına aid məsələlər ədəbiyyat səhifələrində lazımi səviyyədə öz əksini tapmışdır*.

«Yol hərəkəti haqqında» Qanunun 35-ci maddəsinin müddəalarına uyğun olaraq, sürücülük vəsiqəsi almaq istəyən, hər bir şəxs sürücü kadrlarının hazırlanması üzrə təhsil planlarında və proqramlarında nəzərdə tutulan həcmdə müvafiq hazırlıq keçməlidir.

Sürücü kadrlarının hazırlanması və onların ixtisasının artırılması üzrə məsələlərin həlli Azərbaycan hökuməti tərəfindən nizama salınaraq «Nəqliyyat vasitələri sürücülərinin hazırlanması

* ***Bu barədə daha ətraflı bax:*** **Tağızadə Ə.H., Bayramov R.P. Yol hərəkətinin təşkili və təhlükəsizliyi. Bakı, "Çaşıoğlu" nəşriyyatı, 2002.**



və onların ixtisasının artırılması kursları haqqında» əsasnamə ilə tənzimlənir.

Əsasnamədə təsbit olunmuş qaydalara görə nəqliyyat vasitələri sürücülərinin hazırlanması və onların ixtisasının artırılması maddi-texniki baza və texniki metodiki tədris vasitələri ilə təmin olunmuş, Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada razılıq almış, Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsi tərəfindən uçota alınmış tədris müəssisələrində və kurslarda həyata keçirilir. Nəqliyyat vasitələri sürücülərinin hazırlanması və ixtisasının artırılması dövlət təhsil standartları əsasında Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən təsdiq edilmiş və Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsi ilə razılaşdırılmış vahid tədris plan və proqramı ilə aparılır.

Nəqliyyat vasitələrinin kateqoriyasından asılı olaraq sürücü kadrlarının hazırlanması və onların ixtisasının artırılmasının təlim sisteminin konkret şərtləri müəyyən edilmişdir.

Həmin şərtlərə görə «C» kateqoriyalı nəqliyyat vasitələri idarə etməyə sürücülərin hazırlanması üçün kurslarda təhsil müddəti 3,5 ay, «B» və «A» kateqoriyalı nəqliyyat vasitələrini, tramvay və trolleybusu idarə etməyə 2,5 ay nəzərdə tutulmuşdur. Tədris müəssisələrində isə bu müddət tədris planlarına, proqramlarına və təhsil müddətinə uyğun olur. Nəqliyyat vasitələri sürücülərinin hazırlanması nəzərdə tutulan yaş həddinə çatmış, sağlamlıq cəhətdən sürücülüyə yararlı olan şəxslərdən təşkil olunmuş kurslarda həyata keçirilir.

«B», «C», «D», «E» kateqoriyalı avtomobil nəqliyyatı vasitələri sürücülərinin ixtisasının artırılması kursları üçün təhsil müddəti 1,5 aydır. «C» kateqoryialı avtomobil nəqliyyat vasitələri sürücülərinin ixtisasının artırılması, «B» kateqoriyalı avtomobil nəqliyyatı vasitələrini idarə etmək hüququ olan sürücülərdən təşkil olunmuş kurslarda həyata keçirilir.

«D» kateqoriyalı avtomobil nəqliyyatı vasitələri sürücülərinin ixtisasının artırılması, «B» və ya «C», ya «BC» ya da «BCE» kateqoriyalarına aid avtomobil nəqliyyatı vasitələrini idarə etmək

sahəsində 3 ildən çox təcrübəsi olan, axırıncı iki il ərzində insanlara xəsarət yetirilməsi və ya onların ölümü ilə nəticələnmiş yol nəqliyyat hadisəsi törətməyən, habelə nəqliyyat vasitəsini sərxoş vəziyyətdə idarə etməyə görə sürücülük hüququndan məhrum olunmayan sürücülərdən təşkil olunmuş kurslarda həyata keçirilir.

«E» kateqoriyalı nəqliyyat vasitələri sürücülərinin ixtisasının artırılması, «B» və ya «BC», ya «C», ya «BCD», ya «CD», ya da «D» kateqoriyalarına aid avtomobil nəqliyyatı vasitələrini idarə etmək sahəsində 3 ildən çox təcrübəsi olan sürücülərdən təşkil olunmuş kurslarda həyata keçirilir.

Kurslara qəbul olunan dinləyicilərin yaş həddi nəqliyyat vasitəsi kateqoriyasından asılı olaraq «Yol hərəkəti haqqında» Qanunla müəyyən edilmiş hədlərə uyğun olmalıdır.

Eyni zamanda Əsasnamədə nəzərdə tutulmuşdur ki, nəqliyyat vasitələri sürücülərinin hazırlanması və onların ixtisasının artırılması istehsalatdan ayrılmaqla və ayrılmamaqla həyata keçirilə bilər.

Nəqliyyat vasitələri sürücülərinin hazırlanması və onların ixtisasının artırılması üçün tədris qruplarında müdavimlərin sayı 10-30 nəfər olmalıdır. Tədris müəssisələrində müdavimlərin tədris prosesinə nəzəri və laboratoriya -təcrübə məşğələləri, ilk tibbi yardım, avtomobil nəqliyyat vasitələrinin idarə edilməsi üçün sürmə təlimi daxil edilir.

Nəzəri, laboratoriya-təcrübə məşğələləri və ilk tibbi yardım xüsusi təchiz edilmiş kabinetlərdə (siniflərdə) və laboratoriyalarda keçirilir. Avtomobil nəqliyyatı vasitələrində sürmə təlimi avtomotrenajorlarda və təlim avtodromlarında (meydançada) keçirilir. Sürücülük öyrətmək üçün istifadə olunan mexaniki nəqliyyat vasitəsinin qabağında və arxasında bərabər tərəfli, ağ rəngli, təpəsi yuxarı yönəldilmiş, qırmızı haşiyəyə alınmış və içərisində qara rəngdə «Təlim» sözü yazılmış üçbücaq şəklində (minik avtomobilin damında iki tərəfli nişan qoyulmasına yol verilir) nişan qoyulur.



Yollarda sürmə təliminə yalnız təlim verən şəxsin iştirakı ilə və nəqliyyat vasitəsini sürməyi öyrənən şəxsin, onu idarə etməkdə ilkin vərdişi olduqda yol verilir. Sürmə təlimi verən şəxsin üstündə həmin kateqoriyalı nəqliyyat vasitəsinin sürmə təlimi vermək hüququna dair sənədi və vəsiqəsi olmalıdır.

Nəqliyyat vasitələri sürücülərinin hazırlanmasına və onların ixtisasının artırılmasına rəhbərlik Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən Daxili İşlər Nazirliyinin BDYP İdarəsi ilə birlikdə həyata keçirilir və dövlət təhsil proqramları çərçivəsində bu sistemin tənzimlənməsi və inkişaf etdirilməsi üçün lazımi tədbirlər görülür.

Sürücü kadrlarının hazırlanması və onların ixtisasının artırılması prosesini həyata keçirən müəssisələrin tədris-maddi bazasına, imtahanların keçirilməsinə, müvafiq şəhadətnamələrin verilməsinə və digər məsələlərin həllinə aid tələb və normalar Əsasnamədə geniş şəkildə şərh olunmuşdur.

### 2.3.2. Sürücülük vəsiqələrinin verilməsinin və dəyişdirilməsinin əsasları

Nəqliyyat vasitələrini idarə etmək hüququ verən sürücülük vəsiqəsi almaq istəyən hər bir şəxs qarşısında «Yol hərəkəti haqqında» Qanunun müddəaları ilə konkret tələblər qoyulmuşdur. Bu tələblər sırasına sürücü kadrlarının hazırlanması üzrə təhsil proqramlarına uyğun müvafiq hazırlıq keçirilməsi, yol hərəkəti qaydaları və sürmə vərdişləri üzrə müvafiq imtahanların verilməsi, qanunvericiliklə müəyyən edilmiş məbləğdə haqqın ödənilməsi aiddir.

Müəyyən edilmiş normalara görə sürücülük vəsiqəsi almaq istəyən şəxs Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Dövlət Yol Polisi orqanına ərizə ilə müraciət edərək aşağıdakı sənədləri təqdim etməlidir:

1) Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi (müvafiq olaraq Azərbaycan Respublikasının ərazisində əcnəbi-

nin qeydiyyata alınması haqqında vəsiqə və ya Azərbaycan Respublikasının hüdudlarında istifadə edilməsi üçün vətəndaşlığı olmayan şəxsin şəxsiyyət vəsiqəsi);

2) müvafiq kateqoriyalı nəqliyyat vasitələri sürücülərinin hazırlanması üzrə təhsil planlarında və proqramlarında nəzərdə tutulan həcmdə hazırlıq keçməsi barədə təhsil müəssisəsinin sənədi və ya müstəqil hazırlıq keçməsi ilə əlaqədar Dövlət Yol Polisi orqanında qeydiyyata götürülməsi barədə sənəd;

3) Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi tərəfindən təsdiq olunmuş formada tibbi arayış;

4) sürücülük vəsiqəsi verilməsi üçün haqqın ödənilməsi qəbzi.

Dövlət Yol Polisi orqanı sürücülük vəsiqəsinin verilməsi üçün yuxarıda nəzərdə tutulmuş sənədləri daxil olduğu həmin gün yoxlayır və orada göstərilmiş məlumatlar əsasında şəxsin yol hərəkətinin qaydaları üzrə nəzəri və nəqliyyat vasitələrini idarəetmə vərdişləri üzrə təcrübi imtahanlara buraxılması məsələsini həll edir.

«Yol hərəkəti haqqında» Qanunla müəyyən edilmiş yaş və sağlamlıq vəziyyəti tələblərinə cavab verən şəxslər: a) sürücülərin hazırlanması və onların ixtisasının artırılması kurslarının məzunları; b) avtomobil nəqliyyatı vasitələri ixtisası üzrə kadrların hazırlanması nəzərdə tutulmuş ali və orta ixtisas tədris müəssisələrinin məzunları; v) imtahanlara müstəqil hazırlaşmış şəxslər onların ərizələri Dövlət Yol Polisi orqanına daxil olduqdan sonra on gün ərzində yol hərəkətinin qaydaları üzrə nəzəri və nəqliyyat vasitələrini idarəetmə vərdişləri üzrə təcrübi imtahanlara buraxılırlar.

Sürücülük vəsiqəsi Dövlət Yol Polisi orqanının imtahan-qeydiyyat məntəqələrində yol hərəkətinin qaydaları üzrə nəzəri və nəqliyyat vasitələrini idarəetmə vərdişləri üzrə təcrübi imtahanları müvəffəqiyyətlə vermiş şəxslərə həmin orqan tərəfindən bir gün ərzində verilir. Sürücülük vəsiqələrinin verilməsi «Nəqliyyat vasitəsini idarə etmək hüququ verən sürücülük vəsiqəsi almaq istəyən şəxslərdən imtahanların qəbul edilməsi və onlara



sürücülük vəsiqəsinin verilməsi qaydaları haqqında» Əsasnaməyə uyğun olaraq həyata keçirilir.

Bu Əsasnamə, nəqliyyat vasitələrini idarə etmək hüququ verən sürücülük vəsiqəsi almaq istəyən şəxslərdən nəzəri və təcrübi imtahanların qəbul edilməsi və onlara sürücülük vəsiqələrinin verilməsi, onların uçotunun aparılması üzrə vahid qaydaları müəyyən edir.

Sürücülük vəsiqəsi almaq istəyən şəxslərin yol hərəkəti qaydaları üzrə nəzəri və nəqliyyat vasitələrini idarəetmə vərdişləri üzrə təcrübi imtahanlara buraxılmasının bəzi xüsusiyyətlərinə toxunaq.

Əsasnamə ilə müəyyən edilmiş qaydalara görə əvvəlcə nəzəri, sonra isə təcrübi imtahanlar aparılır. Nəzəri imtahanı verməmiş şəxslər, təcrübi imtahana buraxılmırlar.

Belə istisna da nəzərdə tutulmuşdur ki, peşə tədris müəssisələrini bitirmiş şagirdlər, eləcə də «A», «C», «BC» kateqoriyalı nəqliyyat vasitələri sürücülərini hazırlamaq üçün Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Daxili İşlər Nazirliyi tərəfindən cəlb olunmuş çağırışçılar, kursları bitirdikdən və müvafiq şəhadətnamələr aldıqdan sonra qeydiyyat-imtahan məntəqələrində imtahanlara buraxılırlar. İmtahanları müvəffəqiyyətlə verən 18 yaşı çatmamış şəxslərə sürücülük vəsiqəsi verilir və sürücülük vəsiqəsinin «xsusi qeydlər» qrafasında «18 yaşı tamam olduqdan sonra avtomobilləri idarə edə bilər» qeydi aparılır.

Müdafiə Nazirliyi və Daxili İşlər Nazirliyinin müddətli hərbi xidmət aparan hərbçiləri «D» və «E» kateqoriyalı sürücülük vəsiqəsi almaq üçün müstəsna olaraq, 10 ay sürücülük təcrübəsi olduqda və 19 yaşa çatdıqda imtahanlara buraxılırlar.

İmtahanların qəbulu və «A», «B», «C», «D» və «E» kateqoriyalarına aid nəqliyyat vasitələrinin, tramvay və trolleybusun idarə edilməsi üçün sürücülük vəsiqələrinin verilməsi Dövlət Yol Polisinin qeydiyyat-imtahan məntəqəsi tərəfindən aparılır.

Traktorları və digər mexaniki nəqliyyat vasitələrini idarə etmək üçün imtahanların qəbulu və sürücülük vəsiqəsinin veril-

məsi Kənd Təsərrüfatı Nazirliyinin Daxili İşlər Nazirliyi və Təhsil Nazirliyi ilə razılaşdırılmış təlimatı əsasında həyata keçirilir.

Sürücülük vəsiqələrinin alınması üçün imtahan yalnız qeydiyyat-imtahan məntəqələri tərəfindən, onların xidmət apardıqları ərazilərdə daimi və ya müvəqqəti pasport qeydiyyatı olan şəxslərdən qəbul olunur. Digər hallarda şəxslərin imtahanlara buraxılması məsələsi DYP orqanının rəhbərliyi tərəfindən müstəsna hal kimi həll oluna bilər.

Ekstremal hallarda (təbii fəlakət, yanğın, ərazi işğalı) müvəqqəti məskunlaşdığı ərazilər üzrə Müdafiə Nazirliyinin, Daxili İşlər Nazirliyinin müddətli xidmət aparan hərbçiləri isə sürücülük vəsiqələri almaq üçün hərbi hissələrin yerləşdikləri ərazi üzrə yerləşən qeydiyyat-imtahan məntəqələrində imtahana buraxılırlar.

«E» kateqoriyalı nəqliyyat vasitələrinin idarə edilməsinə, «B» və ya «BC», ya «C», ya «BCD», ya «CD», ya da «D» kateqoriyalarına aid olan, nəqliyyat vasitələrini 3 ildən az olmayaraq idarə edən sürücülər, müəyyən olunmuş proqram əsasında tədris müəssisələrində yenidən hazırlıq kurslarını bitirdikdən və QİM-də nəzəri və təcrübi imtahanları verdikdən sonra buraxılırlar.

«D» kateqoriyalı nəqliyyat vasitələrinin idarə edilməsinə, «B» və ya «C», ya «BC», ya da «BCE» kateqoriyalarına aid nəqliyyat vasitələrini idarə etmə hüququ olan və müəyyən olunmuş proqram əsasında yenidən hazırlıq kurslarını keçərək, nəzəri və təcrübi imtahanlar vermiş sürücülər buraxılırlar.

«B» kateqoriyalı nəqliyyat vasitələrinin idarə etməyə hüququ olan sürücülər, tədris müəssisəsində müəyyən edilmiş proqramla yenidən hazırlıq keçdikdən, nəzəri və təcrübi imtahanları müvəffəqiyyətlə verdikdən sonra «C» kateqoriyalı nəqliyyat vasitələrini idarə etmək hüququna malik olurlar.

«C» və ya «D» kateqoriyalarına aid nəqliyyat vasitələrini idarə etmə hüququ olan sürücülər «AB» və ya «ABC» kateqoriyalı nəqliyyat vasitələrini idarə etmə hüququ almaq üçün əlavə olaraq kurs keçmədən nəzəri və təcrübi imtahanlara buraxılırlar.



«D» və «E» kateqoriyaları üzrə təcrübi imtahan, tədris müəssisələri tərəfindən ayrılmış avtobuslar və qoşqulu nəqliyyat vasitələrində qəbul edilir.

Nəzəri və təcrübi imtahan qəbul edilən şəxsin sağlamlığı aşkar əlamətlərlə şübhə doğurduqda, o, imtahanları qəbul edən DYP vəzifəli şəxsi tərəfindən təkrar tibbi müayinəyə göndərilə bilər.

Nəqliyyat vasitələrini idarə etmə hüququ müvəqqəti məhdudlaşdırılan şəxslərə sürücülük vəsiqələri, bu müddət başa çatdıqdan sonra tibbi müayinədən keçdikdən və onların bilik səviyyəsi, sürmə vərdişləri yoxlanıldıqdan sonra qaytarılır.

Nəqliyyat vasitələrinin idarə edilməsi üçün tədris müəssisələrində hazırlıq keçmiş şəxslər, təkrar nəzəri və təcrübi imtahanlara 7 gündən tez buraxılmırlar. İmtahanlara buraxılmış şəxslərdən təkrar imtahanlar 20 gündən tez olmayaraq qəbul oluna bilər. Bir dəfə nəzəri və ya təcrübi imtahandan qeyri-məqbul qiymət almış, imtahanlara müstəqil hazırlaşmış şəxslər yalnız tədris müəssisələrində müəyyən olunmuş qaydada hazırlıq kursları keçdikdən sonra bir daha imtahana buraxılırlar.

«Yol hərəkəti haqqında» Azərbaycan Respublikasının Qanununun tətbiqi ilə əlaqədar sürücülük vəsiqələrinin verilməsi işində meydana çıxan digər münasibətlər, o cümlədən sürücülük vəsiqəsi itirildikdə onun əvəzinə yeni vəsiqənin verilməsi qaydaları Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin təsdiq etdiyi müvafiq təlimatla tənzimlənir.

Sürücülük vəsiqələrinin verilməsi əsaslarına toxunduqda belə bir halı da qeyd etmək lazımdır ki, mövcud qanunvericiliklə Azərbaycan Respublikasının vətəndaşları üçün sürücülük vəsiqəsi almaqdan ötəri sərbəst surətdə müstəqil hazırlıq keçmək hüququ da nəzərdə tutulmuşdur.

Verilmiş hüquqdan istifadə etməklə sürücülük vəsiqəsi almaq istəyən şəxslərin yol hərəkəti qaydalarını öyrənməsi və sürmə vərdişlərinə yiyələnməsi məsələləri Azərbaycan Hökuməti tə-

rəfindən qəbul edilmiş xüsusi normativ-hüquqi aktla nizama salınır*.

Qaydalarla müəyyən edilmiş normalara görə iş, fəaliyyət, təhsil, sosial vəziyyət amilləri ilə bağlı olaraq tədris müəssisələrində sürücülük ixtisası üzrə hazırlıq keçə bilməyən Azərbaycan Respublikası vətəndaşları yol hərəkəti qaydaları üzrə nəzəri və nəqliyyat vasitələrini idarəetmə vərdişləri üzrə təcrübi imtahanlara müstəqil hazırlaşa bilərlər.

Müstəqil hazırlaşmış şəxslər yalnız «A» və ya «B» kateqoriyalarına aid nəqliyyat vasitələrinin idarə edilməsi üçün sürücülük vəsiqəsi almaq məqsədilə imtahanlara buraxıla bilərlər.

Lakin bununla yanaşı nəzərə alınmalıdır ki, müstəqil hazırlaşmış şəxslərdən imtahanların qəbulu və onlara sürücülük vəsiqələrinin verilməsi yuxarıda adını çəkdiyimiz Əsasnamənin tələblərinə uyğun şəkildə həyata keçirilir.

Yuxarıda sadaladığımız amillərlə əlaqədar olaraq müstəqil hazırlıq keçmək istəyən şəxslər, qeydiyyata alınması üçün, mütləq Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Baş Dövlət Yol Polisi İdarəsinə ərizə ilə müraciət etməlidirlər.

DYP orqanının vəzifəli şəxsi müstəqil hazırlaşmaq istəyən vətəndaşın orta və ali təhsil haqqında sənədi və onun nəqliyyat vasitəsini idarə etməyə yararlığı barədə tibbi arayışı əsasında ərizəçini qeydiyyata alır. Ərizə qeydiyyata alındıqdan sonra DYP orqanının vəzifəli şəxsi vətəndaşa imtahanların qəbulu vaxtını təyin edir.

---

*** Bu normativ-hüquqi akt —"Sürücülük vəsiqəsini almaq üçün yol hərəkəti qaydaları üzrə nəzəri və nəqliyyat vasitələrini idarəetmə məsələləri üzrə təcrübi imtahanlara müstəqil hazırlaşması" Qaydaları "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikası Prezidentinin "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanunun tətbiq edilməsi barədə" 1998-ci il 22 noyabr tarixli, 24 nömrəli Fərmanına müvafiq olaraq hazırlanmışdır.**



Müstəqil hazırlaşmış şəxs imtahanlara buraxılması üçün DYP orqanına aşağıdakı sənədləri təqdim etməlidir:

— onun DYP orqanında qeydiyyata götürülməsi barədə ərizə;
— müvafiq kateqoriyalı nəqliyyat vasitəsinin idarə edilməsinə yararlığı barədə tibbi arayış;
— orta və ali təhsili haqqında sənəd;
— imtahan və sürücülük vəsiqəsi verilməsi üçün haqqın ödənilməsi barədə qəbzləri;
— Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi.

Belə şəxs əvvəlcə yol hərəkətinin qaydaları üzrə nəzəri, sonra isə nəqliyyat vasitələrini idarəetmə vərdişləri üzrə təcrübi imtahanlar verməlidir. Nəzəri imtahanı verməmiş şəxslər təcrübi imtahana buraxılmırlar.

Müstəqil hazırlaşmış şəxslərdən yalnız bir dəfə nəzəri və ya təcrübi imtahan qəbul edilir. İmtahanların birindən qeyri-məqbul qiymət alan şəxs tədris müəssisələrində müəyyən olunmuş qaydada hazırlıq kursları keçdikdən sonra bir daha imtahanlara buraxılırlar.

«Yol hərəkəti haqqında» Qanunun 35-ci maddəsinin VI hissəsinə müvafiq oalarq, sürücülük vəsiqəsinin dəyişdirilməsi üçün əsas kimi aşağıdakı hallar hesab edilir:

1) onun etibarlılıq müddətinin qurtarması;
2) sahibinin soyadı, adı və ya atasının adınını dəyişdirilməsi;
3) onun yazılarında dəqiqsizlik müəyyən edilməsi;
4) onun yararsız hala düşməsi;
5) onun itirilməsi;
6) yeni nümunəsinin «Yol hərəkəti haqqında» Qanunla müəyyən edilmiş qaydada təsdiqi nəticəsində ölkədə sürücülük vəsiqələrinin dəyişdirilməsi.

Sürücülük vəsiqəsinin dəyişdirilməsi sahibinin ərizəsi əsasında əvvəllər malik olduğu bütün kateqoriyalar saxlanılmaqla, imtahansız Dövlət Yol Polisinin qeydiyyat-imtahan məntəqələri tərəfindən bir gün ərzində həyata keçirilir.

Sürücülük vəsiqəsinin dəyişdirilməsi üçün onun yazılarında dəqiqsizlik müəyyən edilməsi halı istisna olmaqla, Azərbaycan

hökuməti tərəfindən müəyyən edilmiş məbləğdə haqq alınır. Sürücülük vəsiqəsinin itirilməsinə görə onun dəyişdirilməsi halında, həmçinin Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş məbləğdə cərimə ödənilir.

Sürücülük vəsiqəsi itirildikdə, yeni vəsiqə, onun sahibinin yazılı ərizəsi, ərazi üzrə şəhər (rayon) Dövlət Yol Polisi orqanının müvafiq yoxlama arayışı və tibbi arayış əsasında verilir. Zərurət olduqda, tədris müəssisəsinin müvafiq şəhadətnaməsi və ya itirilən sürücülük vəsiqəsini vaxtıyla vermiş Dövlət Yol Polisi orqanının təsdiqedici sənədi də təqdim edilməlidir.

Sürücülük vəsiqəsi itirildikdə, onun sahibinə ilkin olaraq, 3 ay müddətinə qədər müvəqqəti sürücülük vəsiqəsi verilir və həmin müddət bitdikdən sonra müvafiq vəsiqə ilə əvəz edilir. Lakin zəruri hallarda müvafiq yoxlamalar aparıldıqda, müvəqqəti sürücülük vəsiqəsi 1 il müddətinə qədər də verilə bilər.

Beləliklə, nəqliyyat vasitələrini idarəetmə hüququ bəhsinə yekun vuraraq praktiki planda belə bir qanunauyğun nəticə çıxarmaq olar ki, fiziki şəxslərin nəqliyyat vasitəsini idarəetmə hüququna yiyələnməsi üçün qanunvericilik tərəfindən yol hərəkətinin təhlükəsizliyi amili nəzərə alınmaqla, xüsusən aşağıdakı vacib əsaslar (sistem şəklində təsəvvür etsək-vacib elementlər) şərtləndirilmişdir:

— mülki hüquqi fəaliyyət qabiliyyəti və qanunvericiliklə nəzərdə tutulmuş müəyyən yaş həddi;
— fiziki sağlamlıq cəhətdən sürücülüyə yararlılıq;
— yol hərəkəti qaydalarını bilmək və müvafiq sürmə vərdişinə malik olmaq;
— nəqliyyat vasitəsinin dərəcəsinə uyğun müvafiq sürücülük vəsiqəsinə malik olmaq.



# III FƏSİL. YOL HƏRƏKƏTİ QAYDALARI VƏ MƏSULİYYƏT

## 3.1. Yol hərəkəti qaydaları və onların hüquqi nizama salınması

Azərbaycan Respublikası ərazisində yol hərəkətinin təşkili, onun təhlükəsizliyinin təmin edilməsi və yol hərəkəti qaydalarının müəyyənləşdirilməsi yol hərəkəti sahəsində dövlətin ən vacib vəzifələrindən biridir. Bu vəzifənin yerinə yetirilməsi üçün dövlət Azərbaycan hüquq sisteminin müxtəlif sahələrindən, ümumi və xüsusi hüququn prinsip və normalarından istifadə edir.

Yol hərəkətinin ümumi formada cəmiyyətdə yaranan ictimai münasibətlərin məcmusundan ibarət olmasını nəzərə alsaq, onda görərik ki, hüquqi tənzimlənmə predmetinə və metoduna görə belə münasibətlər inzibati hüquqla nizama salınır. İnzibati-hüquqi nizamasalma isə mövcud ictimai münasibətlərin qaydaya salınması, təsbit edilməsi və təkmilləşdirilməsi yolları ilə həyata keçirilir.

Hüquq ədəbiyyatındakı anlayışlara görə* predmet metodun spesifikasını, yəni ictimai münasibətlərin cəmiyyətdə necə, nə şəkildə tənzimləndiyini müəyyənləşdirir. Cəmiyyətdə insan amili, onların həyatının təhlükəsizliyi, sağlamlığı hər şeydən üstünlük təşkil edir. Nəzəri müddəalardan yanaşsaq, insan ictimai varlıqdır, o, daima digər insanlarla birlikdə yaşayır, fəaliyyət göstərir, o cümlədən müxtəlif vasitələrdən (məsələn, nəqliyyat vasitələrindən) istifadə edir. Hər hansı birgə fəaliyyət isə uzlaşma, nizamlanma və təşkilolunma tələb edir. Ona görə də ümumi fəaliyyət (bizim tədqiq etdiyimiz misalda — yol hərəkəti sahəsindəki fəaliyyət) gərək zaman və məkan etibarilə ahəngləşsin,

---

* *Bax, məsələn,* **Abdullayev E.İ. İnzibati hüquq dərsliyi. Bakı, ABU, 2001.**

müəyyən məqsədə—vahid təhlükəsizlik qaydalarına tabe olsun. Birgə fəaliyyət idarəetməni nəzərdə tutur, burada idarəetmə obyektiv olaraq zəruridir və o, ictimai varlığın ayrılmaz əlaməti, onun atributudur. Deməli, nə qədər ki, insan cəmiyyəti var, idarəetmə münasibətləri də olacaqdır. Şübhəsiz ki, bu münasibətləri formalaşdırmaq, nizama salmaq və təkmilləşdirmək üçün müxtəlif hüquqi normalardan istifadə olunur.

Göstərilən hüquqi-nəzəri baxışları ümumiləşdirərək demək olar ki, yol hərəkətinin özünəməxsus xüsusiyyətləri, onun iştirakçılarının çoxsaylı olması və ən vacib insanların həyatının və sağlamlığının qorunması və digər amillər yol hərəkətinin vahid mərkəzləşmiş şəkildə idarə olunmasını zəruri edir.

Yol hərəkəti iştirakçısı anlayışı hərəkət prosesində piyada, nəqliyyat vasitəsinin sürücüsü, sərnişin, velosipedçi, mal-qara ötürən qismində iştirak edən, habelə avtomobil yollarından, küçələrdən, dəmir yol keçidlərindən və ya nəqliyyat vasitələri ilə adamların və yüklərin daşınması üçün nəzərdə tutulmuş digər yerlərdən istifadə edən şəxsləri əhatə edir.

Ona görə də hərəkət iştirakçılarının müxtəlifliyi nəzərə alınmaqla, onların qarşılıqlı və əlaqəli fəaliyyətinin uyğunluğunu, həmahəngliyi yollarda müvafiq intizam qaydalarının yaranmasını tələb edir. Məhz hərəkət qaydalarının köməyi ilə bütövlükdə yol hərəkətinin səmərəli təşkili həyata keçirilir.

Lakin hərəkət qaydaları, ancaq xüsusi mühəndis-təşkilati tədbirlər və hərəkət iştirakçılarının yol şəraitini düzgün qavraması və qiymətləndirməsini asanlaşdıran texniki vasitələrlə birlikdə və bu sahədə mövcud olan dövlət standartlarının tələbləri nəzərə alınmaqla rasional şəkildə təşkil edilə bilər.

Beləliklə, yol hərəkəti qaydalarının anlayışını aşağıdakı kimi vermək olar:

— yol hərəkəti qaydaları yol hərəkəti iştirakçılarının qarşılıqlı əlaqəsini və yollarda intizamı, vahid davranış qaydalarını müəyyən edən hüquqi normalar sisteminin tərkib hissəsidir.



Geniş baxımda və praktiki planda yanaşsaq, bu normalar sistemi əsasən: **a)** svetofor işarələrinin və nizamlayıcının siqnallarının mənasını, yolayrıclarının keçirilməsi üzrə vahid qaydaları, düzülüş, ötüb keçmə, dayanma, gözləmə və s. qaydaları müəyyən edir; **b)** hərəkət iştğirakçılarının davranışını, istismarda olan nəqliyyat vasitələrinin texniki vəziyyətinə verilən tələbləri qaydaya salır, yol nişanlarının və yol nişanlanmalarının mənalarını izah edir.

Yol hərəkəti qaydalarının yaranma tarixinə qısa ekskurs etsək görərik ki, o, avtomobil nəqliyyat vasitəsinin meydana çıxması tarixi ilə bağlıdır.

Bir sıra mənbələrdə* avtomobil hərəkət qaydalarının tarixdə ilk dəfə olaraq 1896-cı ildə İngiltərədə yaradılması göstərilir. İlk ingilis qaydalarında avtomobil-lərin hərəkət sürəti bütün hallarda 12 mil/saata (19, 65 km/saat) qədər məhdud-laşdırıldı. 1912-ci ildə Moskva şəhər Duması tərəfindən müəyyən növ nəqliyyat vasitələrinin hərəkət sürətinin məhdudlaşdırılması barədə müvafiq qərar verildi.

Yol hərəkəti qaydalarının məzmununun əsas tərkib hissəsi olan yol nişanları XIX əsrin sonlarında ilk avtomobillərlə birlikdə yollarda peyda olmuşlar**. Dünyada avtomobil sənayesinin inkişafı avtomobil hərəkət qaydalarının beynəlxalq, ilkin olaraq regional səviyyədə nizama salınması zərurətini yaratdı. 1909-cu ildə Parisdə keçirilmiş avtomobil hərəkətinə aid birinci beynəlxalq konfransda yol hərəkətinin və avtomobilə verilən tələblərin əsas prinsiplərini göstərən beynəlxalq razılaşma və yol nişanlarına aid tövsiyyələr qəbul edildi.

Bu razılaşma sənədinə əsasən aşağıdakı ilk yol nişanları müəyyən edildi:

---

* *Bax, məsələn,* **Tağızadə Ə.H, Bayramov R.P. Yol hərəkətinin təşkili və təhlükəsizliyi. Bakı, "Çaşıoğlu" nəşriyyatı, 2002.**

** *Bu barədə bax:* **Melki V.A. Yol nişanları və yolun nişanlanması. Bakı, Azərnəşr, 1988.**

— nahamar yol;
— təhlükəli döngələr;
— dəmir yolu keçidi;
— yolların kəsişməsi.

Sonralar, 1926-cı ildə ilk dəfə olaraq «Avtomobil hərəkəti haqqında» beynəlxalq Paris konvensiyası, 1931-ci ildə isə «Eyni yol nişanlarının və işarələrinin tətbiq edilməsinə dair» beynəlxalq Cenevrə konvensiyası qəbul edildi. Sözü gedən məsələnin növbəti inkişaf mərhələləri bu əsərin I fəslində geniş şəkildə şərh olunduğu üçün, onun təkrarlanmasına ehtiyac duyulmur.

İknici dünya müharibəsinə qədər dünyada yol nişanlarının iki sistemi mövcud idi: simvolların tətbiqinə əsaslanan Avropa yol nişanları və simvolların əvəzinə yazılar tətbiq edilən ingilis-amerika yol nişanları.

Dəfələrlə vahid yol nişanlarının yaradılmasına səy göstərilərək, nəhayət 1949-cu ildə Cenevrədə yol hərəkətinə aid beynəlxalq konfransda Avropa sisteminə əsaslanan yol hərəkəti qaydaları haqqında müvafiq normativ-hüquqi sənədlər qəbul edildi. Keçmiş Sovetlər İttifaqı həmin sənədi 1959-cu ildə imza etmiş və onun əsasında 1961-ci il yanvarın 1-dən etibarən ilk dəfə olaraq küçələrdə və yollarda hərəkətin vahid qaydaları həyata keçirilmişdir. Sonrakı illərdə sürətlə avtomobilləşmə, beynəlxalq avtodaşımaların genişlənməsi, avtoturizmin inkişafı və s. amillər baxımından yol hərəkəti qaydaları müxtəlif dövrlərdə — 1965, 1970, 1973, 1980-ci illərdə yenidən baxılmış, onlara əlavələr edilmiş və təkmilləşdirilmişdir.

1968-ci il beynəlxalq Vyana konvensiyalarının köməyi ilə ölkədə qüvvədə olan yol siqnalları sistemini əsasən unifikasiya etmək mümkün olmuşdur.

Avtomobil sənayesinin və avtonəqliyyat vasitələrinin yüksək inkişaf terminləri və təkmilləşdirilməsi müasir, o cümlədən xüsusilə yeni müstəqil dövlətlərin xarici iqtisadi-nəqliyyat fəaliyyətlərinin səmərəli şəkildə həyata keçirilməsinə effektiv surətdə kömək edir. Yeni müstəqil dövlətlər dünya nəqliyyat əlaqələrinə təkcə regional səviyyədə deyil, həm də beynəlxalq münasibətlər miqyasında inteqrasiyaya cəhd göstərirlər. Bu prosesdə, həmçinin beynəlxalq avtomobil daşımaları və əlaqələrinin inkişafı işində «Yol hərəkəti haqqında» beynəlxalq Vyana Konvensiyası da mühüm əhəmiyyət kəsb edən sənədlərdən biridir.



Müstəqil Azərbaycan Respublikası da digər dövlətlər kimi göstərilən zəruri əhəmiyyətin vacibliyini əsas götürərək eyni yol hərəkəti qaydalarını qəbul etmək vasitəsilə beynəlxalq yol hərəkətini asanlaşdırmaq və yollarda təhlükəsizliyi gücləndirmək məqsədilə beynəlxalq Vyana konvensiyasına (1968-ci il) qoşulmuşdur.

Yol hərəkəti qaydalarına beynəlxalq səviyyədə aid edilmiş adət, tələb və normalar Konvensiyanın II fəslində (m.5-34) təsbit olunmuşdur. Yol nişanlarının və siqnallarının əhəmiyyətinə toxunularaq Konvensiyanın 5-ci maddəsində tövsiyyə edilir ki, yol istifadəçiləri yol nişanlarının və siqnallarının, işıq yol siqnallarının və ya yolların nişanlanmasının göstərişlərinin, hətta bu göstərişlər digər hərəkət qaydalarına zidd göründükdə belə yerinə yetirilməlidir. İşıq yol nişanlarının göstərişləri üstün hərəkət yolu hüququnu müəyyənləşdirən yol nişanlarının göstərişlərindən üstün hesab olunur.

Digər müddəada belə bir norma müəyyənləşdirilmişdir ki, yol istifadəçiləri yol hərəkətini nizamlamaq səlahiyyəti verilmiş şəxslərin hər hansı göstərişini dərhal yerinə yetirməyə borcludur. Konvensiyaya üzv dövlətlərin yol hərəkəti sahəsində milli qanunvericiliyində nəzərdə tutmaq tövsiyyə edilmişdir ki, aşağıda sadalanan siqnallar da yol hərəkətini nizamlamaq səlahiyyəti verilmiş şəxslərin göstərişləri hesab olunsun:

**a)** şaquli qaldırılmış əl — bu jest kifayət qədər təhlükəsiz şəraitdə dayana bilməyən sürücülərdən başqa, bütün yol istifadəçiləri üçün «Diqqət, stop» deməkdir. Bundan başqa, həmin siqnal yolayrıcında verilirsə, yolayrıcına daxil olmuş sürücü hərəkəti davam etdirə bilər;

**b)** üfüqi uzadılmış əl və ya əllər — bu jest hərəkət istiqamətindən asılı olmayaraq yol hərəkətini nizamlamaq səlahiyyəti verilmiş şəxsin əlini və ya əllərini uzatmaqla göstərdiyi istiqa-

mətlərlə kəsişən istiqamətlərdə hərəkət edən bütün yol istifadəçiləri üçün «stop» siqnalı deməkdir;

c) qırmızı işığın yandırılıb-söndürülməsi — bu jest həmin işığın onlara tərəf çevrildiyi yol istifadəçiləri üçün «stop» siqnalı deməkdir.

Həmçinin belə bir norma da əhəmiyyətlidir ki, yol hərəkətini nizamlamaq səlahiyyəti verilmiş şəxslərin siqnlalları yol nişanlarının və siqnallarının, işıq yol nişanlarının və ya yolların nişanlanmasının, habelə yol hərəkəti qaydalarının göstərişlərindən üstün hesab edilir.

Konvensiyada təsbit olunmuş digər normalar da, o cümlədən ötmə və sıralarda hərəkət, manevrlərə dair ümumi göstərişlər, hərəkət istiqamətinin dəyişdirilməsi, sürücülərin piyadalar barəsində davranışına aid qaydalar, səs və işıq siqnalları, yol-nəqliyyat hadisəsi zamanı sürücünün davranışı və s. xüsusi maraq doğurur.

Azərbaycan Respublikası öz müstəqilliyini bərpa etdikdən sonra yol hərəkəti qaydalarının beynəlxalq tələb və normalarını özündə cəmləşdirən yuxarıda adını çəkdiyimiz Vyana konvensiyasının üstün müddəalarına və müasir Avropa standartlarına uyğun formada ilk dəfə olaraq «Yol hərəkəti haqqında» Qanunu (1998-ci il) qəbul etdi.

Yol hərəkəti qaydaları, sürücünün və piyadanın vəzifələri və yol hərəkəti qaydalarının digər tərkib elementləri «Yol hərəkəti haqqında» Qanunun beşinci fəslində müfəssəl şəkildə öz əksini tapmışdır.

Yol hərəkəti iştirakçılarının əsas vəzifələri və hüquqları Qanunun 36-cı maddəsilə müəyyənləşdirilmişdir.

Bu normanın tələblərinə görə yol hərəkətinin iştirakçıları:

1) yol hərəkəti qaydalarına riayət etməli, «Yol hərəkəti haqqında» Qanunun yol hərəkətinin təhlükəsizliyi məsələlərinə dair tələblərini bilməli və yerinə yetirməlidirlər;

2) yol hərəkətinin nizama salınmasında istifadə olunan nizamlayıcının və svetoforların siqnallarına, yol nişanlarına, yolun nişanlanmasına, yol işlərində istifadə olunan səs və işıq siqnallarına, bəzi nəqliyyat vasitələrinin fərqləndirici nişanlarına və nəqliyyat vasitəsi sürücülərinin siqnallarına tabe olmalıdırlar;



3) yol hərəkəti üçün təhlükəsiz şərait yaratmalı, öz hərəkətləri və ya hərəkətsizliyi ilə digər hərəkət iştirakçılarına, onların nəqliyyat vasitələrinə və başqa əmlaka zərər vurmamalıdırlar;

4) yol örtüyünü zədələməməli və ya çirkləndirməməli, yol nişanlarını çıxarmamalı, qarşısını kəsməməli, zədələməməli, özbaşına yol nişanları, svetoforlar və hərəkətin təşkilinin digər texniki vasitələrini quraşdırmamalıdırlar;

5) hərəkətə maneçilik törədən əşyaları və ya materialları ataraq, boşaldaraq və ya yolda qoyaraq yol hərəkətini çətinləşdirməməli və ya onun təhlükəsizliyi üçün qorxu törətməməlidirlər (bu cür maneənin və ya təhlükənin yaranmasına yol verməmək mümkün olmadıqda, onların mümkün qədər tez aradan qaldırılması üçün lazımi tədbirlər görməli, bunu dərhal etmək mümkün olmadıqda isə, əl altında olan vasitələrlə digər hərəkət iştirakçılarının xəbərdar edilməsini və Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Dövlət Yol Polisi orqanına məlumat verilməsini təmin etməlidirlər);

6) yol hərəkəti qanunvericiliyinə riayət olunması barədə Dövlət Yol Polisi orqanlarının sərəncamlarını yerinə yetirməlidirlər;

7) nəqliyyat, yol, kommunal və digər müəssisə və təşkilatların vəzifəli şəxsləri, yolda hər hansı bir iş aparan fəhlələr, eləcə də digər şəxslər müəyyən edilmiş yol hərəkəti qaydalarına təsir göstərə biləcək maneələr yaratmaqdan və başqa hərəkətlərdən çəkinməlidirlər.

Yol hərəkəti qaydalarına riayət edən yol hərəkətinin hər bir iştirakçısı digər şəxslərdən həmin qaydaların tələblərini gözləməyi tələb edə bilər.

Yol hərəkəti iştirakçılarının aşağıdakı hüquqları vardır:

- təhlükəsiz və rahat yol hərəkəti şəraitinə malik olmaq, yolların, küçələrin, meydanların və dəmir yol keçidlərinin hərəkətin təhlükəsizliyi tələblərinə uyğunsuzluğu nəticəsində dəymiş zərərin ödənilməsini tələb etmək;

— Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanları* və yol sahibləri qüvvədə olan qanunvericiliyi pozduqda, onların hərəkətlərindən məhkəməyə şikayət etmək;

3) hidrometeorologiya, yol, kommunal və başqa təşkilatlardan yol hərəkət şəraiti haqqında məlumat almaq.

Mexaniki nəqliyyat vasitəsi sürücüsünün vəzifələri Qanunun 37-ci maddəsində göstərilmişdir. Bu vəzifələrin sırasına əsasən aşağıdakılar aid edilmişdir:

— sürücülük vəsiqəsini (fərdi nəqliyyat vasitəsinin sahibi olmadıqda, sürücünün nəqliyyat vasitəsini idarə etmək hüququna dair müəyyən edilmiş qaydada təsdiqlənmiş etibarnaməsini və ya nəqliyyat vasitəsinə ümumi mülkiyyət hüququna dair şəhadətnaməsini), sürücülük vəsiqəsi müəyyən edilmiş qaydada Dövlət Yol Polisi orqanları tərəfindən alınmış olduqda isə onu əvəz edən xüsüsi arayışı, nəqliyyat vasitəsinin qeydiyyat şəhadətnaməsini, nəqliyyat vasitələrindən kommersiya məqsədləri üçün istifadə edildikdə xüsusi razılıq və ya yol (marşrut) vərəqəsini və daşınan yüklərə dair sənədləri özündə saxlamaq;

— Dövlət Yol Polisi orqanı əməkdaşının tələbi ilə nəqliyyat vasitəsini dayandırdıqda, həmin əməkdaş yaxınlaşdıqdan sonra müvafiq sənədləri yoxlanılması üçün ona təqdim etmək və zəruri olduqda həmin əməkdaşın tələbi ilə nəqliyyat vasitəsindən çıxmaq;

— yola düşməzdən qabaq nəqliyyat vasitələrinin istismara buraxılmasına dair «Yol hərəkəti haqqında» Qanunla müəyyən edilmiş qaydalara uyğun olaraq, nəqliyyat vasitəsinin texniki cəhətdən sazlığını yoxlamaq və onu yol boyu təmin etmək;

*** Burada müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərini Azərbaycan Respublikasının nazirlikləri, dövlət komitələri, dövlət şirkətləri, baş idarələri və yerli icra hakimiyyəti orqanları həyata keçirirlər.**



— hərəkət zolağının dəyişməsi, dönmə, ötmə, hərəkətə başlama və dayanma ilə bağlı manevrlər edərkən, xarici işıq siqnallarının köməyi ilə, bunlar olmadıqda və ya nasaz olduqda isə, əl işarələri ilə digər hərəkət iştirakçılarını xəbərdar etmək;

— konstruksiyasında nəzərdə tutulmuş təhlükəsizlik kəmərləri ilə təchiz edilmiş avtomobildə hərəkət edərkən kəməri bağlamaq və sərnişinlərin də kəməri bağlamasını təmin etmək (12 yaşınadək uşaqların, geriyə hərəkət manevri edən sürücülərin, hamilə qadınların, sürücülüyü öyrənən şəxs nəqliyyat vasitəsini idarə edərkən onu öyrədənin, yaşayış məntəqələrində isə bunlardan başqa, operativ nəqliyyat vasitəsi sürücülərinin və sərnişinlərinin kəməri bağlamamasına yol verilir), motosikletdə isə motoşlemi düymələmək və sərnişinlərin də motoşlemi düymələməsini təmin etmək;

— dayanaraq qırmızı və ya göy sayrışan işıq və xüsusi səs siqnalları verən operativ nəqliyyat vasitəsinə üstün keçid hüququ vermək;

— hərəkət təhlükəsizliyi üçün qorxu törədən alkoqol, narkotik vasitələr və ya güclü təsir göstərən digər maddələrin istifadə edilməsi nəticəsində, diqqəti və çevikliyi azaldan dərman vasitələrinin təsiri altında, xəstə və əzgin, yorğun vəziyyətdə nəqliyyat vasitəsini idarə etməmək, habelə nəqliyyat vasitəsini idarə etmək ixtiyarını bu cür vəziyyətdə olan və ya eyni kateqoriyalı nəqliyyat vasitəsini idarə etmək hüququ olmayan şəxsə verməmək;

— hərəkətdə olan nəqliyyat vasitəsinin dövlət qeydiyyat nişanının görünməsi üçün onun təmiz saxlanılmasını təmin etmək;

— yol hərəkətinin ən müdafiəsiz iştirakçılarının-uşaqların, əlillərin, velosipedçilərin və qocaların təhlükəsiz hərəkətini təmin etmək üçün mümkün olan bütün tədbirləri görmək, küçəni keçən kor piyadanın siqnalı ilə (siqnal—ağ əsanın qaldırılmasıdır) nəqliyyat vasitəsini dərhal dayandırmaq;

— Dövlət Yol Polisi orqanının əməkdaşı tərəfindən sağ əlindəki üfüqi vəziyyətdə olan jezllə və ya onların nəqliyyat vasitələrindəki qırmızı və ya göy sayrışan işıqla və yaxud xüsusi səs siqnalı ilə ona verilən işarəyə nəqliyyat vasitəsini dayandırmaq;

— Dövlət Yol Polisi orqanı əməkdlaşlarının tələbi ilə alkoqol, narkotik vasitələr və ya güclü təsir göstərən digər maddələrin istifadə edilməsi nəticəsində sərxoşluq vəziyyətinin yoxlanılması üçün müayinədən keçmək;

— təcili tibbi yardıma ehtiyacı olan şəxsləri daşımaq və sairə.

Qanunla müəyyən edilmiş qaydalara görə, mexaniki nəqliyyat vasitəsinin sürücüsü yol-nəqliyyat hadisəsi zamanı nəqliyyat vasitəsini yerindən tərpətməməli, qəza dayanma nişanını qurmalı, qəza işıq siqnalını yandırmalı, ya da yanıb-sönən qırmızı işıq fənərini qoymalı, hadisəyə aidiyyəti olan əşyaların yerini dəyişməməlidir.

Sürücü zərər çəkənlərə ilk tibbi yardım göstərilməsi üçün mümkün olan tədbirləri görməli, «Təcili tibbi yardım» maşını çağırmalı, zərər çəkənlər həyat üçün təhlükəli xəsarət aldığı hallarda isə, onları səmt üzrə gedən nəqliyyat vasitəsi ilə yaxınlıqdakı tibbi müəssisəyə göndərməli, bu mümkün olmadıqda isə, özünün nəqliyyat vasitəsi ilə aparmalı, orada şəxsiyyətini təsdiq edən sənəd və ya vəsiqə, nəqliyyat vasitəsinin qeydiyyatı sənədini təqdim etməklə özünün soyadını, nəqliyyat vasitəsinin qeydiyyat nömrə nişanını bildirməli, sonra hadisə yerinə qayıtmalıdır.

Başqa nəqliyyat vasitələrinin hərəkəti qeyri-mümkün olduqda, yolun hərəkət hissəsi boşaldılmalıdır. Yolun hərəkət hissəsini boşaltmaq və ya zərər çəkənləri öz nəqliyyatında xəstəxanaya aparmaq zərurəti olduqda, şahidlərin iştirakı ilə əvvəlcə nəqliyyat vasitəsinin vəziyyəti, izləri və hadisəyə aidiyyəti olan əşyalar qeyd edilməli və onların qorunması, nəqliyyat vasitələrinin hadisə yerinin yanından keçməsini təşkil etmək üçün mümkün olan bütün tədbirlər görülməlidir.



Sürücü hadisə haqqında Dövlət Yol Polisi orqanına xəbər verməli, hadisəni görmüş adamların soyadlarını, ünvanlarını yazmalı və DYP orqanı əməkdaşlarının gəlməsini gözləməlidir.

Əgər yol-nəqliyyat hadisəsi nəticəsində heç kim xəsarət almamışdırsa, maddi zərər cüzidirsə, nəqliyyat vasitələrində, onların hərəkət etməsinə mane ola biləcək nasazlıq yoxdursa və yol-nəqliyyat hadisəsini törədənlər hadisənin baş verdiyi şəraiti qiymətləndirməkdə razılığa gələrlərsə, onda onlar hadisənin sxemini tərtib edib imzaladıqdan sonra, hadisəni müəyyən olunmuş qaydada sənədləşdirmək üçün Dövlət Yol Polisi orqanına gəlməlidirlər.

Mexaniki nəqliyyat vasitəsinin sürücüsünə:

1) nəqliyyat vasitəsini qapıları bağlanmamış vəziyyətdə yerindən tərpətmək və ya onun hərəkəti zamanı qapıları açmaq;

2) nəqliyyat vasitəsini idarə etməkdən diqqəti yayındıra biləcək söhbətdə iştirak etmək, sükan arxasında telefonla danışmaq;

3) hərəkət zamanı sükanı əlindən buraxmaq, mühərriki söndürülmüş nəqliyyat vasitəsini ətalətlə idarə etmək;

4) nəqliyyat vasitəsinin təkərlərində və ya banında yol örtüyünü zibilləyən palçıq və s. varsa, yaxud onlardan yanacaq-sürtgü materiallarının, kimyəvi maddələrin, tikinti və digər materialların axması olarsa, onlarla örtüyü təkmilləşdirilmiş yollarda hərəkət qadağandır.

Mexaniki nəqliyyat vasitəsinin sürücüsü beynəlxalq yol hərəkətində iştirak etdikdə nəqliyyat vasitəsinin qeydiyyat şəhadətnaməsini, sürücülük vəsiqəsini və daşınan yüklərə dair sənədləri özündə saxlamalıdır. Həmçinin, nəqliyyat vasitəsində onu qeydə almış dövlətin dövlət qeydiyyat nişanı və fərqlənmə nişanı olmalıdır.

«Yol hərəkəti haqqında» Qanunun 40-cı maddəsinə müvafiq olaraq, yol hərəkətinin iştirakçısı olan piyadanın öhdəsinə aşağıdakı vəzifələr qoyulmuşdur:

I. Piyada:

1) səki ilə, piyada zolağı ilə, yol çiyinləri ilə, bunlar olmadıqda isə velosipedçilərin hərəkətini çətinləşdirməmək şərti ilə ve-

losiped yolu ilə hərəkət etməli və ya ayırıcı zolağı olan yollarda hərəkət hissəsinin xarici kənarı ilə getməlidir (iri əşyalar daşıyan və ya aparan piyadaların, habelə mühərriksiz əlil arabalarında gedən şəxslərin səki və ya yol qırağı ilə hərəkəti başqa piyadalar üçün maneə yaratdıqda, onlar yolun hərəkət hissəsinin kənarı ilə gedə bilərlər);

**2)** dəmir yolunu, avtomobil yolunun hərəkət hissəsini, küçələri piyada keçidləri ilə, o cümlədən yeraltı və yerüstü keçidlərlə, bunlar olmadıqda isə yolayrıclarında səki xətti və ya yol çiyini xətləri boyunca keçməlidir;

**3)** yaşayış məntəqələrindən kənarda yolun hərəkət hissəsi ilə hərəkət etdikdə nəqliyyat vasitələrinin hərəkəti istiqamətinə qarşı getməlidir (mühərriksiz əlil arabalarında hərəkət edən, motosiklet, moped, velosiped sürən şəxslər belə hallarda nəqliyyat vasitələrinin hərəkəti istiqamətində getməlidirlər);

**4)** ümumi istifadədə olan nəqliyyat vasitəsini və taksini, yalnız yolun hərəkət hissəsindəki nisbətən azca hündürə qaldırılmış minik meydançalarında, onlar olmadıqda isə, səkidə və ya yol çiyinlərində gözləməlidir (azca hündürə qaldırılmış minik meydançalarının olmadığı dayanacaq məntəqələrində nəqliyyat vasitəsinə minmək üçün yolun hərəkət hissəsinə yalnız nəqliyyat vasitəsi dayandıqdan sonra çıxmağa icazə verilir. Nəqliyyat vasitəsindən düşdükdən sonra ləngimədən yolun hərəkət hissəsini tərk etmək lazımdır);

**5)** hərəkətin nizamlandığı yerlərdə nizamlayıcının və ya piyada svetoforunun, o olmadıqda isə, nəqliyyat svetoforunun işarəsini əsas tutmalıdır;

**6)** yolun hərəkət hissəsində zərurət olmadan ləngiməməli və dayanmamalıdır;

**7)** qırmızı və ya göy sayrışan işıq və xüsusi səs siqnalı qoşulmuş nəqliyyat vasitəsi yaxınlaşdıqda, yolun hərəkət hissəsini keçməməlidir (hərəkət hissəsində olanlar isə bu nəqliyyat vasitələrinə yol verməli və hərəkət hissəsini dərhal boşaltmalıdırlar);



**8)** dayanmış nəqliyyat vasitəsinin və ya görmə sahəsini məhdudlaşdıran başqa maneənin arxasından yolun hərəkət hissəsinə çıxmazdan əvvəl yaxınlaşan nəqliyyat vasitəsinin olmadığını yəqin etməlidir;

**9)** görünmə zonasında keçid və ya yolayırıcı olmadıqda, ayırıcı zolaq olmayan və sədd çəkilməyən, hər iki tərəfdən yaxşı görünən sahələrdə hərəkət hissəsinin kənarına nisbətən yolu düz bucaq altında keçməlidir;

**10)** sutkanın qaranlıq vaxtı yolun işıqlanmayan hissələrində yalnız görünüş dairəsində nəqliyyat vasitəsi olmadıqda keçməlidir.

**II.** Piyada, nizamlanmayan piyada keçidlərində yolun hərəkət hissəsinə yalnız yaxınlaşmaqda olan nəqliyyat vasitələrinədək məsafəni, onların sürətini qiymətləndirdikdən və yolu keçməyin onlar üçün təhlükəsiz olacağını yəqin etdikdən sonra çıxa bilər.

**III.** Keçidi başa çatdıra bilməmiş piyadalar nəqliyyat vasitələrinin əks istiqamətli hərəkətlərini ayıran xəttin üstündə dayanıb gözləməlidirlər. Piyadalar yalnız hərəkətin təhlükəsizliyinə əmin olduqdan sonra və svetoforun (nizamlayıcının) siqnalını nəzərə almaqla yolu keçməyə davam edə bilərlər.

**IV.** Mütəşəkkil piyada dəstələrinə yalnız nəqliyyat vasitələrinin hərəkəti istiqamətində, yolun hərəkət hissəsinin sağ tərəfi ilə, bir sırada dörd nəfərdən çox olmayan dəstə ilə getməyə icazə verilir. Dəstənin qabağında və arxasında — sol tərəfdə müşayiətçilər olmalıdırlar, onlar əllərində qırmızı bayraqcıqlar, sutkanın qaranlıq vaxtında və məhdudiyyətli görünmə şəraitində isə, yandırılmış fənərlər: qabaqda-ağ, arxada-qırmızı işıq fənəri tutmalıdırlar.

**V.** Uşaqları dəstə halında yalnız sutkanın işıqlı vaxtı və böyüklərin müşayiəti ilə ancaq səki ilə, piyada yolu ilə, bunlar olmadıqda isə yol çiyini ilə aparmağa icazə verilir.

Qeyd olunanlarla yanaşı, sözü gedən Qanunda yol hərəkətinin digər iştirakçılarının — velosipedçilərin, mal-qara ötürənlərin, sərnişinlərin konkret vəzifələri təsbit edilmiş, üstün hərəkət rejiminə malik olan nəqliyyat vasitələrinin, velosiped və mopedlə-

rın hərəkətlərinə, at arabalarının sürülməsinə və mal-qaranın ötürülməsinə dair müvafiq tələblər irəli sürülmüşdür. Habelə Qanunun müvafiq müddəaları ilə yol hərəkəti qaydaları sisteminin digər elementləri — hərəkətə başlama, manevr etmə, avtomagistrallarda hərəkət, dəmir yol keçidlərində hərəkət, yaşayış zonalarında hərəkət, nəqliyyat vasitələrinin yolun hərəkət hissəsində yerləşməsi, hərəkət surəti və ara məsafəsi, ötmə və qarşılıqlı keçmə, dayanma və durma, adamların və yüklərin daşınması, parklanma və yedəyə alınma qaydaları müəyyənləşdirilmişdir.

Yollarda, yolayrıclarında və digər yerlərdə yol hərəkəti qaydalarına nəzarəti həyata keçirmək, yol hərəkətinin gərginliyinə yol verməmək və ya onu aradan qaldırmaq üçün nizamlayıcı siqnallarından istifadə olunur. Nizamlayıcının siqnallarının mənası, onun növləri «Yol hərəkəti haqqında» Qanunun 38-ci maddəsində şərh olunmuşdur.

Nizamlayıcının siqnallarının aşağıdakı mənaları vardır:

**1)** Bütün nəqliyyat vasitəsi sürücülərinə və piyadalara aid olan siqnallar:

**a)** «Diqqət, hərəkət dayandırılsın» siqnalı hərəkəti qadağan edir, lakin siqnal verilərkən yolayırıcında olan sürücülərə və piyadalara hərəkətlərini davam etməyə icazə verir;

**b)** «Müəyyən istiqamət üzrə hərəkət» siqnalı nizamlayıcının sinə və arxa tərəfindən gələn nəqliyyat vasitələrinin və piyadaların hərəkətini qadağan edir, sol və sağ tərəfindən gələn tramvayların düzünə, relssiz nəqliyyat vasitələrinin düzünə və sağa hərəkət etməsinə, *sinə və arxa tərəfindən isə piyadalara yolun* hərəkət hissəsini keçməyə icazə verir;

**v)** «Sola dönmə» siqnalı nizamlayıcının sol tərəfindən gələn tramvayların sola dönməsinə, relssiz nəqliyyat vasitələrinə bütün istiqamətlərdə hərəkət etməyə, sinə tərəfindən gələn nəqliyyat vasitələrinə sağa dönməyə, arxa tərəfindən piyadalara hərəkət hissəsini keçməyə icazə verir, sağ və arxa tərəfindən gələn nəqliyyat vasitələrinin hərəkətini isə qadağan edir;



**2)** Konkret nəqliyyat vasitəsi sürücüsünə və piyadaya aid olan siqnallar:

**a)** «Sürəti azaldın» siqnalı nizamlayıcı əli ilə yuxarı-aşağı hərəkətlər edərsə, hərəkətə icazə verilən istiqamətlərdə sürücüdən öz nəqliyyat vasitəsinin sürətinin azaldılmasını tələb edir;

**b)** «Sürəti artırın» siqnalı nizamlayıcı əli ilə üfüqi vəziyyətdə (saat əqrəbi istiqamətində) dairəvi hərəkətlər edərsə, hərəkətə icazə verilən istiqamətlərdə sürücüdən öz nəqliyyat vasitələrinin surətini artırmaq, piyadalardan isə yolu keçməsini tezləşdirməyi tələb edir;

**v)** «Dayanın» siqnalı nizamlayıcı tərəfindən hər hansı nəqliyyat vasitəsinə tərəf yönəldilmişdirsə, onun sürücüsündən öz nəqliyyat vasitəsini yolun hərəkət hissəsinin kənarında dayandırmasını tələb edir.

Müstəsna hallarda, yol hərəkətinin təhlükəsizliyini təmin etmək məqsədilə təxirə salınmayan tədbirlərin görülməsi üçün zərurət yaranarsa, nizamlayıcı göstərilən siqnalların mənalarından fərqli olaraq yol hərəkəti iştirakçılarına aydın olan digər siqnalları verə bilər.

Nizamlayıcı siqnalları verərkən, fitdən də istifadə edə bilər. Nizamlayıcı elə yerdə dayanmalı və elə təchiz edilməlidir ki, yol hərəkəti iştirakçıları onun tərəfindən verilən siqnalları sutkanın işıqlı və qaranlıq vaxtı seçə bilsinlər. Bu məqsədlə sutkanın qaranlıq vaxtında nizamlayıcı işıq düşən yerdə dayanmalıdır və ya istifadə edilən jezl işıq saçan və yaxud işıq verən olmalıdır.

Yol hərəkətini səlist və rahat nizama salmaq üçün svetoforlardan da istifadə olunur. Svetoforlar vasitəsi ilə verilən siqnallarda yaşıl, sarı, qırmızı və ağ-sarımtıl rənglər tətbiq edilir. Svetoforların siqnalları, yollarda svetofor obyektlərinin qurulması, onların lazımi vəziyyətdə işləməsinə nəzarət qaydaları «Yol hərəkəti haqqında» qanunun 59-cu maddəsi ilə tənzimlənir.

Təyinatından asılı olaraq svetofor siqnalları dairəvi formalı, ox (oxlar), piyadanın və ya velosipedin silueti şəklində və X formalı ola bilər. Dairəvi siqnallı svetoforların yaşıl ox (oxlar) şək-

lində bir və ya iki əlavə bölməsi ola bilər: həmin bölmələr dairəvi yaşıl siqnalın səviyyəsində yerləşdirilir.

Svetoforun dairəvi siqnallarının aşağıdakı mənaları vardır:

1) yaşıl rəngli işığın yanması—bu siqnal hərəkətə icazə verir;

2) yaşıl rəngli işığın yanıb-sönməsi—bu siqnal hərəkətə icazə verir və bildirir ki, onun vaxtı qurtarır, tezliklə qadağan siqnalı yanacaq (yaşıl siqnalın sönməsinə qədər qalan müddəti sürücülərə bildirmək üçün rəqəmli tablo tətbiq edilə bilər);

3) sarı rəngli işığın yanması—bu siqnal hərəkəti qadağan və tezliklə siqnalların dəyişəcəyi barədə xəbərdarlıq edir;

4) sarı rəngli işığın yanıb-sönməsi—hərəkətə icazə verir və nizamlanmayan yolayırıcının və ya piyada keçidinin olduğunu bildirir, təhlükə barədə xəbərdarlıq edir;

5) qırmızı rəngli işığın yanması və ya yanıb-sönməsi — bu siqnal hərəkəti qadağan edir;

6) qırmızı və sarı rəngli işıqların eyni vaxtda yanması— bu siqnal hərəkəti qadağan edir və tezliklə yaşıl siqnalın yanacağını bildirir.

Kor piyadalara yolun hərəkət hissəsini keçməyin mümkünlüyünü bildirmək üçün svetoforun işıq siqnallarına səs siqnalı da əlavə edilə bilər.

Tramvaylar, habelə digər ümumi istifadədə olan nəqliyyat vasitələri üçün ayrılmış zolaqla hərəkət edən həmin nəqliyyat vasitələrinin hərəkətini nizamlamaq üçün «T» hərfi şəklində yerləşmiş ağ-sarımtıl, dörd dairəvi siqnalı olan birrəngli siqnal svetoforları tətbiq edilə bilər.

Dəmir yol keçidində yerləşən dairəvi ağ-sarımtıl siqnal nəqliyyat vasitələrinin keçiddən keçib getməsinə icazə verir. Yanıb-sönən ağ-sarımtıl və sönmüş qırmızı siqnal olduqda, görmə sahəsi həddində keçidə yaxınlaşan qatarın (lokomotivin, drezinanın) olmadığı halda, hərəkətə icazə verir.

Yollarda svetoforların qurulması və onların lazımi vəziyyətdə işləməsinə nəzarət Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin DYP orqanı tərəfindən həyata keçirilir.



Qanunvericiliyin müəyyən etdiyi qaydalara görə, svetoforun və nizamlayıcının siqnallarının yerinə yetirilməsi yol iştirakçıları üçün məcburi hesab olunur. Nizamlayıcının siqnalları və göstərişləri svetoforun siqnallarına, yol nişanlarının və nişanlama xətlərinin tələblərinə zidd olduqda belə, sürücülər və piyadalar bu siqnallara və göstərişlərə əməl etməlidirlər.

Yollarda yol hərəkətinin qaydaları və şəraiti barədə müəyyən məlumat saxlayan və yol hərəkətini nizamlayan əsas vasitələrdən biri yol nişanlarıdır.

«Yol hərəkəti haqqında» Qanunla müəyyən edilmiş normalara görə, yol nişanları 7 qrupa bölünmüşdür:

I. Xəbərdarlıq nişanları;

II. Üstünlük nişanları;

III. Qadağan nişanları;

IV. Məcburi hərəkət istiqamət nişanları;

V. Məlumatverici-göstərici nişanlar;

VI. Servis nişanları;

VII. Əlavə məlumat nişanları (lövhəcikləri).

Əvvəllər qüvvədə olan qaydalara nisbətən belə bölgü əsas etibarilə bu və ya digər nişanın funksiyasına daha uyğun gəlir. Məsələn, üstünlük nişanları qrupu yol kəsişmələrindən keçmə növbəliliyini göstərir; əlavə məlumat nişanları müstəqil tətbiq edilə bilməz, onlar yalnız hər hansı bir nişanla birlikdə tətbiq edilərək onun mənasını tamamlayır, yaxud dəqiqləşdirir.

Hər bir yol nişanının özünə məxsus nömrəsi, rəngi və forması müəyyən edilmişdir. Bu isə öz növbəsində, nişanın uzaq məsafədən yaxşı dərk edilməsinə imkan verir.

Nişanların qoyulmasında mühüm şərt—onların yaxşı görünməsi və ən azı 100 metr məsafədən təyin edilə bilməsidir. Xüsusi nəzərdə tutulmuş hallar istisna olmaqla, nişanları əsasən yolun sağ tərəfinə qoyurlar.

Svetofor obyektlərinin və yol nişanlarının qoyulması ilə yanaşı, nəqliyyat axınının qaydaya salınması və yolun buraxılış qabiliyyətinin yüksəldilməsi məqsədi ilə yol hərəkətinin nizamlanmasının səmərəli vasitələrindən biri kimi yolun nişanlanmasından da istifadə edilir.

Hərəkət təhlükəsizliyini artırmaq məqsədi ilə yol hərəkəti qaydalarını müəyyənləşdirən, yol qurğularının ölçülərini və ya yolun istiqamətini bildirən, yolun hərəkət hissəsinə, yolun və yol qurğularının digər elementlərinə çəkilən xətlər, yazılar və digər qeydlər yol nişanlanmasına aiddir.

Yol işləri apanlarkən, habelə yolun zədələnmiş sahələrində təhlükəsiz və fasiləsiz hərəkəti təmin etmək məqsədi «Yol hərəkəti haqqında» Qanunla müəyyən edilmiş xüsusi işarələrdən istifadə olunur. Bu işarələrin siyahısına aşağıdakılar aiddir:

1) görülməli işlərin sahəsini müəyyənləşdirən lövhə və səyyari konuslar;

2) nizamlayıcı göstəriciləri olan sürətli hərəkət lövhələri;

3) iş sahəsini müəyyənləşdirən qırmızı və ya narıncı rəngli sayrışan işıqlar;

4) hərəkətin istiqamətini göstərən manеə;

5) görülən yol işlərindən yan keçməni göstərən manеələr;

6) yol işləri sahəsinin müəyyən edilməsi üçün bayraqlar.

Yuxarıda göstərilən vasitələr işıqqaytarıcı olmazsa, axşamlar qırmızı və narıncı rəngli daimi və ya sayrışan işıqlar quraşdırılmalıdır.

Yol işlərinin aparılması müddətində qurulmuş xüsusi yol nişanları və ya işıq siqnalları saxlanılır, işlər qurtardıqda isə ilkin vasitələr bərpa edilir və zəruri olduqda yeni yol hərəkəti şəraitinə müvafiq olaraq dəyişikliklər edilir.

Yol hərəkəti qaydalarının nizama salınmasında yuxarıda göstərdiyimiz nişan, işarə və vasitələrdən savayı yol hərəkətində iştirak edən nəqliyyat vasitələrinin xüsusi tanınma nişanlarından da istifadə olunur. «Yol hərəkəti haqqında» Qanunun 72-ci maddəsinə müvafiq olaraq, belə nişanların sırasına «Avtoqatar», «Tikanlı şinlər», «Uşaqların daşınması», «Kar sürücü», «Əlil», «Həkim», «Təlim nəqliyyat vasitəsi», «Nəqliyyat vasitəsinin qabaritindən kənara çıxan yük», «Təhlükəli yük», «Uzunölçülü nəqliyyat vasitəsi», «Qəza dayanacağı», «AZ» fərqlənmə nişanı və «Təcrübəsiz sürücü» tanınma nişanları aid edilmişdir.



Yol hərəkəti qaydalarının tənzimlənməsi ilə bağlı digər qaydalar, məsələn, nəqliyyat vasitəsinin sürücüsü tərəfindən səs siqnallarından və xarici işıq cihazlarından istifadə edilməsi, xüsusi siqnalların tətbiqi, yol ayrıclarının keçilməsi, sürmə təlimi, nizamlanan və nizamlanmayan yolayrıcları və s. «Yol hərəkəti haqqında» Qanunun müvafiq müddəaları ilə nizama salınmışdır.

### 3.2. Yol hərəkəti qaydalarının pozulmasına görə məsuliyyətin hüquqi aspektləri

Qısaca da olsa, məsuliyyət anlayışının mahiyyətinə toxunaq. Cəmiyyətdə qanunun aliliyinin təmin olunmasında, hüquq qaydalarına əməl olunmasında hər bir qanun pozuntusuna görə məsuliyyətin müəyyən edilməsinin böyük əhəmiyyəti vardır.

Elə bu baxımdan, Azərbaycan Respublikasının Əsas Qanununda xüsusi bir müddəa ilə (maddə 80) məsuliyyət anlayışının mənası açıqlanmışdır. Azərbaycan Respublikası Konstitusiyasının müəyyən etdiyi normaya görə, Konstitusiyanın və qanunların pozulması, o cümlədən Konstitusiyada və qanunlarda nəzərdə tutulan hüquqlardan sui-istifadə və ya vəzifələrin yerinə yetirilməməsi qanunla müəyyən edilən məsuliyyətə səbəb olur.

Müxtəlif dərsliklərdə və hüquq ədəbiyyatlarında* vurğulandığı kimi məsuliyyət kifayət qədər geniş anlayışdır və fəlsəfədə, sosiologiyada, o cümlədən hüquqda işlədilir. Hüquqi məsuliyyət yalnız qanunla müəyyənləşdirilir, onun əmələ gəlməsinin və tətbiqinin dəqiq əsasları olur.

Məsuliyyət çoxcəhətli anlayış olmaqla, hər bir şəxsin cəmiyyət qarşısında mənəvi borcu və hüquq normalarına əməl olunması ilə fərqlənən əxlaqi və hüquqi kateqoriyadır.

---

* *Məsələn, bax:* **Əsgərov Z.A. Konstitusiya hüququ. Bakı, AR MM-in mətbəəsi, 2002; Cəfərov İ.M. Azərbaycan Respublikası Konstitusiyasının şərhi. Bakı, "Hüquq ədəbiyyatı" nəşriyyatı, 2001 və s.**

Məsuliyyət geniş mənada — cəmiyyət tərəfindən mühakimə olunan əməllər törətmiş şəxsin üzərinə etdiyi əməllərin mənfi nəticələrinə məruz qalmaq öhdəliyinin qoyulmasıdır. «Məsuliyyət» termini əksər hallarda şəxsin üzərinə qoyulmuş vəzifələrin hazırda və gələcəkdə həyata keçirilməsinə görə tədbir mənasında işlədilir. Bu, pozitiv məsuliyyətdir. Pozitiv məsuliyyət dövlət və cəmiyyət qarşısında cəmiyyət üzvlərinin vətəndaşlıq borcu ilə əlaqədar olan faydalı hərəkətlərin həyata keçirilməsindən ibarətdir.

Pozitiv məsuliyyətdən fərqli olaraq qanunsuz əmələ — hüquq pozuntusuna görə məsuliyyət retrospektiv məsuliyyət adlanır. Burada məsuliyyət anlayışı hüquq pozuntusu anlayışı ilə sıx bağlıdır. Hüquq pozuntusu şəxsin məsuliyyət ölçüsünün müəyyən olunması üçün əsasdır. Məsuliyyət şəxsin etdiyi hüquq pozuntusuna görə cavab vermək vəzifəsidir. Əgər hər hansı cavab vermək vəzifəsi eyni zamanda tələb etmək hüququnu nəzərdə tutursa, onda məsuliyyət özü elə hüquq münasibətidir.

Bununla əlaqədar, məsuliyyət özünün xüsusi orqanları simasında dövlətlə hüquq pozuntusuna görə cavab vermək vəzifəsi daşıyan şəxs arasındakı hüquq münasibətini ifadə edir. Belə halda hüquq pozuntusu bu növ hüquq münasibətinin yaranması üçün hüquqi fakt rolu oynayır. Məsuliyyətin heç də bütün növləri dövlət məcburiyyətinin tətbiq edilməsi ilə əlaqədar deyildir. Dövlətin məcburedici tədbirləri yalnız şəxsin öz vəzifəsini yerinə yetirməkdən imtina etdiyi halda tətbiq olunur. Cinayət, inzibati və intizam məsuliyyətinə gəldikdə isə onlar şəxsin hüquq pozuntusuna görə təqsirləndiyi vaxtdan etibarən meydana gəlir və dövlətin məcburedici qüvvəsinin tətbiqinə səbəb olur.

Məsuliyyət hər hansı digər ictimai kateqoriya kimi sosial təyinata malikdir. Bu, hüquq pozuntusuna görə ədalətli, əsaslı və qanuni cəzalandırma yolu ilə ictimai qaydanı mühafizə etməkdən ibarətdir. Lakin məsuliyyət bu vəzifəni yerinə yetirməklə bərabər eyni zamanda adamları qanuna tabe olmaq və ona hörmət etmək ruhunda tərbiyələndirir, hüquq pozuntusunun qarşısını almaq vasitəsi kimi çıxış edir.



Hüquq ədəbiyyatında, məsuliyyətin hər bir halda, adətən, üç əsasının olması göstərilir:

— faktiki əsas (hüquq pozuntusu);
— hüquqi əsas (pozuntunun tövsif olunduğu norma);
— prosessual əsas (bir qayda olaraq, inzibati məsuliyyətdə olur).

Hüquq pozuntusunun xarakteri şəxs barəsində məsuliyyət növünün müəyyən olunması üçün əsasdır. Bütünlüklə məsuliyyət sahəvi əlamətlərə görə aşağıdakı növlərə təsnifləşdirilir:

— inzibati-hüquq məsuliyyəti;
— intizam məsuliyyəti;
— maddi məsuliyyət;
— cinayət-hüquq məsuliyyəti.

Qeyd edildiyi kimi, məsuliyyət hüquq pozuntusunun törədilməsi ilə əlaqədar əmələ gəlir və o, məsuliyyətin əmələ gəlməsinə əsas sayılır. Hüquq pozuntusu müəyyən tərkib əlamətlərinə malik olmaqla, məsuliyyətin əsası kimi çıxış edir. Bu əlamətlərə hüquq pozuntusunun obyekti, subyekti, obyektiv və subyektiv cəhətləri daxildir.

Hüquq pozuntusunun ümumi obyekti qismində müxtəlif hüquq sahələri ilə tənzimlənən və müvafiq qanunvericiliklə qorunan ictimai münasibətlər çıxış edir.

Hüquq pozuntusunun subyekti dedikdə, hüquq pozuntusunu edən şəxs, yəni qanunu pozan fiziki şəxs başa düşülür. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 17-ci maddəsinə uyğun olaraq, inzibati xətalara görə hüquqi şəxslər də inzibati məsuliyyətə cəlb oluna bilərlər. Cinayətin subyekti yalnız fiziki şəxs ola bilər.

Hüquq pozuntusunun obyektiv cəhətini onun zahiri əlamətləri ilə əlaqədar olan bütün amillərin məcmusu təşkil edir. Bura: a) edilmiş əməlin hüquqazidd olması; b) bu əməl nəticəsində müəyyən zərər vurulması; v) hüquq pozuntusu törətmiş şəxsin hərəkəti (hərəkətsizliyi) ilə zərərli nəticələr arasında səbəbli əlaqənin olması daxildir.

Hər bir hüquq pozuntusu müəyyən şəxsin hüquqazidd hərəkətində (hərəkətsizliyində) ifadə olunan iradəvi aktdır. Hərəkətsizlik dedikdə, şəxsin üzərinə düşən vəzifələri yerinə yetirmək imkanına malik olması və yerinə yetirməli olmasına baxmayaraq bunları etməməsi nəzərdə tutulur.

Hüquq pozuntusunun subyektiv cəhəti hüquq pozuntusu edən şəxsin daxili aləmi, hər şeydən əvvəl, onun psixi vəziyyəti ilə əlaqədar olub, təqsir formasında təzahür edir. Təqsir hüquq pozuntusuna və onun nəticələrinə şəxsin psixi münasibəti olub, qəsd və ya ehtiyatsızlıq formasında ifadə olunur.

Beləliklə, yalnız hüquq pozuntusu tərkibi, yəni onun bütün tərkib əlamətlərinin məcmusu şəxsin müvafiq məsuliyyətə cəlb edilməsi üçün yeganə əsasdır. Bu əlamətlərin hətta birinin olmaması məsuliyyəti istisna edir.

Yol hərəkəti qaydalarının və ümumiyyətlə yol hərəkəti qanunvericiliyinin pozulmasına görə hüquqi və fiziki şəxslər Azrbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi və Azərbaycan Respublikasının digər qanunları ilə müəyyən edilmiş qaydada məsuliyyət (inzibati, cinayət, mülki-hüquqi və s.) daşıyırlar.

Praktiki planda statistika göstəriciləri baxımından, yol hərəkəti sahəsində hüquq pozuntuları törədilməsi ilə əlaqədar cinayət-hüquqi və mülki-hüquqi məsuliyyətlə yanaşı, inzibati-hüquqi məsuliyyət daha geniş yer tutur. Bu amili nəzərə alaraq, yol hərəkəti iştirakçılarının ən çox rastlaşdığı məsuliyyət növü-inzibati-hüquqi məsuliyyətin anlayışını və xüsusiyyətlərini açıqlamaq yerinə düşərdi.

Hüquq ədəbiyyatında qeyd olunlduğu kimi,* inzibati məsuliyyət hüquqi məsuliyyətin xüsusi növüdür və hüquqi məsuliyyətin bütün əlamətləri ona xasdır. Hüquqi məsuliyyətin əlamətləri əsasən aşağıdakılardır:

---

* *Bax:* **Abdullayev E.İ. İnzibati hüquq (dərslik). Bakı, ABU, 2001.**



— təqsirin mövcudluğu;
— hüquq pozuntusu əməlinə görə başlanır;
— səlahiyyətli orqanların normativ aktları ilə konkretləşdirilir;
— dövlət məcburiyyəti ilə bağlıdır.

Digər tərəfdən, inzibati məsuliyyət inzibati məcburetmənin tərkib hissəsi olmaqla onun bütün əlamətlərinə malikdir. İnzibati-hüquqi məcburetmə isə dövlət tərəfindən müəyyən edilmiş məcburetmənin xüsusi növü olub, inzibati hüquqpozmalara görə funksional hakimiyyət subyektləri tərəfindən inzibati hüquq normaları ilə müəyyənləşdirilmiş məcburetmə tədbirləri tətbiq edilməsindən ibarətdir.

İnzibati-hüquqi məcburetmənin inzibati xətalara-hüquqpozmalara qarşı mübarizədə profilaktik əhəmiyyətini xüsusilə qeyd etmək lazımdır. Məsələn, dövlət yol polisi müfəttişləri və icraedici-sərəncamverici fəaliyyətin digər subyektləri yol hərəkəti qaydalarına riayət edilməsinə müntəzəm olaraq nəzarət edir və hüquqpozmalara (inzibati xətalara) qarşı vaxtlı-vaxtında əks təsir göstərirlər. İnzibati-hüquqi məcburetmə çoxsaylı ehtiyat tədbirlərini (məsələn, nəqliyyat vasitələrinin istismarının qadağan edilməsi, sürücünün nəqliyyat vasitəsini idarəetmədən kənarlaşdırılması və s.) özündə birləşdirir. Bu tədbirlərdən istifadə edilməsi cəmiyyətə zidd hərəkətlərə son qoyur, sosial baxımdan zərərli nəticələrin başlanmasının qarşısını alır.

Qeyd olunanlarla yanaşı, inzibati məsuliyyətin bir sıra özünəməxsus xüsusiyyətləri də vardır.

Xüsusiyyətlərdən biri ondan ibarətdir ki, inzibati məsuliyyətin əsasını inzibati hüquq pozuntusu təşkil edir (xəta -qəbahətli əməl deməkdir). Bu prinsip öz əsasını İnzibati Xətalar Məcəlləsinin 3-cü maddəsində tapmışdır. Həmin müddəaya görə, yalnız İnzibati Xətalar Məcəlləsi ilə nəzərdə tutulmuş inzibati xətaların törədilməsində təqsirli hesab edilən və inzibati xəta tərkibinin bütün digər əlamətlərini daşıyan əməli (hərəkət və ya hərəkətsizlik) törətmiş şəxs inzibati məsuliyyətə cəlb olunur və tənbeh edilir.

Digər bir xüsusiyyət odur ki, inzibati məsuliyyət təqsirli şəxslərə qarşı inzibati tənbehlər (cəzalar) tətbiq edilməsindən ibarətdir. Burada məqsəd, inzibati xəta törədən şəxsi qanunlara əməl edilməsi ruhunda tərbiyələndirmək, habelə həm inzibati xəta törətmiş şəxs, həm də başqa şəxslər tərəfindən yeni inzibati xəta törədilməsinin qarşısını almaqdır. İnzibati xətalar cinayət əməllərinə nisbətən az sosial təhlükəli, ziyanlı olduğundan inzibati tənbehlərin sərtliyi də cinayət cəzalarına nisbətən daha azdır.

Başqa bir xüsusiyyət-şəxsləri inzibati məsuliyyətə, yalnız qanunvericiliklə müvafiq səlahiyyətlər verilmiş orqanlar cəlb edirlər. Belə orqanların siyahısı İnzibati Xətalar Məcəlləsminin 3-cü bölməsində öz əksini tapmışdır.

İnzibati məsuliyyətə cəlbetmənin xüsusi qaydası qanunvericiliklə müəyyən edilmişdir. Bu qayda nisbətən sadə olması ilə fərqlənir ki, bu da onun çevik həyata keçirilməsi və səmərəli olması üçün şərait yaradır, lakin eyni zamanda qanunçuluğun və müdafiə olunmaq hüququnun həyata keçirilməsi üçün lazımi təminatlar verir (m.362-370, Məcəllə).

İnzibati məsuliyyət inzibati məcəllənin normaları ilə tənzimlənir, həmin normalar da inzibati xətaların, qəbahətlərin, inzibati tənbehlərin və bu tənbehləri tətbiq etmək səlahiyyəti verilmiş orqanların müfəssəl siyahısını əks etdirir və inzibati məsuliyyətin normativ əsasını yaradır.

Belə normaların başlıca mənbəyi Azərbaycan Respublikasının 11 iyul 2000-ci il tarixli Qanunu ilə qəbul edilmiş və 1 sentyabr 2000-ci il tarixdən qüvvəyə minmiş Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsidir. Bu məcəllə inzibati məsuliyyət haqqında respublika qanunvericiliyini kodifikasiya edərək onu sistemləşdirmişdir. Məcəllədə maddi normalarla (tənbehlər sistemi, xətaların tərkibi və s.) yanaşı, inzibati xətapozmalara dair işlər üzrə icraatı tənzimləyən çoxlu miqdarda inzibati prosesual normalar da əks etdirilmişdir.

Məcəllənin 12-ci maddəsi inzibati xəta anlayışını açıqlayır. İnzibati Xətalar Məcəlləsi ilə qorunan ictimai münasibətlərə



qəsd edən, hüquqa zidd, təqsirli sayılan (qəsdən və ya ehtiyatsızlıq üzündən törədilən) və inzibati məsuliyyətə səbəb olan əməl (hərəkət və ya hərəkətsizlik) inzibati xəta hesab olunur.

Yol hərəkəti sahəsində inzibati xətanın tərkib elementləri aşağıdakılardır: obyekt, obyektiv tərəf, subyekt, subyektiv tərəf.

Obyekt qismində, yol hərəkəti prosesində yaranan, müxtəlif hüquq sahələri (inzibati hüquq, mülki hüquq, ekoloji hüquq və s.) ilə tənzimlənən və müvafiq qanunvericiliklə (İnzibati Xətalar Məcəlləsi, Cinayət Məcəlləsi və s.)qorunan ictimai münasibətlər qəbul edilir.

Yol hərəkəti sahəsində inzibati xətanın obyektiv tərəfi -yol hərəkəti qaydaları pozuntusundakı fəaliyyəti (əməli), onun zahiri təzahürlərini (edilmiş əməlin yol hərəkəti qaydalarına zidd olması, belə fəaliyyət nəticəsində müəyyən zərər-maddi, mənəvi, əmlak və b. vurulması, yol hərəkəti qaydalarını pozmuş şəxsin əməli ilə zərərli nəticə arasında səbəbli əlaqənin olması) və digər qalan cəhətlərini (üsul, vaxt, yer və s.) səciyyələndirən inzibati hüquq norması ilə nəzərdə tutulmuş əlamətlər sistemidir.

Yol hərəkəti qaydalarını pozma vurulmuş zərərdən asılı olaraq ya inzibati xəta, ya da cinayət kimi təfsir edilir, yəni zərərin miqdarı bəzən ya inzibati, yaxud cinayət məsuliyyəti tətbiq olunmasını şərtləndirir. Buna görə də zərərli nəticə «obyektiv tərəf» elementi daxilində bilavasitə və ya dolayısı ilə xəta əlamətlərinin tərkibinə aid edilir.

Subyekt — yol hərəkəti qaydalarının pozuntusunu törətmiş şəxsdir, yəni yol hərəkəti iştirakçısıdır (nəqliyyat vasitəsinin sürücüsü, sərnişin, piyada, velosipedçi və s.). Subyektin bütün əlamətləri iki qrupa bölünür: ümumi əlamətlər və xüsusi əlamətlər. Ümumi əlamətlərə müvafiq yaş həddinə çatma və anlaqlı olma aiddir. Ümumi subyekt əlamətləri İnzibati Xətalar Məcəlləsinin II bölməsinin müvafiq maddələri ilə təsbit olunmuşdur (məsələn, bax: Yol hərəkəti qaydaları əleyhinə olan inzibati xətalar).

Subyektin xüsusi əlamətlər qrupuna aşağıdakıları aid etmək olar:

— iş, xidməti vəzifə xüsusiyyətləri (vəzifəli şəxs, ticarət müəssisəsinin sürücüsü və s.);

— müqəssirin keçmiş hüquqa zidd davranışı (nəzarət altında olması, qatı hüquqpozuntusu etmiş olması və s.);

— şəxsin hüquqi statusunun sair xüsusiyyətləri (hərbi mükəlləfiyyətli olması, əcnəbi olması və s.).

Yol hərəkəti sahəsində inzibati xətanın subyektiv tərəfi-bu, yol hərəkəti iştirakçısının qayda pozuntusuna, törətdiyi əmələ psixi münasibətini səciyyələndirən əlamətlərin məcmusudur. Onun özəyi qəsd (niyyət) və ehtiyatsızlıq formasında mövcud ola bilən təqsirdir.

Cəmiyyətimizdə baş vermiş hüquqi islahatlar və dəyişikliklərlə bağlı olaraq inzibati xətalar qanunvericiliyində aşağıdakı əsas prinsiplər formalaşmışdır:

1. İnsan və vətəndaş hüquqlarına və azadlıqlarına hörmət edilməsi prinsipi;

2. İnzibati məsuliyyətin qanunçuluq prinsipi;

3. İnzibati məsuliyyət tədbirləri tətbiq edilərkən qanun qarşısında bərabərlik prinsipi;

4. İnzibati məsuliyyət müəyyən edilərkən təqsirlik prezumpsiyası prinsipi;

5. İnzibati məsuliyyətdə ədalətlilik prinsipi;

6. İnzibati Xətaların qarşısının alınması prinsipi.

Yol hərəkəti qaydalarının və yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi qaydalarının pozulmasına görə Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 23-cü maddəsi ilə əsasən, xəbərdarlıq, inzibati cərimə, inzibati xəta törətmiş fiziki şəxsin ona verilmiş xüsusi hüququnun məhdudlaşdırılması və s. inzibati tənbeh növləri müəyyən edilmişdir.

Adları çəkilən tənbeh növləri bir-biri ilə sıx bağlı olmaqla vahid inzibati sanksiya sisteminin tərkib hissələridir. Hər hansı tənbehin tətbiqi inzibati məsuliyyətin başlandığını bildirir, təqsirli şəxs üçün əlverişsiz hüquqi nəticələrə səbəb olur.

Xəbərdarlıq inzibati tənbeh növü müstəqil cəza qismində az sosial təhlükəli inzibati pozuntular törədilməsinə görə, habelə



ilk dəfə təqsirli hərəkət etmiş şəxslərə münasibətdə tətbiq edilir. Məsələn, nəqliyyat vasitələrinin icazə verilməyən yerlərdə saxlanılmasına, yaxud parklanma qaydalarının pozulmasına görə İnzibati Xətalar Məcəlləsinin 158.1-ci maddəsinə müvafiq olaraq, hüquq pozuntusu törətmiş şəxslərə xəbərdarlıq edilə bilməsi nəzərdə tutulmuşdur.

Başqa tənbeh növləri kimi bu tənbeh tədbiri də yazılı qərar qəbul edilməsi yolu ilə tətbiq olunur. Vəzifəli şəxslərin vətəndaşlara etdikləri şifahi xəbərdarlıq tənbeh kimi qiymətləndirilə bilməz. Məcəllənin 24-cü maddəsində qeyd olunur ki, xəbərdarlıq inzibati tənbeh növü olmaqla hüquqazidd əməlin yolverilməzliyi barədə şəxslərə edilən rəsmi xəbərdaredici tədbirdir. Xəbərdarlıq yazılı formada edilir.

İnzibati cərimə əmlak xarakterli tədbirdir. İnzibati Xətalar Məcəlləsinin 25-ci maddəsi ilə müəyyən edilmişdir ki, inzibati cərimə İXM-də nəzərdə tutulmuş hallarda hakim, səlahiyyətli orqan (vəzifəli şəxs) tərəfindən təyin edilən və təqsirkar şəxsdən dövlət xeyrinə məcburi tutulan pul məbləğidir.

Məcəllənin adı çəkilən maddəsində inzibati cərimənin əsasən aşağıdakı meyarları nəzərdə tutulmuşdur:

— inzibati xətanın başa çatdığı və ya qarşsının alındığı vaxt Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilən minimum əmək haqqı məbləğinin miqdarı. Lakin qeyd etmək lazımdır ki, İnzibati Xətalar Məcəlləsi qüvvəyə mindikdən sonra (01.09.2000-ci il) minimum əmək haqqı ölçü meyarı şərti maliyyə vahidi ilə əvəz olunmuşdur və bunun miqdarı 5.500 manat qəbul edilmişdir;

— inzibati xətalara görə alınan cərimənin miqdarı şərti maliyyə vahidinin üç mislindən az ola bilməz;

— şərti maliyyə vahidi ilə hesablanan və inzibati xətalara görə fiziki şəxslərdən alınan inzibati cərimənin miqdarı şərti maliyyə vahidinin qırx mislindən, vəzifəli şəxslərdən alınan inzibati cərimənin miqdarı şərti maliyyə vahidinin doxsan mislindən, hüquqi şəxslərdən alınan inzibati cərimənin miqdarı şərti maliyyə vahidinin üç yüz mislindən artıq ola bilməz və s.

Göründüyü kimi inzibati cərimənin miqdarının aşağı-minimum (şərti maliyyə vahidinin üç misli) və yuxarı-maksimum (şərti maliyyə vahidinin üç yüz misli) hədləri qanunverici tərəfindən konkret olaraq müəyyənləşdirilmişdir.

Yol hərəkəti qaydaları və yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi qaydaları əleyhinə olan inzibati xətalar törətmiş şəxslərə qarşı inzibati cərimə tənbeh növü İnzibati Xətalar Məcəlləsinin müddəalarına müvafiq olaraq effektiv surətdə tətbiq edilir. Məsələn, nəqliyyat vasitələrinin sürücüləri tərəfindən yol hərəkəti qaydalarının pozulmasına (maddə 151.1-151.4, Məcəllə), nəqliyyat vasitələrini idarəetmə hüququ olmayan şəxslər tərəfindən nəqliyyat vasitələrinin idarə edilməsinə (maddə 152.1-152.5, Məcəllə), avtomobil yollarında və nəzarət edilən zonalarda yol hərəkəti təhlükəsizliyi qaydalarının pozulmasına (maddə 164.0.1-164.0.10, Məcəllə), yol hərəkəti təhlükəsizliyinin tibbi təminatı qaydalarının pozulmasına görə (maddə 166.1-166.3, Məcəllə) və s. hallarda yalnız əmlak xarakterli tənbeh növü, yəni inzibati cərimə tətbiq edilir.

Xüsusi hüquqlardan məhrumetmə tənbeh növü İnzibati Xətalar Məcəlləsinin 28-ci maddəsində öz ifadəsini tapmışdır. Fiziki şəxslərin subyektiv hüquqları arasında onların yaranmasının hüquqi mənbəyinə görə fərdi hüquqi akt əsasında yaranan hüquqları göstərmək olar. Bu cür subyektiv hüququn yaranması üçün həmin hüququ verən xüsusi fərdi idarəetmə aktının olması zəruridir. Məsələn, nəqliyyat vasitəsini idarəetmə hüququ sürücülük vəsiqəsi ilə təsdiqlənir.

İnzibati Xətalar Məcəlləsində müəyyən edilmiş normaya görə nəqliyyat vasitələrinin idarə edilməsi hüququndan məhrum edilmə inzibati tənbehlər sırasına aiddir. Bu cür sanksiya hüquqdan istifadə olunma qaydasının kobud surətdə və ya müntəzəm olaraq pozulmasına görə tətbiq edilir. Məsələn, İnzibati Xətalar Məcəlləsinin 155.5-ci maddəsində nəzərdə tutulmuş hallarda, nəqliyyat vasitələrinin sürücüləri tərəfindən nəqliyyat vasitələrinin istismarı qaydalarının pozulması nəticəsində zərər çəkən şəxsə maddi zərər vurulduqda, inzibati tənbeh kimi sürücünün



nəqliyyat vasitəsini idarəetmə hüququ məhdudlaşdırılır. Belə tənbeh növü uzunmüddətli cəza tədbirlərinə aiddir, onun müddət intervalı iki aydan iki ilə qədərdir.

Nəqliyyat vasitələrindən əlilliyi ilə əlaqədar istifadə edən şəxslərə qarşı idarəetmə hüququnun məhdudlaşdırılması tənbeh növü, yalnız onların nəqliyyatı sərxoş vəziyyətdə idarə etdikləri təqdirdə tətbiq edilə bilər.

İnzibati Xətalar Məcəlləsinin 151.2-ci, 151.3-cü, 151.4-cü, 155.3-cü və 156-cı maddələrində müəyyən edilmiş balla qiymətləndirilən xətaların yol verilməsinə görə sürücülər bir il ərzində 10 və daha çox bal topladıqda, inzibati cərimə tətbiq edilmədən onların nəqliyyat vasitələrini idarəetmə hüququnun məhdudlaşdırılması qanunverici tərəfindən birmənalı şəkildə qiymətləndirilmişdir.

Xəbərdarlıq və inzibati cərimə əsas inzibati tənbeh növləri kimi tətbiq edilir. İnzibati xəta törətmiş fiziki şəxsin ona verilmiş xüsusi hüququnun məhdudlaşdırılması həm əsas, həm də əlavə inzibati tənbeh növü kimi tətbiq edilə bilər. Bir inzibati xətaya görə əsas tənbeh, yaxud əsas və əlavə tənbeh tətbiq edilə bilər.

Xəbərdarlıq növündə inzibati tənbeh tətbiq etmə haqqında qərar onu qəbul etmiş səlahiyyətli şəxs tərəfindən İnzibati Xətalar Məcəlləsinin 427-ci maddəsində nəzərdə tutulmuş qaydada qərarın surətinin göndərilməsi və ya təqdim edilməsi yolu ilə icra olunur.

İnzibati cərimə növündə inzibati tənbeh tətbiq etmə haqqında qərar qanuni qüvvəyə mindikdən və ya qanunvericiliklə nəzərdə tutulmuş möhlət verilmənin, təxirə salmanın müddəti bitdikdən otuz gündən gec olmayaraq inzibati xəta törətmiş şəxs tərəfindən ödənilməlidir.

Yetkinlik yaşına çatmayan şəxslərin müstəqil qazancı olmadıqda, inzibati cərimə onun valideynləri və ya onları əvəz edən şəxslər tərəfindən ödənilir.

İnzibati cərimə könüllü surətdə ödənilmədikdə, onun ödənilməsi məqsədi ilə inzibati cərimə tətbiq etmə haqqında müvafiq qərar:

a) fiziki şəxslər barəsində — onun əmək haqqından, təqaüdündən və ya digər gəlirlərindən tutulması üçün işlədiyi və ya oxuduğu təşkilatlara göndərilir;

b) hüquqi şəxslər barəsində — hüquqi şəxsin pul vəsaitlərindən və ya gəlirlərindən tutulması üçün banka və ya digər kredit təşkilatlarına göndərilir.

Əgər fiziki şəxs işləmirsə, inzibati cərimə tətbiq etmə haqqında müvafiq qərar Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada onun əmlakı üzərinə yönəldilə bilər.

İnzibati xətanın törədildiyi yerdə inzibati cərimə fiziki şəxs tərəfindən ödənildikdə, həmin şəxsə müəyyən edilmiş nümunədə qəbz verilir.

Xüsusi hüquqlardan məhrumetmə, bizim misalda, nəqliyyat vasitəsini idarəetmə hüququnun məhdudlaşdırılması haqqında qərar sürücülük vəsiqəsinin alınması yolu ilə icra edilir. Nəqliyyat vasitələrini idarəetmə hüququnun məhdudlaşdırılması müddətinin azı yarısı keçdikdən sonra həmin şəxsin işlədiyi və ya oxuduğu təşkilatın vəsatəti ilə azaldıla bilər.

Yol hərəkəti qaydaları sahəsində şəxslərin törətdiyi hüquqpozma öz tərkibinə görə cinayət-hüquq məsuliyyəti yaratdıqda, belə şəxslər cinayət qanunvericiliyi ilə müəyyən olunmuş qaydada məsuliyyətə cəlb edilirlər.

Cinayət məsuliyyətinin yaranması və cinayət törətmiş şəxsin cəzalandırılması Azərbaycan Respublikasının Cinayət Qanunu ilə tənzimlənir. Bu sahəyə, 30 dekabr 1999-cu ildə təsdiq edilmiş və 1 sentyabr 2000-ci ildən qüvvəyə minmiş Azərbaycan Respublikasının Cinayət Məcəlləsi, Cinayət-Prosessual Məcəlləsi, digər qanunlar və qanun qüvvəli aktlar aiddir.

Hərəkət təhlükəsizliyi və nəqliyyat vasitələrinin istismar qaydaları əleyhinə olan cinayətlər məcəllənin 29-cu fəslində xüsusi başlıq altında verilmişdir. Məcəllədə təsbit olunmuş normalara görə, yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarını pozma (maddə 263), yol nəqliyyat hadisəsi yerindən qaçma (maddə 264), nəqliyyat vasitələrini və ya yolları yararsız vəziyyətə salma (maddə 266) və s. əməllərin törədilməsi cinayət məsuliyyətinə səbəb olan hallar kimi qiymətləndirilmişdir.



Yol hərəkəti sahəsində cinayət əməlləri, cinayətin obyekti qismində yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı təhlükəsizliyinin çıxış etməsi və bununla bağlı digər məsələlərin müfəssəl şəkildə izahı ədəbiyyat səhifələrində ətraflı şərh olunmuşdur*.

Yol hərəkəti qaydaları pozuntularının törədilməsində təqsirli olan şəxslərin mülki-hüquqi məsuliyyətinə aid məsələlər Azərbaycan Respublikasının mülki qanunvericiliyi ilə nizama salınır. Azərbaycan Respublikasının mülki qanunvericiliyi Azərbaycan Respublikasının Konstitusiyasına (1995-ci il) əsaslanır və Azərbaycan Respublikasının 1999-cu il 28 dekabr tarixli qanunu ilə təsdiq edilmiş və 2000-ci il sentyabrın 1-dən qüvvəyə minmiş Azərbaycan Respublikasının Mülki Məcəlləsindən, Mülki-prosessual Məcəllədən, digər qanunlardan və onların əsasında qəbul edilmiş, mülki hüquq normalarını müəyyənləşdirən başqa normativ-hüquqi aktlardan ibarətdir.

Yuxarılarda qeyd etdiyimiz kimi, yol hərəkəti xüsusi normativ aktla — «Yol hərəkəti haqqında» Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir. Bu qanunun 6-cı fəsli yol hərəkəti qaydalarının pozuntularına həsr edilmişdir.

Nəqliyyat vasitəsini idarə edən şəxs tərəfindən törədilən və inzibati və mülki məsuliyyətə səbəb olan pozuntular «Yol hərəkəti haqqında» Qanunun 79-cu maddəsində aşağıdakı kimi müəyyən edilmişdir:

1) yolda müəyyən edilmiş hərəkət sürətinin 10-30 km/saat həddində aşılma-sı; bu maddənin 2-ci bəndində göstərilən hallar istisna olmaqla, yol nişanlarının və yolların hərəkət hissəsinin işarələrinin tələblərinə riayət edilməməsi; nəqliyyat vasitəsinin yolların hərəkət hissələrində yerləşdirilməsi və ya piyada keçid-

* *Məsələn, bax:* **Əfəndiyev E.M. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin şərhi, Bakı, "Hüquq ədəbiyyatı" nəşriyyatı, 2001**

lərinin keçilməsi, habelə dayanma, durma, yedəyə alma, yük daşıma, işıq cihazlarından, səs siqnallarından, təhlükəsizlik kəmərlərindən və motodəbilqələrdən istifadə qaydalarının pozulması;

2) svetoforun və ya nizamlayıcının qadağanedici işarəsi verilərkən hərəkətin davam etdirilməsi; 3.1 «Giriş qadağandır», 3.2 «Hərəkət qadağandır» yol nişanları tələblərinin və ya sərnişin daşıma qaydalarının pozulması; xüsusi səs, qırmızı və ya göy sayrışan işıq siqnalı verən, keçid üstünlüyü hüququna malik olan nəqliyyat vasitələrinə yol verilməməsi;

3) yolda müəyyən edilmiş hərəkət sürəti həddinin 30 km/saat və artıq aşılması; dəmir yol keçidlərinin keçilmə qaydalarının pozulması; qəza şəraitinin yaradılmasına, yəni hərəkətin başqa iştirakçılarının sürəti və hərəkətin istiqamətini məcburi dəyişməsinə səbəb olan pozuntular törədilməsi; yol hərəkəti təhlükəsizliyinə nəzarəti həyata keçirən Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Dövlət Yol Polisi orqanı əməkdaşının nəqliyyat vasitəsini saxlamaq tələbinin yerinə yetirilməməsi;

4) nəqliyyat vasitəsinin alkoqoldan, narkotik vasitələrdən və ya güclü təsir göstərən digər maddələrdən istifadə olunması nəticəsində sərxoş vəziyyətdə idarə edilməsi; nəqliyyat vasitəsində olan sahibi tərəfindən bu nəqliyyat vasitəsini idarə etmək üçün sərxoş vəziyyətdə olan şəxsə verilməsi; sərxoşluq vəziyyətinin yoxlanılması üçün müəyyən edilmiş qaydada müayinədən boyun qaçırılması;

5) idarəetmə hüququ olmadan nəqliyyat vasitəsinin idarə edilməsi; nəqliyyat vasitəsində olan sahibi tərəfindən bu nəqliyyat vasitəsini idarə etmə hüququ olmayan şəxsə idarə etmək üçün verilməsi;

6) idarəetmə hüququ olmayan və alkoqoldan, narkotik vasitələrdən və ya güclü təsir göstərən digər maddələrdən istifadə olunması nəticəsində sərxoş vəziyyətdə olan şəxs tərəfindən nəqliyyat vasitəsinin idarə edilməsi;

7) bu maddənin 5-ci və 6-cı bəndlərində nəzərdə tutulan pozuntuların bir il ərzində təkrar törədilməsi;



8) bu maddənin 1-ci-6-cı bəndlərində nəzərdə tutulan pozuntular nəticəsində zərər çəkən şəxsə maddi ziyan vurulması və ya onun bədəninə yüngül xəsarət yetirilməsi.

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 263-267-ci maddələrin-də nəzərdə tutulan əməllərin törədilməsi cinayət məsuliyyətinə səbəb olur.

Piyadalar və yol hərəkətinin başqa iştirakçıları tərəfindən yol hərəkəti qaydalarının pozuntuları «Yol hərəkəti haqqında» Qanunun 80-ci maddəsi ilə müəyyənləşdirilmişdir.

Piyadalar tərəfindən törədilən və məsuliyyətə səbəb olan pozuntular aşağıdakılardır:

1) yolun hərəkət hissəsinə çıxdıqda piyada svetoforlarına və nizamlayıcının işarələrinə riayət edilməməsi;

2) yolun hərəkət hissəsinin, dəmir yol keçidinin müəyyən olunmayan yerdən keçilməsi;

3) yolda yaxınlaşmaqda olan nəqliyyat vasitələrinin qarşısına qəflətən çıxılması;

4) qırmızı və ya göy sayrışan işıq və ya xüsusi səs siqnalı qoşulmuş nəqliyyat vasitəsi yaxınlaşan zaman yolun hərəkət hissəsinin tərk edilməməsi.

Yol hərəkətində iştirak edən nəqliyyat vasitəsinə minmə və düşmə qaydalarının sərnişin tərəfindən pozulması məsuliyyətə səbəb olan pozuntudur.

Velosipedçilər və moped idarə edən şəxslər tərəfindən törədilən və məsuliyyətə səbəb olan pozuntular aşağıdakılardır:

1) svetoforların və nizamlayıcının işarələrinə riayət edilməməsi;

2) sərnişin daşınması;

3) idarə etməyə mane olan yükün daşınması;

4) yol nişanlarının və ya yolun hərəkət hissəsinin nişanlanmasının tələblərinin pozulması;

5) yolda sükanı tutmadan idarə edilməsi;

6) piyadaların hərəkəti üçün nəzərdə tutulmuş sahədə onların hərəkətinə bu Qanunun tələblərinə zidd olaraq maneə yaradılması;

7) üstün hərəkət hüququ olan nəqliyyat vasitələrinə yol verilməməsi.

At arabalarını (kirşəni) idarə edən və ya mal-qara ötürənlər tərəfindən törədilən və məsuliyyətə səbəb olan pozuntular aşağıdakılardır:

1) mal-qaranın yolda nəzarətsiz qoyulması;

2) mal-qaranın, at arabasının (kirşənin) dəmir yol xətlərinin və ya yolların üstündən nəzərdə tutulmayan yerlərdən, habelə sutkanın qaranlıq vaxtı və ya məhdud görünmə şəraitində keçirilməsi;

3) mal-qaranın asfalt və sement-beton örtüklü yollarda ötürülməsi;

4) işıq əks etdirən qurğularla təchiz edilməmiş at arabalarının (kirşənin) sürülməsi;

5) at arabalarının (kirşəni) idarə edən şəxs tərəfindən svetofor və ya nizamlayıcının işarələrinə, habelə yol nişanları və ya yol nişanlanması tələblərinə riayət edilməməsi.

Yol hərəkəti iştirakçıları tərəfindən törədilən pozuntulara görə məsuliyyəti ağırlaşdıran hallar aşağıdakılardır:

1) alkoqoldan, narkotik vasitələrdən və ya güclü təsir göstərən digər maddələrdən istifadə edilməsi nəticəsində sərxoş vəziyyətdə bu maddənin birinci–dördüncü hissələrində nəzərdə tutulmuş yol hərəkəti qaydalarının pozulması;

2) bu maddənin birinci-dördüncü hissələrində nəzərdə tutulan pozuntular nəticəsində zərər çəkən şəxsə maddi ziyan vurulması və ya onun bədəninə yüngül xəsarət yetirilməsi.

Yuxarıda sadaladığımız, yəni «Yol hərəkəti haqqında» Qanunun 79-80-ci maddələrində nəzərdə tutulmuş yol hərəkəti qaydaları pozuntularının törədilməsində təqsirli olan şəxslər Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş hallarda inzibati, cinayət və ya mülki-hüquqi məsuliyyət daşıyırlar.

Yol hərəkəti qaydalarının pozuntuları ilə bağlı olan digər məsələlərə toxunaq. Yol hərəkəti qaydalarının pozuntusu haqqında məsələlərə Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi ilə nəzərdə tutulmuş qaydaya uyğun olaraq baxılır.



«Yol hərəkəti haqqında» Qanunun 27-ci maddəsinin on yeddinci hissəsinin 1-ci bəndi, 30-cu maddəsinin doqquzuncu hissəsi, 31-ci maddəsinin beşinci hissəsi, 79-cu maddəsinin 1-ci bəndi, 80-ci maddəsinin birinci-dördüncü hissələri ilə nəzərdə tutulmuş pozuntulara görə cərimə, yerində ödənilir. Qanunun 27-ci maddəsinin on yeddinci hissəsinin 2-ci bəndində, 79-cu maddəsinin 2-ci -4-cü bəndlərində nəzərdə tutulmuş pozuntulara görə inzibati tənbeh tətbiq edilmiş şəxslərin cərimə ballarının müvafiq qaydada uçotu aparılır. Belə uçotun aparılması Azərbaycan Hökumətinin müəyyən etdliyi «Yol hərəkəti haqqında» Azərbaycan Respublikası Qanununda nəzərdə tutulmuş pozuntulara görə inzibati tənbeh tətbiq edilmiş şəxslərin cərimə ballarının uçotu» Qaydası* ilə nizama salınır.

Sürücülər tərəfindən «Yol hərəkəti haqqında» Qanunun 79-cu maddəsinin 2-ci bəndində göstərilən qayda pozuntularına yol verilməsi 3 bal, 27-ci maddəsinin on yeddinci hissəsinin 2-ci bəndində və 79-cu maddəsinin 3-cü bəndində göstərilən qayda pozuntularına yol verilməsi 4 bal, 79-cu maddəsinin 4-cü bəndində göstərilən qayda pozuntularına yol verilməsi isə 5 balla qiymətləndirilir. Yol hərəkəti qayda pozuntusu törətmiş şəxslərin inzibati tənbeh oxunması ilə əlaqədar yuxarıda göstərdiyimiz kimi sürücülər bir il ərzində cəmi 10 və daha çox bal topladıqda, onların nəqliyyat vasitələrini idarə etmək hüququ Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş qaydada müvəqqəti olaraq məhdudlaşdırılır.

Azərbaycan Respublikası ərazisində diplomatik immunitetə malik olmayan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər yol hərəkəti qaydalarını pozduqları halda, Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar. Yol hərəkəti qaydalarını pozduqlarına görə əcnəbilərə yalnız cərimə növündə inzibati tənbeh tətbiq edilə bilər. Onlar bir il ərzində «Yol hərəkəti haqqında» Qanunun 79-cu mad-

---

*** Bu Qayda Azərbaycan Respublikası Nazirlər Kabinetinin 6 aprel 1999-cu il tarixli, 60 nömrəli qərarı ilə təsdiq edilmişdir.**

dəsinin 5-ci, 6-cı və 8-ci bəndləri ilə nəzərdə tutulmuş pozuntulara təkrar yol verdikdə və ya törətmiş olduqları pozuntulara görə cərimə ödəməkdən imtina etdikdə, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi orqanı Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada onların ölkədən çıxarılması məsələsini qaldıra bilər.

## 3.3. Yol hərəkəti təhlükəsizliyinin təmin edilməsinə inzibati nəzarətin həyata keçirilməsinin bəzi xüsusiyyətləri

Nəzarət fəaliyyəti dövlət idarəetməsinin tərkib hissəsidir. İdarəetmə aparatı qarşısında qoyulmuş məqsədlərə nail olunmasında cəmiyyətdə mövcud olan hüquqi normalara əməl edilməsi üzərində nəzarət çox böyük rol oynayır.

Məlumdur ki, nəzarət idarəetmənin atributu, onun ən mühüm funksiyalarından biri olmaqla, fəaliyyətin qanuniliyinə və məqsədəuyğunluğuna göz qoyulmasını, fəaliyyətin hüquqi, elmi, sosial-ictimai, təşkilati-texniki mövqedən qiymətləndirilməsini əhatə edir.

İdarəetmə nəzarətinin bir forması inzibati nəzarətdir. İnzibati nəzarət xüsusi olaraq yaradılmış idarələr, idarə xidmətləri, orqanlar tərəfindən həyata keçirilir və belə funksiya onlar üçün ən başlıca funksiyadır. İnzibati nəzarət subyektlərinə funksional hakimiyyət, idarə fövqündə geniş səlahiyyətlər verilmişdir.

İnzibati nəzarətin məqsədi, bir qayda olaraq, qanunvericiliklə müəyyənləşdirilmiş və həm də texniki-hüquqi normalara aid olan ümumi məcburi normaların icrasını təmin etməkdən ibarətdir. Bu nəzarət müntəzəm olaraq onun subyektlərinin təşəbbüsü ilə həyata keçirilir. Digər bir xüsusiyyət də ondan ibarətdir ki, inzibati nəzarət, bir qayda olaraq, inzibati məcburetmə tətbiqi ilə əlaqəlidir.

İnzibati nəzarətin ən başlıca vəzifələrindən biri vətəndaşların, cəmiyyətin və dövlətin təhlükəsizliyini təmin etməkdən



ibarətdir. Bunun üçün isə müvafiq ictimai münasibətlərin hüquqpozmalardan və digər təbii təzahürlərdən mühafizə edilməsi vacib şərtdir. Nəzarət fəaliyyəti subyektləri ən əvvəl zərərli nəticələrin baş verməsi, onların qarşısının alınması, belə nəticələrə səbəb ola biləcək halların aşkara çıxarılması və onların aradan qaldırılması üçün zəruri tədbirlər görürlər.

Yol hərəkəti sahəsində inzibati xətaların xəbərdar edilməsi və qarşısının alınması, hüquq pozuntusu törətmiş şəxslərin aşkar edilməsi və qarşısının alınması, hüquq pozuntusu törətmiş şəxslərin aşkar edilməsi və məsuliyyətə cəlb edilməsi məqsədi ilə və yol hərəkəti təhlükəsizliyini nizamlayan qaydalara hərəkət iştirakçıları tərəfindən dürüst və dönmədən əməl edilməsinə nəzarətin həyata keçirilməsi məqsədi ilə qanunverici, xüsusi inzibati nəzarət qaydası müəyyən etmişdir.

Yol hərəkətinin təhlükəsizliyi ilə bağlı inzibati nəzarətin təmin edilməsində aşağıdakı metodlardan istifadə olunur:

- — yol hərəkətinin iştirakçıları tərəfindən yol hərəkəti qaydalarının icra edilməsinə bilavasitə nəzarətin həyata keçirilməsi;
- — yol hərəkəti və onun təhlükəsizliyi sahəsində müəyyən edilmiş qaydaların müvafiq orqanlar, təşkilatlar, vəzifəli şəxslər və vətəndaşlar tərəfindən yerinə yetirilməsinin vaxtaşırı yoxlanılması;
- — yol hərəkəti xətaları haqqında ərizə, şikayət və başqa məlumatların yoxlanılması prosesində hüquqpozmaların aşkar edilməsi.

Sözü gedən sahədə inzibati nəzarətin həyata keçirilməsi aşağıdakı mərhələlərdən ibarətdir:

1. yol hərəkətinə nəzarət etmə;
2. yol hərəkəti sahəsində qayda pozuntularının-xətaların aşkar edilməsi;
3. yol hərəkəti qayda pozuntularının-xətaların qarşısının alınması;
4. təqsirkarın məsuliyyətə cəlb olunmasının təmin edilməsi;
5. inzibati tənbehlərin verilməsi.

Yol hərəkəti təhlükəsizliyinin təmin edilməsində nəzarətin həyata keçirilməsi məsələləri «Yol hərəkəti haqqında» Qanunun yeddinci fəslində təsbit edilmişdir.

Qanunvericiliklə müəyyən edilmişdir ki, yollarda hərəkət təhlükəsizliyinə nəzarəti yalnız Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Dövlət Yol Polisi orqanının əməkdaşları həyata keçirirlər.

Yollarda hərəkət təhlükəsizliyinin təmin edilməsinə nəzarət Dövlət Yol Polisi orqanının əməkdaşları tərəfindən stasionar və digər postlarda, eləcə də xüsusi avadanlığı olan nəqliyyat vasitələrində və ya texniki nəzarətetmə vasitələrinin tətbiqi ilə həyata keçirilir.

Müəyyən edilmiş hərəkət sürəti həddini aşmaq, texniki cəhətdən nasaz nəqliyyat vasitələrinin istismarı faktını və nəqliyyat vasitələrinin alkoqol, narkotik vasitələr və ya güclü təsir göstərən digər maddələrin istifadə olunması nəticəsində sərxoş vəziyyətdə idarə edilməsi hallarını müəyyənləşdirmək üzrə nəzarəti Dövlət Yol Polisi orqanı əməkdaşları yalnız xüsusi cihazlar vasitəsi ilə həyata keçirirlər. Belə halları müəyyənləşdirmək üçün başqa üsullardan istifadə edilməsi yolverilməzdir.

Yol hərəkəti təhlükəsizliyinə nəzarəti həyata keçirən Dövlət Yol Polisi orqanı əməkdaşının, «Yol hərəkəti haqqında» Qanunun 84-cü maddəsinə müvafiq olaraq, əsasən, aşağıdakı vəzifələrini göstərmək olar:

— «Yol hərəkəti haqqında» Qanunu mükəmməl bilmək və düzgün tətbiq etmək;
— yol hərəkəti təhlükəsizliyinə nəzarəti həyata keçirən Dövlət Yol Polisi orqanının əməkdaşları üçün müəyyən edilmiş müvafiq formalı geyimdə olmaq;
— yol hərəkəti iştirakçılarına qarşı ədəb və nəzakətlə rəftar etmək, onlarla münasibətdə insanın şərəf və ləyaqətini alçaldan hərəkətlərə və sözlərə yol verməmək;
— yol hərəkəti iştirakçılarını saxladıqda onlara yaxınlaşmaq, özünü təqdim etmək, dayandırmanın səbəbini, yol hərəkəti qaydalarının pozuntusu aşkar edilmişdirsə, onun məzmununu və həmin pozuntunun «Yol hərəkəti haqqında» Qanunun hansı maddəsində nəzərdə tutulduğunu onlara bildirmək, habelə inzibati məsuliyyətə cəlb etmə haqqında qərardan şikayət verilməsi qaydasını izah etmək;
— nəzarət etdiyi yol sahəsində yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi üçün lazımi tədbirlər görmək;
— cinayət törətmiş şəxsləri təqib etmək, tutub saxlamaq və müəyyən edilmiş qaydada müvafiq dövlət orqanına təhvil vermək və s.



Yol hərəkəti təhlükəsizliyinə nəzarəti həyata keçirən Dövlət Yol Polisi orqanının əməkdaşı «Yol hərəkəti haqqında» Qanunla ona verilmiş səlahiyyətlər daxilində öz vəzifələrini yerinə yetirməlidir.

Qaydanı pozan və ya nəqliyyat vasitəsini idarə edən şəxslərdən, onların sənədlərini yoxlamaq məqsədi ilə dayanmağı tələb edərkən fit, jezl və ya səsgücləndirici cihazlardan istifadə olunur.

«Yol hərəkəti haqqında» Qanunun 85-ci maddəsində qeyd olunduğu kimi, Azərbaycan Respublikası Prezidentinin, Azərbaycan Respublikası Milli Məclisi deputatlarının, Azərbaycan Respublikası Baş Nazirinin və Azərbaycan Respublikası hakimlərinin şəxsiyyəti, həmin şəxslərin xidməti və şəxsi nəqliyyat vasitələri toxunulmaz olduğuna görə onların yoxlanılmasına və ya inzibati qaydada tutulmasına yol verilmir.

Yol hərəkəti təhlükəsizliyinin təmin edilməsilə inzibati nəzarətin həyata keçirilməsində bir xüsusiyyət də ondan ibarətdir ki, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin və digər birləşmələrin nəqliyyat vasitəsini idarə edən hərbi qulluqçu yol hərəkəti qaydalarını pozduğu halda, onun barəsində ümumi qaydada inzibati sənədlər tərtib edilir. Əgər «Yol hərəkəti haqqında» Qanunun 85-ci maddəsinin 9-cu bəndində nəzərdə tutulmuş hallar (dayandırılmış nəqliyyat vasitəsini idarə edən şəxsdə və ya onunla birlikdə gedən sərnişinlərin hər hansı birində sürücülük vəsiqəsi olmadıqda, nəqliyyat vasitəsinin qeydiyyat şəhadətnaməsi, qeydiyyat nişanları olmadıqda və s.) aşkar olunarsa, hərbi hissənin nəqliyyat vasitəsini idarə edən hərbi qulluqçu haqqında Azərbaycan Respublikasının Müdafiə Nazirliyi orqanına dərhal məlumat verilir.

Diplomatik immunitetə malik olan əcnəbi şəxslər yol hərəkəti qaydalarını pozarlarsa, onların şəxsiyyətini təsdiq edən sənədləri yoxlanılır və «Yol hərəkəti haqqında» Qanunun tələblərinə uyğun olaraq, həmin şəxslər inzibati məsuliyyətə cəlb edilir. Əgər diplomatik immunitetə malik olan əcnəbi törədilmiş inzibati pozuntuya görə inzibati tənbeh formasında cərimə ödəməkdən imtina edərsə, bu barədə inzibati sənəd tərtib olunur. Həmin sənəd Dövlət Yol Polisi orqanı tərəfindən Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi orqanının diplomatik xətti ilə, qaydanı pozmuş şəxsin işlədiyi diplomatik nümayəndəliyə göndərilir və törədilmiş pozuntuya görə cərimənin ödənilməsi ona bir daha təklif olunur.

«Yol hərəkəti haqqında» Qanunula belə bir ümumi prinsip də müəyyən edilmişdir ki, nəqliyyat vasitəsi qanunsuz saxlanıldıqda və ya lazımi qaydada saxlanılmaması nəticəsində maddi zərər vurulmuşdursa, onun sahibi Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada məhkəməyə müraciət edə bilər.

Yol hərəkəti təhlükəsizliyinin təmin edilməsinə nəzarətin Dövlət Yol Polisi orqanının tərkib hissə olan Yol-patrul xidməti tərəfindən vahid qaydalar əsasında həyata keçirilməsi məqsədi ilə, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi müvafiq normativ akt qəbul etmişdir (02.02.2001-ci il). Bu akt, Azərbaycan Respublikası Ədliyyə Nazirliyində dövlət qeydiyyatına alınaraq (22.02.2001-ci il, № 2667) normativ-hüquqi sənəd qüvvəsini almışdır.

Həmçinin yol hərəkəti qayda pozuntuları üzrə inzibati icraatın qanunvericiliyə uyğun şəkildə tənzimlənməsi məqsədi ilə, Daxili İşlər Nazirliyi orqanı müvafiq təlimat təsdiq etmiş (20.05.2002-ci il) və bu sənəd də Ədliyyə Nazirliyində dövlət qeydiyyatına alınmışdır (29.05.2002-ci il, № 2849).

Hər iki sənəd normativ-hüquqi akt qüvvəsinə malik olmaqla yanaşı, yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi sahəsində mühüm əhəmiyyət kəsb edir.



# NƏTİCƏ

Azərbaycan Respublikasının ərazisində yol hərəkətinin beynəlxalq-hüquqi tənzimlənməsi və milli qanunvericilik sahəsində yuxarıda kompleks şəkildə şərh etdiyimiz aspektləri nəzərə alaraq, bu elmi araşdırma işindən irəli gələn aşağıdakı nəticələri çıxarmaq mümkündür:

1. Müasir dövrdə dünya dövlətləri beynəlxalq yol hərəkəti münasibətlərini və yol hərəkətinin təhlükəsizliyinin təmin olunmasını beynəlxalq konvensiya, saziş və müqavilələrə əsaslanaraq qururlar və bu işin təkmilləşdirilməsi sahəsində nəqliyyat infrastrukturunun davamlı inkişafı nəzərə alınmaqla, yeni elmi-texniki texnologiyanın nailiyyətlərinə əsaslanan daha mükəmməl forma və üsulların axtarılmasına səy göstərirlər.

2. Yeni yaranmış müstəqil dövlətlərin ərazilərində nəqliyyat münasibətlərinin, o cümlədən yol hərəkətinin beynəlxalq-hüquqi tənzimlənməsi məsələlərinin həllinin beynəlxalq hüququn kompleks tərkib hissəsi olan beynəlxalq nəqliyyat hüququnun norma və prinsiplərindən istifadə edilməklə nizama salınmasına üstünlük verilir.

3. Azərbaycan Respublikası öz müstəqilliyini bərpa etdikdən sonra ümumdünya dövlətlər birliyinə inteqrasiya edərək beynəlxalq münasibətlərin tam hüquqlu subyekti kimi tanınmışdır. Bu baxımdan belə bir qənaətə gəlmək olar ki, dövlətimizin yol hərəkəti sahəsindəki vahid elmi-texniki siyasəti onun xarici dövlətlərlə yol hərəkəti münasibətlərini müəyyənləşdirir və tənzimləyir. Belə münasibətlərin hüquqi təminatı beynəlxalq nəqliyyat hüququnun mütərəqqi-demokratik prinsip və normalarına, habelə bu sahədəki beynəlxalq konvensiya, saziş və müqavilələrdən irəli gələn öhdəliklərə əməl edilməklə həyata keçirilir.

Böyük «İpək yolu»nun bərpası, TRASEKA nəqliyyat dəhlizlərinin yaradılması, Xəzər neftinin və karbohidrogen ehtiyatlarının işlənilməsi və bu məhsulların dünya bazarına çıxarılması üzrə «Bakı-Tbilisi-Ceyhan» Əsas ixrac boru kəməri layihəsinin reallaşması müasir nəqliyyat təhlükəsizliyi qaydalarının bərqərar olmasını şərtləndirir.

4. Nəqliyyatda təhlükəsizlik və məsuliyyət, yol hərəkətinin təşkili, onun təhlükəsizliyinin və ekoloji tələblərin təmin edilməsi və digər analoji məsələlər üzrə dövlətimiz tərəfindən müvafiq tədbirlər həyata keçirilmişdir. Zənn etmək olar ki, «Yol hərəkəti haqqında» Azərbaycan Respublikası Qanununun və digər qanunların («Polis haqqında», «Nəqliyyat haqqında», «Avtomobil yolları haqqında» və s.) qəbul edilməsiylə yol hərəkətinin hüquqi tənzimlənməsi sahəsində səmərəli hüquqi rejim yaradılaraq, yeni mərhələ başlanmışdır. Yol hərəkətinin təhlükəsizliyinin təmin edilməsində bu hüquqi rejimin yardımçı ola biləcək rolu göz önündədir.

5. Yol hərəkəti münasibətləri beynəlxalq hüququn prinsip və normalarından istifadə olunmaqla yanaşı, Azərbaycan Respublikasının milli hüquq sahəsi (inzibati hüquq) ilə tənzimlənir. Eyni zamanda güman etmək olar ki, yol hərəkəti fəaliyyəti ümumi hüquq normaları və xüsusi hüquq normaları ilə nizama salınmaqla, müxtəlif hüquq sahələrinin — inzibati, cinayət, mülki, ekoloji və digər hüquq sahələrinin normativ elementlərini (hüquqi aktlarını) özündə birləşdirərək, nəqliyyat vasitələrinin köməyi ilə sərnişin və yük daşınması üzrə fiziki və hüquqi şəxslərin tələbatlarını ödəmək prosesində, müasir dövrdə artıq sahələrarası hüquq institutu kimiformalaşmış kompleks nəqliyyat hüququ anlayışının məna yükü altında özünü büruzə verir.

6. Belə bir fikri vurğulamaq olar ki, yol hərəkəti təhlükəsizliyinin təmin olunması sisteminin etibarlılığı, onun, bir-biri ilə əlaqəli olan əsasən üç elementindən asılıdır:

— yol hərəkətinin nizama salınmasında rahat və ən əlverişli şərait yaradılması;

— yol hərəkəti iştirakçılarında (sürücü, piyada, sərnişin və s.) lazımi hüquqi bilik səviyyəsinin aşılanması;

— nəqliyyat vasitələrinin texniki vəziyyətinin təhlükəsizlik tələblərinə, normalarına və standartlarına uyğunluğu.

Şübhəsiz ki, bu sistemin etibarlı olması, yol hərəkətinin təşkilini və onun təhlükəsizliyinin təmin olunmasına nəzarəti həyata keçirən dövlət orqanının— Dövlət Yol Polisi orqanının səmərəli fəaliyyəti olmadan qeyri-mümkündür.



# İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, «Qanun» nəşriyyatı, 2001.
2. «Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında» 18 oktyabr 1991-ci il tarixli Konstitusiya Aktı // Azərbaycan Respublikası Ali Sovetinin xəbərləri, 1991, № 19-20.
3. Əliyev H.Ə. Müstəqillik yollarında, IV cild. Bakı, «Azərbaycan» nəşriyyatı, 1997.
4. Azərbaycan Respublikasının Mülki Məcəlləsi. Bakı, «Hüquq ədəbiyyatı» nəşriyyatı, 2000.
5. Azərbaycan Respublikasının Mülki-Prosessual Məcəlləsi. Bakı, «Hüquq ədəbiyyatı» nəşriyyatı, 2000.
6. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi. Bakı, «Hüquq ədəbiyyatı» nəşriyyatı, 2000.
7. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. Bakı, «Hüquq ədəbiyyatı» nəşriyyatı, 2001.
8. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi. Bakı, «Hüquq ədəbiyyatı» nəşriyyatı, 2000.
9. Azərbaycan Respublikasının Gömrük Məcəlləsi. Bakı, «Hüquq ədəbiyyatı» nəşriyyatı, 2001.
10. Azərbaycan Respublikasının Vergi Məcəlləsi. Bakı, «Hüquq ədəbiyyatı» nəşriyyatı, 2000.
11. «Nəqliyyat haqqında» Azərbaycan Respublikasının Qanunu. 11.06.1999-cu il, № 683-IQ.
12. «Avtomobil yolları haqqında» Azərbaycan Respublikasının Qanunu. Bakı, «Nurlan» nəşriyyatı, 2000.
13. «Polis haqqında» Azərbaycan Respublikasının Qanunu. Bakı, «Hüquq ədəbiyyatı» nəşriyyatı, 1999.

14. «Yol hərəkəti haqqında» Azərbaycan Respublikasının Qanunu. Bakı, «Hüquq ədəbiyyatı» nəşriyyatı, 1998.
15. «Təhlükəsizlik haqqında» Azərbaycan Respublikasının Qanunu, 1992.
16. «Texniki təhlükəsizlik haqqında» Azərbaycan Respublikasının Qanunu, 1999.
17. «Yol hərəkəti təhlükəsizliyi üzrə Azərbaycan Respublikasının 2002-2005-ci illər üçün» Dövlət Proqramı, 2002.
18. «Azərbaycan Respublikası vətəndaşlarının respublika hüdudlarında sərbəst olaraq yerdəyişmə, qalmaq və yaşayış yeri seçmək hüququ haqqında» Azərbaycan Respublikasının Qanunu, 1993.
19. «Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında» Azərbaycan Respublikasının Qanunu, 1996.
20. «Dövlət rüsumu haqqında» Azərbaycan Respublikasının Qanunu. Bakı, «Hüquq ədəbiyyatı» nəşriyyatı, 2002.
21. «Girov haqqında» Azərbaycan Respublikasının Qanunu, 1998.
22. «Reklam haqqında» Azərbaycan Respublikasının Qanunu, 1997.
23. «Sığorta haqqında» Azərbaycan Respublikasının Qanunu, 1999.
24. «Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında» Azərbaycan Respublikasının Qanunu, 2001.
25. «Yol hərəkəti haqqında» Azərbaycan Respublikası Qanunun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 22.11.1998-ci il tarixli, 24 nömrəli Fərmanı.
26. «Reklam yayımına icazə (razılıq) verilməsi Qaydaları»nın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 3.11.2001-ci il tarixli, 596 nömrəli Fərmanı.
27. Международное право. Отв. ред. Ю.М. Колосов, Э.С. Кривчикова. Москва, 2000.
28. Hüseynov L.H. Beynəlxalq hüquq. Bakı, «Hüquq ədəbiyyatı» nəşriyyatı, 2000.



29. Богуславский М.М. Международное частное право.III издание, М., 2000; IV издание, Москва, Юристь, 2002.
30. Гуреев С.А, Копылов М.Н. Международное транспортное право. Сборник международно-правовых актов. Москва, Издательство УДН, 1987.
31. Бровка С.В, Савченко М.И. Международное транспортное право. Минск, 1997.
32. Abdullayev E.İ. İnzibati Hüquq (dərslik). Bakı, Azərbaycan Beynəlxalq Universiteti, 2001.
33. Allahverdiyev S.S. Azərbaycan Respublikasının Mülki hüququ (II cild). Bakı, «Digesta» nəşriyyatı, 2001.
34. Əsgərov Z.A. Konstitusiya hüququ. Bakı, AR MM-in mətbəəsi, 2002.
35. Cəfərov İ.M. Azərbaycan Respublikası Konstitusiyasının şərhi. Bakı, «Hüquq ədəbiyyatı» nəşriyyatı, 2001.
36. Mikayılov N.K, Nuriyev C.Q, Nuriyeva K.Q. Ekologiya hüququ. Bakı, «Qanun» nəşriyyatı, 2000.
37. Əfəndiyev E.M. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin şərhi (Xüsusi hissə). Bakı, «Hüquq ədəbiyyatı» nəşriyyatı, 2001.
38. Əliyev E.Ə. Beynəlxalq nəqliyyat daşımalarının konvension təsbiti. Bakı, «Hüquq ədəbiyyatı» nəşriyyatı, 2002.
39. Гафаров З.М, Алиев Э.А. Применение современного международного транспортного права в Азербайджанской Республике. Москва, Издательство «ОЛМА-ПРЕСС», 2002.
40. Сиваков О.В, Ермолаев В.Г, Маковский Ю.Б. Транспортное право. Москва, «Былина», 2001.
41. Садиков О.Н. Правовое регулирование международных перевозок. Москва, 1981..
42. Красавчиков О.А. Возмещение вреда, причиненного источником повышенной опасности. Москва, 1966.
43. Юридическая энциклопедия. Москва, «Олимп», 1998.
44. Понизовский А.Н. Краткий автомобильный справочник. Москва, Транспорт, НИИАТ, 1982.

45. Əliyev V.Ə, Muxtarov X.C. Avtonəqliyyat vasitələri haqqında ümumi məlumat. Bakı, «Azərbaycan» nəşriyyatı, 2001.
46. Везопасность дорожного движения. Сборник нормативных актов в 2-х частях. ВНИИБД МВД СССР, Москва, 1984.
47. Tağızadə Ə.H, Bayramov R.P. Yol hərəkətinin təşkili və təhlükəsizliyi. Bakı, «Çaşıoğlu» nəşriyyatı, 2002.
48. Melki V.A. Yol nişanları və yolun nişanlanması. Bakı, «Azərnəşr», 1989.
49. Zeynalov R.M, Əliyev E.Ə. Yol hərəkəti haqqında Konvensiya. //Beynəlxalq hüquq № 3, Bakı, 1999.
50. Алиев Э.А. Международные правовые акты в области автомобильного транспорта//Международное право, №4-5, Баку, 2000.
51. Əliyev E.Ə. Beynəlxalq avtomobil əlaqələrinin və daşımalarının hüquqi rejimi.//Hüquq dövlət və qanun № 8, Bakı, 2001.
52. Əliyev E.Ə. Beynəlxalq avtomobil daşımaları sahəsində əməkdaşlıq və onun hüquqi təminatı // Dirçəliş-XXI ƏSR № 52-53, Bakı-2002.
53. BMT sənədi. İqtisadi və Sosial Şura-96/TRANS/2292 ECE433(2), 10 iyun 1996.
54. Документ ООН — «Мероприятия по оказанию помощи странам с переходной экономикой в транспортном секторе». ЕЭК. Комитет по внутреннему транспорту (58 сессия, январь 1995 г., п.6 повестки дня) — TRANS/R. 413 от 22 декабря 1996 г.
55. Документ ООН — «Евроазиатские транспортные соединения» -ТРАНС/WP. 5/1999/8 от 28 июня 1999 г.
56. «Yol hərəkəti haqqında» Konvensiya və «Yol nişanları və işarələri haqqında» Protokol (Cenevrə, 1949-cu il).
57. «Yol hərəkəti haqqında» Konvensiya (Vyana, 1968-ci il).
58. «Yol nişanları və işarələri haqqında» Konvensiya (Vyana, 1968-ci il).



59. «Avtonəqliyyat vasitələrini idarə etmək hüququndan məhrum olunmanın beynəlxalq nəticələri haqqında» Avropa Konvensiyası (Brüssel, 1976-cı il).
60. «Beynəlxalq yol hərəkəti təşkilatı haqqında» Konvensiya (Cenevrə, 1994-cü il).
61. «Beynəlxalq yük daşınması müqaviləsi (BYDM) haqqında» Konvensiya (Vyana, 1969-cu il).
62. «Təkərli nəqliyyat vasitələri, təkərli nəqliyyat vasitələrində quraşdırılan və ya istifadə olunan avadanlıq və hissələrə dair qlobal texniki qaydaların müəyyənləşdirilməsi haqqında» Müqavilə.
63. «Təkərli nəqliyyat vasitələri, təkərli nəqliyyat vasitələrində quraşdırılan və ya istifadə olunan avadanlıq və hissələr üçün vahid texniki qaydaların və bu qaydalar əsasında verilən razılıqların qarşılıqlı şəkildə tanınma şərtlərinin qəbul edilməsi haqqında» Müqavilə.
64. «Təhlükəli yüklərin quru yollar ilə beynəlxalq daşımaları haqqında» Avropa Sazişi (DOPOQ). Cenevrə, 1957-ci il.
65. Tarixi «İpək yolu»nun Bərpası üzrə Beynəlxalq Kofransda imzalanmış «Avropa-Qafqaz-Asiya dəhlizinin inkişafına dair Beynəlxalq nəqliyyat haqqında» Əsas Çoxtərəfli Saziş (Bakı, 1998-ci il).
66. «Beynəlxalq avtomobil daşımalarını həyata keçirən nəqliyyat vasitələri heyətinin işinə dair» Avropa Sazişi (ESTR). Cenevrə, 1970-ci il.
67. «Tezkorlanan qida məhsullarının beynəlxalq daşınması və bu daşımalar üçün istifadə olunan xüsusi nəqliyyat vasitələri haqqında (TDS)» Saziş.
68. «Yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi məsələləri haqqında» Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (06.04.1999-cu il, № 60).
69. «Nəqliyyat vasitələrinin təhlükəsiz hərəkətinin təmin edilməsinə nəzarət Qaydalarının təsdiq edilməsi barədə» Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (30.06.2000-ci il, № 110)

70. «Təhlükəli yüklərin avtomobil nəqliyyatı ilə daşınması qaydalarının təsdiq edilməsi barədə» Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (27.01.2000-ci il, №10).
71. «Nəqliyyat vasitələri və onların qoşqularının nömrə nişanları. Tipləri və əsas ölçüləri, texniki tələblər» AZS-005-96 Azərbaycan Respublikası Dövlət Standartı, 1996.
72. «Nəqliyyat vasitələri sürücülərinin hazırlanması və onların ixtisasının artırılması kursları haqqında» Əsasnamə, 1999.
73. «Mexaniki nəqliyyat vasitələrinin və onların qoşqularının müəyyən edilmiş qaydada dövlət qeydiyyatından keçirilməsi və dövlət qeydiyyatı üzrə uçota alınması haqqında» Əsasnamə, 1999.
74. «Nəqliyyat vasitələrinə və onların qoşqularına dövlət texniki baxışının keçirilməsi qaydaları haqqında» nümunəvi Əsasnamə, 1999.
75. «Nəqliyyat vasitələrinin duracaqları və qarajlar haqqında» nümunəvi Əsasnamə, 1999.
76. «Yol hərəkəti təhlükəsizliyi komissiyasının əsasnaməsi», 1999.
77. «Azərbaycan Respublikası ərazisində hüquqi və fiziki şəxslərə məxsus traktor, özüyeriyən maşın və mexanizmlərin texniki vəziyyəti və istismarı üzərində dövlət nəzarəti haqqında» Əsasnamə, 1999.
78. «Nəqliyyat vasitələrinə təminatlı texniki xidmət göstərilməsi haqqında» nümunəvi Əsasnamə, 1999.
79. «Nəqliyyat vasitələrinə təminatlı texniki xidmət göstərən texniki-təmir sahələri haqqında» nümunəvi Əsasnamə, 1999.
80. «Nəqliyyat vasitələrinə təminatlı texniki xidmət göstərən texniki-təmir stansiyaları haqqında» nümunəvi Əsasnamə, 1999.
81. «Nəqliyyat vasitələrini idarə etmək hüququ verən sürücülük vəsiqəsi almaq istəyən şəxslərdən imtahanların qəbul



edilməsi və onlara sürücülük vəsiqəsinin verilməsi qaydaları haqqında» Əsasnamə, 1999.
82. «Sürücülük vəsiqəsini almaq üçün yol hərəkəti qaydaları üzrə nəzəri və nəqliyyat vasitələrini idarəetmə məsələləri üzrə təcrübi imtahanlara müstəqil hazırlaşma» Qaydaları, 1999.
83. «Nəqliyyat vasitəsinin özgəninkiləşdirilməsi və girov qoyulması» Qaydaları, 1999.

# ƏLAVƏLƏR

## YOL HƏRƏKƏTİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

*3 iyul 1998-ci il tarixdə qəbul edilmişdir.*

(ÇIXARIŞ)

### Maddə 5. Yol hərəkəti sahəsində hüquqi şəxslərin vəzifələri

1. Yol hərəkəti sahəsində mülkiyyət formasından asılı olmayaraq hüquqi şəxslərin aşağıdakı vəzifələri vardır:

1) yol hərəkətinin təşkili, onun təhlükəsizliyini təmin etmək, ətraf mühitin mühafizəsi və yol hərəkəti qaydalarının tələblərinə riayət etmək;

2) yol hərəkəti qanunvericiliyinin tələbələrinə əməl olunması üzrə əmək kollektivlərində profilaktik iş aparmaq;

3) həmkarlar ittifaqı təşkilatları ilə razılaşdırmaqla sürücülərin sağlamlıq vəziyyətinə, sürücülər tərəfindən əmək və istirahət rejiminə əməl olunmasına nəzarət etmək;

4) daşıma fəaliyyəti ilə məşğul olduqda daşımaların xüsusiyyətlərini nəzərə alaraq, Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı* ilə razılaşdırmaqla, yol hərəkəti sahəsində qüvvədə olan qaydalar, normativlər və standartlar əsasında xüsusi qaydalar qəbul etmək;

5) yol-nəqliyyat hadisələrinin profilaktikası ilə bağlı tədbirlərin təşkili və maliyyələşdirilməsi, nəqliyyatın fövqəladə hallarda istismarı məsələlərini həll etmək;

---

*** Burada müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının "Azəravtonəqliyyat" Dövlət Konserni həyata keçirir.**



6) bu Qanunla müəyyən olunmuş digər tələbləri yerinə yetirmək.

II. Hüquqi şəxslərin sürücüləri yol hərəkətinin təhlükəsizliyi tələblərini pozmağa hər hansı formada sövq etməsi qadağandır.

### Maddə 6. Yol hərəkəti sahəsində fiziki şəxslərin hüquq və vəzifələri

I. Yol hərəkəti sahəsində fiziki şəxslərin aşağıdakı hüquqları vardır:

1) müəyyən edilmiş qaydalara müvafiq olaraq avtomobil yollarında sərbəst və maneəsiz hərəkət etmək, müvafiq icra hakimiyyəti orqanlarından* yol hərəkəti şəraiti haqqında məlumat almaq;

2) avtomobil yollarında hərəkətin məhdudlaşdırılmasının və ya qadağan edilməsinin səbəbləri barədə Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanlarından** məlumat almaq;

3) yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi ilə bağlı məlumatların və xidmətlərin keyfiyyəti haqqında məlumat almaq;

4) yol-nəqliyyat hadisələri zamanı Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada pulsuz tibbi yardım və digər təcili kömək almaq;

5) yolların hərəkət təhlükəsizliyi tələblərinə uyğunsuzluğu nəticəsində baş vermiş yol-nəqliyyat hadisələri zamanı səhhətinə, eləcə də nəqliyyat vasitəsinə dəymiş zərərin ödənilməsini

---

***Burada müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi "Azəravtoyol" Dövlət Şirkəti və Azərbaycan Respublikasının Dövlət Hidrometrologiya Komitəsi həyata keçirirlər.**

**** Burada müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının "Azəravtoyol" Dövlət Şirkəti və yerli icra hakimiyyəti orqanları həyata keçirirlər.**

Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq qaydada tələb etmək;

6) yol hərəkəti təhlükəsizliyinə nəzarəti həyata keçirən müvafiq icra hakimiyyəti orqanının* vəzifəli şəxslərinin hərəkətlərindən məhkəməyə şikayət etmək;

7) bu Qanunla müəyyən olunmuş digər hüquqlardan istifadə etmək.

II. Yol hərəkəti sahəsində fiziki şəxslərin aşağıdakı vəzifələri vardır:

1) yol hərəkətinin təşkili, onun təhlükəsizliyini təmin etmək, ətraf mühitin mühafizəsi ilə bağlı tələblərə və yol hərəkəti qaydalarına əməl etmək;

2) yol hərəkəti təhlükəsizliyinin təmin edilməsində iştirak etmək və bunun üçün keçirilən tədbirlərdə Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanlarına** köməklik göstərmək;

3) onlara məxsus olan nəqliyyat vasitələrinin saz vəziyyətdə saxlanılması və istismarı üçün tədbirlər görmək;

4) yol hərəkəti təhlükəsizliyinin tibbi təminatı və ətraf mühitin nəqliyyatın zərərli təsirindən qorunması üçün tədbirləri həyata keçirmək;

5) bu Qanunla müəyyən olunmuş digər tələbləri yerinə yetirmək.

## Maddə 14. Nəqliyyat vasitələrinin yol hərəkətində iştirak etməyə buraxılması

Azərbaycan Respublikasında qüvvədə olan vahid beynəlxalq texniki göstərişlərə, yol hərəkətinin təhlükəsizliyi normativləri-

---

* Burada müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi həyata keçirir.

** Burada müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərini Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və yerli icra hakimiyyəti orqanları həyata keçirirlər.



nə və standartlarına uyğun gələn, bu tələblərə uyğunluğu barəsində sertifikatı olan, qeydiyyatdan, dövlət texniki baxışından keçmiş nəqliyyat vasitələri Azərbaycan Respublikası ərazisində yol hərəkətində iştiraka buraxılırlar.

## Maddə 27.Nəqliyyat vasitələrinin dövlət qeydiyyatı

II. Mexaniki nəqliyyat vasitələrinin dövlət qeydiyyatını Azərbaycan Respublikasının rayon, şəhər və bölgələrində aşağıdakılar aparırlar:

1) hüquqi və fiziki şəxslərə məxsus olan (Azərbaycan Respublikası Silahlı Qüvvələrindən və digər birləşmələrdən başqa) və mühərrikinin işçi həcmi 50 kub/sm və daha çox, konstruktiv maksimal sürəti saatda 50 kilometrdən artıq olan bütün tipli, markalı və modelli mexaniki nəqliyyat vasitələrinin, onların qoşqularının və yarımqoşqularının-Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı*;

2) tramvayların və trolleybusların — Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı**;

3) hüquqi və fiziki şəxslərin ümumi istifadədə olan küçə-yol şəbəkəsində istismar üçün nəzərdə tutulmayan tırtıllı mexaniki nəqliyyat vasitələrinin (traktorların), kənd təsərrüfatında istifadə olunan və digər mexaniki nəqliyyat vasitələrinin-Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı***;

4) hüquqi və fiziki şəxslərin ümumi istifadədə olan küçə-yol şəbəkəsində istismar üçün nəzərdə tutulmayan texnoloji nəqliy-

---

* Burada müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi həyata keçirir.

** Burada müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərini yerli icra hakimiyyəti orqanları həyata keçirirlər.

*** Burada müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi həyata keçirir.

yat vasitələrinin — Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı*;

5) hüquqi və fiziki şəxslərin yarış məqsədli idman nəqliyyat vasitələrinin — Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı**.

III. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin və digər birləşmələrin mexaniki nəqliyyat vasitələrinin vahid dövlət qeydiyyatını Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı*** aparır.

IV. Hüquqi və fiziki şəxslər hüquqi ünvanı və ya yaşayış yeri üzrə bu maddənin ikinci və üçüncü hissələrində nəzərdə tutulmuş orqanlarda:

1) əldə edildiyi vaxtdan on gün ərzində;

2) fiziki şəxsin yaşayış yeri və hüquqi şəxsin olduğu yer dəyişildiyi vaxtdan on gün ərzində;

3) nəqliyyat vasitələrinin girov qəbul edildiyi vaxtdan on gün ərzində;

4) nəqliyyat vasitəsinin mühərrik, ban və şassi nömrələri dəyişdirildiyi və ya qeydiyyat məlumatlarının dəyişdirilməsini tələb edən digər halların yarandığı vaxtdan on gün ərzində onlara məxsus olan mexaniki nəqliyyat vasitəsini dövlət qeydiyyatından keçirməli və daimi uçota aldırmalıdırlar.

VI. Nəqliyyat vasitəsinin dövlət qeydiyyatının aparılması və daimi uçota alınması, nəqliyyat vasitəsinin qeydiyyat şəhadətna-

---

*** Burada müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Dövlət Sənayedə İşlərin Təhlükəsiz Görülməsinə Nəzarət və Dağ-Mədən Nəzarəti komitəsi həyata keçirir.**

**** Burada müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi həyata keçirir.**

***** Burada müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Müdafiə Nazirliyi həyata keçirir.**



məsinin və dövlət qeydiyyat nişanının verilməsi üçün nəqliyyat vasitəsinin sahibi və ya sərəncam vermək hüququ olan digər şəxs bu maddənin ikinci və üçüncü hissələrində nəzərdə tutulmuş orqanlara bu Qanunla müəyyən edilmiş müddətdə aşağıdakı sənədləri təqdim etməlidir:

1) ərizə;

2) Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi (müvafiq olaraq Azərbaycan Respublikasının ərazisində əcnəbinin qeydiyyata alınması haqqında vəsiqə və ya Azərbaycan Respublikasının hüdudlarında istifadə edilməsi üçün vətəndaşlığı olmayan şəxsin şəxsiyyət vəsiqəsi);

3) Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada onun sahibliyini təsdiq edən müvafiq sənəd və ya məhkəmənin qərarı;

4) Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş rüsumların və ya vergilərin, yaxud ödənclərin ödənilməsi barədə qəbz;

5) xarici dövlətlərdə alınaraq Azərbaycan Respublikasının ərazisinə hüquqi və fiziki şəxslər tərəfindən gətirilmiş nəqliyyat vasitəsi üçün gömrük orqanlarının verdiyi icazə sənədi, nəqliyyat vasitəsinin əvvəl qeydə alındığı dövlətin daimi qeydiyyatından çıxarıldığına dair sənədi, onun qeydiyyat və ya tranzit nişanlarını.

VII. Əvvəl qeydə alındığı dövlətin daimi uçotundan çıxarılmadan Azərbaycan Respublikasına gətirilmiş nəqliyyat vasitəsi gömrük orqanlarının verdiyi icazə sənədi əsasında sahibinin adına müvəqqəti qeydiyyata alınaraq, qeydiyyat şəhadətnaməsi və nişanları ilə təmin olunur, nəqliyyat vasitəsinin əvvəlki uçot yerinə Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı* tərəfindən edilən müraciətə müvafiq təsdiqləyici cavab alındıqdan sonra daimi şəhadətnamə verilir. Nəqliyyat vasitəsinin əvvəlki uçot yerindən silinməsi Azərbaycan Respublikasın-

---

*** Burada müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi həyata keçirir.**

da yerləşən xarici səfirlik və konsul nümayəndəlikləri tərəfindən həyata keçirildikdə, bu maddənin ikinci və üçüncü hissələrində nəzərdə tutulmuş orqanlara müvafiq konsul şəhadətnaməsi təqdim edilir.

**IX.** Nəqliyyat vasitəsinin sahibi və ya sərəncam vermək hüququ olan digər şəxs nəqliyyat vasitəsini dövlət qeydiyyatı üzrə daimi uçotdan aşağıdakı hallarda çıxarmalıdır:

1) nəqliyyat vasitəsi sahibinin yaşayış yeri dəyişdikdə və onun yeni yaşayış yeri nəqliyyat vasitəsini qeydiyyata almış müvafiq orqanın fəaliyyət göstərdiyi ərazinin hüdudlarından kənarda olduqda, habelə qeydiyyat yerinin dəyişməsi ilə bağlı olan digər hallarda;

2) nəqliyyat vasitəsinə mülkiyyət hüququ xitam edildikdə və ya nəqliyyat vasitəsi başqasına verildikdə;

3) nəqliyyat vasitələri çıxdaş edildikdə.

**X.** Xarici dövlətlərdə qeydiyyatdan çıxarılmadan Azərbaycan Respublika-sına 30 günədək müddətə müvəqqəti gətirilən nəqliyyat vasitələri Azərbaycan Respublikasının sərhəd məntəqəsinin yaxınlığında yerləşən, bu maddənin ikinci hissəsinin 1-ci bəndində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanında* təxirəsalınmadan müvəqqəti uçota alınır. Bu barədə həmin nəqliyyat vasitələrinin sahiblərinə 30 gün müddətinə müvafiq sənəd verilir.

**XI.** Xarici dövlətlərdə daimi qeydiyyatdan çıxarılmadan Azərbaycan Respublikasına 30 gündən artıq müddətə müvəqqəti gətirilən nəqliyyat vasitələri, onları geriyə qaytarmaq barədə sahibinin verdiyi öhdəçilik və gömrük orqanlarının verdiyi icazə sənədi əsasında, bu maddənin ikinci və üçüncü hissələrində nəzərdə tutulmuş Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanında* nəqliyyat vasitəsi sahibinin əcnəbilər üçün vizasında göstərilən müddətə, Azərbaycan Respublikası vətəndaşı üçün isə bir il müddətindən artıq olmamaq şərti ilə, onun

---

*** Burada müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi həyata keçirir.**



öhdəçiliyi müddətinə dövlət qeydiyyatından keçirilir. Bu zaman həmin nəqliyyat vasitələrinin xarici qeydiyyat sənədləri və nişanları müvəqqəti olaraq saxlanca qəbul olunur və əvəzində onlar müvəqqəti dövlət qeydiyyat şəhadətnaməsi və qeydiyyat nişanları ilə təmin edilirlər. Respublika ərazisini tərk etdikdə xarici qeydiyyat sənədləri və nişanları nəqliyyat vasitəsi sahibinə geri qaytarılır.

**XII.** Xarici dövlətlərdə qeydiyyatdan çıxarılmadan Azərbaycan Respublikasına gətirilmiş nəqliyyat vasitələrinin müvəqqəti dövlət qeydiyyatının aparılması və müvəqqəti uçota alınması üçün, onların sahibləri və ya sərəncam vermək hüququ olan digər şəxslər Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanına* aşağıdakı sənədləri təqdim etməlidirlər:

1) nəqliyyat vasitəsinin qeydiyyat şəhadətnaməsini;

2) Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsini (müvafiq olaraq Azərbaycan Respublikasının ərazisində əcnəbinin qeydiyyata alınması haqqında vəsiqə və ya Azərbaycan Respublikasının hüdudlarında istifadə edilməsi üçün vətəndaşlığı olmayan şəxsin şəxsiyyət vəsiqəsi);

3) Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş rüsumların və ya vergilərin, yaxud ödənclərin ödənilməsi barədə qəbzi;

4) lazım olarsa, nəqliyyat vasitəsinin idarə edilməsi hüququnu təsdiq edən sənədi;

5) gömrük orqanlarının müvəqqəti icazə sənədlərini.

**XIII.** Azərbaycan Respublikası ərazisində dövlət qeydiyyatına alınmış nəqliyyat vasitəsi icarə müqaviləsi, vəkalətnamə və ya digər əsaslarla başqa şəxsə verildikdə, on gün müddətində göstərilən sənədlər əsasında bu maddənin ikinci hissəsində nəzərdə tutulmuş müvafiq orqanlarda qeydiyyatdan keçirilməlidir.

**XVII.** Azərbaycan Respublikasının ərazisində:

---

*** Burada müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi həyata keçirir.**

1) dövlət qeydiyyatından keçməyən və yaxud nəqliyyat vasitəsinin geri qaytarılması barədə öhdəçiliyə əməl etməyən;

2) dövlət qeydiyyat nişanı və ya onlardan biri yerində olmayan, eləcə də saxta və ya başqa nəqliyyat vasitələrinə verilmiş və ya dövlət standartına uyğun olmayan dövlət qeydiyyat nişanları ilə nəqliyyat vasitələrini idarə edən şəxslər Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar.

### Maddə 30. Nəqliyyat vasitələrinin texniki vəziyyəti və onların texniki baxışdan keçirilməsi

II. Nəqliyyat vasitələrinin sahibləri və ya nəqliyyat vasitələrinin texniki vəziyyətinə cavabdeh olan şəxslər:

1) nəqliyyat vasitələrinin istismarı zamanı onların texniki vəziyyətinə dair müəyyən edilmiş tələblərə riayət etməlidirlər;

2) nəqliyyat vasitələrinin texniki cəhətdən saz vəziyyətdə saxlanılması üçün onlara vaxtlı-vaxtında texniki xidmət göstərməlidirlər;

3) texniki vəziyyəti dövlət standartlarının, yol hərəkəti qaydalarının tələblərinə uyğun gəlməyən, habelə müəyyənləşdirilmiş qaydada qeydə alınmamış, normativ tələblər pozulmaqla avadanlığı dəyişdirilmiş və ya texniki baxışdan keçməmiş nəqliyyat vasitələrinin istismarına yol verməməlidirlər.

VII. Texniki baxış keçirilməsi üçün nəqliyyat vasitəsinin sahibi və ya sərəncam vermək hüququ olan digər şəxs müvafiq orqana nəqliyyat vasitəsini və aşağıdakı sənədləri təqdim etməlidir:

1) nəqliyyat vasitəsini idarə etməyə hüquq verən sənədi;

2) nəqliyyat vasitəsinin qeydiyyat şəhadətnaməsini;

3) nəqliyyat vasitəsinin istismarının qadağan edilməsinə səbəb olan nasazlıqların aradan qaldırılması barədə təminatlı texniki xidmət göstərən texniki-təmir sahəsinin və ya stansiyasının sənədini (əgər belə xidmət həmin stansiya və ya sahə tərəfindən göstərilmişdirsə);



4) Azərbaycan Respublikası qanunvericiliyi ilə müəyyən edilmiş rüsumun və ya verginin və yaxud ödənclərin ödənilməsi barədə qəbzi.

IX. Bu Qanuna 1 saylı Əlavə ilə istismarı qadağan edilən nəqliyyat vasitələrini idarə etməyə və onu vaxtında texniki baxışdan keçirməməyə görə nəqliyyat vasitəsinin sahibləri, nəqliyyat vasitəsinin texniki vəziyyətinə cavabdeh olan şəxslər və ya sürücüləri Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

### Maddə 32. Nəqliyyat vasitələrinin özgəninkiləşdirilməsi qaydası

I. Bu Qanunun 27-ci maddəsinin ikinci hissəsinin 1-ci bəndində nəzərdə tutulan nəqliyyat vasitələrinin özgəninkiləşdirilməsində və girov qoyulmasında maraqlı olan şəxs, müvafiq əqd bağlamazdan əvvəl, nəqliyyat vasitəsini müayinədən keçirilməsi üçün Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanına * təqdim etməlidir. Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı* nəqliyyat vasitəsinin qeydiyyat sənədlərini, onun mühərrik, ban və şassi nömrələrini, rəngini informasiya-axtarış bazasının məlumatları əsasında yoxlayır və yoxlamanın nəticəsi barədə nəqliyyat vasitəsini təqdim etmiş şəxsə müvafiq arayış verir.

II. Nəqliyyat vasitəsinin özgəninkiləşdirilməsi, girov qoyulması yalnız nəqliyyat vasitəsinin müayinədən keçirilməsi haqqında arayış təqdim edildikdən sonra, Azərbaycan Respublikası qanunvericiliyinə müvafiq olaraq, Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanının** müəyyən etdiyi qaydada aparılır.

---

*** Burada müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi həyata keçirir.**

**** Burada müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir.**

## Maddə 33. Nəqliyyat vasitələrini idarəetmə hüququ

I. Bu maddənin ikinci hissəsində nəzərdə tutulan yaş həddinə çatmış, sağlamlıq cəhətdən sürücülüyə yararlı, yol hərəkəti qaydalarını bilən, sürmə vərdişi və sürücülük vəsiqəsi olan hər bir fiziki şəxs Azərbaycan Respublikasının ərazisində nəqliyyat vasitələrini idarəetmə hüququna malikdir.

II. Azərbaycan Respublikasının ərazisindəki yollarda:

1) velosipedi və ya arabanı idarəetmə hüququ — 14 yaşdan;

2) asma mühərrikli velosipedi və mopedi idarəetmə hüququ — 16 yaşdan;

3) motosikletləri idarəetmə hüququ — 16 yaşdan;

4) oturacaq yerlərinin sayı sürücünün oturacağından əlavə 8-dən artıq olmayan avtomobilləri idarəetmə hüququ — 18 yaşdan;

5) tramvayları idarəetmə hüququ — 20 yaşdan;

6) trolleybusları idarəetmə hüququ — 21 yaşdan;

7) oturacaq yerlərinin sayı sürücünün oturacağından əlavə 8-dən çox olan avtomobilləri idarəetmə hüququ — 21 yaşdan (müstəsna qaydada hərbi qulluqçular üçün 19 yaşdan) yaranır.

V. Azərbaycan Respublikasının ərazisindəki yollarda hər hansı fiziki şəxsin nəqliyyat vasitələrini idarəetmə hüququ yalnız aşağıdakı hallarda müvəqqəti məhdudlaşdırıla bilər:

1) şəxsin sürücülük vəsiqəsinin etibarlılıq müddəti qartarıbsa — sürücülük vəsiqəsi dəyişdirilənədək;

2) şəxs tərəfindən yol hərəkətinin qaydaları bu Qanunla müəyyən edilmiş hallarda kobud surətdə pozulmuşdursa-Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş qaydada beş ildən artıq olmayan müddətin qurtarmasınadək;

3) şəxsdə bu maddənin üçüncü hissəsində nəzərdə tutulmuş xəstəliklər və ya fiziki qüsurlar müəyyən edilərsə-xəstəlik müalicə olunanadək və ya fiziki qüsur aradan qaldırılanadək.



VI. Azərbaycan Respublikası müvafiq icra hakimiyyəti orqanının* müəyyən etdiyi siyahıda nəzərdə tutulmuş xəstəliklərlə əlaqədar psixiatriya və ya narkoloji dispanserlərin uçotunda olan, nəqliyyat vasitələrini idarə etmək sahəsində üç ildən az təcrübəsi olan, axırıncı iki il ərzində insanlara xəsarət yetirilməsi və ya onların ölümü ilə nəticələnmiş yol-nəqliyyat hadisəsi törətməyə, habelə nəqliyyat vasitəsini sərxoş vəziyyətdə idarə etməyə görə sürücülük hüququndan məhrum olunmuş şəxslər avtobusları, tramvayları və trolleybusları idarə etməyə buraxılmırlar.

## Maddə 35. Sürücülük vəsiqələrinin verilməsi və dəyişdirilməsi

I. Bu Qanunun 33-cü maddəsinin birinci hissəsində nəzərdə tutulmuş sürücülük vəsiqəsini almaq istəyən hər bir şəxs:

1) müvafiq kateqoriyalı nəqliyyat vasitələri sürücülərinin hazırlanması üzrə təhsil planlarında və proqramlarında nəzərdə tutulan həcmdə hazırlıq keçməli;

2) yol hərəkətinin qaydaları üzrə nəzəri və nəqliyyat vasitələrini idarəetmə vərdişləri üzrə təcrübi imtahanları verməli;

3) Azərbaycan Respublikası qanunvericiliyin ilə müəyyən edilmiş məbləğdə haqq ödəməlidir.

II. Sürücülük vəsiqəsi almaq istəyən şəxs Azərbaycan Respublikası müvafiq icra hakimiyyəti orqanına* ərizə ilə müraciət etməlidir. Ərizəyə aşağıdakı sənədlər əlavə olunur:

1) Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi (müvafiq olaraq Azərbaycan Respublikasının ərazisində əcnəbinin qeydiyyata alınması haqqında vəsiqə və ya Azərbaycan Respublikasının hüdudlarında istifadə edilməsi üçün vətəndaşlığı olmayan şəxsin şəxsiyyət vəsiqəsi);

---

*** Burada müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi həyata keçirir.**

2) müvafiq kateqoriyalı nəqliyyat vasitələri sürücülərinin hazırlanması üzrə təhsil planlarında və proqramlarında nəzərdə tutulan həcmdə hazırlıq keçməsi barədə təhsil müəssisəsinin sənədi və ya müstəqil hazırlıq keçməsi ilə əlaqədar Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanında* qeydiyyata götürülməsi barədə sənəd;

VI. Sürücülük vəsiqəsinin dəyişdirilməsi üçün əsaslar aşağıdakılardır:

1) onun etibarlılıq müddətinin qurtarması;

2) sahibinin soyadı, adı və ya atasının adının dəyişdirilməsi;

3) onun yazılarında dəqiqsizlik müəyyən edilməsi;

4) onun yararsız hala düşməsi;

5) onun itirilməsi;

6) yeni nümunəsinin bu Qanunla müəyyən edilmiş qaydada təsdiqi nəticəsində ölkədə sürücülük vəsiqələrinin dəyişdirilməsi.

VII. Sürücülük vəsiqəsinin dəyişdirilməsi sahibinin ərizəsi əsasında əvvəllər malik olduğu bütün kateqoriyalar saxlanılmaqla, imtahansız Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı* tərəfindən bir gün ərzində həyata keçirilir.

### Maddə 36. Yol hərəkəti iştirakçılarının əsas vəzifələri və hüquqları

I. Yol hərəkətinin iştirakçıları:

1) yol hərəkəti Qaydalarına riayət etməli, bu Qanunun yol hərəkətinin təhlükəsizliyi məsələlərinə dair tələblərini bilməli və yerinə yetirməlidirlər;

2) yol hərəkətinin nizama salınmasında istifadə olunan nizamlayıcının və svetoforların siqnallarına, yol nişanlarına, yolun nişanlanmasına, yol işlərində istifadə olunan səs və işıq siqnallarına, bəzi nəqliyyat vasitələrinin fərqləndirici nişanlarına və nəqliyyat vasitəsi sürücülərinin siqnallarına tabe olmalıdırlar;

3) yol hərəkəti üçün təhlükəsiz şərait yaratmalı, öz hərəkətləri və ya hərəkətsizliyi ilə digər hərəkət iştirakçılarına, onların nəqliyyat vasitələrinə və başqa əmlaka zərər vurmamalıdırlar;

4) yol örtüyünü zədələməməli və ya çirkləndirməməli, yol nişanlarını çıxarmamalı, qarşısını kəsməməli, zədələməməli, özbaşına yol nişanları, svetoforlar və hərəkətin təşkilinin digər texniki vasitələrini quraşdırmamalıdırlar;

5) hərəkətə maneçilik törədən əşyaları və ya materialları ataraq, boşaldaraq və ya yolda qoyaraq yol hərəkətini çətinləşdirməməli və ya onun təhlükəsizliyi üçün qorxu törətməməlidirlər (bu cür maneənin və ya təhlükənin yaranmasına yol verməmək mümkün olmadıqda, onların mümkün qədər tez aradan qaldırılması üçün lazımi tədbirlər görməli, bunu dərhal etmək mümkün olmadıqda isə, əl altında olan vasitələrlə digər hərəkət iştirakçılarının xəbərdar edilməsini və Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanına* məlumat verilməsini təmin etməlidirlər);

6) yol hərəkəti qanunvericiliyinə riayət olunması barədə Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanlarının* sərəncamlarını yerinə yetirməlidirlər;

7) nəqliyyat, yol, kommunal və digər müəssisə və təşkilatların vəzifəli şəxsləri, yolda hər hansı bir iş aparan fəhlələr, eləcə də digər şəxslər müəyyən edilmiş yol hərəkəti qaydalarına təsir göstərə biləcək maneələr yaratmaqdan və başqa hərəkətlərdən çəkinməlidirlər.

II. Yol hərəkəti qaydalarına riayət edən yol hərəkətinin hər bir iştirakçısı digər şəxslərdən həmin qaydaların tələblərini gözləməyi tələb edə bilər.

III. Yol hərəkəti iştirakçılarının:

---

*** Burada müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi həyata keçirir.**

*** Burada müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi həyata keçirir.**

1) təhlükəsiz və rahat yol hərəkəti şəraitinə malik olmaq, yolların, küçələrin, meydanların və dəmir yol keçidlərinin hərəkətin təhlükəsizliyi tələblərinə uyğunsuzluğu nəticəsində dəymiş zərərin ödənilməsini tələb etmək;

2) Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanları* və yol sahibləri qüvvədə olan qanunvericiliyi pozduqda, onların hərəkətlərindən məhkəməyə şikayət etmək;

3) hidrometeorologiya, yol, kommunal və başqa təşkilatlardan yol hərəkət şəraiti haqqında məlumat almaq hüquqları vardır.

### Maddə 37. Mexaniki nəqliyyat vasitəsi sürücüsünün vəzifələri

I. Mexaniki nəqliyyat vasitəsinin sürücüsü:

1) sürücülük vəsiqəsini (fərdi nəqliyyat vasitəsinin sahibi olmadıqda, sürücünün nəqliyyat vasitəsini idarə etmək hüququna dair müəyyən edilmiş qaydada təsdiqlənmiş etibarnaməsini və ya nəqliyyat vasitəsinə ümumi mülkiyyət hüququna dair şəhadətnaməsini), sürücülük vəsiqəsi müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı** tərəfindən alınmış olduqda isə onu əvəz edən xüsusi arayışı, nəqliyyat vasitəsinin qeydiyyat şəhadətnaməsini, nəqliyyat vasitələrindən kommersiya məqsədləri üçün istifadə edildikdə xüsusi razılıq və ya yol (marşrut) vərəqəsini və daşınan yüklərə dair sənədləri özündə saxlamalıdır;

2) Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı** əməkdaşının tələbi ilə nəqliyyat vasitəsini dayandırdıqda, həmin əməkdaş yaxınlaşdıqdan sonra bu maddənin birinci hissəsinin 1-ci bəndində göstərilən sənədləri yoxlanılması üçün ona təqdim etməlidir və zəruri olduqda həmin əməkdaşın tələbi ilə nəqliyyat vasitəsindən çıxmalıdır;

3) yola düşməzdən qabaq nəqliyyat vasitələrinin istismara buraxılmasına dair bu Qanunun 1 saylı Əlavəsinə uyğun olaraq, nəqliyyat vasitəsinin texniki cəhətdən sazlığını yoxlamalı və onu yol boyu təmin etməlidir;

4) yol hərəkəti şəraitini, nəqliyyat vasitəsinin və yükün xüsusiyyətlərini nəzərə almaqla, nəqliyyat vasitəsini müəyyən edilmiş məhdudiyyətdən artıq olmayan sürətlə idarə etməlidir;

5) hərəkət zolağının dəyişməsi, dönmə, ötmə, hərəkətə başlama və dayanma ilə bağlı manevrlər edərkən, xarici işıq siqnallarının köməyi ilə, bunlar olmadıqda və ya nasaz olduqda isə, əl işarələri ilə digər hərəkət iştirakçılarını xəbərdar etməlidir;

6) konstruksiyasında nəzərdə tutulmuş təhlükəsizlik kəmərləri ilə təchiz edilmiş avtomobildə hərəkət edərkən kəməri bağlamalı və sərnişinlərin də kəməri bağlamasını təmin etməli (12 yaşınadək uşaqların, geriyə hərəkət manevri edən sürücülərin, hamilə qadınların, sürücülüyü öyrənən şəxs nəqliyyat vasitəsini idarə edərkən onu öyrədənin, yaşayış məntəqələrində isə bunlardan başqa, operativ nəqliyyat vasitəsi sürücülərinin və sərnişinlərinin kəməri bağlamamasına yol verilir), motosikletdə isə motoşlemi düymələməli və sərnişinlərin də motoşlemi düymələməsini təmin etməlidir;

7) dayanaraq qırmızı və ya göy sayrışan işıq və xüsusi səs siqnalları verən operativ nəqliyyat vasitəsinə üstün keçid hüququ verməlidir;

8) hərəkət təhlükəsizliyi üçün qorxu törədən alkoqol, narkotik vasitələr və ya güclü təsir göstərən digər maddələrin istifadə edilməsi nəticəsində, diqqəti və çevikliyi azaldan dərman vasitələrinin təsiri altında, xəstə və əzgin, yorğun vəziyyətdə nəqliyyat vasitəsini idarə etməməli, habelə nəqliyyat vasitəsini idarə etmək ixtiyarını bu cür vəziyyətdə olan və ya eyni kateqoriyalı nəqliyyat vasitəsini idarə etmək hüququ olmayan şəxsə verməməlidir;

---

*** Burada müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərini Azərbaycan Respublikasının nazirlikləri, dövlət komitələri, dövlət şirkətləri, baş idarələri və yerli icra hakimiyyəti orqanları həyata keçirirlər.**

*** Burada müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi həyata keçirir.**

9) yolda su və ya palçıq olduqda, nəqliyyat vasitəsini idarə edərkən, onların piyadalara, binalara və başqa nəqliyyat vasitələrinə sıçramamasına çalışmalıdır;

10) hərəkətdə olan nəqliyyat vasitəsinin dövlət qeydiyyat nişanının görünməsi üçün onun təmiz saxlanılmasını təmin etməlidir;

11) yol hərəkətinin ən müdafiəsiz iştirakçılarının-uşaqların, əlillərin, velosipedçilərin və qocaların təhlükəsiz hərəkətini təmin etmək üçün mümkün olan bütün tədbirləri görməli, küçəni keçən kor piyadanın siqnalı ilə (siqnal -ağ əsanın qaldırılmasıdır) nəqliyyat vasitəsini dərhal dayandırmağa borcludur;

12) Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanının* əməkdaşı tərəfindən sağ əlindəki üfüqi vəziyyətdə olan jezllə və ya onların nəqliyyat vasitələrindəki qırmızı və ya göy sayrışan işıqla və yaxud xüsusi səs siqnalı ilə ona verilən işarəyə nəqliyyat vasitəsini dayandırmalıdır;

13) Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı* əməkdlaşlarının tələbi ilə alkoqol, narkotik vasitələr və ya güclü təsir göstərən digər maddələrin istifadə edilməsi nəticəsində sərxoşluq vəziyyətinin yoxlanılması üçün müayinədən keçməlidir;

14) nəqliyyat vasitəsini idarə etmək qabiliyyətinin təsdiqi üçün müəyyən olunmuş hallarda tibbi müayinədən keçməlidir;

15) təcili tibbi yardıma ehtiyacı olan şəxsləri daşımalıdır.

**II.** Bu maddə ilə müəyyən edilmiş sənədlər özündə olmayan nəqliyyat vasitəsinin sahibi Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada məsuliyyət daşıyır.

**III.** Mexaniki nəqliyyat vasitələri:

1) təcili tibbi yardım göstərmək üçün eyni səmtə gedən səhiyyə işçilərinə;

---

* **Burada müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi həyata keçirir.**



2) yol-nəqliyyat hadisələri və ya nasazlıq nəticəsində zədələnmiş nəqliyyat vasitələrinin daşınması üçün (yalnız yük daşıyan nəqliyyat vasitələrini), təbii fəlakət yerlərinə getmək üçün, eləcə də qüvvədə olan qanunvericiliklə nəzərdə tutulmuş digər təxirəsalınmaz hallarda, Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanlarının* əməkdaşlarına təqdim edilməlidir.

**V.** Mexaniki nəqliyyat vasitəsinin sürücüsünə:

1) nəqliyyat vasitəsini qapıları bağlanmamış vəziyyətdə yerindən tərpətmək və ya onun hərəkəti zamanı qapıları açmaq;

2) nəqliyyat vasitəsini idarə etməkdən diqqəti yayındıra biləcək söhbətdə iştirak etmək, sükan arxasında telefonla danışmaq;

3) hərəkət zamanı sükanı əlindən buraxmaq, mühərriki söndürülmüş nəqliyyat vasitəsini ətalətlə idarə etmək;

4) nəqliyyat vasitəsinin təkərlərində və ya banında yol örtüyünü zibilləyən palçıq və s. varsa, yaxud onlardan yanacaq-sürtgü materiallarının, kimyəvi maddələrin, tikinti və digər materialların axması olarsa, onlarla örtüyü təkmilləşdirilmiş yollarda hərəkət qadağandır.

### Maddə 48. Nəqliyyat vasitələrinin üstün hərəkət rejimi ilə hərəkəti və bununla əlaqədar digər sürücülərin vəzifələri

**I.** Üstündə «polis», «təcili tibbi yardım», «yanğınsöndürən» yazılar olan, habelə Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanının** müəyyən etdiyi digər nəqliyyat vasitə-

---

* **Burada müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərini Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi və Azərbaycan Respublikasının Fövqəladə hallar üzrə Dövlət Komissiyası həyata keçirirlər.**

** **Burada Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir.**

ləri xüsusi tapşırığı yerinə yetirərkən üstün hərəkət rejiminə malikdirlər. Bu şəraitdə onların sürücüləri xüsusi işıq və səs siqnallarını qoşmalıdırlar.

**II.** Yuxarıda nəzərdə tutulmuş nəqliyyat vasitələrindən biri yaxınlaşdıqda, hərəkətdə iştirak edən digər nəqliyyat vasitələrinin sürücüləri sağa dönmə işıq göstəricisini yandırmalı, üstün hərəkət rejimi ilə gedən nəqliyyat vasitələri üçün zolağı boşaltmalı və ya yol qırağına mümkün qədər yaxın hərəkət etməli, zərurət olduqda isə nəqliyyat vasitəsini saxlamalıdırlar.

**V.** Yaşayış məntəqələrində sürücülər işarələnmiş dayanacaqdan hərəkətə başlayan trolleybuslara və avtobuslara yol verməlidirlər. Trolleybus və avtobus sürücüləri yalnız onlara yol verildiyinə əmin olduqdan sonra hərəkətə başlaya bilərlər. Üstün hərəkət rejimli nəqliyyat vasitəsinin sürücüsü yol hərəkətinin qalan iştirakçılarını təhlükə altında qoymamaq şərtilə, bu Qanunun tələblərindən kənara çıxa bilər. Bütün hallarda, o, nizamlayıcının siqnallarına tabe olmalıdır.

### Maddə 50. Hərəkət sürəti və nəqliyyat vasitələri arasında ara məsafəsi

**I.** Sürücü hərəkətin intensivliyini, nəqliyyat vasitəsinin, yükün xüsusiyyətlərini və vəziyyətini, yol və meteoroloji şəraiti, xüsusən hərəkət istiqamətində görmə şəraitini nəzərə almaqla, nəqliyyat vasitəsini müəyyən olunmuş sürət məhdudiyyətindən çox olmayan sürətlə sürməlidir. Sürücü hərəkət üçün təhlükə yarandığını gördükdə, nəqliyyat vasitəsinin sürətini tam dayanma həddinə qədər azaltmaq üçün mümkün olan tədbirləri görməlidir.

**II.** Nəqliyyat vasitələri:

**1)** yaşayış məntəqələri daxilində — saatda 60 kilometrdən çox olmayan sürətlə (səlahiyyətli orqanlar yolun müəyyən sahələrində daha yuxarı hədd müəyyən edə bilərlər, lakin bu hədd saatda 90 kilometrdən çox ola bilməz);



**2)** minik avtomobilləri və icazə verilmiş maksimum kütləsi 3,5 tondan artıq olmayan yük avtomobilləri yaşayış məntəqələrindən kənarda:

— avtomagistrallarda — saatda 110 kilometrdən çox olmayan sürətlə;

— başqa yollarda — saatda 90 kilometrdən çox olmayan sürətlə;

**3)** şəhərlərarası və xüsusilə kiçik avtobuslar və motosikletlər yaşayış məntəqələrindən kənarda bütün yollarda — saatda 90 kilometrdən çox olmayan sürətlə;

**4)** digər avtobuslar, yedəyində qoşqu aparan minik avtomobilləri, icazə verilən maksimum kütləsi 3,5 tondan artıq olan yük avtomobilləri yaşayış məntəqələrindən kənarda:

— avtomagistrallarda — saatda 90 kilometrdən çox olmayan sürətlə;

— başqa yollarda — saatda 70 kilometrdən çox olmayan sürətlə;

**5)** banında adamlar daşıyan yük avtomobilləri — saatda 50 kilometrdən çox olmayan sürətlə;

**6)** yedəyində mexaniki nəqliyyat vasitələri aparan nəqliyyat vasitələri — saatda 50 kilometrdən çox olmayan sürətlə;

**7)** təhlükəli, ağır çəkili və iri qabaritli yüklər daşıyan nəqliyyat vasitələri — daşıma şərtləri razılaşdırılarkən müəyyən edilmiş həddən çox olmayan sürətlə hərəkət etməlidirlər.

**III.** Sürücü sürətdən və hərəkət şəraitindən asılı olaraq elə ara məsafəsi seçməlidir ki, qabaqda gedən nəqliyyat vasitəsi sürəti kəskin azaltdıqda və ya gözlənilmədən dayandıqda, onunla toqquşmanın qarşısını almaq mümkün olsun.

**IV.** Yaşayış məntəqələrindən kənarda ötməni asanlaşdırmaq məqsədilə, asta gedən, ağır yüklü və ya uzun nəqliyyat vasitələrinin sürücüləri özlərindən qabaqda gedən nəqliyyat vasitəsi ilə kifayət qədər ara məsafəsi saxlamalıdırlar ki, onları ötən nəqliyyat vasitələri ötməni tam təhlükəsiz şəraitdə başa çatdırsınlar. Əgər sürücü ötmə əməliyyatına başlamışdırsa və ötürsə, bu tələbə əməl olunmur.

V. Üstün hərəkət rejimli nəqliyyat vasitələri zərurətdən irəli gələn sürətlə hərəkət edə bilərlər. Göstərilən nəqliyyat vasitələrinin sürücüləri yol-nəqliyyat hadisələrinin qarşısını almaq üçün hər cür tədbir görməlidirlər.

VI. Sürücülərə:

1) nəqliyyat vasitəsini onun texniki xarakteristikası üzrə müəyyən edilmiş maksimum sürətdən artıq sürmək;

2) lüzumsuz olaraq həddindən az sürətlə hərəkət etməklə başqa nəqliyyat vasitələri üçün maneə yaratmaq;

3) yol-nəqliyyat hadisəsinin qarşısını almaq üçün lazım olan hallar istisna edilməklə, nəqliyyat vasitəsini sərt tormozlamaq qadağandır.

**Maddə 51. Ötmə və qarşılıqlı keçmə**

I. Ötməyə başlamazdan əvvəl sürücü əmin olmalıdır ki:

1) girmək istədiyi hərəkət zolağı ötmə üçün kifayət edəcək məsafədə boşdur və bu manevr ilə o, qarşıdan gələn və bu zolaqda gedən nəqliyyat vasitələri üçün maneə yaratmayacaq;

2) eyni zolaqda arxasınca gələn nəqliyyat vasitəsi onu ötməyə başlamayıb, özündən qabaqda gedən nəqliyyat vasitəsi isə ötmə, sola dönmə, yerdəyişmə barədə siqnal vermir;

3) qarşıdan gələn nəqliyyat vasitələri üçün təhlükə və ya maneə yaratmadan çıxmaq istədiyi hərəkət zolağı kifayət edən məsafədə boşdur və iki nəqliyyat vasitəsinin nisbi sürəti ötməni kifayət qədər qısa müddətdə başa çatdırmağa imkan verəcəkdir.

II. Eyni istiqamətdə hərəkət üçün iki və daha artıq zolaq olmadığı halda relssiz nəqliyyat vasitəsini yalnız sol tərəfdən ötməyə icazə verilir. Lakin sürücüsü sola dönmə siqnalı verən və manevrə başlayan nəqliyyat vasitəsini sağ tərəfdən ötmək lazımdır.

III. Ötmənin sonunda (sağ tərəfdən ötməyə icazə verilən hallardan başqa) sürücü əvvəl tutduğu hərəkət zolağına qayıtmalıdır. Lakin eyni istiqamətdə hərəkət üçün iki və daha artıq zolaq olduqda, ötən sürücü əgər əvvəl tuttuduğ zolağa qayıdıb dərhal



yenidən ötməyə başlamalı olacaqsa və onun arxasınca daha yüksək sürətlə gələn nəqliyyat vasitələri üçün maneə yaratmayacaqsa, sol zolaqda qala bilər.

IV. Hərəkət sürətini artırmaqla və ya başqa hərəkətlərlə ötən nəqliyyat vasitəsinin sürücüsünə maneçilik törətmək qadağandır.

V. Ötmə:

1) nizamlanan yolayrıclarında -əks istiqamətli hərəkət zolağına keçməklə və nizamlanmayan yolayrıclarında -baş yol olmayan yolla hərəkət etdikdə (hərəkətin dairəvi olduğu yolayrıclarında ötmə, yanqoşqusu olmayan ikitəkərli nəqliyyat vasitələrini ötmə və icazə verilmiş sağdan ötmə istisna edilməklə);

2) piyada keçidlərində-piyadalar olduqda;

3) dəmir yol keçidlərində və onlara 100 metrdən az qaldıqda;

4) ötən və ya yanından keçən nəqliyyat vasitəsini;

5) yoxuşun axırında və yolun məhdudiyyətli görünüşlü digər sahələrində-əks istiqamətli hərəkət zolağına çıxmaqla;

6) tunellərdə qadağandır.

VI. Yaşayış məntəqələrindən kənarda asta gedən və ya iriqabaritli nəqliyyat vasitəsini ötmək çətinləşdikdə, sürücü nəqliyyat vasitəsini mümkün qədər sağa çəkməli, lazım gəldikdə isə, arxasında yığılmış nəqliyyat vasitələrini buraxmalıdır.

VII. Qarşılıqlı keçmə çətinləşən hallarda-hansı sürücü tərəfdə maneə varsa, həmin sürücü yol verməlidir. 1.13 və 1.14 nişanları ilə işarələnmiş yerlərdə maneə olduqda, enişlə aşağı hərəkət edən nəqliyyat vasitəsinin sürücüsü yoxuşla yuxarı gedən nəqliyyat vasitəsinə yol verməlidir.

**Maddə 52. Dayanma və durma**

I. Nizamlama vasitələrində başqa göstəriş nəzərdə tutulmamışdırsa, nəqliyyat vasitələrinin yolun sağ tərəfində-yol çiyinində, yol çiyini olmadıqda isə yolun hərəkət hissəsinin kənarında bir cərgədə dayanmasına və durmasına icazə verilir. Yanqoşqusu olmayan motosikletlər, mopedlər və velosipedlər yolun hərəkət hissəsinin kənarında iki cərgədə dayana və dura bilərlər.

**II.** Yolun sol tərəfində dayanmağa və durmağa yaşayış məntəqələrində ortasından tramvay yolları keçməyən, hər istiqamət üçün bir hərəkət zolağı olan yollarda və birtərəfli hərəkət yollarında (icazə verilən maksimum kütləsi 3,5 tondan çox olan yük avtomobillərinə birtərəfli hərəkt yollarının sol tərəfində dayanmağa yalnız yük götürmək və ya boşaltmaq üçün) icazə verilir. Yolun hərəkət hissəsinə bitişik səkinin kənarında durmağa yalnız minik avtomobillərinə, motosikletlərə, mopedlərə və velosipedlərə bu şərtlə icazə verilir ki, onlar piyadaların hərəkətinə mane olmasın.

**III.** Yaşayış məntəqəsindən kənarda uzunmüddətli dincəlmə, gecələmə və istirahət üçün durmağa yalnız bu məqsədlə düzəldilmiş meydançalarda və ya yoldan kənarda icazə verilir.

**IV.** Aşağıdakı yerlərdə:

**1)** tramvay yollarında, habelə tramvay yollarının bilavasitə yaxınlığında, əgər bu, tramvayın hərəkətinə maneə yaradarsa;

**2)** dəmir yol keçidlərində, tunellərdə, habelə estakadalarda, körpülərdə (əgər həmin istiqamətdə üçdən az hərəkət zolağı varsa) və onların altında;

**3)** nişanlama xətti (hərəkət hissəsinin kənarını göstərən xətdən başqa) ilə dayanmış nəqliyyat vasitəsi arasında məsafə 3 metrdən az olan yerlərdə;

**4)** piyada keçidlərində və onlara 5 metrdən az yaxınlıqda;

**5)** hərəkət hissəsində təhlükəli döngələrin və yolun uzununa profilinin qabarıq əyintili hissəsinin yaxınlığında hər hansı bir istiqamətdə yolun görünmə sahəsi 100 metrdən az olduqda;

**6)** 1.1-1.4 nişanlama xətti, yaxud ayırıcı zolağı olan üçtərəfli yolayırıclarındakı yan keçidin qarşı tərəfində dayanma halları istisna olmaqla, hərəkət hissələrinin kəsişməsində və kəsişən hərəkət hissəsinin kənarından 5 metrdən az yaxınlıqda;

**7)** dayanacaq meydançasından, meydança olmadıqda isə marşrut nəqliyyat vasitələrinin və ya taksilərin dayanma yeri göstəricisinə (əgər bu, onların hərəkətinə mane olursa) 15 metrdən az yaxınlıqda;



**8)** nəqliyyat vasitəsi svetofor siqnallarının, yol nişanlarının qarşısını tutmaqla başqa sürücülərin bunları görməsinə mane olduğu və ya başqa nəqliyyat vasitələrinin hərəkətini (girmə və ya çıxma) qeyri-mümkün etdiyi, yaxud piyadaların hərəkəti üçün maneə yaratdığı yerlərdə;

**9)** nizamlama vasitələrində başqa göstəriş nəzərdə tutulmamışdırsa — səkilərdə;

**10)** 3.27 yol nişanının təsir zonalarında dayanma qadağandır.

**V.** Nəqliyyat vasitəsini duracağa qoyduqda sürücü mühərriki söndürməli, duracaq tormoz sistemini qoşmalı, təkərləri səkiyə və ya yolun qırağındakı başqa maneəyə tərəf çevirməli və qapıları kilidləməlidir. İcazə verilən maksimum kütləsi 3,5 tondan çox olan nəqliyyat vasitəsini yoxuşda və ya enişdə duracağa qoyduqda, nəqliyyat vasitəsinin öz-özünə hərəkət etməsinə yol verməmək üçün sürücü təkərlərdən heç olmasa birinin altına tıxac qoymalıdır.

**VI.** Nəqliyyat vasitələrinin aşağıdakı yerlərdə durması qadağandır:

**1)** dayanacağın qadağan edildiyi yerlərdə;

**2)** yaşayış məntəqələrindən kənarda-yolların hərəkət hissəsində;

**3)** 5.1 nişanı ilə işarələnmiş yerlərdə;

**4)** dəmir yol keçidlərinə 50 metrdən az yaxınlıqda;

**5)** girişin, habelə darvaza qarşısında;

**6)** 3.28 yol nişanının təsir zonalarında.

**VII.** Dayanacağın qadağan edildiyi yerlərdə məcburi dayandıqda sürücü nəqliyyat vasitəsinin həmin yerlərdən aparılması üçün mümkün olan bütün tədbirləri görməlidir.

**VIII.** Nəqliyyat vasitəsi qapılarının açılması yol hərəkətinin digər iştirakçıları üçün maneə yaradarsa, onları açmaq qadağandır.

**IX.** Nəqliyyat vasitəsinin öz-özünə hərəkətini və ya sürücü olmadıqda ondan istifadəni istisna edən zəruri tədbirləri gördükdən sonra sürücü öz yerini tərk edə və ya nəqliyyat vasitəsini qoyub gedə bilər.

**Maddə 53. Parklanma**

I. Nəqliyyat vasitələrinə xüsusi olaraq ayrılan, nişanlarla və ya nişanlama xətti ilə işarələnən yerlərdə parklanmağa icazə verilir.

II. Yol hərəkətinin təhlükəsizliyini təmin etməyən yerlərdə və yolun hərəkət hissəsində nəqliyyat vasitələrinin parklanması qadağandır.

**Maddə 58. Nizamlayıcının siqnalları**

I. Yollarda, yolayrıclarında və digər yerlərdə yol hərəkəti qaydalarına nəzarəti həyata keçirmək, yol hərəkətinin gərginliyinə yol verməmək və ya onu aradan qaldırmaq üçün nizamlayıcı siqnallarından istifadə olunur (2 saylı Əlavə).

II. Nizamlayıcının siqnallarının aşağıdakı mənaları vardır:

1) bütün nəqliyyat vasitəsi sürücülərinə və piyadalara aid olan siqnallar:

a) «Diqqət, hərəkət dayandırılsın» siqnalı hərəkəti qadağan edir, lakin siqnal verilərkən yolayırıcında olan sürücülərə və piyadalara hərəkətlərini davam etməyə icazə verir;

b) «Müəyyən istiqamət üzrə hərəkət» siqnalı nizamlayıcının sinə və arxa tərəfindən gələn nəqliyyat vasitələrinin və piyadaların hərəkətini qadağan edir, sol və sağ tərəfindən gələn tramvayların düzünə, relssiz nəqliyyat vasitələrinin düzünə və sağa hərəkət etməsinə, sinə və arxa tərəfindən isə piyadalara yolun hərəkət hissəsini keçməyə icazə verir;

v) «Sola dönmə» siqnalı nizamlayıcının sol tərəfindən gələn tramvayların sola dönməsinə, relssiz nəqliyyat vasitələrinə bütün istiqamətlərdə hərəkət etməyə, sinə tərəfindən gələn nəqliyyat vasitələrinə sağa dönməyə, arxa tərəfindən piyadalara hərəkət hissəsini keçməyə icazə verir, sağ və arxa tərəfindən gələn nəqliyyat vasitələrinin hərəkətini isə qadağan edir;

2) konkret nəqliyyat vasitəsi sürücüsünə və piyadaya aid olan siqnallar:



a) «Sürəti azaldın» siqnalı nizamlayıcı əli ilə yuxarı-aşağı hərəkətlər edərsə, hərəkətə icazə verilən istiqamətlərdə sürücüdən öz nəqliyyat vasitəsinin sürətinin azaldılmasını tələb edir;

b) «Sürəti artırın» siqnalı nizamlayıcı əli ilə üfüqi vəziyyətdə (saat əqrəbi istiqamətində) dairəvi hərəkətlər edərsə, hərəkətə icazə verilən istiqamətlərdə sürücüdən öz nəqliyyat vasitələrinin surətini artırmaq, piyadalardan isə yolu keçməsini tezləşdirməyi tələb edir;

v) «Dayanın» siqnalı nizamlayıcı tərəfindən hər hansı nəqliyyat vasitəsinə tərəf yönəldilmişdirsə, onun sürücüsündən öz nəqliyyat vasitəsini yolun hərəkət hissəsinin kənarında dayandırmasını tələb edir.

III. Müstəsna hallarda (yol hərəkətinin təhlükəsizliyini təmin etmək məqsədilə təxirə salınmayan tədbirlərin görülməsi üçün zərurət yaranarsa), nizamlayıcı bu maddənin ikinci hissəsində göstərilən siqnalların mənalarından fərqli olaraq yol hərəkəti iştirakçılarına aydın olan digər siqnalları verə bilər.

IV. Bu maddədə nəzərdə tutulmuş siqnalları verərkən, nizamlayıcı fitdən də istifadə edə bilər.

V. Nizamlayıcı elə yerdə dayanmalı və edə təchiz edilməlidir ki, yol hərəkəti iştirakçıları onun tərəfindən verilən siqnalları sutkanın işıqlı və qaranlıq vaxtı seçə bilsinlər. Bu məqsədlə sutkanın qaranlıq vaxtında nizamlayıcı işıq düşən yerdə dayanmalıdır və ya istifadə edilən jezl işıq saçan və yaxud işıq verən olmalıdır.

**Maddə 59. Svetoforun siqnalları**

I. Yollarda, yolayrıclarında və digər yerlərdə yol hərəkətini nizama salmaq üçün svetoforlardan istifadə olunur. Svetoforların vasitəsi ilə verilən siqnallarda yaşıl, sarı, qırmızı və ağ-sarımtıl rənglər tətbiq edilir (3 saylı Əlavə).

II. Təyinatından asılı olaraq svetofor siqnalları dairəvi formalı, ox (oxlar), piyadanın və ya velosipedin silueti şəklində və X formalı ola bilər. Dairəvi siqnallı svetoforların yaşıl ox (oxlar)

şəklində bir və ya iki əlavə bölməsi ola bilər: həmin bölmələr dairəvi yaşıl siqnalın səviyyəsində yerləşdirilir.

**III.** Svetoforun dairəvi siqnallarının aşağıdakı mənaları vardır:

1) yaşıl rəngli işığın yanması—bu siqnal hərəkətə icazə verir;

2) yaşıl rəngli işığın yanıb-sönməsi—bu siqnal hərəkətə icazə verir və bildirir ki, onun vaxtı qurtarır, tezliklə qadağan siqnalı yanacaq (yaşıl siqnalın sönməsinə qədər qalan müddəti sürücülərə bildirmək üçün rəqəmli tablo tətbiq edilə bilər);

3) sarı rəngli işığın yanması-bu siqnal hərəkəti qadağan və tezliklə siqnalların dəyişəcəyi barədə xəbərdarlıq edir;

4) sarı rəngli işığın yanıb-sönməsi—hərəkətə icazə verir və nizamlanmayan yolayırıcının və ya piyada keçidinin olduğunu bildirir, təhlükə barədə xəbərdarlıq edir;

5) qırmızı rəngli işığın yanması və ya yanıb-sönməsi — bu siqnal hərəkəti qadağan edir;

6) qırmızı və sarı rəngli işıqların eyni vaxtda yanması— bu siqnal hərəkəti qadağan edir və tezliklə yaşıl siqnalın yanacağını bildirir.

**IV.** Svetoforun oxlar şəklində qırmızı, sarı və yaşıl rəngli işıqlarının mənası müvafiq rəngli dairəvi işıqların mənası ilə eynidir, lakin onların qüvvəsi yalnız oxlarla göstərilən istiqamətə (istiqamətlərə) şamil edilir. Həm də sola dönməyə icazə verən ox, müvafiq yol nişanının geriyə dönməyi qadağan etmədiyi hallarda, geriyə dönməyə də icazə verir. Əlavə bölmədəki yaşıl oxun da mənası belədir. Əlavə bölmənin işığının sönməsi bu bölmənin nizamladığı istiqamətdə hərəkətin qadağan edilməsi deməkdir.

**V.** Svetoforun əsas yaşıl işığının üstünə qara konturlu ox (oxlar) çəkilmişsə, bu, sürücülərə svetoforun əlavə bölməsinin olduğunu bildirir və əlavə bölmənin işığında göstəriləndən fərqlənən digər istiqamətlərdə hərəkətə icazə verir.

**VI.** Svetoforun işığı piyada (velosiped) silueti şəklindədirsə, onun qüvvəsi yalnız piyadalara (velosipedçilərə) şamil edilir. Bu zaman yaşıl işıq piyadaların (velosipedçilərin) hərəkətinə icazə



verir, qırmızı işıq isə onların hərəkətini qadağan edir. Velosipedçilərin hərəkətini nizamlamaq üçün həmçinin dairəvi işıqları olan kiçik ölçülü svetoforlardan da istifadə edilə bilər; həmin svetoforlara üzərində qara rəngli velosiped təsviri olan 200x200 mm ölçüdə ağ rəngli düzbucaqlı lövhə əlavə olunur.

**VII.** Kor piyadalara yolun hərəkət hissəsini keçməyin mümkünlüyünü bildirmək üçün svetoforun işıq siqnallarına səs siqnalı da əlavə edilə bilər.

**VIII.** Yolun hərəkət hissəsinin zolaqları ilə, xüsusən hərəkət istiqaməti əks tərəfə dəyişə bilən zolaqları ilə nəqliyyat vasitələrinin hərəkətini nizamlamaq üçün belə yollarda qırmızı rəngli X formalı siqnalı və aşağı yönəldilmiş ox şəkilli yaşıl siqnalı olan qarşılıqlı svetoforlar tətbiq edilir. Bu siqnallar onların altında yerləşən zolaqda hərəkəti müvafiq surətdə qadağan edir və ya ona icazə verir. Qarşılıqlı svetoforun əsas siqnallarına diaqonal üzrə aşağı sağa və ya sola istiqamətləndirilmiş oxşəkilli sarı siqnal əlavə edilə bilər; onun yanması siqnalın dəyişəcəyini və oxun göstərdiyi zolağa keçməyin zəruriliyini bildirir. Hər iki tərəfdən 1.9 nişanlama xətti olan zolağın üzərində asılmış qarşılıqlı svetofor siqnalları yanmadıqda bu zolağa girmək qadağandır.

**IX.** Tramvaylar, habelə digər ümumi istifadədə olan nəqliyyat vasitələri üçün ayrılmış zolaqla hərəkət edən həmin nəqliyyat vasitələrinin hərəkətini nizamlamaq üçün «T» hərfi şəklində yerləşmiş ağ-sarımtıl dörd dairəvi siqnalı olan birrəngli siqnal svetoforları tətbiq edilə bilər. Svetoforun aşağısında yanan siqnalla eyni anda yuxarıda yanan bir və ya bir neçə siqnal — hərəkətə icazə verir. Aşağı siqnalla birlikdə: yuxarıdakı sol siqnal yananda— sola, ortadakı yananda — -düzünə, sağdakı yananda — sağa hərəkət etməyə icazə verir. Əgər yalnız yuxarıdakı üç siqnal yanırsa, hərəkət qadağandır.

**X.** Dəmir yol keçidində yerləşən dairəvi ağ-sarımtıl siqnal nəqliyyat vasitələrinin keçiddən keçib getməsinə icazə verir. Yanıb-sönən ağ-sarımtıl və sönmüş qırmızı siqnal olduqda görmə sahəsi həddində keçidə yaxınlaşan qatarın (lokomotivin, drezinanın) olmadığı halda hərəkətə icazə verir.

**XI.** Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanının* yol hərəkəti təhlükəsizlik komissiyasının qərarı olmadan onların ərazisində yerləşən yollarda svetoforlar qurmaq qadağandır.

**XII.** Yollarda svetoforların qurulması və onların lazımi vəziyyətdə işləməsinə nəzarət Azərbaycan Respublikası müvafiq icra hakimiyyəti orqanı** tərəfindən həyata keçirilir.

**XIII.** Müvafiq qərar olmadan yol nişanlarının qurulması üçün onları quraşdıran şəxslər məsuliyyət daşıyırlar.

## Maddə 60. Svetoforun və nizamlayıcının siqnallarının yerinə yetirilməsi

**I.** Svetoforun və nizamlayıcının siqnallarının yerinə yetirilməsi yol iştirakçıları üçün məcburidir.

**II.** Svetoforun və ya nizamlayıcının qadağanedici siqnalı verildikdə sürücülər nəqliyyat vasitələrini stop-xətt (1.12 yol xətti) qarşısında (əgər bu xətt yoxdursa, piyadaların hərəkətinə maneə törətmədən kəsişən yolun hərəkət hissəsi qarşısında), piyada keçidi qarşısında, digər yolayrıclarında isə svetofor qarşısında dayandırmalıdırlar:

1) yolayrıcında—kəsişən yolun hərəkət hissəsi qarşısında (bu Qanunun 76-cı maddəsinin dördüncü hissəsini nəzərə almaqla);

2) bu Qanunun 44-cü maddəsinin üçüncü hissəsinə uyğun olaraq dəmir yol keçidi qarşısında;

3) başqa yerlərdə—hərəkətinə icazə verilən nəqliyyat vasitələrinə və piyadalara maneə yaratmadan svetofor və ya nizamlayıcı qarşısında.

**III.** Sürücü nəqliyyat vasitəsini nizamlayıcının göstərdiyi yerdə dayandırmalıdır.

---

*** Burada müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərini yerli icra hakimiyyəti orqanları həyata keçirirlər.**

**** Burada müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi həyata keçirir.**



**IV.** Svetoforun sarı işığı yandıqda və ya nizamlayıcı qolunu yuxarı qaldırdıqda nəqliyyat vasitəsini kəskin tormozlamadan bu maddənin ikinci və üçüncü hissələrində müəyyən edilən yerlərdə saxlaya bilməyəcək sürücülərə hərəkəti davam etdirməyə icazə verilir. Siqnal verilərkən yolun hərəkət hissəsində olan piyadalar keçidi boşaltmalı, bu mümükün olmadıqda isə, nəqliyyat vasitələrinin əks istiqamətli hərəkətlərini ayıran xəttin üzərində dayanmalıdırlar.

**V.** Nizamlayıcının siqnalları və göstərişləri svetoforun siqnallarına, yol nişanlarının və nişanlama xətlərinin tələblərinə zidd olduqda belə, sürücülər və piyadalar bu siqnallara və göstərişlərə əməl etməlidirlər.

**VI.** Dəmir yol keçidlərində svetoforun yanıb-sönən qırmızı siqnalı ilə bərabər, keçiddən keçməyin qadağan olunması barədə hərəkət iştirakçılarına əlavə məlumat vermək üçün səs siqnalı da tətbiq oluna bilər.

## Maddə 61. Yol nişanları

**I.** Yollarda yol hərəkətinin qaydaları və şəraiti barədə müəyyən məlumat saxlayan və yol hərəkətini nizamlayan əsas vasitələrdən biri yol nişanlarıdır (4 saylı Əlavə).

**II.** Yol nişanları 7 nişan qrupundan ibarətdir: xəbərdarlıq, üstünlük, qadağan, məcburi hərəkət istiqaməti, məlumatverici-göstərici, servis, əlavə məlumat (lövhəciklər).

**III.** Hər bir yol nişanının öz nömrəsi olur ki, onun birinci rəqəmi qrupun nömrəsinə uyğun olur, sonrakı rəqəmlər qrupda ardıcıl nömrəni və müxtəliflik mövcud olduqda onun ardıcıl nömrəsini əks etdirir.

**IV.** Müxtəlif qruplardan toplanan üstünlük nişanlarından başqa, hər qrup yol nişanlarının özünə məxsus rəngi və forması vardır.

**V.** Yol nişanlarının sutkanın hər bir vaxtı fərqləndirilməsi və oxunması üçün, onlar daxili və xarici işıqlandırılma və ya işıqqaytarıcı səth ilə (nəqliyyat vasitələrinin işıq cihazlarının işığını

əks etdirən xırda şüşə kürəciklərinin əsasında xüsusi nazik pərdə) təchiz edilirlər. Daxildən işıqlandırılmış nişanlar yolun süni işıqlandırılmış yerlərində qurulur. Süni işıqlandırılmamış yollarda işıqqaytarıcı səthli nişanlar tətbiq olunur. İşıqqaytarıcı səthli nişanların 100 metrdən az olmayan məsafədən görünməsi təmin edilərsə, onların stasionar işıqlandırılmış yollarda da qurulmasına yol verilir.

**VI.** Yol nişanlarının yerləşdirilməsi müvəqqəti xarakter daşıyırsa (məsələn, yollarda təmir işləri görülürsə, yolun üstü sürüşkəndirsə və s.) və onların istifadə edilməsinə ehtiyac qalmayıbsa, bu nişanlar təcili çıxarılmalıdırlar.

**VII.** Yolun eyni kəsiyində üçdən artıq yol nişanının qurulmasına icazə verilmir (təkrar olunan nişanlar və əlavə lövhəciklər nəzərə alınmamaqla).Xüsusi qeyd olunmuş hallardan başqa yolun sağ tərəfində bütün yol nişanları qurulur. İki və ya artıq zolaqlarla bir istiqamətdə hərəkəti olan yollarda yol nişanları vaxtlı-vaxtında sürücü tərəfindən çətinliklə qavranılarsa, onlarda olan məlumat nəzərə alınmaqla nişanlar təkrar qurulmalıdırlar. Təkrar nişanlar ayırıcı zolaqlarda, əgər ayırıcı zolaq yoxdursa və əks istiqamətli hərəkət üçün iki hərəkət zolağından artıq hərəkət zolağı nəzərdə tutulmamışdırsa, belə yol nişanları yolun sol tərəfində qurulurlar. Yolun solunda yerləşdirilən yol nişanının görünməsinin təmin olunması mümükün deyilsə və ya əks istiqamətli hərəkət üçün üç və artıq hərəkət zolağı vardırsa, onda yol nişanları yolun hərəkət hissəsinin üstündə qurulurlar.

**VIII.** Yol nişanlarının qavranması üçün münasib şəraitin yaradılmasının təmin olunması məqsədilə, onlar dəqiq müəyyənləşdirilmiş yerdə yolun hərəkət hissəsinə nisbətən yerləşdirilirlər. Yol nişanlarının qurulmasından asılı olaraq, onun alt hissəsindən örtüyə qədər olan məsafə:

**1)** yaşayış məntəqələrindən kənar olan yolların qırağında— 1,5-2,2 metr;

**2)** eyni ilə yaşayış məntəqələrində — 2-4 metr;

**3)** təhlükəsizlik adacıqlarında və yolun hərəkət hissəsində - 0,6 metrdən az olmadan;



**4)** yolun hərəkət hissəsinin üstündə — 5-6 metr təşkil etməlidir.

**IX.** Yolun hərəkət hissəsinin kənarından, yol çiyininin isə torpaq örtüyünün kənarından quraşdırılmış nişana qədər məsafə 0,5-2,2 metr, 5.20.1, 5.21.1-5.27 nişanlarının qırağına qədər olan məsafə isə 0,5-5 metr olmalıdır.

**X.** Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanlarının* yol hərəkəti təhlükəsizlik komissiyasının qərarı olmadan onların ərazisində yerləşən yollarda yol nişanları qurmaq qadağandır.

**XI.** Yollarda yol nişanlarının qurulması və onların lazımi vəziyyətdə saxlanılmasına nəzarət Azərbaycan Respublikası müvafiq icra hakimiyyəti orqanı** tərəfindən həyata keçirilir.

**XII.** Müvafiq qərar olmadan yol nişanlarının qurulması üçün onları quraşdıran şəxslər məsuliyyət daşıyırlar.

### Maddə 69. Yolun nişanlanması

**I.** Yolun nişanlanması (5 saylı Əlavə) yol hərəkətinin nizamlanmasının səmərəli vasitələrindən biri olmaqla, nəqliyyat axınının qaydaya salınmasına və yolun buraxılış qabiliyyətinin yüksəldilməsinə xidmət edir.

**II.** Yol nişanlanmasına hərəkət təhlükəsizliyini artırmaq məqsədi ilə yol hərəkəti qaydalarını müəyyənləşdirən, yol qruğularının ölçülərini və ya yolun istiqamətini bildirən, yolun hərəkət hissəsinə, yolun və yol qurğularının digər elementlərinə çəkilən xətlər, yazılar və digər qeydlər aiddir. Yol nişanlanması müstəqil şəkildə, habelə yol nişanları və svetoforlarla birlikdə tətbiq olunur.

---

*** Burada müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərini yerli icra hakimiyyəti orqanları həyata keçirirlər.**

**** Burada müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi həyata keçirir.**

## Maddə 72. Nəqliyyat vasitələrinin tanınma nişanları

Nəqliyyat vasitələrində aşağıdakı tanınma nişanlarından istifadə olunur (7 saylı Əlavə):

**1)** «Avtoqatar» — qoşqulu yük avtomobillərində və təkərli traktorlarda (1,4 ton və daha artıq yük götürən), habelə birləşdirilmiş avtobus və trolleybuslarda -kabinənin damında bir-birindən 150-300 mm aralı, üfüqi yerləşdirilmiş narıncı rəngli üç fənər şəklində;

**2)** «Tikanlı şinlər» — tikanlı şinlər qoyulmuş mexaniki nəqliyyat vasitələrinin arxasında — bərabərtərəfli, ağ rəngli, təpəsi yuxarı yönəldilmiş və qırmızı haşiyəyə alınmış içərisində qara rənglə şin təsviri olan üçbucaq şəklində (üçbucağın tərəfləri azı 200 mm, haşiyənin eni üçbucağın tərəfinin onda biri qədər);

**3)** «Uşaqların daşınması» — avtobusda və ya yük avtomobilinin banında dəstə ilə uşaq apararkən, bu nəqliyyat vasitələrinin qabağında və arxasında — qırmızı haşiyəyə alınmış və içərisində qara rənglə 1.21 yol nişanının simvolu təsvir edilmiş sarı rəngli kvadrat şəklində (kvadratın tərəfləri azı 250 mm, haşiyənin eni kvadratın tərəfinin onda biri qədər);

**4)** «Kar sürücü» — lal-kar və ya kar sürücülərin idarə etdiyi mexaniki nəqliyyat vasitələrinin qabağında və arxasında — diametri 160 mm olan, içərisində təpəsi aşağı yönəldilmiş bərabərtərəfli xəyali üçbucağın künclərində 40 mm diametrli üç qara dairəcik çəkilmiş sarı rəngli dairə şəklində;

**5)** «Əlil» — I və II qrup əlillər üçün xüsusi avadanlıqlar quraşdırılmış, onlar tərəfindən idarə olunan və qeydiyyat şəhadətnaməsində bu barədə müvafiq qeyd olan nəqliyyat vasitələrinin qabaq və arxasında — tərəfləri 150 mm ölçülü, daxilində 7.17 simvolunun qara boya ilə təsviri olan sarı rəngli kvadrat şəklində;

**6)** «Həkim» — sürücü-həkimlərin idarə etdiyi nəqliyyat vasitələrinin qabağında və arxasında — tərəflərinin ölçüsü 140 mm olan, içərisinə ağ dairədə (diametri 125 mm) qızıl xaç (ştrixın hündürlüyü 90 mm, eni 25 mm) təsviri vurulmuş, göy rəngli kvadrat şəklində;



**7)** «Təlim nəqliyyat vasitəsi» — sürücülük öyrətmək üçün istifadə olunan mexaniki nəqliyyat vasitəsinin qabağında və arxasında — bərabərtərəfli, ağ rəngli, təpəsi yuxarı yönəldilmiş və qırmızı haşiyəyə alınmış (üçbucabın tərəfləri azı 200 mm, haşiyənin eni üçbucağın tərəfinin onda biri qədər) və içərisində qara rəngdə «təlim» sözü yazılmış üçbucaq şəklində (minik avtomobilinin damında ikitərəfli nişan qoyulmasına yol verilir);

**8)** «Nəqliyyat vasitəsinin qabaritindən kənara çıxan yük» — 400x400 mm ölçüdə, diaqonal boyu 50 mm enində, növbə ilə qırmızı və ağ zolaqlar çəkilmiş, işıqqaytarıcı səthə malik lövhəcik şəklində;

**9)** «Təhlükəli yük» — belə yüklər daşıyan nəqliyyat vasitələrinin qabağında və arxasında -690x300 mm ölçüdə, onun 400x300 mm ölçüdə sağ hissəsi narıncı, sol hissəsi isə 15 mm enində qara haşiyəyə alınmış ağ rəngdə olan düzbucaq şəklində (nişanda yükün təhlükəli xassələrini xarakterizə edən işarələr çəkilir);

**10)** «Uzunölçülü nəqliyyat vasitəsi» — yüklü və ya yüksüz iki və daha çox qoşqusu olan uzunluğu 24 metrdən artıq olan avtoqatarların arxasında — 40 mm enində qırmızı haşiyəsi olan sarı rəngli, azı 1200x200 mm ölçülü, işıqqaytarıcı səthə malik düzbucaq şəklində (göstərilən ölçüdə nişanı yerləşdirmək mümkün olmadıqda, azı 600x200 mm ölçüdə iki eyni nişanı nəqliyyat vasitəsinin oxuna simmetrik yerləşdirməyə yol verilir) tanınma nişanları quraşdırılır;

**11)** «Qəza dayanacağı» — yolun hərəkət hissəsində nəqliyyat vasitəsi məcburi dayandığı hallarda quraşdırılır;

**12)** «AZ» fərqlənmə nişanı — beynəlxalq yol hərəkətlərində iştirak edən nəqliyyat vasitələrinin Azərbaycan Respublikasına mənsubiyyətini bildirmək məqsədilə quraşdırılır;

**13)** «Təcrübəsiz sürücü» — nəqliyyat vasitəsini idarə edən şəxsin sürücülük vərdişlərinə mükəmməl malik olmadığı barədə yol hərəkətinin başqa iştirakçılarını xəbərdar etmək məqsədilə quraşdırılır.

**Maddə 73. Nəqliyyat vasitəsinin sürücüsü tərəfindən səs siqnalları və xarici işıq cihazlarından istifadə edilməsi**

**I.** Təhlükənin və ya hərəkətdə olan maneələrin aradan qaldırılması məqsədilə nəqliyyat vasitələrinin sürücüləri fara işıqlarından, bu və ya digər istiqamətə dönmə işıq göstəricilərindən, səs siqnallarından və ya əl işarəsindən istifadə edirlər.

**II.** Yuxarıda göstərilən vasitələrlə səs və işıq siqnallarının verilməsi, nəqliyyat vasitələrinin sürücülərini sürəti azaltmaq və yol-nəqliyyat hadisəsinin qarşısını almaq üçün bütün digər zəruri tədbirləri görmək vəzifəsindən azad etmir.

**III.** Sutkanın qaranlıq vaxtı tunellərdə və məhdudiyyətli görünmə şəraitində hərəkətdə olan nəqliyyat vasitələrində və qoşqularda işıq cihazları və işıq siqnalları aşağıdakı qaydada yandırılmalıdır:

**1)** təchizatından asılı olaraq nəqliyyat vasitələrində -faraların yaxın və ya uzaq işıqları və arxa qabarit işıqları;

**2)** qoşqularda-qabarit işıqları.

**IV.** Uzaq işıq yaxın işığa:

**1)** yaşayış məntəqələrində yol kifayət qədər işıqlandırıldıqda və yaşayış məntəqələrindən kənarda, əgər yolun hərəkət hissəsi yol boyu işıqlanmışdırsa və əgər həmin işıqlandırma sürücüyə kifayət qədər məsafədə görmək imkanı verirsə;

**2)** sürücünün gözlərini qamaşdırmamaq məqsədi ilə qarşıdan gələn nəqliyyat vasitəsinə azı 150 metr qalmışsa;

**3)** yol hərəkətinin digər iştirakçılarının gözlərini qamaşdıra bilən hər hansı digər hallarda keçirilməlidir. Gözü qamaşdıqda sürücü qəza işıq siqnalını qoşmalı və hərəkət zolağını dəyişmədən sürəti azaltmaqla nəqliyyat vasitəsini dayandırmalıdır;

**4)** irəlidə hərəkət edən nəqliyyat vasitəsindən yaxın məsafədə hərəkət etdikdə, ötməzdən əvvəl qısa müddətə faraların uzaq işığını yandırmaqla xəbərdarlıq işıq siqnalı verməl olar.

**V.** Faranın yaxın işıqları sutkanın işıqlı vaxtında:

**1)** motosiklet, moped;



**2)** uşaq dəstələri daşıyan avtobus və mikroavtobus;

**3)** mütəşəkkil nəqliyyat dəstəsində hərəkət edən nəqliyyat vasitələri;

**4)** digər nəqliyyat vasitələrini yedəyə alan nəqliyyat vasitələri;

**5)** təhlükəli, ağır çəkili və iri qabaritli yük daşıyan nəqliyyat vasitələri;

**6)** xüsusi olaraq ayrılmış zolaqla nəqliyyat vasitələrinin axınına qarşı hərəkət edən ümumi istifadədə olan nəqliyyat vasitələrinin sürücüləri tərəfindən isə, hərəkət edən nəqliyyat vasitəsini göstərmək məqsədilə duman faraları da yandırılmalıdır.

**Qeyd:** Duman faralarından aşağıdakı hallarda istifadə oluna bilər: 1) məhdud görünmə şəraitində-həm ayrıca, həm də faranın yaxın və ya uzaq işıqları ilə birlikdə; 2) sutkanın qaranlıq vaxtı yolun işıqlandırılmamış sahələrində–faraların yaxın və ya uzaq işıqları ilə birlikdə.

**VI.** Sutkanın qaranlıq vaxtı yolun işıqlandırılmayan sahəsində, habelə məhdudiyyətli görünmə şəraitində dayanarkən və durarkən nəqliyyat vasitəsində və avtoqatarda qabarit və ya dayanacaq işıqları yandırılmalıdır. Əgər qabarit işıqları nasazdırsa, nəqliyyat vasitəsi yoldan kənara çıxarılmalı, bu mümkün olmadıqda isə o, qəza siqnalı və sıradan çıxmış nəqliyyat vasitələri və onların yedəyə alınması işarəsi ilə nişanlanmalıdır.

**VII.** Qatı duman şəraitində, güclü qar və yağış yağanda, yaxud buna uyğun digər şəraitdə, həmçinin faranın yaxın işıqları və ya duman faraları və ya dumana qarşı fənərlər yandırıla bilər.

**Qeyd:** Yuxarıda göstərilən hallar istisna olmaqla, nəqliyyat vasitələri işıq və səs siqnalları söndürülmüş vəziyyətdə aşağıdakı hallarda duracaqda dayana bilər: 1) işıqlandırılmış yollarda nəqliyyat vasitəsi kifayət qədər məsafədən aydın göründükdə; 2) yolun hərəkət hissəsinin kənarından aralı saxlandıqda; 3) akkumulyatorla təchiz olunmamış motosikletlər yaşayış məntəqəsində yolun hərəkət hissəsinin qırağında saxlandıqda; 4) yaşayış məntəqələrində hərəkət gərginliyi az olan küçələrdə.

**VIII.** Projektor-faradan və axtarıcı-faradan yalnız yaşayış məntəqələrindən kənarda, qarşıdan nəqliyyat vasitələri gəlmədikdə istifadə etməyə icazə verilir. Yaşayış məntəqələrində belə faralardan yalnız operativ və xüsusi xidmət nəqliyyat vasitələrinin sürücüləri xidməti tapşırığı yerinə yetirərkən istifadə edə bilərlər.

**IX.** Arxa duman fənərlərindən yalnız məhdudiyyətli görünmə şəraitində istifadə edilə bilər. Arxa duman fənərlərini stop-siqnallara qoşmaq qadağandır.

**X.** «Avtoqatar» tanınma nişanlı avtoqatar hərəkət edərkən, sutkanın qaranlıq vaxtı isə, həm də məhdud görünmə şəraitində, bundan əlavə, dayandığı və ya durduğu müddətdə yanmalıdır.

**XI.** Səs siqnallarından yalnız aşağıdakı hallarda istifadə oluna bilər:

1) yaşayış məntəqələrindən kənarda ötmə niyyəti haqqında başqa sürücüləri xəbərdar etmək üçün zəruri olan hallarda;

2) yol-nəqliyyat hadisəsinin qarşısını almaq üçün.

**XII.** Ötmə barədə xəbərdarlıq etmək üçün səs siqnalı əvəzinə (və ya onunla birlikdə) işıq siqnalı verilə bilər. Bu işıq siqnalı sutkanın işıqlı vaxtı-faraların işıqlarını qısamüddətli yandırıb-söndürməkdən, sutkanın qaranlıq vaxtı isə faraların yaxın işığını dəfələrlə uzaq işığa keçirməkdən ibarətdir.

### Maddə 74. Xüsusi siqnalların tətbiqi

**I.** Üstün keçid hüququ olan nəqliyyat vasitəsinin sürücüsü yol hərəkətinin digər iştirakçıları üçün təhlükəli vəziyyət yaratmamaq şərtilə bu Qanunun tələblərindən kənara çıxa bilər. Hər bir vəziyyətdə o, nizamlayıcının siqnallarına tabe olmalıdır. Üstün keçid hüququ olan operativ nəqliyyat vasitələrinin xüsusi səs siqnalı və sayrışan işıq siqnalı olmalıdır.

**II.** Hərəkətin başqa iştirakçıları qarşısında üstünlük almaq üçün belə nəqliyyat vasitələrinin sürücüləri sayrışan işıq və xüsusi səs siqnalını qoşmalıdırlar. Həmin sürücülər, onlara yol verildiyini yəqin etdikdən sonra üstünlükdən istifadə edə bilərlər.



**III.** Üstün keçid hüququ olan, qırmızı və ya göy sayrışan işıq və xüsusi səs siqnalı ilə işarə verən nəqliyyat vasitəsi yaxınlaşdıqda, hərəkətin digər iştirakçıları yolun hərəkət hissəsini boşaldaraq idarə etdikləri nəqliyyat vasitəsini dayandırmalıdırlar.

**IV.** Dövlət standartları ilə müəyyən edilmiş rəng qrafikası sxemlərindən və rənglərin birləşdirilməsindən, habelə gücü dəyişən işıqlardan və avazı dəyişən çoxavazlı siqnallardan digər nəqliyyat vasitələrinin istifadə etməsi qadağandır.

**V.** Narıncı və ya sarı rəngli sayrışan işıq siqnalları quraşdırılmış xüsusi nəqliyyat vasitələrinin sürücüləri yolda tikinti, təmir və ya təmizlik işləri görərkən hərəkət təhlükəsizliyini təmin etmək şərtilə, yol nişanlarının və nişanlama xətlərinin tələblərindən kənara çıxa bilərlər. Başqa sürücülər onların işinə maneəçilik törətməməlidirlər. Narıncı və ya sarı rəngli işartılı məşəl, hərəkət zamanı üstünlük vermir və hərəkətin digər iştirakçılarını təhlükə barədə xəbərdar etməyə xidmət edir.

**VI.** Xüsusi səs və işıq siqnlalları quraşdırılmış nəqliyyat vasitələri Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanlarında* xüsusi qeydiyyatdan keçməlidirlər. Belə səs və işıq siqnallarının quraşdırılmasına bu Qanunda nəzərdə tutulmuş hallarda icazə verilir.

**VII.** Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanının* icazəsi olmadan, xüsusi çoxavazlı səs və sayrışan işıq siqnalları ilə və ya sürəti ölçməyə maneəçilik törədən, yaxud ölçmə cihazlarının işinə mane olan antiradar və digər texniki vasitələrlə və yaxud operativ xidmətlərin nəqliyyat vasitələri üçün müəyyən edilmiş rənglənmə sxemləri ilə təchiz olunmuş nəqliyyat vasitələrinin sahibləri Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

*** Burada müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi həyata keçirir.**

## Maddə 79. Nəqliyyat vasitəsini idarə edən şəxs tərəfindən yol hərəkəti qaydalarının pozuntuları

Nəqliyyat vasitəsini idarə edən şəxs tərəfindən törədilən və inzibati və mülki məsuliyyətə səbəb olan pozuntular aşağıdakılardır:

**1)** yolda müəyyən edilmiş hərəkət sürətinin 10-30 km/saat həddində aşılması; bu maddənin 2-ci bəndində göstərilən hallar istisna olmaqla, yol nişanlarının və yolların hərəkət hissəsinin işarələrinin tələblərinə riayət edilməməsi; nəqliyyat vasitəsinin yolların hərəkət hissələrində yerləşdirilməsi və ya piyada keçidlərinin keçilməsi, habelə dayanma, durma, yedəyə alma, yük daşıma, işıq cihazlarından, səs siqnallarından, təhlükəsizlik kəmərlərindən və motodəbilqələrdən istifadə qaydalarının pozulması;

**2)** svetoforun və ya nizamlayıcının qadağanedici işarəsi verilərkən hərəkətin davam etdirilməsi; 3.1 «Giriş qadağandır», 3.2 «Hərəkət qadağandır» yol nişanları tələblərinin və ya sərnişin daşıma qaydalarının pozulması; xüsusi səs, qırmızı və ya göy sayrışan işıq siqnalı verən, keçid üstünlüyü hüququna malik olan nəqliyyat vasitələrinə yol verilməməsi;

**3)** yolda müəyyən edilmiş hərəkət sürəti həddinin 30 km/saat və artıq aşılması; dəmir yol keçidlərinin keçilmə qaydalarının pozulması; qəza şəraitinin yaradılmasına, yəni hərəkətin başqa iştirakçılarının sürəti və hərəkətin istiqamətini məcburi dəyişməsinə səbəb olan pozuntular törədilməsi; yol hərəkəti təhlükəsizliyinə nəzarəti həyata keçirən Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı* əməkdaşının nəqliyyat vasitəsini saxlamaq tələbinin yerinə yetirilməməsi;

**4)** nəqliyyat vasitəsinin alkoqoldan, narkotik vasitələrdən və ya güclü təsir göstərən digər maddələrdən istifadə olunması nəticəsində sərxoş vəziyyətdə idarə edilməsi; nəqliyyat vasitəsində olan sahibi tərəfindən bu nəqliyyat vasitəsini idarə etmək üçün sərxoş vəziyyətdə olan şəxsə verilməsi; sərxoşluq vəziyyətinin yoxlanılması üçün müəyyən edilmiş qaydada müayinədən boyun qaçırılması;

**5)** idarə etmə hüququ olmadan nəqliyyat vasitəsinin idarə edilməsi: nəqliyyat vasitəsində olan sahibi tərəfindən bu nəqliyyat vasitəsini idarə etmə hüququ olmayan şəxsə idarə etmək üçün verilməsi;

**6)** idarə etmə hüququ olmayan və alkoqoldan, narkotik vasitələrdən və ya güclü təsir göstərən digər maddələrdən istifadə olunması nəticəsində sərxoş vəziyyətdə olan şəxs tərəfindən nəqliyyat vasitəsinin idarə edilməsi;

**7)** bu maddənin 5-ci və 6-cı bəndlərində nəzərdə tutulan pozuntuların bir il ərzində təkrar törədilməsi;

**8)** bu maddənin 1-ci-6-cı bəndlərində nəzərdə tutulan pozuntular nəticəsində zərər çəkən şəxsə maddi ziyan vurulması və ya onun bədəninə yüngül xəsarət yetirilməsi.

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 263-267-ci maddələrində nəzərdə tutulan əməllərin törədilməsi cinayət məsuliyyətinə səbəb olur.

---

* **Burada müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi həyata keçirir.**



## Maddə 80. Piyadalar və yol hərəkətinin başqa iştirakçıları tərəfindən yol hərəkəti qaydalarının pozuntuları

**I.** Piyadalar tərəfindən törədilən və məsuliyyətə səbəb olan pozuntular aşağıdakılardır:

**1)** yolun hərəkət hissəsinə çıxdıqda piyada svetoforlarına və nizamlayıcının işarələrinə riayət edilməməsi;

**2)** yolun hərəkət hissəsinin, dəmir yol keçidinin müəyyən olunmayan yerdən keçilməsi;

**3)** yolda yaxınlaşmaqda olan nəqliyyat vasitələrinin qarşısına qəflətən çıxılması;

**4)** qırmızı və ya göy sayrışan işıq və ya xüsusi səs siqnalı qoşulmuş nəqliyyat vasitəsi yaxınlaşan zaman yolun hərəkət hissəsinin tərk edilməməsi.

**II.** Yol hərəkətində iştirak edən nəqliyyat vasitəsinə minmə və düşmə qaydalarının sərnişin tərəfindən pozulması məsuliyyətə səbəb olan pozuntudur.

**III.** Velosipedçilər və moped idarə edən şəxslər tərəfindən törədilən və məsuliyyətə səbəb olan pozuntular aşağıdakılardır:

1) svetoforların və nizamlayıcının işarələrinə riayət edilməməsi;

2) sərnişin daşınması;

3) idarə etməyə mane olan yükün daşınması;

4) yol nişanlarının və ya yolun hərəkət hissəsinin nişanlanmasının tələblərinin pozulması;

5) yolda sükanı tutmadan idarə edilməsi;

6) piyadaların hərəkəti üçün nəzərdə tutulmuş sahədə onların hərəkətinə bu Qanunun tələblərinə zidd olaraq maneə yaradılması;

7) üstün hərəkət hüququ olan nəqliyyat vasitələrinə yol verilməməsi.

**IV.** At arabalarını (kirşəni) idarə edən və ya mal-qara ötürənlər tərəfindən törədilən və məsuliyyətə səbəb olan pozuntular aşağıdakılardır:

1) mal-qaranın yolda nəzarətsiz qoyulması;

2) mal-qaranın, at arabasının (kirşənin) dəmir yol xətlərinin və ya yolların üstündən nəzərdə tutulmayan yerlərdən, habelə sutkanın qaranlıq vaxtı və ya məhdud görünmə şəraitində keçirilməsi;

3) mal-qaranın asfalt və sement-beton örtüklü yollarda ötürülməsi;

4) işıq əks etdirən qurğularla təchiz edilməmiş at arabalarının (kirşənin) sürülməsi;

5) at arabalarının (kirşəni) idarə edən şəxs tərəfindən svetofor və ya nizamlayıcının işarələrinə, habelə yol nişanları və ya yol nişanlanması tələblərinə riayət edilməməsi.

**V.** Yol hərəkəti iştirakçıları tərəfindən törədilən pozuntulara görə məsuliyyəti ağırlaşdıran hallar aşağıdakılardır:



1) alkoqoldan, narkotik vasitələrdən və ya güclü təsir göstərən digər maddələrdən istifadə edilməsi nəticəsində sərxoş vəziyyətdə bu maddənin birinci–dördüncü hissələrində nəzərdə tutlumş yol hərəkəti qaydalarının pozulması;

2) bu maddənin birinci-dördüncü hissələrində nəzərdə tutulan pozuntular nəticəsində zərər çəkən şəxsə maddi ziyan vurulması və ya onun bədəninə yüngül xəsarət yetirilməsi.

### Maddə 81. Yol hərəkəti qaydalarını pozmağa görə məsuliyyət

Bu Qanunun 79-80-ci maddələrində nəzərdə tutulmuş yol hərəkəti qaydaları pozuntularının törədilməsində təqsirli olan şəxslər Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş hallarda inzibati, cinayət və ya mülki-hüquqi məsuliyyət daşıyırlar.

### Maddə 87. Qanunun qüvvəyə minməsi

**II.** Bu Qanun qüvvəyə mindiyi gündən sükanı sağ tərəfdə olan nəqliyyat vasitələrinin Azərbaycan Respublikasına gətirilməsi və dövlət qeydiyyatından keçirilməsi qadağandır.

«Yol hərəkəti haqqında» Azərbaycan Respublikasının Qanununa **1 saylı Əlavə**

# NƏQLİYYAT VASİTƏLƏRİNİN İSTİSMARININ QADAĞAN EDİLMƏSİNƏ SƏBƏB OLAN NASAZLIQLARIN

## S İ Y A H I S I

### I. Tormoz sistemləri

**1)** Yolda sınaqlar zamanı iş tormoz sistemi aşağıdakı tormozlama səmərəlilik normalarını təmin etmədikdə:

| **Nəqliyyat vasitələrinin növləri** | **Tormoz yolu (m) ən çoxu** | **Müəyyən edilmiş yavaşıma (m/s) ən azı** |
|---|---|---|
| Tək nəqliyyat vasitələri: minik avtomobilləri və onların yükdaşıma üçün modifikasiyaları | 12,2 (14,5) | 6,8 (6,1) |
| İcazə verilən maksimum kütləsi 5 tonadək olan (5 ton da daxil olmaqla) avtobuslar | 13,6 (18,7) | 6,8 (5,5) |
| İcazə verilən maksimum kütləsi 5 tondan çox olan avtobuslar | 16,8 (19,9) | 5,7 (5) |
| İcazə verilən maksimum kütləsi 3,5 tonadək olan (3,5 ton da daxil olmaqla) yük avtomobilləri | 15,1 (19) | 5,7 (5,4) |
| İcazə verilən maksimum kütləsi 3,5 tonadan 12 tonadək olan (12 ton da daxil olmaqla) yük avtomobilləri | 17,3 (18,4) | 5,7 (5,7) |
| İcazə verilən maksimum kütləsi 12 tondan çox olan yük avtomobilləri | 16 (17,7) | 6,2 (6,1) |



| **Nəqliyyat vasitələrinin növləri** | **Tormoz yolu (m) ən çoxu** | **Müəyyən edilmiş yavaşıma (m/s) ən azı** |
|---|---|---|
| İkitəkərli motosikletlər və mopedlər Yarımqoşqulu motosikletlər | 7,5 (7,5)<br>8,2 (8,2) | 5,5 (5,5)<br>5 (5) |
| Minik avtomobillərinin və onların yükdaşıma üçün modifikasiyalarının yedəyə aldığı avtomobil qatarları | 13,5 (14,5) | 5,9 (6,1) |
| İcazə verilən maksimum kütləsi 5 tonadək olan (5 ton da daxil olmaqla) avtobusların yedəyə aldığı avtoqatarları | 15,2 (18,7) | 5,7 (5,5) |
| İcazə verilən maksimum kütləsi 5 tondan çox olan avtobusların yedəyə aldığı avtoqatarları | 18,4 (19,9) | 5,5 (5) |
| İcazə verilən maksimum kütləsi 3,5 tonadək olan (3,5 ton da daxil olmaqla) yük avtomobillərinin yedəyə aldığı avtoqatarları | 17,7 (22,7) | 4,6 (4,7) |
| İcazə verilən maksimum kütləsi 3,5 tondan 12 tonadək olan (12 ton da daxil olmaqla) yük avtomobillərinin yedəyə aldığı avtoqatarları | 18,8 (22,1) | 5,5 (4,9) |
| İcazə verilən maksimum kütləsi 12 tondan çox yük avtomobillərinin yedəyə aldığı avtoqatarları | 18,4 (21,9) | 5,5 (5) |

**Qeyd: 1)** İş tormoz sisteminin sınağı sement və ya asfalt-beton örtüklü hamar yolun quru üfüqi sahəsində və tormozlanmanın başlanğıc sürəti avtomobillər, avtobuslar və avtoqatarlar üçün saatda 40 kilometr, motosiklet və mopedlər üçün isə saatda 30 kilometr olan halda aparılır; nəqliyyat vasitələrini təchiz edilmiş vəziyyətdə, sürücünün iştirakı ilə, idarəetmə orqanına iş tormoz sisteminin birdəfəlik təsiri yolu ilə sınayırlar; 2)Nəqliyyat

vasitələrinin iş tormoz sisteminin səmərəliliyi dövlət standartlarına uyğun olaraq başqa göstəricilərə görə də qiymətləndirilə bilər.

2) Hidravlik tormoz ötürücüsünün hermetikliyi pozulduqda.

3) Pnevmatik və pnevmohidravlik tormoz ötürücülərində hevmetikliyin pozulması mühərrik işləməyərkən tormoz sistemini idarəetmə orqanları tam qoşulmuş halda olduqda — 15 dəqiqə ərzində havanın təzyiqinin 0,05 MPa (0,5 kq–q/sm?) aşağı düşməsinə səbəb olursa.

4) Pnevmatik və ya pnevmohidravlik tormoz ötürücülərinin manometri işləmədikdə.

5) Duracaq tormoz sistemi aşağıdakı nəqliyyat vasitələrinin tərpənməz vəziyyətini təmin etmədikdə:

tam yüklü nəqliyyat vasitələrinin — 16 dərəcədən az olmayan enişdə;

təchiz olunmuş vəziyyətdə minik avtomobillərinin və avtobusların — 23 dərəcədən az olmayan enişdə;

təchiz olunmuş vəziyyətdə yük avtomobillərinin və avtomobil qatarlarının — 31 dərəcədən az olmayan enişdə istismarı qadağan edilir.

**II. Sükan idarə mexanizmi**

1) Sükan idarə mexanizmində lüftün cəmi aşağıdakı son hədd qiymətlərindən çox olduqda:

| Nəqliyyat vasitəsinin növü | Cəmi lüftün son hədd qiymətləri (dərəcə ilə), ən çoxu |
|---|---|
| Minik avtomobilləri və onların bazasında yaradılmış yük avtomobilləri və avtobuslar | 10 |
| Avtobuslar | 20 |
| Yük daşıyan avtomobillər | 25 |



2) Detal və qovşaqların konstruksiyada nəzərdə tutulmayan yerdəyişməsinə yol verildikdə; yivli birləşmələr müəyyənləşdirilmiş üsulla burulub bağlanmadıqda və ya bərkidilmədikdə.

3) Konstruksiyada nəzərdə tutulmuş sükan idarə gücləndiricisi və ya sükan dempferi (motosikletlər üçün) nasaz olduqda və ya ümumiyyətlə olmadıqda istismarı qadağan edilir.

**III. Xarici işıq cihazları**

1) Xarici işıq cihazlarının miqdarı, tipi, rəngi, yerləşməsi və iş rejimi nəqliyyat vasitəsi konstruksiyasının tələblərinə uyğun olmadıqda.

**Qeyd:** İstehsaldan çıxarılmış nəqliyyat vasitələrində başqa marka və model-dən olan nəqliyyat vasitələrinin xarici işıq cihazlarının qurulmasına yol verilir.

2) Faraların nizamlanması dövlət standartlarının tələblərinə uyğun olmadıqda.

3) Xarici işıq cihazları və işıqqaytarıcılar müəyyənləşdirilmiş rejimdə işləmədikdə və ya çirklənmiş olduqda.

4) İşıq cihazlarında işıqyayıcılar olmadıqda və ya həmin işıq cihazının tipinə uyğun olmayan yayıcılardan istifadə edildikdə.

5) Sayrışan işıqlar standartın tələblərinə uyğun qurulmadıqda.

6) Geriyə hərəkət fənərləri və dövlət qeydiyyat nişanının, işıqqaytarıcı qeydiyyat, fərqləndirici və tanınma nişanlarının işıqlandırılması istisna edilməklə, nəqliyyat vasitəsinin qabağında qırmızı rəngli. arxasında isə ağ rəngli işıq cihazları və ya işıqqaytarıcılar qurulduqda nasazlıq aradan qaldırılır.

**IV. Qabaq şüşənin şüşə silgəcləri və şüşəyuyanları**

1) Şüşə silgəcləri müəyyən edilmiş rejimdə işləmədikdə.

2) Nəqliyyat vasitəsinin konstruksiyasında nəzərdə tutulmuş şüşəyuyanlar işləmədikdə nasazlıq aradan qaldırılır.

**V. Təkərlər və şinlər**

1) Minik avtomobilləri şinlərinin protektorundakı naxışların qalmış hündürlüyü 1,6 mm-dən, yük avtomobillərində — 1 mm-dən, avtobuslarda — 2mm-dən, motosiklet və mopedlərdə — 0,8 mm-dən az olduqda.

**Qeyd:** Qoşqular üçün şinlərin protektorundakı naxışların qalmış hündürlüyü normaları yedəkçi nəqliyyat vasitələrinin şinləri üçün olan normalarda müəyyən edilir.

2) Şinlərdə kordun çılpaqlaşması, habelə karkasın təbəqələrə ayrılması, protektorun və şinin yan rezininin qopması kimi yerli zədələr (yarıq, kəsik, qırıq) olduqda.

3) Bərkitmə boltu olmadıqda və ya təkərlərin diskində və çənbərlərində çatlar olduqda.

4) Şinlər ölçüsünə və ya yükgötürmə qabiliyyətinə görə nəqliyyat vasitəsinin modelinə uyğun gəlmədikdə.

5) Avtobusun, minik avtomobilinin və ya onun qoşqusunun bir oxuna radial şinlə birlikdə diaqonal şin və ya protektoru müxtəlif naxışlı şinlər geydirildikdə.

Yük daşıyan avtomobilin və ya onun qoşqusunun bir oxuna radial şinlə birlikdə diaqonal şin və ya protektoru müxtəlif naxışlı şinlər geydirildikdə nasazlıq aradan qaldırılır.

**VI. Mühərrik**

1) İşlənmiş qazlarda zərərli maddələrin miqdarı və onların tüstülənməsi dövlət standartlarında müəyyən edilmiş kəmiyyətlərdən çox olduqda.

2) Yanacaq sisteminin hermetikliyi pozulduqda.

3) İşlənmiş qazları xaricetmə sistemi saz olmadıqda nasazlıq aradan qaldırılır.

**VII. Konstruksiyanın digər ünsürləri**

1) Nəqliyyat vasitəsinin konstruksiyasında nəzərdə tutulmuş arxanı göstərən güzgü, şüşə olmadıqda.

2) Səs siqnalı işləmədikdə.

3) Sürücünün görünüş dairəsini məhdudlaşdıran, şüşənin şəffaflığını korlayan, yol hərəkəti iştirakçılarını zədələmək təhlükəsi yaradan əlavə əşyalar qoyulduqda və ya şüşələrə hər hansı formada və ölçüdə örtüklər (pərdə və plyonka) çəkildikdə.

**Qeyd:** Avtomobillərin və avtobusların qabaq şüşəsinin yuxarı hissəsində rəngli, şəffaf plyonka bərkidilə bilər. İşığı buraxması dövlət standartlarının tələb-lərinə uyğun olan, sənaye üsulu ilə hazırlanan rəngli şüşələrin (güzgü-şüşələrdən başqa) tətbiqinə icazə verilir. Hər iki tərəfdə arxanı göstərən xarici güzgülər olduqda avtobusun pəncərələrindən pərdə asmağa, eləcə də minik avtomobillərinin arxa şüşələrində sənaye üsulu ilə hazırlanan jalüz asmağa yol verilir.

4) Konstruksiyada nəzərdə tutulmuş kuzov və ya kabinə qapılarının qıfılları, yük platforması bortlarının cəftələri sistern boğazının və yanacaq bakı tıxaclarının cəftələri, sürücünün oturacağının vəziyyətini nizamlayan mexanizm, qəza çıxış yerləri və onların hərəkətə gətirən qurğular, qapıları idarə edən ötürücü, spidometr, taxoqraf, ilin mövsümi şəraitlərindən asılı olaraq şüşəqızdıran və havaüfürən işləmədikdə.

5) Konstruksiyada nəzərdə tutulmuş arxa mühafizə qurğusu, palçıqdan qoruyan fartuklar və brızqoviklər olmadıqda.

6) Yedəkçinin və qoşquların ilişmə-dartı və ilişmə-dayaq qurğuları nasaz olduqda, habelə onların konstruksiyalarında nəzərdə tutulmuş sığorta trosları (zəncirlər) olmadıqda və ya nasaz olduqda. Motosikletin çərçivəsi ilə yanqoşqunun çərçivəsi birləşən yerdə lüft olduqda.

7) Aşağıdakılar olmadıqda:

- avtobusda, minik və yük daşıyan avtomobillərdə, təkərli traktorda — dərman qutusu, odsöndürən, qəza dayanma nişanı (yanıb-sönən qırmızı fənər);
- icazə verilmiş maksimum kütləsi 3,5 tondan çox olan yük avtomobillərində və icazə verilmiş maksimum kütləsi 5 tondan çox olan avtobuslarda — diyirlənməyə qarşı dayaqlar (azı ikisi);
- yanqoşqulu motosikletdə-dərman qutusu, qəza dayanma nişanı (yanıb-sönən qırmızı fənər).

8) Operativ və xüsusi xidmətlərə məxsus olmayan nəqliyyat vasitələrində dövlət standartlarında nəzərdə tutulmuş işartılı mayakcıqlardan, səs çaları növbə ilə dəyişən səs siqnallarından və rəng qrafikası sxemlərindən istifadə olunduqda.

9) təhlükəsizlik kəmərləri nəqliyyat vasitələrinin konstruksiyasında nəzərdə tutulduğu halda belə kəmərlər olmadıqda və ya kəmərlər yararsız olduqda.

**10)** Nəqliyyat vasitəsinin dövlət qeydiyyat nişanının standartın tələblərinə cavab vermədikdə. Dövlət qeydiyyat nişanlarının rəqəmləri və hərfləri yük daşıyan avtomobillərin, qoşquların (minik avtomobillərinin və motosikletlərin qoşqularından başqa) və avtobusların (xüsusi kiçik avtobuslardan başqa) kuzovunun arxa divarında təkrar və rəqəmlərin hündürlüyü ən azı 300 mm, eni azı 120 mm, cizginin qalınlığı 30 mm, hərflərin ölçüsü rəqəmlərin 2/3-si qədər olmadıqda, tramvay və trolleybuslarda müvafiq idarələrin verdikləri dövlət qeydiyyat nişanları yazılmadıqda.

**11)** Motosikletdə konstruksiyada nəzərdə tutulmuş təhlükəsizlik qövsü olmadıqda.

**12)** Motosikletlərin və mopedlərin yəhərində əyləşmiş sərnişin üçün onların konstruksiyasında nəzərdə tutulmuş köndələn əl tutacaqları və ayaqaltılar olmadıqda.

**13)** Tormoz sistemlərinin, sükan idarəsinin, digər qovşaq və aqreqatların müəyyənləşdirilmiş tələblərə uyğun gələn əlavə elementləri konstruksiyada nəzərdə tutulduğu halda qurulmadıqda nasazlıq aradan qaldırılır.



“Yol hərəkəti haqqında” Azərbaycan Respublikasının Qanununa 2 saylı Əlavə

## NİZAMLAYICININ SİQNALLARI




“Yol hərəkəti haqqında” Azərbaycan Respublikasının Qanununa 3 saylı Əlavə

## NƏQLİYYAT SVETOFORLARI



"Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununa 4 saylı Əlavə

# YOL NİŞANLARI

## I. XƏBƏRDARLIQ NİŞANLARI



1.1. Şlaqbaumlu dəmir yol keçidi

1.2. Şlaqbaumsuz dəmir yol keçidi

1.3.1. Birxətli dəmir yol

1.3.2. Çoxxətli dəmir yol

1.4.1. 1.4.2. 1.4.3. Dəmir yol keçidinə yaxınlaşma



1.4.4. 1.4.5. 1.4.6. Dəmir yol keçidinə yaxınlaşma

1.5. Tramvay xətti ilə kəsişməl

1.6. Eyni əhəmiyyətli yolların kəsişməsi

1.7. Dairəvi hərəkətlə kəsişmə

1.8. Svetoforla nizamlama



1.9. Ayrılan körpü

1.10. Sahilboyuna çıxış

1.11.1. 1.11.2. Təhlükəli döngə

1.12.1. 1.12.2. Təhlükəli döngələr



1.13. Sərt eniş

1.14. Sərt yoxuş

1.15. Sürüşkən yol

1.16. Nahamar yol

1.17. Çınqıl sıçrayışı



1.18.1. 1.18.2. 1.18.3. Yolun daralması

1.19. İkitərəfli hərəkət

1.20. Piyada keçidi

1.21. Uşaqlar





1.22. Velosiped zolağı ilə kəsişmə

1.23. Yol işləri

1.24. Mal-qara keçidi

1.25. Vəhşi heyvanlar

1.26. Daş üçqunu

1.27. Yandan əsən külək



1.28. Alçaqdan uçan təyyarələr

1.29. Tunel

1.30. Digər təhlükələr

1.31.1. 1.31.2. 1.31.3. Döngənin istiqaməti

1.32. Qəza

## II. ÜSTÜNLÜK NİŞANLARI



2.1. 2.2. Baş yol

2.3.1. İkinci dərəcəli yolla kəsişmə

2.3.2. İkinci dərəcəli yolun bitişməsi

2.3.3 İkinci dərəcəli yolun bitişməsi




2.4 Yol verin

2.5 Dayanmadan keçmək qadağandır

2.6 Qarşıdan hrəktin üstünlüyü

2.7 Qarşıdan hərəkətə nisbətən üstünlük

## III. QADAĞAN NİŞANLARI



3.1. Giriş qadağandır

3.2. Hərəkət qadağandır

3.3. Mexaniki nəqliyyat vasitələrinin hərəkəti qadağandır

3.4. Yük avtomobillərinin hərəkəti qadağandır

3.5. Motosikletlərin hərəkəti qabağandır



3.6 Traktorların hərəkəti qadağandır

3.7 Qoşqu ilə hərəkət qadağandır

3.8 At-araba ilə hərəkət qadağandır

3.9 Velosipedlə hərəkət qadağandır

3.10 Piyadaların hərəkəti qadağandır




3.11 Kütlənin məhdudlaşdırılması

3.12 Oxa düşən ağırlığın məhdudlaşdırılması

3.13 Hündürlüyün məhdudlaşdırılması

3.14 Enin məhdudlaşdırılması

3.15 Uzunluğun məhdudlaşdırılması

3.16 Minimum ara məsafənin məhdudlaşdırılması




3.17.1 Gömrükxana

3.17.2 Təhlükə

3.18.1 Sağa dönmək qadağandır

3.18.1 Sola dönmək qadağandır

3.19 Geriyə dönmək qadağandır

3.20 Ötmək qadağandır




3.21 Ötməyin qadağan edildiyi zonanın qurtaracağı

3.22 Yük avtomobillərinin ötməsi qadağandır

3.23 Yük avtomobillərinin ötməsi qadağan edilmiş zonanın qurtaracabı

3.24 Maksimum sürətin məhdudlaşdırılması

3.25 Maksimum sürətin məhdudlaşdırıldığı zonanın qurtaracağı

3.26 Səs siqnalı vermək qadağandır



3.27 Dayanmaq qadağandır

3.28 Durmaq qadağandır

3.29 Ayın tək günlərində durmaq qadabandır

3.30 Ayın cüt günlərində durmaq qadabandır

3.31 Bütün məhdudiyyətlər zonasının qurtaracağı






3.32 Ehtiyat üçün ayrılmış duracaq yeri

3.33 Nəqliyyat vasitələrinin kateqoriyalarına uyğun sürətin məhdudlaşdırılması

3.34 Təhlükəli yükü olan nəqliyyat vasitələrinin hərəkəti qadağandır

3.35 Partlayıcı və tezalışan yükü olan nəqliyyat vasitələrinin hərəkəti qadağandır

## IV. MƏCBURİ HƏRƏKƏT İSTİQAMƏT NİŞANLARI



4.1.1 Düzünə hərəkət

4.1.2 Sağa hərəkət

4.1.3 Sola hərəkət

4.1.4 Düzünə və ya sağa hərkət

4.1.5 Düzünə və ya sola hərkət



4.1.6 Sağa və ya sola hərəkət

4.2.1 Manceni sağdan keçmə

4.2.2 Manceni soldan keçmə

4.2.3 Manceni sağdan və ya soldan keçmə

4.3 Dairəvi hərəkət




4.4 Minik avtomobillərinin hərəkəti

4.5 Velosiped zolağı

4.6 Piyada zolağı

4.7 Minimum sürətin məhdudlaşdırılması

4.8 Minimum sürətin məhdudlaşdırıldığı zonanın qurtaracağı



4.9.1 4.9.2 4.9.3

Təhlükəli yükü olan nəqliyyat vasitələrinin hərəkət istiqaməti

# V. MƏLUMATVERİCİ-GÖSTƏRİCİ NİŞANLAR



5.1 Avtomagistral

5.2 Avtomagistralın qurtaracağı

5.3 Avtomobil üçün yol

5.4 Avtomobillə üçün yolun qurtaracağı

5.5 Birtərəfli yol

5.6 Birtərəfli yolun qurtaracağı



5.7.1

5.7.2

Birtərəfli hərəkət yoluna çıxış

5.8.1 Zolaqlarda hərəkət istiqaməti

5.8.2 Zolaqlarda hərəkət istiqamətləri




5.8.3 Zolaqın başlanğıcı

5.8.4

5.8.5

5.8.6 Zolaqın qurtaracağı



5.8.7 Zolaqda hərəkət istiqamətləri

5.8.8

5.9 Marşrut nəqliyyat vasitələri üçün zolaq



5.10.1 Marşrut nəqliyyat vasitələri üçün zolağı olan yol

5.10.2 Marşrut nəqliyyat vasitələri üçün zolağı olan yola çıxış

5.10.3

5.10.4 Marşrut nəqliyyat vasitələri üçün zolağı olan yolun qurtaracağı




5.11.1 Geriyə dönmə yeri

5.11.2 Geriyə dönmə yerinin zonası

5.12 Avtobusun və ya trolleybusun dayanacaq yeri

5.13 Tramvayın dayanacaq yeri

5.14 Minik taksilərinin dayanacaq yeri






5.15 Duracaq yeri

5.16.1

5.16.2 Piyada keçidi

5.17.1

5.17.2 Yeraltı piyada keçidi




5.17.3

5.17.4 Yerüstü piyada keçidi

5.18 Tövsiyyə edilən sürət

5.19.1

5.19.2 Dalan

5.19.3




5.20.1 İstiqamətlərin ilkin göstəricisi




5.20.2 İstiqamətlərin ilkin göstəricisi

5.20.3 Hərəkət sxemi

5.21.1 İstiqamət göstəricisi

5.21.2 İstiqamət göstəricisi




5.22 Yaşayış məntəqəsinin başlanğıcı

5.23 Yaşayış məntəqəsinin qurtaracağı

5.24 Yaşayış məntəqəsinin başlanğıcı

5.25 Yaşayış məntəqəsinin qurtaracağı

5.26 Obyektin adı




5.27 Məsafə göstəricisi

5.28 Kilometr göstəricisi

5.29.1 Marşrut nömrəsi

5.29.2 Marşrut nömrəsi və istiqaməti



7.6.1 7.6.2 7.6.3 7.6.4



7.6.5 7.6.6 7.6.7 7.6.8 7.6.9

Nəqliyyat vasitəsinin duracağa qoyulma üsulu




7.7 İşləməyən mühərriklə durma
7.8 Pullu xidmətlər
7.9 Durma müddətinin məhdudlaşdırılması
7.10 Avtomobillərə baxış çün yer
7.11 İcazə verilən kütlənin məhdudlaşdırılması
7.12 Təhlükəli yol qırağı



7.13 Baş yolun istiqaməti
7.14 Hərəkət zolağı
7.15 Kor piyadalar
7.16 Yaş örtük
7.17 Əlillər
7.18 Əlillərdən başqa
7.19 Faranın yaxın işığı ilə hərəkət

**"Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununa 5 saylı Əlavə**

# YOLLARIN NİŞANLANMASI
## 1. ÜFİQİ NİŞANLAMA

### a) Uzununa






### b) Köndələninə

### v) Digərləri




## 2. ŞAQULİ NİŞANLAMA







1.2
1.2


1.16.2
1.16.3
1.8


1.3
1.5
1.6
1.4
1.1
1.6
1.5
2.4 nişanı


1.9
1.14.3




1.15
1.14.1
1.13
1.10
2.4 nişanı
1.14.2
1.16.1
1.18
1.17


1.11
1.11
1.6
1.5


1.15
1.20
1.13
1.16.3
1.11
1.19
1.5
1.1
1.18
2.4 nişanı
1.15
1.6
1.1
1.7
STOP
1.12
1.21
1.14.1














# YOL İŞLƏRİNDƏ İSTİFADƏ OLUNAN İŞARƏLƏR



1. Görülməli işlərin sahəsinin müəyyənləşdirən lövhə və səyyari konuslar.




2. Nizamlayıcı göstərişləri olan sürətli hərəkət lövhələri.



3. İş sahəsini müəyyənləşdirən qırmızı və ya narıncı rəngli sayrışan işıqlar.



4. Hərəkətin istiqamətini göstərən maneə.



5. Görülən yol işlərindən yan keçməni göstərən maneələr.



6. Yol işləri sahəsinin müəyyən edilməsi üçün bayraqlar.

"Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununa 7 saylı Əlavə

# NƏQLİYYAT VASİTƏLƏRİNİN TANINMA NİŞANLARI



Avtomobil qatarının tanınma nişanı



Tikanlı şinləri olan nəqliyyat vasitəsinin tanınma nişanı



Qrupla uşaq aparan nəqliyyat vasitəsinin tanınma nişanı



Kar və ya lal-kar sürücü tərəfindən idarə edilən avtomobilin tanınma nişanı



Əlil tərəfindən idarə edilən avtomobilin tanınma nişanı



Sürücü-həkim tərəfindən idarə edilən avtomobilin tanınma nişanı




Təlim-nəqliyyat vasitəsi nişanı



Nəqliyyat vasitəsinin qabaritindən kənara çıxan yükün tanınma nişanı



Təhlükəli yük aparan avtomobilin tanınma nişanı




Uzunluğu 24 m-dən artıq olan nəqliyyat vasitələri tərkibinin tanınma nişanı



Qəza dayanacağı nişanı




Azərbaycan Respublikası nəqliyyat vasitələrinin beynəlxalq yol hərəkətlərində fərqlənmə nişanı



Təcrübəsiz sürücü nişanı



# AZƏRBAYCAN RESPUBLİKASININ CİNAYƏT MƏCƏLLƏSİ

*Azərbaycan Respublikasının 1999-cu il 30 dekabr tarixli qanunu ilə təsdiq edilmiş, 2000-ci il sentyabrın 1-dən qüvvəyə minmişdir.*

(ÇIXARIŞ)

**Maddə 42 Cəzanın növləri**
*(çıxarış)*

**42.0.** Cəzanın növləri aşağıdakılardır:
**42.0.1.** cərimə;
**42.0.2.** nəqliyyat vasitəsini idarəetmə hüququndan məhrum etmə;
**42.0.3.** müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə;
**42.0.8.** əmlak müsadirəsi;
**42.0.9.** Azərbaycan Respublikasının hüdudlarından kənara məcburi çıxarma;
**42.0.10.** azadlığın məhdudlaşdırılması;

**Maddə 43. Əsas və əlavə cəzalar**
*(çıxarış)*

**43.2.** Cərimə, müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə cəza növləri həm əsas, həmdə əlavə cəza kimi tətbiq edilir.

**43.3.** Xüsusi və ya hərbi rütbədən, fəxri addan, yaxud dövlət təltifindən məhrum etmə, nəqliyyat vasitələrini idarəetmə hüququndan məhrum etmə, əmlak müsadirəsi və Azərbaycan Respublikasının hüdudlarından kənara məcburi çıxarma cəza növləri yalnız əlavə cəza kimi tətbiq edilir.

**Maddə 44. Cərimə**

*(çıxarış)*

**44.1.** Cərimə bu Məcəllə ilə müəyyən edilmiş hallarda və məbləğdə məhkəmə tərəfindən təyin edilən pul tənbehidir.

**44.4.** Cəriməni ödəməkdən qəsdən boyun qaçıran şəxslərə bu cəza növü ictimai işlər, islah işləri və ya müəyyən müddətə azadlıqdan məhrum etmə ilə əvəz oluna bilər.

**Maddə 45. Nəqliyyat vasitəsini idarəetmə hüququndan məhrum etmə**

Nəqliyyat vasitəsini idarəetmə hüququndan məhrum etmə cəza növü bu Məcəllənin Xüsusi hissəsinin müvafiq maddəsi ilə nəzərdə tutulmuş hallarda, cinayətin xarakteri, təqsirkar şəxsin şəxsiyyəti və cinayətin digər halları nəzərə alınmaqla, bir ildən beş ilədək müddətə təyin edilə bilər.

**Maddə 185. Talama məqsədi olmadan qanunsuz olaraq avtomobil və ya başqa nəqliyyat vasitəsi ələ keçirmə**

**185.1.** Avtomobil və ya başqa nəqliyyat vasitəsini talama məqsədi olmadan qanunsuz ələ keçirmə (qaçırma) —

iki ilədək müddətə islah işləri və ya üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**185.2.** Eyni əməllər:

**185.2.1.** qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədildikdə;

**185.2.2.** təkrar törədildikdə;

**185.2.3.** həyat üçün təhlükəli olmayan zor tətbiq etməklə və ya belə zor tətbiq etmə hədəsi ilə törədildikdə;

**185.2.4.** zərərçəkmiş şəxsə xeyli miqdarda ziyan vurmaqla törədildikdə —



iki ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**185.3.** Bu Məcəllənin 185.1 və ya 185.2-ci maddələrində nəzərdə tutulmuş əməllər;

**185.3.1.** mütəşəkkil dəstə tərəfindən törədildikdə;

**185.3.2.** külli miqdarda ziyan vurmaqla törədildikdə;

**185.3.3.** həyat üçün təhlükəli olan zor tətbiq etməklə və ya belə zor tətbiq etmə hədəsi ilə törədildikdə — beş ildən on ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**Maddə 251. Atmosferi (havanı) çirkləndirmə**

**251.1.** Çirkləndirici maddələrin havaya buraxılması qaydalarının pozulması və ya avadanlıqların, qurğuların və digər obyektlərin istismarı qaydalarının pozulması havanın çirkləndirilməsinə və ya onun təbii xassələrinin başqa cür dəyişilməsinə səbəb olduqda —

şərti maliyyə vahidi məbləğinin beş yüz mislindən min mislinədək miqdarda cərimə və ya üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə və ya bir ilədək müddətə islah işləri və ya altı ayadək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**251.2.** Eyni əməllər insan sağlamlığına zərər vurulmasına səbəb olduqda —

bir ilədək müddətə islah işləri və ya bir ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**251.3.** Eyni əməllər ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə səbəb olduqda —

üç ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**Maddə 263. Yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarını pozma**

**263.1.** Avtomobil, tramvay və ya digər mexaniki nəqliyyat vasitəsini idarə edən şəxs tərəfindən yol hərəkəti və ya nəqliyyat vasitələrinin istismarı qaydalarının pozulması, ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin sağlamlığına az ağır və ya ağır zərər vurulmasına səbəb olduqda —

üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya üç ilədək müddətə nəqliyyat vasitələrini idarə etmək hüququndan məhrum edilməklə eyni müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**263.2.** Eyni əməllər ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə səbəb olduqda —

üç ilədək müddətə nəqliyyat vasitələrini idarə etmək hüququndan məhrum edilməklə iki ildən altı ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**263.3.** Bu Məcəllənin 263.1-ci maddəsində nəzərdə tutulmuş əməllər ehtiyatsızlıqdan iki və daha çox şəxsin ölümünə səbəb olduqda —

beş ilədək müddətə nəqliyyat vasitələrini idarə etmək hüququndan məhrum edilməklə beş ildən on ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**Qeyd:** Bu maddədə «digər mexaniki nəqliyyat vasitəsi» dedikdə trolleybuslar, traktorlar, motosikllər, habelə başqa özüyeriyən maşın və mexanizmlər nəzərdə tutulur.

**Maddə 264. Yol nəqliyyat hadisəsi yerindən qaçma**

Bu Məcəllənin 263-cü maddəsində nəzərdə tutulmuş nəticələrin baş verdiyi hallarda nəqliyyat vasitəsini idarə edən və yol hərəkəti və ya nəqliyyat vasitəsinin istismarı qaydalarını pozan şəxsin yol nəqliyyat hadisəsi yerindən qaçması —

üç ilədək müddətə nəqliyyat vasitələrini idarə etmək hüququndan məhrum edilməklə üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.



**Maddə 265. Nəqliyyat vasitələrini keyfiyyətsiz təmir etmə və ya onları texniki cəhətdən nasaz vəziyyətdə işə buraxma**

**265.1.** Nəqliyyat vasitələrinin və ya nəqliyyat avadanlıqlarının keyfiyyətsiz təmir edilməsi, habelə nəqliyyat vasitələrinin texniki vəziyyətinə cavabdeh olan şəxs tərəfindən texniki cəhətdən nasaz nəqliyyat vasitələrinin istismara buraxılması, ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin sağlamlığına az ağır və ya ağır zərər vurulmasına səbəb olduqda —

şərti maliyyə vahidi məbləğinin yüz mislindən min mislinədək miqdarda cərimə və ya iki ilədək müddətə azadlığın məhdudlaşdırılması ilə və ya bir ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**265.2.** Eyni hərəkətlər ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə səbəb olduqda —

beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**265.3.** Bu Məcəllənin 265.1-ci maddəsində nəzərdə tutulmuş əməllər ehtiyatsızlıqdan iki və ya daha çox şəxsin ölümünə səbəb olduqda —

üç ildən səkkiz ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**Maddə 266. Nəqliyyat vasitələrini və ya yolları yararsız vəziyyətə salma**

**266.1.** Dağıtmaq, zədələmək və ya başqa üsulla yolların, nəqliyyat vasitələrinin və ya nəqliyyat avadanlığının yararsız vəziyyətə salınması ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin sağlamlığına az ağır və ya ağır zərər vurulmasına və ya külli miqdarda ziyan vurulmasına səbəb olduqda —

şərti maliyyə vahidi məbləğinin beş yüz mislindən min mislinədək miqdarda cərimə və ya ikiilədək müddətə islah işləri və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**266.2.** Eyni əməllər ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə səbəb olduqda —

iki ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**266.3.** Bu Məcəllənin 266.1-ci maddəsində nəzərdə tutulmuş əməllər ehtiyatsızlıqdan iki və ya daha çox şəxsin həlak olmasına səbəb olduqda —

üç ildən səkkiz ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

### Maddə 267. Nəqliyyat vasitələrinin təhlükəsiz işləməsini təmin edən qaydaları pozma

**267.1.** Sərnişin, piyada və ya yol hərəkətinin digər iştirakçıları (bu Məcəllənin 263 və 264-cü maddələrində nəzərdə tutulmuş şəxslər istisna olmaqla) tərəfindən yol hərəkəti və ya nəqliyyat vasitələrinin istismarı qaydalarının pozulması, ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin sağlamlığına az ağır və ya ağır zərər vurulmasına səbəb olduqda —

iki ilədək müddətə islah işləri və ya iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya altı ayadək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**267.2.** Eyni əməllər ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə səbəb olduqda —

üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**267.3.** Bu Məcəllənin 267.1-ci maddəsində nəzərədə tutulmuş əməllər ehtiyatsızlıqdan iki və ya daha çox şəxsin həlak olmasına səbəb olduqda —

üç ildən altı ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.



# AZƏRBAYCAN RESPUBLİKASININ İNZİBATİ XƏTALAR MƏCƏLLƏSİ

*Azərbaycan Respublikasının 11 iyul 2000-ci il tarixli qanunu ilə qəbul eldilmişdir, 1 sentyabr 2000-ci il tarixdən qüvvəyə minib.*

(ÇIXARIŞ)

### Maddə 28. Fiziki şəxsin ona verilmiş xüsusi hüququnun məhdudlaşdırılması

*(çıxarış)*

**28.1.** Verilmiş xüsusi hüquqdan istifadə qaydasını kobud şəkildə və ya müntəzəm pozmağa görə fiziki şəxsin həmin hüququ iki aydan iki ilədək müddətə məhdudlaşdırılır.

**28.2.** Nəqliyyat vasitələrini sərxoş halda idarəetmə halları istisna olmaqla, nəqliyyat vasitələrindən əlilliyi ilə əlaqədar istifadə edən şəxslərin nəqliyyat vasitələrini idarəetmə hüququ məhdudlaşdırıla bilməz.

**28.3.** Bu Məcəllənin 151.2-ci, 151.3-cü, 151.4-cü, 155.3-cü və 156-cı maddələrində müəyyən edilmiş balla qiymətləndirilən xətaların yol verilməsinə görə sürücülər bir il ərzində 10 və daha çox bal topladıqda, inzibati cərimə tətbiq edilmədən onların nəqliyyat vasitələrini idarə etmək hüququ məhdudlaşdırılır.

### Maddə 66. Nəqliyyatda sanitariya normalarının və qaydalarının, gigiyena normativlərinin pozulması

Qanunvericiliklə müəyyən edilmiş sanitariya normalarının və qaydalarının, gigiyena normativlərinin nəqliyyatda pozulmasına görə —

fiziki şəxslər şərti maliyyə vahidi məbləğinin beş mislindən on mislinədək miqdarda, vəzifəli şəxslər şərti maliyyə vahidi məbləğinin qırx mislindən altmış mislinədək miqdarda cərimə edilir.

**Maddə 80. Ətraf mühitə tullantılarında müəyyən edilmiş normadan artıq çirkləndirici maddələr olan nəqliyyat vasitələrinin istehsalı, idxalı, istismara buraxılması**

**80.1.** Ətraf mühitə tullantılarında çirkləndirici maddələrin yol verilən hədlərinin və ya səs-küyün və vibrasiyanın yol verilən səviyyələrinin qanunvericilik aktı ilə müəyyən edilən normativlərə və standartlara uyğun olmayan nəqliyyat vasitələrinin istehsalına və ya idxalına görə —

vəzifəli şəxslər şərti maliyyə vahidi məbləğinin yetmiş mislindən doxsan mislinədək miqdarda, hüquqi şəxslər şərti maliyyə vahidi məbləğinin iki yüz əlli mislindən üç yüz mislinədək miqdarda cərimə edilir.

**80.2.** Ətraf mühitə tullantılarında müəyyən edilmiş normadan artıq çirkləndirici maddələr olan nəqliyyat vasitələrinin istismara buraxılmasına görə —

fiziki şəxslər şərti maliyyə vahidi məbləğinin on mislindən iyirmi mislinədək miqdarda, vəzifəli şəxslər şərti maliyyə vahidi məbləğinin əlli mislindən yetmiş mislinədək miqdarda, hüquqi şəxslər şərti maliyyə vahidi məbləğinin yüz əlli mislindən iki yüz mislinədək miqdarda cərimə edilir.

**Maddə 151. Nəqliyyat vasitələrinin sürücüləri tərəfindən yol hərəkəti qaydalarının pozulması**

**151.1.** Yolda müəyyən edilmiş hərəkət sürətinin 10-30 km/saat həddində aşılmasına, yol nişanlarının və yolların hərəkət hissəsinin işarələrinin tələblərinə riayət edilməməsinə, yaxud nəqliyyat vasitəsinin yolların hərəkət hissələrində yerləşdirilməsinə və ya piyada keçidlərinin keçilməsinə, habelə ötmə, manevr etmə, yol ayrıcını keçmə, ara məsafəsi, dayanma və durma, yedəyə alma, yük daşıma, işıq cihazlarından, səs siqnallarından, təhlükəsizlik kəmərlərindən və motodəbilqələrdən istifadə, sürmə təlimi keçmə qaydalarının pozulmasına, nəqliyyat vasitələrindən bayıra hər hansı əşya atmağa görə —



şərti maliyyə vahidi məbləğinin üç mislindən səkkiz mislinədək miqdarda cərimə edilir.

**151.2.** Svetoforun və ya nizamlayıcının qadağanedici işarəsi verilərkən hərəkətin davam etdirilməsinə və yaxud 3.1. «Giriş qadağandır», 3.2 «Hərəkət qadağandır» yol nişanları tələblərinin və ya sərnişin daşıma qaydalarının pozulmasına, həmçinin xüsusi səs, qırmızı və ya göy sayrışan işıq siqnalı verən, keçid üstünlüyü hüququna malik olan nəqliyyat vasitələrinə yol verilməməsinə görə —

şərti maliyyə vahidi məbləğinin beş mislindən on iki mislinədək miqdarda cərimə edilir.

**151.3.** Yolda müəyyən edilmiş hərəkət sürətinin 30 km/saat həddindən artıq aşılmasına, dəmiryol keçidlərinin keçilmə qaydalarının pozulmasına, qəza şəraitinin yaradılmasına, yəni hərəkətin başqa iştirakçılarının sürəti və hərəkətin istiqamətini məcburi dəyişməsinə səbəb olan pozuntular törədilməsinə, yaxud Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı* əməkdaşının nəqliyyat vasitəsini saxlamaq tələbinin yerinə yetirilməməsinə görə —

şərti maliyyə vahidi məbləğinin səkkiz mislindən on beş mislinədək miqdarda cərimə edilir.

**151.4.** Nəqliyyat vasitəsinin alkoqoldan, narkotik vasitələrdən və ya güclü təsir göstərən digər maddələrin istifadə olunması nəticəsində sərxoş vəziyyətdə idarə edilməsinə və ya nəqliyyat vasitəsini idarə etmək üçün ona sahiblik hüququ olan şəxs tərəfindən sərxoş vəziyyətdə olan şəxsə verilməsinə görə —

---

**Burada müvafiq icra hakimiyyəti dedikdə, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi nəzərdə tutulur.**

şərti maliyyə vahidi məbləğinin on iki mislindən iyirmi beş mislinədək miqdarda cərimə edilir.

**151.5.** Bu Məcəllənin 151.2-ci, 151.3-cü, 151.4-cü, 155.3-cü və 156-cı maddələrində nəzərdə tutulmuş xətalar il ərzində inzibati tənbeh almış şəxs tərəfindən təkrar törədilməsinə, yəni 10 və daha çox cərimə balı toplamasına görə —

fiziki şəxslərin nəqliyyat vasitələrini idarə etmək hüququ bir ilədək müddətə məhdudlaşdırılır.

**151.6.** Bu Məcəllənin 151.1-151.4-cü maddələrində nəzərdə tutulmuş xətalar nəticəsində zərər çəkən şəxsin sağlamlığına yüngül bədən xəsarətinin yetirilməsinə görə-

şərti maliyyə vahidi məbləğinin iyirmi beş mislindən qırx mislinədək miqdarda cərimə edilir və ya nəqliyyat vasitələrini idarə etmə hüququ bir ildən iki ilədək müddətə məhdudlaşdırılır.

**151.7.** Bu Məcəllənin 151.1-151.4-cü maddələrində nəzərdə tutulmuş xətalar nəticəsində zərər çəkən şəxsə maddi zərər vurulmasına görə —

şərti maliyyə vahidi məbləğinin iyirmi mislindən otuz beş mislinədək miqdarda cərimə edilir və ya nəqliyyat vasitələrini idarə etmə hüququ bir ildən iki ilədək müddətə məhdudlaşdırılır.

**Qeyd:** Bu Məcəllənin 151.2-ci maddəsində göstərilən qayda pozuntularına yol verilməsi 3 balla, 151.3-cü maddəsində göstərilən qayda pozuntularına yol verilməsi 4 balla, 151.4-cü maddəsində göstərilən qayda pozuntularına yol verilməsi isə 5 balla qiymətləndirilir.

### Maddə 152. Nəqliyyat vasitələrini idarəetmə hüququ olmayan şəxslər tərəfindən nəqliyyat vasitələrinin idarə edilməsi

**152.1.** Nəqliyyat vasitəsini idarə etmə hüququ olmadan nəqliyyat vasitəsinin idarə edilməsinə və ya nəqliyyat vasitəsinə sahiblik hüququ olan şəxs tərəfindən nəqliyyat vasitəsini idarə et-



mək üçün idarə etmə hüququ olmayan şəxsə verilməsinə, yaxud nəqliyyat vasitəsinin vəkalətnamə olmadan (nəqliyyat vasitəsinə sahiblik hüququ olan şəxsin nəqliyyat vasitəsində olması halları istisna olmaqla) idarə edilməsinə görə —

şərti maliyyə vahidi məbləğinin on iki mislindən iyirmi mislinədək miqdarda cərimə edilir.

**152.2.** Nəqliyyat vasitəsini idarə etmə hüququ olmadan alkoqoldan, narkotik vasitələrdən və ya güclü təsir göstərən digər maddələrin istifadə olunmasından sərxoş vəziyyətdə nəqliyyat vasitəsinin idarə edilməsinə görə —

şərti maliyyə vahidi məbləğinin on beş mislindən otuz mislinədək miqdarda cərimə edilir.

**152.3.** Bu Məcəllənin 152.1-ci və 152.2-ci maddələrində nəzərdə tutulmuş xətalar il ərzində inzibati tənbeh almış şəxs tərəfindən təkrar törədilməsinə görə —

şərti maliyyə vahidi məbləğinin iyirmi mislindən otuz beş mislinədək miqdarda cərimə edilir.

**152.4.** Bu Məcəllənin 152.1-ci və 152.2-ci maddələrində nəzərdə tutulmuş xətalar nəticəsində zərər çəkən şəxsin sağlamlığına yüngül bədən xəsarətinin yetirilməsinə görə —

şərti maliyyə vahidi məbləğinin otuz mislindən qırx mislinədək miqdarda cərimə edilir.

**152.5.** Bu Məcəllənin 152.1-ci və 152.2-ci maddələrində nəzərdə tutulmuş xətalar nəticəsində zərər çəkən şəxsə maddi zərər vurulmasına görə —

şərti maliyyə vahidi məbləğinin iyirmi beş mislindən qırx mislinədək miqdarda cərimə edilir.

### Maddə 153. Piyadalar və yol hərəkətinin başqa iştirakçıları tərəfindən yol hərəkəti qaydalarının pozulması

**153.1.** Piyadalar tərəfindən yol hərəkəti qaydalarının pozulmasına, yəni:

**153.1.1.** piyada svetoforlarına və nizamlayıcının işarələrinə riayət edilməməsinə;

**153.1.2.** yolun hərəkət hissəsinin, dəmir yol keçidinin müəyyən olunmayan yerdən keçilməsinə;

**153.1.3.** yolda yaxınlaşmaqda olan nəqliyyat vasitələrinin qarşısına qəflətən çıxılmasına;

**153.1.4.** qırmızı və ya göy sayrışan işıq və xüsusi səs siqnalı qoşulmuş nəqliyyat vasitəsi yaxınlaşan zaman hərəkət hissəsinin tərk edilməməsinə görə —

şərti maliyyə vahidi məbləğinin üç misli miqdarında cərimə edilir.

**153.2.** sərnişinlər tərəfindən nəqliyyat vasitəsinə minmə və düşmə qaydalarının pozulmasına, təhlükəsizlik kəmərinin bağlanılmamasına, motodəbilqənin geyilməməsinə, nəqliyyat vasitəsindən bayıra hər hansı əşya atmağa və ya sürücünü nəqliyyat vasitəsini idarə etməkdən yayındırmağa görə —

şərti maliyyə vahidi məbləğinin üç mislindən beş mislinədək miqdarda cərimə edilir.

**153.3.** Velosipedçilər və moped idarə edən şəxslər tərəfindən yol hərəkəti qaydalarının pozulmasına, yəni:

**153.3.1.** svetoforların və nizamlayıcının işarələrinə riayət edilməməsinə;

**153.3.2.** sərnişin və ya nəqliyyat vasitəsinin idarə edilməsinə mane olan yükün daşınmasına;

**153.3.3.** yol nişanlarının və ya yolun hərəkət hissəsinin nişanlanması tələblərinin pozulmasına;

**153.3.4.** sükanı tutmadan idarə edilməsinə;

**153.3.5.** nasaz, müəyyən olunmuş qaydadad təchiz edilmədən velosipeddən istifadə etməyə;

**153.3.6.** piyadaların hərəkətinə maneə yaradılmasına;

**153.3.7.** üstün hərəkət keçidi olan nəqliyyat vasitələrinə yol verilməməsinə görə —

şərti maliyyə vahidi məbləğinin üç mislindən beş mislinədək miqdarda cərimə edilir.

**153.4.** At arabalarını (kirşəni) idarə edən və mal-qara ötürənlər tərəfindən yol hərəkəti qaydalarının pozulmasına, yəni:



**153.4.1.** mal-qaranın yolda nəzarətsiz qoyulmasına;

**153.4.2.** mal-qaranın asfalt və sement-beton örtüklü yollarda ötürülməsinə;

**153.4.3.** işıq əks etdirən qurğularla təchiz edilməmiş at arabalarının (kirşənin) sürülməsinə;

**153.4.4.** at arabalarını(kirşəni) idarə edərkən svetofor və ya nizamlayıcının işarələrinə, habelə yol nişanları və ya yol nişanlanması tələblərinə riayət edilməməsinə;

**153.4.5.** mal-qaranı və at arabasını (kirşəni) sutkanın qaranlıq vaxtı və ya məhdud görünmə şəraitində dəmir yollarının, yolların bu məqsəd üçün xüsusi olaraq ayrılmayan yerlərindən keçirilməsinə görə —

şərti maliyyə vahidi məbləğinin üç mislindən beş mislinədək miqdarda cərimə edilir.

**153.5.** Bu Məcəllənin 153.1-153.4.5-ci maddələrində nəzərdə tutulmuş xətaların yol hərəkəti iştirakçıları tərəfindən alkoqol, narkotik vasitələr və ya güclü təsir göstərən digər maddələrin istifadə edilməsindən sərxoş vəziyyətdə törədilməsinə görə —

şərti maliyyə vahidi məbləğinin beş mislindən on mislinədək miqdarda cərimə edilir.

**153.6.** Bu Məcəllənin 153.3-153.5-ci maddələrində nəzərdə tutulmuş xətalar nəticəsində zərər çəkən şəxsin sağlamlığına yüngül bədən xəsarətinin yetirilməsinə görə —

şərti maliyyə vahidi məbləğinin iyirmi mislindən iyirmi beş mislinədək miqdarda cərimə edilir.

**153.7.** Bu Məcəllənin 153.3-153.5-ci maddələrində nəzərdə tutulmuş xətalar nəticəsində zərər çəkən şəxsə maddi zərər vurulmasına görə —

şərti maliyyə vahidi məbləğinin on beş mislindən iyirmi beş mislinədək miqdarda cərimə edilir.

**Maddə 154. Nəqliyyat vasitələrinin dövlət qeydiyyatının aparılması, texniki baxışın keçirilməsi, nəqliyyat vasitəsinin sazlığı haqqında sənədin və sürücülük vəsiqəsinin verilməsi qaydalarının pozulması**

**154.1.** Nəqliyyat vasitələrinin sahibləri və ya sürücüləri tərəfindən müəyyən edilmiş qaydada və müddətdə nəqliyyat vasitəsini dövlət qeydiyyatından və texniki baxışdan keçirməməyə və ya dövlət qeydiyyatından keçirilmiş nəqliyyat vasitəsi icarə müqaviləsi, vəkalətnamə və digər əsaslarla başqa şəxsə verildikdə onu təkrar dövlət qeydiyyatından keçirməməyə, yaxud nəqliyyat vasitəsinin geri qaytarılması barədə öhdəçiliyə əməl etməməyə. Eləcə də nəqliyyat vasitəsinin özgəninkiləşdirilməsinin rəsmiləşdirilməsi və ya girov qoyulması qaydalarının pozulmasına görə —

fiziki şəxslər şərti maliyyə vahidi məbləğinin üç mislindən səkkiz mislinədək miqdarda, vəzifəli şəxslər şərti maliyyə vahidi məbləğinin iyirmi mislindən otuz beş mislinədək miqdarda cərimə edilir.

**154.2.** Nəqliyyat vasitəsinin dövlət qeydiyyatının aparılması, nəqliyyat vasitəsinin qeydiyyat şəhadətnaməsinin və ya dövlət qeydiyyat nişanının verilməsi ilə əlaqədar nəqliyyat vasitəsinin sahibindən qanunvericiliklə nəzərdə tutulmayan sənədlərin tələb edilməsinə, nəqliyyat vasitəsinin qeydiyyata alınmasında və ya qeydiyyatdan çıxarılmasında, habelə nəqliyyat vasitələrinə texniki baxışın keçirilməsində və ya texniki sazlığı haqqında sənədin verilməsində süründürməçiliyə yol verilməsinə və ya onların həllindən qanunsuz olaraq imtina edilməsinə, eləcə də texniki sazlığı haqqında verilmiş sənədin və bu sənəddəki məlumatların həqiqətə uyğun olmamasına görə —

şərti maliyyə vahidi məbləğinin əlli mislindən altmış mislinədək miqdarda cərimə edilir.

**154.3.** Sürücülük vəsiqəsinin verilməsi və ya dəyişdirilməsi haqqında ərizəyə baxılmamasına, habelə süründürməçiliyə yol



verilməsinə, eləcə də yol hərəkəti qaydaları üzrə nəzəri və nəqliyyat vasitələrini idarəetmə vərdişləri üzrə təcrübi imtahanlara buraxılmasından əsassız imtina edilməsinə görə —

şərti maliyyə vahidi məbləğinin altmış mislindən yetmiş mislinədək miqdarda cərimə edilir.

**154.4.** Sürücülük vəsiqəsinin qəsdən korlanmasına, yararsız hala salınmasına və ya itirilməsinə görə —

şərti maliyyə vahidi məbləğinin on beş mislindən iyirmi mislinədək miqdarda cərimə edilir.

**Maddə 155. Nəqliyyat vasitələrinin sürücüləri tərəfindən nəqliyyat vasitələrinin istismarı qaydalarının pozulması**

**155.1.** Nəqliyyat vasitələrinin sürücüləri tərəfindən nəqliyyat vasitələrinin istismarı qaydalarının pzulmasına, yəni:

**155.1.1.** nəqliyyat vasitəsini qapıları bağlanmamış vəziyyətdə yerindən tərpətməyə və ya onun hərəkəti zamanı qapıları açmağa;

**155.1.2.** nəqliyyat vasitəsini idarə etməkdən diqqəti yayındıra biləcək söhbətdə iştirak etməyə;

**155.1.3.** nəqliyyat vasitəsinin hərəkəti zamanı sükan arxasında telefonla danışmağa;

**155.1.4.** hərəkət zamanı sükanı əlindən buraxmağa, mühərriki söndürülmüş nəqliyyat vasitəsini ətalətlə idarə etməyə;

**155.1.5.** sü və ya palçığın yolda piyadalara, binalara və nəqliyyat vasitələrinə qəsdən sıçradılmasına;

**155.1.6.** nəqliyyat vasitəsinin təkərlərində və ya banında yol örtüyünü zibilləyən palçıq varsa, yaxud onlardan yanacaq-sürtkü materiallarının, kimyəvi maddələrin, tikinti və digər materialların axması olarsa, onlarla örtüyü təkmilləşdirilmiş yollarda hərəkət etməyə;

**155.1.7.** hərəkətdə olan nəqliyyat vasitəsinin dövlət qeydiyyat nişanının görünməsi üçün onun təmiz saxlanılmamasına;

**155.1.8.** küçəni keçən kor piyadanın işarəsi ilə nəqliyyat vasitəsini dayandırmamasına;

**155.1.9.** yol-nəqliyyat hadisələri nəticəsində və ya nəqliyyat vasitəsinin nasazlığı səbəbindən zədələnmiş nəqliyyat vasitələrinin daşınması üçün və ya təbii fəlakət yerlərinə getmək üçün, yaxud qanunvericilik aktı ilə nəzərdə tutulmuş digər təxirəsalınmaz hallarda yük daşıyan nəqliyyat vasitələrinin Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanının* əməkdaşlarına təqdim edilməməsinə görə —

şərti maliyyə vahidi məbləğinin üç mislindən beş mislinədək miqdarda cərimə edilir.

**155.2.** Nəqliyyat vasitələrinin sürücüləri tərəfindən nəqliyyat vasitələrinin texniki vəziyyətinə dair tələblərin pozulmasına, yəni:

**155.2.1.** tormoz sistemi və ya sükan idarə mexanizmi nasaz olan və ya xarici işıq cihazları və ya qabaq şüşənin şüşə silgəcləri və şüşəyuyanları və ya təkərləri və şinləri və ya mühərriyi, yaxud konstruksiyasının digər ünsürləri nasaz olan və belə nasazlığın aradan qaldırılması mümkün olmayan nəqliyyat vasitəsinin istismarına;

**155.2.2.** normativ tələblər pozulmaqla avadanlığın dəyişdirilməsinə;

**155.2.3.** nəqliyyat vasitəsinin tam kütləsinin və bu kütlənin oxlar üzrə paylanmasının, ağırlıq mərkəzinin, təkər bazasının və ya təkər düsturunun pozulmasına və ya habelə tormoz və sükan idarə sisteminin əvəz olunmasına səbəb olan dəyişikliklər edilməsinə, yaxud tormoz sistemi, sükan idarə mexanizmi nasaz olan nəqliyyat vasitələrinin idarə olunmasına;

**155.2.4.** müvafiq icazə olmadan nəqliyyat vasitələrinin xüsusi səs (çoxavazlı) və ya sayrışan işıq siqnalları ilə və ya sürəti ölçməyə maneçilik törədən, yaxud ölçmə cihazlarının işinə mane olan antiradar və yaxud operativ xidmətlərinin nəqliyyat vasitələri üçün müəyyən edilmiş rəngləmə sxemləri ilə təchiz edilməsinə görə —

şərti maliyyə vahidi məbləğinin üç mislindən səkkiz mislinədək miqdarda cərimə edilir.

**155.3.** Dövlət qeydiyyat nişanları və ya onlardan birinin olmamasına, saxta və ya mövcud standartlara uyğun olmayan dövlət qeydiyyat nişanları ilə nəqliyyat vasitələrini idarə etməyə görə —

şərti maliyyə vahidi məbləğinin on beş mislindən iyirmi mislinədək miqdarda cərimə edilir.

**155.4.** Bu Məcəllənin 155.1.1-155.1.6, 155.1.8, 155.2.1-155.2.3-cü maddələrində nəzərdə tutulmuş xətalar nəticəsində zərər çəkən şəxsin sağlamlığına yüngül bədən xəsarətinin yetirilməsinə görə —

şərti maliyyə vahidi məbləğinin on mislindən on beş mislinədək miqdarda cərimə edilir və ya nəqliyyat vasitələrini idarə etmə hüququ bir ildən iki ilədək müddətə məhdudlaşdırılır.

**155.5.** Bu Məcəllənin 155.1.1-155.1.6, 155.1.8, 155.2.1-155.2.3-cü maddələrində nəzərdə tutulmuş xətalar nəticəsində zərər çəkən şəxsə maddi zərər vurulmasına görə —

şərti maliyyə vahidi məbləğinin on mislindən on beş mislinədək miqdarda cərimə edilir və ya nəqliyyat vasitələrini idarə etmə hüququ bir ildən iki ilədək müddətə məhdudlaşdırılır.

**Qeyd:** Bu Məcəllənin 155.3-cü maddəsində nəzərdə tutulmuş xətalar 4 balla qiymətləndirilir.

### Maddə 156. Sərxoşluq vəziyyətinin yoxlanılması üçün nəqliyyat vasitəsini idarə edən şəxsin müayinədən boyun qaçırması

Qanunvericiliklə müəyyən edilmiş qaydada sərxoşluq vəziyyətinin yoxlanılması üçün nəqliyyat vasitəsini idarə edən şəxsin müayinədən boyun qaçırmasına görə —

şərti maliyyə vahidi məbləğinin on beş mislindən iyirmi beş mislinədək miqdarda cərimə edilir.

---

*** Burada müvafiq icra hakimiyyəti dedikdə, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi nəzərdə tutulur.**

**Qeyd:** Bu maddədə nəzərdə tutulmuş xəta 5 balla qiymətləndirilir.

**Maddə 156.1. Tibbi müayinədən keçməyən sürücülər tərəfindən nəqliyyat vasitələrinin idarə edilməsi**

Qanunvericiliklə müəyyən edilmiş qaydada tibbi müayinədən keçməyən sürücülər tərəfindən nəqliyyat vasitələrinin idarə edilməsinə görə —

şərti maliyyə vahidi məbləğinin on mislindən otuz mislinədək miqdarda cərimə edilir.

**Maddə 157. Nəqliyyat vasitəsi sahibinin öz mülki məsuliyyətini üçüncü şəxs qarşısında sığortalamaması**

Nəqliyyat vasitəsi sahibinin üçüncü şəxs qarşısında öz mülki məsuliyyətini sığortalamadan nəqliyyat vasitəsini idarə etməyə görə —

şərti maliyyə vahidi məbləğinin beş misli miqdarında cərimə edilir.

**Maddə 158. Nəqliyyat vasitələrinin saxlanılması və təmiri qaydalarının pozulması**

**158.1.** Nəqliyyat vasitələrinin icazə verilməyən yerlərdə saxlanılmasına, yaxud parklanma qaydalarının pozulmasına görə —

xəbərdarlıq edilir və ya şərti maliyyə vahidi məbləğinin üç mislindən beş mislinədək miqdarda cərimə edilir.

**158.2.** Nəqliyyat vasitələrinin saxlanca qəbul edilməsi və saxlanılması qaydalarının pozulmasına görə —

vəzifəli şəxslər şərti maliyyə vahidi məbləğinin qırx mislindən altmış mislinədək miqdarda, hüquqi şəxslər şərti maliyyə vahidi məbləğinin yüz mislindən yüz əlli mislinədək miqdarda cərimə edilir.



**158.3.** Banı zədələnmiş nəqliyyat vasitələrinin Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanının* icazəsi olmadan təmirə qəbuluna görə —

şərti maliyyə vahidi məbləğinin otuz mislindən yetmiş mislinədək miqdarda cərimə edilir.

**Maddə 159. Nəqliyyat vasitələri ilə təhlükəli yüklərin daşınması qaydalarının pozulması**

Nəqliyyat vasitələri ilə təhlükəli yüklərin daşınması qaydalarının pozulmasına görə —

fiziki şəxslər şərti maliyyə vahidi məbləğinin on mislindən iyirmi mislinədək miqdarda, vəzifəli şəxslər şərti maliyyə vahidi məbləğinin qırx mislindən altmış mislinədək miqdarda cərimə edilir.

**Maddə 160. Yol hərəkətinin təşkili zamanı yol hərəkətinin təhlükəsizliyinin təmin edilməsi**

Yol hərəkəti təhlükəsizliyi səviyyəsinin azaldılması hesabına yolların buraxılış qabiliyyətinin artırılması məqsədi ilə və ya digər məqsədlərlə yol hərəkətinin təşkilində dəyişikliklərin edilməsinə görə —

vəzifəli şəxslər şərti maliyyə vahidi məbləğinin qırx mislindən altmış mislinədək miqdarda, hüquqi şəxslər şərti maliyyə vahidi məbləğinin yüz mislindən yüz iyirmi mislinədək miqdarda cərimə edilir.

---

**Burada müvafiq icra hakimiyyəti dedikdə, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi nəzərdə tutulur.**

## Maddə 161. Avtomobil yollarının layihələşdirilməsi, tikintisi, yenidən qurulması və təmiri zamanı yol hərəkəti təhlükəsizliyi qaydalarının pozulması

**161.1.** Müvafiq icazə olmadan avtomobil yollarında tikinti, yenidənqurma və ya təmir işlərinin aparılmasına, yaxud avtomobil yollarının layihələşdirilməsi, tikintisi, yenidən qurulması və təmiri zamanı yol hərəkəti təhlükəsizliyinə dair standartlara, qaydalara və normativlərə əməl edilməməsinə və ya yollarda təhlükəsiz hərəkət şəraitinin yaradılmamasına görə —

vəzifəli şəxslər şərti maliyyə vahidi məbləğinin qırx mislindən altmış mislinədək miqdarda, hüquqi şəxslər şərti maliyyə vahidi məbləğinin yüz mislindən yüz əlli mislinədək miqdarda cərimə edilir.

**161.2.** Müvafiq icazə olmadan yol hərəkətini nizamlayan texniki vasitələrin, svetoforların və yol nişanlarının quraşdırılmasına görə —

vəzifəli şəxslər şərti maliyyə vahidi məbləğinin qırx mislindən altmış mislinədək miqdarda, hüquqi şəxslər şərti maliyyə vahidi məbləğinin yüz mislindən yüz əlli mislinədək miqdarda cərimə edilir.

## Maddə 162. Avtomobil yollarının saxlanılması və abadlaşdırılması zamanı yol hərəkəti təhlükəsizliyi qaydalarının pozulması

Avtomobil yollarının saxlanılması və abadlaşdırılması qaydalarının pozulmasına, yaxud avtomobil yollarında təhlükəsiz hərəkət şəraitinin yaradılmamasına görə —

vəzifəli şəxslər şərti maliyyə vahidi məbləğinin otuz mislindən əlli mislinədək miqdarda, hüquqi şəxslər şərti maliyyə vahidi məbləğinin yüz mislindən yüz əlli mislinədək miqdarda cərimə edilir.



## Maddə 163. Avtomobil yollarında və təhkim zolağında yol hərəkətinin təhlükəsizliyinin təmin edilməsi qaydalarının pozulması

**163.0.** Avtomobil yollarında və təhkim zolağında yol hərəkətinin təhlükəsizliyinin pozulmasına, yəni:

**163.0.1.** örtüyü təkmilləşdirilmiş yollarda tırtıllı, yaxud metal tikanlı şinləri olan nəqliyyat vasitələrinin hərəkətinə;

**163.0.2.** yolların və ya yol qurğularının kənar predmetlərlə zibillənməsinə, yaxud tutulmasına, yolda kənd təsərrüfatı məhsullarının qurudulmasına, zibil və qar yığınlarının yaradılmasına;

**163.0.3.** yolların hərəkət hissəsində yanacaq-sürtkü materiallarının, kimyəvi maddələrin, bitumun axmasının mümkünlüyü ilə bağlı işlərin görülməsinə və ya yük vurulub-boşaldılmasına;

**163.0.4.** yollardan qum və çınqıl çıxarılmasına;

**163.0.5.** xüsusi olaraq buna uyğunlaşdırılmamış körpülərin altından taxta-şalban axıdılmasına;

**163.0.6.** mal-qaranın otarılmasına;

**163.0.7.** üzən nəqliyyat vasitələrinin körpü dayaqlarına yan almasına, körpülərin altında qayıq stansiyalarının, digər qurğuların yerləşdirilməsinə;

**163.0.8.** torpaqların şumlanmasına, yaşıllığın qırılmasına;

**163.0.9.** kütləvi istirahət yerlərinin təşkil edilməsinə;

**163.0.10.** kanalizasiya, sənaye və çirkli suların axıdılmasına;

**163.0.11.** yolu və təhkim zolağını zibilləyə bilən materialların və yüklərin müvafiq qaydada qablaşdırılmadan aparılmasına;

**163.0.12.** sərnişin daşımalarının marşrutlarının Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı* ilə razılaşdırılmamasına görə —

vəzifəli şəxslər şərti maliyyə vahidi məbləğinin otuz mislindən əlli mislinədək miqdarda, hüquqi şəxslər şərti maliyyə vahi-

---

**Burada müvafiq icra hakimiyyəti dedikdə, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi nəzərdə tutulur.**

di məbləğinin yüz mislindən yüz əlli mislinədək miqdarda cərimə edilir.

**Maddə 164. Avtomobil yollarında və nəzarət edilən zonalarda yol hərəkəti təhlükəsizliyi qaydalarının pozulması**

**164.0.** Müvafiq icazə olmadan avtomobil yollarında və nəzarət edilən zonalarda yol hərəkəti təhlükəsizliyi qaydalarının pozulmasına, yəni:

**164.0.1.** yolun hərəkət hissəsində və ya səkilərdə materialların yığılması və predmetlərin saxlanılmasına (səkilərdə materialların və ya predmetlərin saxlanılması nəticəsində yaranmış məhdudiyyətlərin piyadaların gediş-gəlişi üçün yolun hərəkət hissəsindən istifadə etməsinə səbəb olmadığı hallar istisna olmaqla);

**164.0.2.** geoloji, axtarış, tikinti, meliorasiya işlərinin aparılmasına, rabitə və elektrik xətlərinin, digər kommunikasiyaların çəkilməsinə;

**164.0.3.** daimi və müvəqqəti giriş-çıxış yerlərinin, başqa yollarla birləşmələrin və kəsişmələrin yaradılmasına;

**164.0.4.** yolların hərəkət hissəsində sədlərin, şlaqbaumların qurulması və nəqliyyat vasitələrinin hərəkətinin başqa üsullarla kəsilməsinə;

**164.0.5.** təhkim zolağında hərəkət təhlükəsizliyinə aid olmayan nişanların və göstəricilərin, reklam lövhələrinin və transparantların qurulmasına;

**164.0.6.** dəmiryol keçidlərinin, bəndlərin, şlüzlərin, nohurların, digər meliorasiya və hidrotexniki qurğuların tikintisinə, yenidən qurulmasına, təmirinə və ləğvinə, çayların və kanalların yatağının dərinləşdirilməsinə;

**164.0.7.** bərk örtüklü yollarda nəqliyyat vasitələrinin zavod sınaqlarının keçirilməsinə;

**164.0.8.** təhkim zolağında nəqliyyat vasitələrinin durması və yuyulması üçün meydançaların, servis obyektlərinin, köşklərin, pavilyonların, digər qurğuların yerləşdirilməsinə və ticarətin aparılmasına;



**164.0.9.** yarışların, məşqlərin və digər idman tədbirlərinin keçirilməsinə;

**164.0.10.** tırtıllı, uzun ölçülü, iri qabaritli, ağır çəkili və ya təhlükəli yükləri daşıyan nəqliyyat vasitələrinin hərəkəti zamanı avtomobil yoluna və yol qurğularına zərər dəyməsinə görə —

fiziki şəxslər şərti maliyyə vahidi məbləğinin on beş mislindən iyirmi mislinədək miqdarda, vəzifəli şəxslər şərti maliyyə vahidi məbləğinin otuz beş mislindən altmış mislinədək miqdarda cərimə edilir.

**Maddə 165. Yol hərəkətinin müvəqqəti məhdudlaşdırılması və ya qadağan edilməsi**

Yol hərəkətinin müvəqqəti məhdudlaşdırılması və ya qadağan edilməsi haqqında qəbul edilmiş qərarla müəyyənləşdirilmiş göstərişləri və ya qadağan edilməsi müddətlərini pozmağa və ya özbaşına yol hərəkətini müvəqqəti məhdudlaşdırmağa və ya qadağan etməyə görə —

fiziki şəxslər şərti maliyyə vahidi məbləğinin on mislindən on beş mislinədək miqdarda, vəzifəli şəxslər şərti maliyyə vahidi məbləğinin əlli mislindən yetmiş mislinədək miqdarda, hüquqi şəxslər şərti maliyyə vahidi məbləğinin yüz mislindən yüz əlli mislinədək miqdarda cərimə edilir.

**Maddə 166. Yol hərəkəti təhlükəsizliyinin tibbi təminatı qaydalarının pozulması**

**166.1.** Xüsusi komplektləşdirilmiş dərman qutuları ilə təchiz olunmayan nəqliyyat vasitələrini idarə etməyə görə —

şərti maliyyə vahidi məbləğinin üç mislindən beş mislinədək miqdarda cərimə edilir.

**166.2.** Təcili tibbi yardıma ehtiyacı olan şəxsləri daşımamağa, yaxud təcili tibbi yardım göstərmək üçün eyni səmtə gedən səhiyyə işçilərinə nəqliyyat vasitələri təqdim etməməyə görə —

şərti maliyyə vahidi məbləğinin on mislindən on beş mislinədək miqdarda cərimə edilir.

166.3. Nəqliyyat vasitələri sürücülərinin icbari qaydada tibbi müayinədən, təkrar müayinədən, həmçinin reys qabağı, reysdən sonra cari tibbi müayinədən keçmələrini təşkil etməməyə görə-vəzifəli şəxslər şərti maliyyə vahidi məbləğinin qırx mislindən əlli mislinədək miqdarda, hüquqi şəxslər şərti maliyyə vahidi məbğəlinin yüz əlli mislindən iki yüz mislinədək miqdarda cərimə edilir.

**Maddə 403. Nəqliyyat vasitəsinə baxış**

**403.1.** Nəqliyyat vasitəsinə baxış, yəni onun konstruktiv bütövlüyünü pozmadan inzibati xətanın törədilməsində alət və ya inzibati xətanın bilavasitə obyekti olmuş predmetlərin müəyyən edilməsi məqsədilə aparılan müayinədir.

**403.2.** Nəqliyyat vasitəsinə baxış nəqliyyat vasitəsi sahibinin və iki hal şahidinin iştirakı ilə aparılır. Təxirə salınmayan hallarda nəqliyyat vasitəsinə baxış nəqliyyat vasitəsinin sahibinin iştirakı olmadan da aparıla bilər.

**403.3.** Zəruri hallarda maddi sübutların qeydə alınması məqsədilə fotoşəkillərin, videoyazıların aparılması tətbiq edilir.

**403.4.** Nəqliyyat vasitəsinə baxış haqqında protokol tərtib olunur.

**403.5.** Nəqliyyat vasitəsinə baxış haqqında protokolda aşağıdakılar göstərilir:

**403.5.1.** protokolun tərtib edildiyi tarix və yer;

**403.5.2.** protokolu tərtib edən şəxsin vəzifəsi, soyadı, adı, atasının adı;

**403.5.3.** nəqliyyat vasitəsinin sahibi barəsində məlumatlar;

**403.5.4.** nəqliyyat vasitəsinə baxış keçirilməsi üçün əsaslar;

**403.5.5.** nəqliyyat vasitəsinin tipi, markası, modeli, dövlət qeydiyyat nişanı və digər eyniləşdirmə əlamətləri barədə məlumatlar;

**403.5.6.** əşyaların növü;

**403.5.7.** sənədlərin növü və rekvizitləri.



**403.6.** Nəqliyyat vasitəsinə baxış barəsində protokolda fotoşəkillərdən, videoyazıdan istifadə edilməsi barədə qeyd aparılır. Baxış zamanı fotoşəkillərin, videoyazının tətbiq edilməsi ilə əlaqədar əldə edilmiş materiallar müvafiq protokola əlavə olunur.

**403.7.** Nəqliyyat vasitəsinə baxış haqqında protokol onu tərtib etmiş vəzifəli şəxs, barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxs və ya nəqliyyat vasitəsinin sahibi, habelə hal şahidləri tərəfindən imzalanır. Barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxs və ya nəqliyyat vasitəsinin sahibi protokolu imzalamaqdan imtina etdikdə bu barədə protokolda müvafiq qeyd aparılır.

**Maddə 404. Şeylərin və sənədlərin götürülməsi**
*(çıxarış)*

**404.1.** İnzibati xətanın baş verdiyi yerdə və ya fiziki şəxsin şəxsi axtarışı zamanı, yaxud onun əşyalarına və ya nəqliyyat vasitəsinə baxış zamanı aşkar edilmiş və iş üçün sübut əhəmiyyəti olan şeylərin və sənədlərin, inzibati xətanın törədilməsində alət və ya inzibati xətanın bilavasitə obyekti olan predmetin götürülməsi inzibati xəta haqqında iş üzrə icraatı aparan vəzifəli şəxs tərəfindən iki hal şahidinin iştirakı ilə həyata keçirilir.

**404.2.** Sürücü, gəmisürən, pilot tərəfindən nəqliyyat vasitəsini idarəetmə hüququnun məhdudlaşdırılması növündə inzibati tənbehin tətbiq edilməsini nəzərdə tutan xətalar törədildikdə inzibati xəta haqqında iş üzrə qərar çıxarılanadək sürücülük vəsiqəsi, gəmiçinin və ya pilotun şəhadətnaməsi götürülür və həmin şəxslərə nəqliyyat vasitəsini müvəqqəti idarə etmək hüququ verən sənəd verilir. Nəqliyyat vasitəsini idarəetm hüququnun məhdudlaşdırılması haqqında qərar qəbul edildikdə sürücülük vəsiqəsi qaytarılmır. Nəqliyyat vasitəsini idarəetə hüququnun məhdudlaşdırılması haqqında qərardan Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada şikayətin verilməsi üçün nəzərdə tutulmuş müddət qurtaranadək, yaxud şi-

kayət üzrə qərar qəbul edilənədək, nəqliyyat vasitəsini müvəqqəti idarə etmək hüququ verən sənədin qüvvədə olma müddəti uzadılır.

**Maddə 406. Nəqliyyat vasitəsinin idarə olunmasından kənarlaşdırma və sərxoşluq vəziyyətinin müayinəsi**

**406.1.** Fiziki şəxslər aşağıdakı hallarda nəqliyyat vasitəsinin idarə olunmasından kənarlaşdırılır:

**406.1.1.** dayandırılmış nəqliyyat vasitəsini idarə edən şəxsdə və onunla birlikdə gedən sərnişinlərdən hər-hansı birində sürücülük vəsiqəsi və ya nəqliyyat vasitəsinin qeydiyyat şəhadətnaməsi, yaxud həmin nəqliyyat vasitəsini idarə etmək hüququ verən digər əsas olmadıqda;

**406.1.2.** nəqliyyat vasitəsinin dövlət qeydiyyat nişanları və ya onlardan biri yerində olmadıqda, yaxud saxta və ya qeyri-standart olduqda;

**406.1.3.** dayandırılmış nəqliyyat vasitəsinin mühərrik, ban və şassi nömrəsi nəqliyyat vasitəsinin qeydiyyat şəhadətnaməsindəki rəqəmlərə uyğun gəlmədikdə;

**406.1.4.** dayandırılmış nəqliyyat vasitəsi qanunvericiliklə müəyyən edilmiş qaydada qeydiyyatdan keçirilmədikdə;

**406.1.5.** dayandırılmış nəqliyyat vasitəsi alkoqoldan, narkotik vasitələrdən və ya güclü təsir göstərən digər maddələrdən istifadə edilməsi nəticəsində sərxoş vəziyyətdə olmasına güman etməyə kifayət qədər əsas olan şəxs tərəfindən idarə olunduqda və onunla birlikdə gedən sərnişinlərdən birində sürücülük vəsiqəsi olmadıqda.

**406.2.** Nəqliyyat vasitələrini idarə edən şəxslərin sərxoş vəziyyətdə olduqlarını güman etməyə kifayət qədər əsas olduqda, onların sərxoşluq vəziyyətinin müəyyən edilməsi üçün xüsusi texniki vasitələrdən istifadə edilir və ya onlar tibbi müayinəyə göndərilir.



**406.3.** Nəqliyyat vasitəsini idarə etməkdən kənarlaşdırma və sərxoşluq vəziyyətini müəyyən etmək üçün xüsusi texniki vasitələrdən istifadə etmək və ya tibbi müayinəyə göndərmək barədə protokol tərtib olunur və həmin sənədin surəti barəsində belə tədbir tətbiq edilən şəxsə verilir.

**406.4.** Nəqliyyat vasitəsini idarə etməkdən kənarlaşdırma və sərxoşluq vəziyyətini müəyyən etmək üçün xüsusi texniki vasitələrdən istifadə etmək və ya tibbi müayinəyə göndərmək haqqında protokolda aşağıdakılar göstərilir:

**406.4.1.** protokolun tərtib edildiyi yer, tarix və vaxt;

**406.4.2.** protokolu tərtib edən şəxsin vəzifəsi, soyadı, adı, atasının adı;

**406.4.3.** nəqliyyat vasitəsini idarə etməkdən kənarlaşdırmanın və sərxoşluq vəziyyətini müəyyən etmənin əsasları;

**406.4.4.** nəqliyyat vasitəsini idarə edən şəxs barəsində məlumatlar;

**406.4.5.** nəqliyyat vasitəsinin tipi, markası, modeli, dövlət qeydiyyat nişanı və digər eyniləşdirmə əlamətləri barədə məlumatlar.

**406.5.** Nəqliyyat vasitəsini idarə etməkdən kənarlaşdırma və sərxoşluq vəziyyətini müəyyən etmək üçün xüsusi texniki vasitələrdən istifadə etmək və ya tibbi müayinəyə göndərmək haqqında protokol onu tərtib etmiş vəzifəli şəxs, habelə nəqliyyat vasitəsini idarə etməkdən kənarlaşdırılan və sərxoşluq vəziyyətini müəyyən etmək üçün barəsində xüsusi texniki vasitələrdən istifadə edilən və ya tibbi müayinəyə göndərilən sürücü (gəmi sürücüsü) tərəfindən imzalanır. Sürücü (gəmi sürücüsü) protokolu imzalamaqdan imtina etdikdə bu barədə protokolda müvafiq qeyd aparılır.

**406.6.** Sərxoşluq vəziyyətini müəyyən etmənin tibbi müayinəsi və onun nəticəsinin tərtib olunması Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanının* müəyyən etdiyi qaydada həyata keçirilir.

---

**Burada müvafiq icra hakimiyyəti dedikdə, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi nəzərdə tutulur.**

**406.7.** Sərxoşluq vəziyyətini müəyyən etmənin tibbi müayinəsi barədə akt müvafiq protokola əlavə olunur.

**Maddə 407. Nəqliyyat vasitələrinin saxlanılması**

**407.1.** Bu Məcəllənin 406.1-ci maddəsində göstərilən, yaxud nəqliyyat vasitəsinin qanunvericiliklə müəyyən edilmiş dayanma və durma qaydalarının pozulduğu hallarda nəqliyyat vasitələri müvəqqəti olaraq Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanının* mühafizə olunan duracağında saxlanılır.

**407.2.** Üç saat ərzində nəqliyyat vasitəsinin saxlanılması səbəbini yerində aradan qaldırmaq mümükün olduqda, nəqliyyat vasitəsi onu yol hərəkətində iştirakdan kənarlaşdırmış Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanının əməkdaşının yanında saxlanılır. Belə səbəb aradan qaldırıldığı barədə lazımi sənədlər təqdim edildikdən və ya mübahisəli hallar araşdırıldıqdan və ya xətaya görə inzibati tənbeh verildikdən dərhal sonra saxlanılmış nəqliyyat vasitəsi onun sahibinə qaytarılır.

**407.3.** Üç saat ərzində nəqliyyat vasitəsinin saxlanılması səbəbini yerində aradan qaldırmaq mümkün olmadıqda, nəqliyyat vasitəsi Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanının* mühafizə olunan duracağına gətirilir. Nəqliyyat vasitəsinin saxlanılması səbəbinin aradan qaldırılması barədə lazımi sənədlər təqdim edildikdən və ya xətaya görə inzibati tənbeh verildikdən, nəqliyyat vasitəsinin duracağa gətirilməsi və onun orada saxlanılması üçün haqq ödənildikdən dərhal sonra, saxlanılmış nəqliyyat vasitəsi sahibinə qaytarılır.

**407.4.** Nəqliyyat vasitəsinin saxlanılması iki nüsxədə olan aktla rəsmiləşdirilir, onun birinci nüsxəsi inzibati xəta haqqında protokola əlavə edilir, surəti isə nəqliyyat vasitəsini idarə edən şəxsə verilir.

---

**Burada müvafiq icra hakimiyyəti dedikdə, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi nəzərdə tutulur.**



**Maddə 408. Nəqliyyat vasitələrinin istismarının qadağan edilməsi**

Tormoz sistemi və ya sükan idarə mexanizmi nasaz olan və ya xarici işıq cihazları və ya qabaq şüşənin şüşə silgəcləri və şüşəyuyanları və ya təkərləri və şinləri, yaxud konstruksiyasının digər ünsürləri nasaz olan və belə nasazlığın aradan qaldırılması mümkün olmayan nəqliyyat vasitəsinin istismarı Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı* tərəfindən qadağan edilir.

**Maddə 455. Fiziki şəxsin ona verilmiş xüsusi hüququnun məhdudlaşdırılması haqqında qərarın icrası**

*(çıxarış)*

**455.1.** Nəqliyyat vasitəsini idarə etmə hüquüqunun məhdudlaşdırılması haqqında qərar sürücülük vəsiqəsi alınmaq yolu ilə icra edilir.

**455.2.** Nəqliyyat vasitəsini idarə etmə hüququ məhdudlaşdırılmış şəxs sürücülük vəsiqəsini təhvil verməkdən imtina etdikdə, sürücülük vəsiqəsinin alınması Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı* tərəfindən təmin edilir.

**455.5.** Nəqliyyat vasitələrini idarə etmə hüququnun və ya ov hüququnun müəyyən müddətə məhdudlaşdırılması barədə qərar qəbul etmiş səlahiyyətli vəzifəli şəxs göstərilən hüququn məhdudlaşdırılması müddətini, təyin edilmiş müddətin azı yarısı keçdikdən sonra nəqliyyat vasitələrini idarə etmə hüququ və ya ov hüququ məhdudlaşdırılmış şəxsin işlədiyi və ya oxuduğu müəssisənin, idarənin, təşkilatın vəsatəti ilə azalda bilər.

---

**Burada müvafiq icra hakimiyyəti dedikdə, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi nəzərdə tutulur.**

**Maddə 456. Fiziki şəxsin ona verilmiş xüsusi hüququnun məhdudlaşdırılması müddətlərinin hesablanması**

**456.1.** Fiziki şəxsin ona verilmiş xüsusi hüququnun məhdudlaşdırılması haqqında səlahiyyətli vəzifəli şəxs tərəfindən qərar qəbul edildiyi gündən həmin şəxs xüsusi hüququ məhdudlaşdırılmış hesab olunur.

**456.2.** Xüsusi hüququn məhdudlaşdırılması müddəti qurtardıqda, yaxud həmin müddət bu Məcəllənin 455.5-ci maddəsinə uyğun olaraq azaldıqda, barəsində həmin inzibati tənbeh növü tətbiq edilmiş şəxsdən alınan sənədlər ona qaytarılır.



"Hüquq ədəbiyyatı" nəşriyyatının kompüter mərkəzində
yığılaraq səhifələnmiş, 02.05. 2003-cü il tarixdə
çap edilmişdir. Formatı 84x108 1/16.
Şərti çap vərəqi 16,25. Sifariş 1.
Tirajı 300.

"Hüquq ədəbiyyatı" nəşriyyatı, Bakı şəhəri,
A.Məhərrəmov küç., 4.
**Tel. 31–62–54.**

# QEYD ÜÇÜN